AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
FOLKLOR İNSTİTUTU
------------------------------------------------------------

# AZƏRBAYCAN FOLKLORU ANTOLOGİYASI

## XXIII kitab

### (NAÇIVAN NÜMUNƏLƏRİ)

### 2-ci cild

BAKI – 2011

**Azərbaycan Respublikası MEA**
**Folklor İnstitutu Elmi Şurasının**
**qərarı ilə çap olunur.**

**TOPLAYANI:** **Aytən CƏFƏROVA**

**TƏRTİB EDƏNLƏR:** f.ü.f.d. **Əziz ƏLƏKBƏRLİ,**
**Aytən CƏFƏROVA**

**REDAKTORU:** f. ü.e.d. **Muxtar KAZIMOĞLU**

**RƏYÇİLƏR:** f. ü.e.d., prof. **İsrafil ABBASLI**
f.ü.e.d.,prof.**Məhərrəm CƏFƏRLİ**

**Azərbaycan folkloru antologiyası, XXIII kitab (Naxçıvan folkloru), 2-ci cild,** Bakı, "Nurlan" nəşriyyatı, 2011. -360 səh.

Azərbaycan MEA Folklor İnstitutunun nəşr etdiyi "Azərbaycan folkloru antologiyası" silsiləsindən olan bu cildə qədim Azərbaycan diyarı olan Naxçıvandan toplanmış folklor örnəkləri daxil edilmişdir.

A $\frac{3202050000}{098 - 2011}$ Qrifli nəşr

© Folklor İnstitut, 2011.

# ÇOXCİLDLİ "AZƏRBAYCAN FOLKLORU ANTOLOGİYASI"NIN (AFA) NƏŞR OLUNMUŞ KİTABLARI

**1. AFA, I.** Naxçıvan folkloru, tərtib edənlər: filologiya üzrə fəlsəfə doktoru Təhmasib Fərzəliyev, filologiya üzrə elmlər doktoru Məhərrəm Qasımlı; elmi redaktoru və "Ön söz"ün müəllifi filologiya üzrə elmlər doktoru, professor İsrafil Abbaslı; rəyçilər: AMEA-nın müxbir üzvü, tarix üzrə elmlər doktoru, professor Vəli Əliyev, filologiya üzrə elmlər doktoru Bəhlul Abdulla, Bakı, "Sabah" nəşriyyatı, 1994.

**2. AFA, II.** İraq-Türkman folkloru, tərtibçilər: filologiya üzrə elmlər doktoru, professor Qəzənfər Paşayev, doktor Əbdüllətif Bəndəroğlu; redaktoru: AMEA-nın müxbir üzvü, filologiya üzrə elmlər doktoru, professor Yaşar Qarayev; rəyçilər: AMEA-nın müxbir üzvü, filologiya üzrə elmlər doktoru, professor Azad Nəbiyev, filologiya üzrə elmlər doktoru, professor İsrafil Abbaslı, Bakı, "Ağrıdağ" nəşriyyatı, 1999.

**3. AFA, III.** Göyçə folkloru, toplayıb tərtib edəni filologiya üzrə elmlər doktoru, professor Hüseyn İsmayılov; redaktoru: AMEA-nın müxbir üzvü, filologiya üzrə elmlər doktoru, professor Yaşar Qarayev; rəyçilər: fiollogiya üzrə elmlər doktoru, professor Qara Namazov, filologiya üzrə fəlsəfə doktoru Oruc Əliyev, Bakı, "Səda" nəşriyyatı, 2000.

**4. AFA, IV.** Şəki folkloru, tərtib edənlər: filologiya üzrə fəlsəfə doktoru Oruc Əliyev, Hikmət Əbdülhəlimov, fiollogiya üzrə elmlər doktoru Ramazan Qafarov, filologiya üzrə fəlsəfə doktoru Vaqif Aslan; elmi redaktoru və "Ön söz"ünün müəllifi: AMEA-nın müxbir üzvü, filologiya üzrə elmlər doktoru, pro-

fessor Yaşar Qarayev; rəyçilər: fiollogiya üzrə elmlər doktoru Hüseyn İsmayılov, sənətşünaslıq üzrə fəlsəfə doktoru Faiq Çələbi, Bakı, “Səda“ nəşriyyatı, 2000.

**5. AFA, V.** Qarabağ folkloru, toplayanlar: filologiya üzrə elmlər doktoru, professor İsrafil Abbaslı, filologiya üzrə fəlsəfə doktoru Təhmasib Fərzəliyev, filologiya üzrə fəlsəfə doktoru Nəcəf Nazim (Quliyev); tərtib edəni və “Ön söz“ün müəllifi filologiya üzrə elmlər doktoru, professor İsrafil Abbaslı; redaktorları: AMEA-nın müxbir üzvü, filologiya üzrə elmlər doktoru, professor Yaşar Qarayev, filologiya üzrə elmlər doktoru, professor Hüseyn İsmayılov; rəyçilər: filologiya üzrə elmlər doktoru Bəhlul Abdulla, filologiya üzrə fəlsəfə doktoru Oruc Əliyev, “Bakı“, “Səda“ nəşriyyatı, 2001.

**6. AFA, VI.** Şəki folkloru, tərtib edəni: Hikmət Əbdülhəlimov; elmi redaktoru: AMEA-nın müxbir üzvü, filologiya üzrə elmlər doktoru, professor Yaşar Qarayev, “Ön söz“ün müəllifi sənətşünaslıq üzrə fəlsəfə doktoru Faiq Çələbi; rəyçi: filologiya üzrə elmlər doktoru, professor Hüseyn İsmayılov. Bakı, “Səda“ nəşriyyatı, 2002.

**7. AFA, VII.** Qaraqoyunlu folkloru, tərtib edənlər: filologiya üzrə elmlər doktoru, professor Hüseyn İsmayılov, Qurban Süleymanov; elmi redaktoru: filologiya üzrə elmlər doktoru, professor Qara Namazov; rəyçilər: filologiya üzrə elmləri doktoru, professor İsrafil Abbaslı, filologiya üzrə fəlsəfə doktoru Oruc Əliyev. Bakı, “Səda“ nəşriyyatı, 2002.

**8. AFA, VIII.** Ağbaba folkloru, toplayıb tərtib edənlər: filologiya üzrə elmlər doktoru, professor Hüseyn İsmayılov, filologiya üzrə fəlsəfə doktoru Tacir Qurbanov; redaktoru: filolo-

giya üzrə elmlər doktoru, professor İsrafil Abbaslı; rəyçi: filologiya üzrə fəlsəfə doktoru Əziz Ələkbərli, Bakı, "Səda" nəşriyyatı, 2003.

**9. AFA, IX.** Gəncəbasar folkloru, tərtib edənlər: filologiya üzrə elmlər doktoru, professor Hüseyn İsmayılov, Raziyə Quliyeva; redaktoru: filologiya üzrə elmlər doktoru, professor İsrafil Abbaslı; rəyçilər: filologiya üzrə fəlsəfə doktoru Sərxan Xavəri, filologiya üzrə fəlsəfə doktoru Ağaverdi Xəlil, Bakı, "Səda" nəşriyyatı, 2004.

**10. AFA, X.** İrəvan folkloru, toplayıb tərtib edənlər: filologiya üzrə elmlər doktoru, professor Hüseyn İsmayılov, filologiya üzrə fəlsəfə doktoru Əziz Ələkbərli; redaktoru: filologiya üzrə elmlər doktoru, professor İsrafil Abbaslı; rəyçilər: AMEA-nın müxbir üzvü Teymur Bünyadov, filologiya üzrə elmlər doktoru, professor Qara Namazov, Bakı, "Səda" nəşriyyatı, 2004.

**11. AFA, XI.** Şirvan folkloru, toplayıb tərtib edənlər: filologiya üzrə elmlər doktoru, professor Hüseyn İsmayılov, filologiya üzrə elmlər doktoru, professor Seyfəddin Qəniyev; redaktoru: filologiya üzrə elmlər doktoru, professor Hüseyn İsmayılov; rəyçilər: filologiya üzrə fəlsəfə doktoru Oruc Əliyev, filologiya üzrə fəlsəfə doktoru Ağaverdi Xəlil. Bakı, "Səda" nəşriyyatı, 2005.

**12. AFA, XII.** Zəngəzur folkloru, toplayıcılar: filologiya üzrə elmlər doktoru Vəli Nəbioğlu, filologiya üzrə elmlər doktoru Muxtar Kazımoğlu, filologiya üzrə fəlsəfə doktoru Əfzələddin Əsgər; tərtib edənlər: filologiya üzrə fəlsəfə doktoru Əfzələddin Əsgər, filologiya üzrə elmlər doktoru Muxtar Kazımoğlu; redaktoru: filologiya üzrə elmlər doktoru, professor Hü-

seyn İsmayılov; rəyçilər: filologiya üzrə fəlsəfə doktoru Təhmasib Fərzəliyev, filologiya üzrə fəlsəfə doktoru Oruc Əliyev. Bakı, "Səda" nəşriyyatı, 2005.

**13. AFA, XIII.** Şəki-Zaqatala folkloru, tərtibçilər: filologiya üzrə elmlər doktoru, professor İsrafil Abbaslı, filologiya üzrə fəlsəfə doktoru Oruc Əliyev, filologiya üzrə fəlsəfə doktoru Mətanət Abdullayeva; elmi redaktoru: filologiya üzrə elmlər doktoru, professor Hüseyn İsmayılov; rəyçilər: filologiya üzrə fəlsəfə doktoru Təhmasib Fərzəliyev, filologiya üzrə elmlər doktoru Ramil Əliyev. Bakı, "Səda" nəşriyyatı, 2005.

**14. AFA, XIV.** Dərbənd folkloru, toplayıcılar: filologiya üzrə elmlər doktoru, professor Hüseyn İsmayılov, filologiya üzrə fəlsəfə doktoru Samilə Xurdamiyeva; tərtibçilər: filologiya üzrə elmlər doktoru, professor Hüseyn İsmayılov, filologiya üzrə fəlsəfə doktoru Tahir Orucov; elmi redaktoru: filologiya üzrə elmlər doktoru, professor Hüseyn İsmayılov; rəyçilər: filologiya üzrə fəlsəfə doktoru Sərxan Xavəri, filologiya üzrə fəlsəfə doktoru Ağaverdi Xəlil. Bakı, "Səda" nəşriyyatı, 2006.

**15. AFA, XV.** Dərələyəz folkloru, toplayıb tərtib edənlər: filologiya üzrə elmlər doktoru, professor Həsən Mirzəyev, filologiya üzrə elmlər doktoru, professor Hüseyn İsmayılov, filologiya üzrə fəlsəfə doktoru Əziz Ələkbərli; elmi redaktoru: filologiya üzrə elmlər doktoru, professor Hüseyn İsmayılov; rəyçilər: filologiya üzrə elmlər doktoru, professor İsrafil Abbaslı, filologiya üzrə fəlsəfə doktoru Oruc Əliyev. Bakı, "Səda" nəşriyyatı, 2006.

**16. AFA, XVI.** Ağdaş folkloru, toplayıb tərtib edən: filologiya üzrə fəlsəfə doktoru İlkin Rüstəmzadə; elmi redaktoru: fi-

lologiya üzrə elmlər doktoru, professor Hüseyn İsmayılov; rəyçilər: filologiya üzrə elmlər doktoru Muxtar Kazımoğlu, filologiya üzrə fəlsəfə doktoru Əfzələddin Əsgər. Bakı, "Səda" nəşriyyatı, 2006.

**17. AFA, XVII.** Muğan folkloru, toplayanı: Bilal Hüseynov; tərtib edəni və elmi redaktoru: filologiya üzrə elmlər doktoru, professor Hüseyn İsmayılov; rəyçilər: filologiya üzrə fəlsəfə doktoru Seyfəddin Rzasoy, filologiya üzrə fəlsəfə doktoru Ağaverdi Xəlil. Bakı, "Nurlan" nəşriyyatı, 2008.

**18. AFA, XVIII.** Şəki folkloru, III cild, toplayanı və tərtib edəni: Hikmət Əbdülhəimov; elmi redaktoru: filologiya üzrə elmlər doktoru, professor Hüseyn İsmayılov; rəyçilər: AMEA müxbir üzvü, filologiya üzrə elmlər doktoru, professor Tofiq Hacıyev, filologiya üzrə elmlər doktoru, professor İsrafil Abbaslı. Bakı, "Nurlan" nəşriyyatı, 2009.

**19. AFA, XIX.** Zəngəzur folkloru, II cild, toplayanı filologiya üzrə fəlsəfə doktoru Rəşid Təhməzoğlu; tərtib edəni: filologiya üzrə elmlər doktoru, professor Hüseyn İsmayılov, filologiya üzrə fəlsəfə doktoru Rəşid Təhməzoğlu, filologiya üzrə fəlsəfə doktoru Əziz Ələkbərli; elmi redaktoru: filologiya üzrə elmlər doktoru, professor Hüseyn İsmayılov; rəyçilər: filologiya üzrə elmlər doktoru, professor İsrafil Abbaslı, filologiya üzrə elmlər doktoru, professor Qara Namazov. Bakı, "Nurlan" nəşriyyatı, 2009.

**20. AFA, XX.** Loru-Pəmbək folkloru, toplayıb tərtib edənlər: filologiya üzrə elmlər doktoru, professor Hüseyn İsmayılov, filologiya üzrə fəlsəfə doktoru Əziz Ələkbərli, redaktoru: filologiya üzrə elmlər doktoru, professor İsrafil Abbaslı;

rəyçilər: filologiya üzrə elmlər doktoru, professor Qara Namazov, filologiya üzrə elmlər doktoru, professor Məhərrəm Cəfərli, Bakı, "Nurlan" nəşriyyatı, 2011.

**21. AFA, XX.** Qazax folkloru, toplayanlar: filologiya üzrə elmlər doktoru, professor Mürsəl Həkimov, filologiya üzrə elmlər doktoru, professor Hüseyn İsmayılov, filologiya üzrə elmlər doktoru, professor Rüstəm Rüstəmzadə; tərtib edənlər: filologiya üzrə fəlsəfə doktoru Rza Xəlilov, filologiya üzrə fəlsəfə doktoru Əziz Ələkbərli; redaktoru: filologiya üzrə elmlər doktoru Muxtar Kazımoğlu; rəyçilər: filologiya üzrə fəlsəfə doktoru Oruc Əliyev, filologiya üzrə elmlər doktoru Mahmud Allahmanlı, "Nurlan" nəşriyyatı, 2011.

**22. AFA, XX.** Borçalı-Qarapapaq folkloru, toplayıb tərtib edənlər: filologiya üzrə elmlər doktoru, professor Valeh Hacılı; redaktoru: filologiya üzrə elmlər doktoru, professor Hüseyn İsmayılov; rəyçilər: filologiya üzrə elmlər doktoru, professor İsrafil Abbaslı, filologiya üzrə elmlər doktoru, professor Qara Namazov, filologiya üzrə fəlsəfə doktoru Əziz Ələkbərli, "Nurlan" nəşriyyatı, 2011.

# I. MİFLƏR

Çox əzazil, özündən deyən bir padşah varıymış. Bütün adamlar bunun əlindən zağ-zağ əsirmişlər. Bir adamın hünəri nəyimiş ki, bundan icazəsiz cınqırın çıxartsın. Ta işi o yerə çıxartmışdı ki, özünü Allah elan eləmişdi. Hamı da qorxudan onu Allah sayırdı. Amma bunun uşağı olmurmuş. Bu da fikir eləyirmiş ki, bəs mən öləndən sonra taxt-taca kim sahib olacaq?

Bir gün bunun yanına bir nurani qoca gəlir. Buna bir alma verib deyir ki, ala bunu arvadınla ye, bir oğlun olacaq. Amma gərək oğlan nə desə, ona əməl eləyəsən. Padşah razılaşır. Almanı götürüb, arvadıyla birgə yeyir. Bəli, vədə yetişir, padşahın bir oğlu olur. Tez qurban kəsillər, sonra camaata əhvalatı deyirlər. Uşağın qırxı çıxandan sonra yığışırlar ki, ona ad qoysunlar. Elə bu vaxt uşaq dil açıb deyir ki, bəs mənim adım Uğuzdu. Hamı məəttəl qalır, istəyirlər ki, uşağı danışdırsınlar, amma uşaq daha danışmır. Bunun adını Uğuz qoyurlar. Bir xeyli vaxt keçir, Uğuz on beş yaşına çatır. Bir igid olur ki, tayı-bərabəri tapılmır.

Günlərin bir günü Uğuz camaatı başına yığıb deyir ki, bəs mənim atam Allah deyil, Allah göydədi, özü də heç kimin gözünə görsənməz. Padşah bunu eşidir. Gəlir ki, oğlunu öldürsün. Bunlar müharibə eliyillər. Uğuz atasını öldürür, özü keçir atasının yerinə. Deyir ki, hamı gərək göydəki Allahı tanısın. Bundan sonra insanlar həqiqi Allahı tanıyırlar.

* * *

Bir oğlan dirilik suyu axtarırdı. Getdi bulaq tapdı. Gördü bu bulağın başında bir qoca oturub.

Dedi:

– Qoca, bu nə sudu belə?

Qoca dedi:

– Bu, dirilik suyudu.

Oğlan istədi əyilə dirilik suyundan içə, qoca qoymadı dedi:

– Bala, içmə. Mən içib dadını görmüşəm: yaşım keçib, bütün bədənim çürüyüb əldən gedib, ancaq ölə bilmirəm. Ölüm də bir gözəl şeymiş, bala. Bu sudan içib mənim günümə düşmə.

Oğlan qocanın dediyinə qulaq asdı, dirilik suyundan içmədi.

* * *

Dəryada bir gəmi gedirdi. Tufan qopdu, gəmi dağıldı. Gəmidəkilərin hamısı öldü, amma bir hamilə qadın sağ-salamat qaldı. Qadın iki dənizin ortasında bir quru yerə çıxdı.

Burada bir oğlu oldu. Allah Əzrayıla dedi ki, o arvadın vaxtı tamamdı, get onun canını al.

Əzrayıl gedib arvadın canını aldı.

* * *

Bir aslanın balası ölmüşdü. Allah o aslana əmr elədi ki, aslan gedib iki dənizin arasından uşağı götürdü, çıxartdı qırağa. Uşaq aslanın südünü əmib böyüdü.

Bir çoban vardı, oğul-uşağı olmurdu. Qoyun otardığı yerdə bu oğlanı gördü, onu oğulluğa götürdü. Adını da Məhəmməd qoydu.

Bir gün Əzrayıl boz atın üstündə gedirdi bir adamın canını almağa. Əzrayıl Məhəmmədi görən kimi tanıdı. Bildi ki,

bu oğlan iki dənizin ortasında doğulan oğlandı. Əzrayıl atı verdi Məhəmmədə, dedi:

– Bu atı tut saxla, amma minmə.

Əzrayıl gedəndən sonra oğlan sıçrayıb atın belinə mindi. Gördü dünya bir xəlbir kimi görsənir. Oğlan başa düşdü ki, bu atın yiyəsi Əzrayıldı.

Əzrayıl qayıdıb gəldi. Gördü ki, oğlan atın üstündədir. Oğlana dedi:

– Atdan düş, qardaş olaq.

Məhəmməd atdan düşdü, dedi:

– Qardaş olaq, amma bir şərtim var. Kəlmeyi-şahadətimi axıra qədər deməmiş canımı almayassan.

Əzrayıl razılaşdı.

Vaxt keçdi, dövran dolandı. Bir gün Əzrayıl gəldi ki, bəs Məhəmməd, kəlmeyi-şəhadətini de.

Məhəmməd kəlmeyi-şəhadətin yarısını dedi. Üzünü əzrayıla tutdu ki, bəs qalanını da yüz ildən sonra deyəcəm.

Əzrayıl Məhəmmədin canını ala bilmədi.

Axırı Əzrayıl yekə bir qəbir qazdı. Məhəmməd onun canını aldı.

* * *

Qabaqlar insana ölüm yoxuymuş, ölüm dağa-daşa gəlirmiş. Dağ-daş bu dərdə dözməyib ağlayırmış.

Qocaları aparıb səbətdə dağın başına qoyurmuşlar, qurd-quş yeyirmiş. Bir gün bir oğlan atasını aparıb səbətdə dağın başına qoyur. Qayıtmaq istəyəndə atası gülür, deyir:

– Oğul, səbəti apar, lazım olacaq, sənin də oğlun səni gətirəcək bura.

Oğlan atasını götürüb gətirir evə. O vaxtdan insanlara ölüm verilir.

* * *

Ay – oğlandı. Gün – qızdı. Ay günü istəyirmiş. Hər gün onun dalınca gəzirmiş. Gün nə qədər eliyir, bu, əl çəkmir. Bir gün yenə Ay Günün dalınca düşür. Gün qaçır, Ay da onun dalınca. Gün baxır Ayın əlindən qurtarmayacaq, əyilir yerdən bir ovuc palçıq götürüb atır onun üzünə. Ay əylənir. Gün çıxıb gedir. O vaxtdan da Ayın üzündə ləkələr qalıb.

* * *

Xudavəndi-aləm Yeri-Göyü yaradır. Amma Yer-Göy taraz olmur – Yer yerdə, Göy göydə durmur. İlahidən səda gəlir:

– Ey Qələm, yaz: "Allah!"

Qələm yazır "Allah". Yer-Göy yenə taraz olmur. İlahidən səda gəlir.

– Ey Qələm, yaz "Allah, Məhəmməd!"

Qələm yazır: "Allah, Məhəmməd". Yazan kimi Yer-Göy taraz olur. Yer yerdə durur, Göy göydə.

* * *

Bir ovçu var imiş. Əlli il ovçuluq eləyib həmişə də ov vurarmış. Bir yol yenə gedibmiş dağa, birdən görür ki, qabağında bir təkə var. Elə tüfəngi qaldırır ki, vursun, bir də baxır ki, təkə dönüb olur ağ saqqallı nurani bir qoca.

Qoca buna deyir ki, əlli il qırmısan, bəs deyil? Bu yazıq heyvanları sən yaratmısan?

Kişi qorxub qayıdır evinə. Neçə gün yorğan-döşəkdə xəstə yatır. Sonra durur tüfəngini qırır, bir də ova getmir.

* * *

Qış bir qoca qarıdı. Üç oğlu var. Böyük çillə, Kiçik çillə, Boz ay. Anaları birinci Böyük Çilləyi yollayır ki, get dünyanı sahmana sal gəl. Bu gedib gəlir. Anası deyir, nə etdin?

Deyir:

– Ocağın qırağına düzdüm gəldim.

Sonra Kiçik çillə gedir. Gələndə anası deyir, sən nə etdin?

Deyir:

– Ocağın içinə doldurdum gəldim.

Axırda Boz ay gedir. Bu gələndə anası yenə soruşur ki, bəs sən nə etdin?

Deyir:

– Ocaqdan çıxartdım gəldim.

* * *

İlin axır çərşənbəsində Qədir gecəsi olur. Bu elə gecədir ki, yalnız yaxşı adamların gözünə görünür. Həmin gecədə hər şey təpəsi üstə dayanır. Özü də o, yaxşı adamların gözünə görünəndə onların nə diləyi olarsa, o saat yerinə yetir.

Belə deyirlər ki, həmin adamlardan biri Qədir gecəsini görür. Tez ürəyində nə varsa, başlayır istəməyə. Əvvəlcə deyir ki:

– Qadir mövlam, budu səndən diləyim,
Sağına gələydi qırx min inəyim.

Kişi baxıb görür ki, düz dünyanı bunun inəkləri tutub. Sayı hesabı yoxdu. Sevincək tez dalını deyir:

Qızıldan evlərim, gümüş dirəyim...

Baxıb görür ki, gümüş dirəkli evlər hazır oldu. Baxanda adamın gözünü qamaşdırır. Bir gözəlliyi var ki, dillə demək olmaz. Tamahı güc gəlib dalını deyir:

Içində də nazlı yarım olaydı.

Belə deyəndə bu dilək Qədir gecəsinin xoşuna gəlmir. Nə yerinə yetiribsə, hamısını qaytarır. Kişi baxıb görür ki, nə qırx min inəyi var, nə də gümüş dirəkli qızıl evi. Bir dizinə vurur, bir də başına.

* * *

Bir kasıb oğlan axır çərşənbənin səhərisi sübhdən durub görür ki, həyətdəki söyüd başını əyib, başı yerə dəyir. Özünü itirib deyir:

– Gedib görüm, anam qızıl olub.

Evə girib görür ki, anası dönüb qızıl olub. Başına-gözünə döyə-döyə başlayır ağlamağa. Oğlan anasının qızıla dönmüş heykəlini bir evdə saxlayır. Yenə axır çərşənbə gəlir. Oğlan sübh çağını gözləyir. Görür həyətdəki söyüd yenə başını əydi. Tez deyir:

– Anam dönüb adam olsun.

Oğlan qayıdır evə, görür anasının qızıl heykəli dönüb adam olub.

## II. İNAMLAR, SINAMALAR

Əgər yuxuda ilan görsən, deməli düşmənin çoxalıb. Əgər yuxuda ilanı öldürsən, düşmənin azalır.

Evdə adam olmasa da, içəri girəndə salam verərlər. Belə deyərlər, evdə kimsələr var. Onlar evə xeyir-bərəkət gətirir, qaranquş-filan donunda adamın yuxusuna girir.

Sübh vaxtı, axşam çağı suyun başına gedəndə salam verməк lazımdı. Suda qarı nənə adlı bir şəxs yaşayır. Əgər ona salam verməsən, acığı tutar, sənə xətər toxundurar.

Ocağa tüpürmək, üsdünə su tökmək, ya da ayaxlayıb söndürmək olmaz. Yoxsa ocax sahabının acığına gələr, bundan da insana zərər dəyər.

Uşaq çeçəyəndə üzünə üfürərlər.

Uşağa göz dəyəndə pambıq və üzərliyi yandırıb külündən uşağın alnına çəkərlər.

Boş evə girip salam verəndə Allaha salam verəllər.

Bizim kənddə at heykəlləri var, qara daşdandır. Uşaqları aparıb bu atların üstünə mindirərik ki, diribaş olsunlar. Xəstə uşaqları bu atların qarnının altından keçiririk ki, şəfa tapsınlar.

Kimin həyətində qoyun varsa, hər gecə onun üstünə yeddi dəfə nur gələr. Qoyunun yiyəsi pak adam olmazsa, nur evin dövrəsini fırlanıb qayıdar.

Bir heyvan itəndə qurdun ağzını bağlayırlar ki, ona dəyməsin. Amma heyvan tapılanda gərək qurdun ağzını açasan. Yoxsa günahdı, qurd ac qalar.

Yeddiləvində qızlar yumurtayla cövhəri götürərdilər, aparıb bir çəmənliyə qoyardılar. Əgər o gecə çəmənliyə şeh düşsəydi, yumurta cövhərə dəyib qırmızı boyansaydı, onda qızların niyyəti hasil olardı.

Yeddiləvində insanlar əllərinə qəpik, ocağın külünü və daş alır və özlərindən çox uzaq və hündür məsafəyə tullayırlar. Bu o deməkdir ki, az ruzim getsin, çoxu gəlsin; qara günüm getsin, ağ günüm gəlsin; ağırlıq getsin, yüngüllük gəlsin.

At ancaq Novruz gecəsində üç dəfə göyşüyür. Deyərlər ki, kim onun göyşəməyin görsə, ona vergi verilər.

Cuma axşamları ölünün urufu gəlip öz evinə baş çəkir. Gərək həmən gün evdə yaxşı xörək olsun, şaddıx olsun ki, ölünün urufu da razı qalsın.

Ordubadda belə inanc var ki, əgər hər hansı bir insan qorxarsa, bu zaman dərhal duz yalasa qorxuluğu keçər. Duzu gətirib qorxan insanın barmağına vurub, “bismillahir-rəhmanirrəhim” deyirlər.

Yağış yağarkən evdəki ən böyük uşaq əlinə bıçağı alıb, aşağıdakı sözləri deyir, və torpağa atır:

Mən anamın ilkisiyəm,
Ağzı qara tülküsüyəm,
Yağış kəs, kəs, kəs!

Guya, bu sözləri dedikdə yağış kəsir.

Yağış yağanda yeddi nəfər keçəl kişinin adını saysan, yağış kəsər.

Yağış gur yağanda əlinin üst tərəfini yağışın altına tutsan, qırx gün yağmaz.

Yaş otu yandırsan, yağışın ardı-arası kəsilməz.

Uşaq yeni anadan olarkən pambığı yandırıb onun qarasını uşağın alınına vururlar. Bu zaman uşağa göz dəymir. Bir də belə deyirlər ki, uşağın qırxı çıxmamışdan qabaq onu görməyə gələnlər uşağa ağırlıq olmasın deyə, astanadan keçərkən anasının qucağında uşağın altından keçirlər.

Yağış yağana yaxın qaranquşlar alçaqdan uçar.

Külək ağacdakı yarpaqları üst tərəfə çevirsə, deməli, yağış yağacaq.

Palıd ağacında qozalar sıx olduqda, qış sərt keçər.

Səpilən toxum oğurluq olsa, bitməz.

Sağ gözün səyriməsi xeyrədir, solunku şərə.

Qışda ilan görən arzusuna qovuşar.

Paltarın söküyü, ya da düyməsi əyində tikilərsə, bu işi görən ağzına bir qırıq sap qoymalıdır, yoxsa şərə, böhtana düşər.

İlan gördüyün yerə ovsun suyu töksən, həmin ilan gedər və ya ilanın yaşadığı yerin ağzına duz-çörək qoysan, gedər.

Böyüməyən, boyu balaca qalan uşaq kəsilmiş ağacın üstündən o tərəf bu tərəfə üç dəfə tullansa boyu uzanar.

Axşam vaxtı evi süpürməzlər. Süpürəndə də "toy evi süpürürəm" deməli, zibili küncə yığıb saxlamalı, sabah atmalısan. Yoxsa evin bərəkəti qaçar.

Bir iş görəndə yanındakı asqırsa, işi saxlayıb, onun kürəyinin arxasına vurmalı, "sağlam olasan" deməlisən.

Qulağın qızarsa kimsə sənin haqqında danışır. Həm də sağ qulağın cingildəsə xeyrinə, sol olsa zərərinə danışırlar.

Dırnaqda olan ləkələrin mənası baş barmaqda xoşbəxtlik, şəhadət barmaqda bədbəxtlik, orta barmaqda yol getmək, nişan barmağında təzə paltar geyinmək, çeçələ barmaqda məhəbbət deməkdir.

İlin axır çərşənbəsində eşidilən söz düz çıxar.

Kirpikdən üzə tük düşəndə yanındakı adam bunu ona xəbər verir, həmin adama deyilir ki, məktub istəyirsən, yoxsa sevinc? Hansını istəsə, gərək tükün hansı gözdə olduğunu tapa. Əgər düz tapsa sevinəcək.

Özgənin evində dırnaq kəssən o evdə bədbəxtlik olar.

Səfərə gedənin arxasınca su səpsən işi uğurlu olar, sağ - salamat qayıdıb gələr.

Süfrəyə duz töküləndə gülümsəyərlər ki, dava-dalaş olmasın, yaxud süfrəyə duz dağılsa, dava-dalaş olar. Odur ki, dağılmış duzun üstünə şirin şey qoyulur və yaxud su tökülür.

Ürəyi təmiz adam sözün üstə gəlib çıxar.

Uzanmış uşağın üstündən keçsən, boyu balaca qalar.

Yemək zamanı əldən bıçaq düşsə - kişi, qaşıq-çəngəl düşsə - qadın qonaq gələr.

Çörək tikəsi üzü üstə düşərsə, qonaq gələr, arxası üstə düşərsə, evdəki qonaq gedər.

Uşaq diş çıxaranda hədik bişirilir və süfrəyə bıçaq, daraq qoyulur. Uşaq bıçağa əl uzatsa, növbəti uşaq oğlan, darağa əl uzatsa, qız olar.

Yemək zamanı duz tökülsə, ehtiyatlı olmaq lazımdı, dava düşər.

İki qaşın arasında anadan gəlmə yarıq, çapıq olmağı xoşbəxtlik nişanəsidir.

Həftənin tək günləri səfərə çıxmazlar. Həftənin cüt günləri səfər çıxsan, xeyir taparsan.

Səhər doğulan adamın ayağı yüngül, gecə doğulanın ayağı ağır olar.

Əlindən qaşıq düşsə deyərlər ki, arvad qonağı, bıçaq düşsə deyərlər ki, kişi qonağı gələcək.

Pişik ayağını yalayanda qonaq gələr.

Daşı çevirəndə yağış yağar.

Göy otu yandıranda yağış yağar.

Adam əlini yağışın altına tutanda qırx gün yağış yağar.

Bir şey itirəndə sapı, yaylığın ucunu, ya da başqa bir şeyi düyünləyib deyərlər ki, şeytanın quyruğun düyünnədim. Ondan sonra itən şey tapılar.

İtin tükündən uşağın üstünə tikirlər ki, göz dəyməsin.

Birinci dəfə göy guruldayanda toyuğun üstünə bir ovuc torpaq atsan yaxşı kürt yatar.

Hər hansı bir paltarı tərsinə çevirirlər ki, yağış kəsib gün çıxsın.

Uşağın yanında şeşə adını çəkməzlər. Yoxsa şeşə gəlib uşağı aparar.

Əgər it dişi tapıb dişinə qoysan, gecə hara gedirsən get, nə görürsən gör, heç nədən qorxmazsan.

Pis yuxunu suya danışarlar ki, yuyub aparsın. Yaxşı yuxunu danışarlar ki, aydınlıq olsun.

Birdə deyirlər ki, yağışın kəsməyini kim istəyirsə yeddi keçəlin adını deyirlər, yağış kəsir.

Gənc qızlar, stolun küncündə otursalar, evdə qalarlar. Heç kəs də onları almaz.

Körpə uşağın üstündən keçsən, uşağın boyu balaca qalar.

## ÜZƏRLİK

Ordubad adətlərinə görə inanclardan biri də gözdəymədir. Gözdəyməni aradan qaldırmaq üçün üzərlik salardılar. Üzərliyi ovucun için qoyar, sağ əllə onu arışdıraraq deyərlər.

Üzərliksən havasan,
Dərdə-sərə dəvasan,
Səni oda salarlar,
Qada bala sararsan.
Çıxdım uca dağ başına,
Dedim: Ya Əli, ya Məhəmməd,
Dedi: nədir, ey biçarə bəndə,
Dedim: bu dərdə çarə
Dedi: korlu-koslu üzərlik,
Başı börklü üzərlik.
Onu oda salarsan,
Qada bala sararsan.
Şənbə, bazar, bazar ertəsi, çərşənbə axşamı,
Çərşənbə, cümə axşamı, cümə
Kim mənə, balama, ərimə, ev-eşiyimə göz vursa,
Gözləri bu odda pırtlasın yansın.

## YAĞIŞ KƏSMƏ MƏRASİMİ

Deyilənə görə, yağış kəsməsini kim istəyirsə, evdəki nənənin ilk nəvəsinin əlinə bıçaq verib qapının qabağına çıxardırlar. Uşaq bu sözləri deyəndən sonra əlindəki bıçağı yerə tullayır:

Mən nənəmin ilkiyəm,
Ağzı qara tülküyəm,
Yağış kəs-kəs-kəs,
Yağış kəs-kəs-kəs.

Və tez bir vaxtda yağış kəsilir.

## QORXULUQ SALMA

Deyilənə görə, əyər bir adam yaxud uşaq qorxursa, onun qorxuluğunu salmaq üçün harda qorxubsa, həmin yerdə başına bir çərqad və yaxud salafan salıb qırxlayırlar. Qırxlayarkən bu sözü yeddi dəfə deyirlər:

Bir, iki, üç, dörd, beş, altı, yeddi.
Qada-bala bizdən getdi, –

deyib, suyun bir azını başından aşağı tökürlər.

# III. MƏRASİM FOLKLORU

## ORDUBADDA ORUCUN ON BEŞİ

Ordubadda orucluq ayının on beşində hər bir uşaq əlinə bir torba alıb qapı-qapı gəzərək orucluğun sovqatını istəyir. Onlar pay istəyərkən hər kəsə belə müraciət edirlər.

Orucun on beşidir, gəldik sizə,
Orucun niyazını verin bizə.
Xanım ayağa dursana,
Boşqabı doldursana.
Ya rəbbi gəlir, rübba gəlir,
Boşqabı doldurub gəlir,
Verənin oğlu olsun,
Verməyənin kor qızı olsun,
O da düşsün təndirə, yansın.

Uşaqlar mahnını oxuduqdan sonra paylarını alıb gedirlər. Bəzən uşaqlar oxumurlar, bu zaman ev əyəsi uşaqlar oxuyana qədər onların payını vermir.

Beləliklə, orucluq ayının on beşində uşaqlar bir çox cürbəcür yeməli şeylər toplayırlar. Orucluq ayı qurtarana qədər uşaqlar topladıqları nemətləri yeyirlər.

## QURBAN BAYRAMI

Xalqımızın böyük adət-ənənələrindən biri Qurban bayramıdır. Qurban bayramında el-obanın imkanlı şəxsləri qurban kəsməyə çalışırlar. Kəsilən qurbanlıq ət yoxsullara, kasıblara paylanır.

Əsasən, Qurban bayramında qurbanlığa qoç kəsməyə çalışarlar. Çünki bu bayramın tarixcəsində İbrahim peyğəmbərin əhvalatı dayanır və bu əhvalatda qurban kimi Allah yolunda qoç kəsilməsindən bəhs olunur. Bu haqda Quranda danışılır.

Həmçinin Qurban bayramında nişanlı qızlara oğlan evindən xonça düzəldilib aparılır.

## NOVRUZ BAYRAMI

Novruz bayramı günü hamı səhər tezdən durub, təzə paltarlarını geyinir, daha sonra isə evdəkilər biri-birilərinin bayramlarını təbrik edirlər. Əvvəlcə uşaqlar ana-atalarının, nənə-babalarının əllərinə gülab töküb, onların bayramlarını təbrik edirlər. Novruz süfrəsi isə bayram günündən bir gün qabaq axşam qurulur. Süfrə axşamdan qurulmalıdır ki, səhər gələn qonaqlara hazır olsun. Evdəkilər bir-birlərinin bayramlarını təbrik etdikdən sonra ailədən, tayfadan ən yaşlı şəxsin evinə bayram görüşünə gedirlər. Bayram görüşünə birinci gedilən evdə çay içilməlidir. Bu üç gün ərzində bütün qohum-əqrəbalara, qohum-qonşulara bayram görüşünə gedib, bayramlarını təbrik etmək lazımdır. Bayramlarını gülabla təbrik etdikləri zaman belə deyirlər: vaxtına, vədəsinə sağ-salamat çıxasınız, bayramınız mübarək.

Uşaqlar, qızlar, oğlanlar xana baxmağa gedirlər. Bu günü böyük meydanlarda xan qurulur. Mingis xanlığı, Şərşəhər xanlığı bunlara misal ola bilər. Novruz bayramında Mingis xanlığı çox maraqlı keçir. Mingis xanın o birisi xanlardan fərqi odur ki, burada şənlik gecə saat 11-ə, 12-yə qədər davam edir. Bu günlər ərzində Mingis xanında xoruz döyüşdürürlər, qol güləşdiririrlər, boks oynayırlar, müxtəlif yallı rəqsləri oynayırlar, daha sonra bayramın ikinci və üçüncü günləri isə uduşlu, hədiyyəli günlər adlanır. Bu günlərdə Mingis və Şərşəhər xanlarında lotereya oyunları oynanılır. Mingis xanının başqa bir xüsusiyyəti də odur ki, üçüncü, yəni axırıncı gün xanı gedib öz kəndindən gətirirlər. Xanı gətirməyə atlarla, maşınlarla gedirlər. Xanı gətirməyə hər kəs gedə bilər. Xanı gətirdikdən sonra öz taxtına oturdurlar. Da-

ha sonra atlar meydanın dörd bir tərəfini dövrə vururlar. Oğlanlar isə meydanın ortasında yallı gedirlər. Üçüncü günün axşamı Mingis xanlığı bir başqa olur. Bayramın üçüncü gecəsi meydanın ortasında tonqal qalanır və onun ətrafında yallı oynayırlar. Xanın qurtarmasına az qalmış xanı idarə edən şəxs, artıq bayramın sona çatdığını bildirir. Bu zaman rəqs edənlər və xanı izləyənlər dayanıb birlikdə Azərbaycan himnini oxuyurlar. Beləliklə də, Mingis xanlığında Novruz bayramı belə başa çatır.

Novruz bayramında Yeddiləvin adlı bayram daha şən, daha təntənəli keçir. Uşaqlar səhər tezdən durub, yeddiləvin bazarına gedərlər. Hər tərəfdən taraqqanın, beşaçılanın səsi gəlir. Amma yeddiləvinin davamı bundan sonradır. Axşam hər tərəfdə, hər həyətdə tonqal qalanır, hamı od üstündən hoppanıb "ağırlığım-uğurluğum bu odda yansın" deyər, ürəyində istəyini niyyət edərlər.

Yeddiləvində, yəni axır çərşənbədə qızlar qaba su töküb, üzüyü ipə bağlayarlar. Sonra üzüyü qabın divarına sürtərlər. Üzük fırlanmağa başlayır və qabın divarına dəyir. Üzük neçə dəfə qabın divarına dəyib qayıdarsa, deməli, qız o yaşda ərə gedəcək.

Yeddiləvin gecəsi ürəkdə niyyət tutub yatarlar. Gecə yarısı durub şam yandırarlar və şamı götürüb aynaya tərəf gedərlər. Belə etsən, aynada gələcək nişanlını görərsən. Aynaya baxanda qorxsan, niyyətin baş tutmaz.

## BOZAY

Bizi Novruza aparan ayın adı el arasında "Bozay" deyə çağrılır. Belə deyirlər ki, keçmişdə il aya, günə bölünürdü.

Bütün aylar gəlib öz günlərini götürmüşdü, təkcə ayın birinə heç bir gün düşməmişdi. Yığışıb bu qərara gəldilər ki, ayların hərəsi özünün bir-iki gününü bu günsüz qalmış aya versin. Onun da günləri düzəlsin. On bir aydan kimisi iki gün, kimisi də üç gün verdi. Bu zaman ayların sayı dönüb oldu on iki. Təzə düzələn ayın günləri ayrı-ayrı fəsillərdəki aylardan yığıldığına görə onun havasından baş açmaq olmurdu. Bir də gördün istidi, üstündən bir az keçdi görürsən ki, bulud gəldi, soyuq düşdü, o biri gün hava yenə açıldı. Beləcə, boz bir ay əmələ gəldi. O səbəbdən də adına bozay deyildi.

## BÖYÜK ÇİLLƏ, KİÇİK ÇİLLƏ VƏ BOZAY

Qış dekabrın 21-də girir. Yəni dekabrın 9 günü qışdandır. Dekabrın iyirmi biri gecəsi ilin ən uzun gecəsidir. Qışın girməsilə böyük çillə başlayır və qırx gün çəkir. Böyük çillə o qədər də sərt olmur. Arabir qar yağır, amma hava o qədər şaxtalı keçmir. Əsas şaxta böyük çillədən sonra olur, yəni kiçik çillədə. Bu kiçik çillə çox sərt olur. O, qədər soyuq, şaxtalı keçir ki, meşədə heyvanlar, çöldə quşlar üşüyür, donurlar. 20 günlük kiçik çillə nə qədər sərt olsa da, ömrü qısadır, günlər get-gedə uzanır. Bəzi rayonlarımızda bozaya alaçalpov da deyilir. Bu aya ona görə boz ay deyirlər ki, hər tərəf boz rəngdə olur. Gah isti, gah soyuq küləklər əsir, günlər uzansa, havalar isinsə də, yenə şaxta olur. Çillədə q hərfi ilə başlayan nemətlər yeyilir. Məsələn: qarpız, qavırma, qorqa, qatıq və s. Həmçinin çillədə nişanlı qızlara oğlan evindən xonça göndərilir.

Boz ayın ömrü 30 gün çəkir və martın 21-də bozayın tamamlanması ilə qış ömrünü bahara tapşırır. Qışın qurtarıb

baharın başladığı günə Novruz deyilir. Novruz yeni gün, yəni yeni ilin başlanğıcı deməkdir.

## ÇƏRŞƏNBƏLƏR

İlin axırıncı çərşənbələrini Ordubad rayonunda adət-ənənəylə qeyd edirlər. Bu çərşənbələrdən biri yel çərşənbəsidir, biri torpaq, biri su çərşənbəsidir ki, onu Ordubad rayonunda yüksək səviyyədə qeyd edirlər. Bu isə təsadüf olunur Novruz bayramına bir neçə gün qalmışa. Ilin axırıncı çərşənbəsində yüksək səviyyədə bazar qurulur. Bu bazara isə "Yeddiləvin bazarı" deyirlər. Həmin bazarda geyimlər, şirniyyatlar, meyvələr, uşaqlar üçün oyuncaqlar satılır. Kirvə olan kəslər kirvə olduqları uşaqları bazara aparırlar və uşaqların istədikləri şeyləri alıb uşaqları sevindirirlər. Bu isə həmin uşaqların yaddaşlarında silinməz izlər qoyur. Həmin günlər nişanlı qızlar üçün də bazarlıq edərlər. Bəzədilmiş xonçaları kirvə olanlar kirvə olduqları evə, nişanlı qızlar üçün də nişanlı evlərə aparalar.

Yeddiləvin günü bazarda müəyyən partlayıcı taraqqa, fişəng, beşaçılan satılır. Bunları yerli adamlar özləri düzəldərlər. Axşam damda od qalayır, həmin bazardan aldıqları şeyləri odda yandırıb şənlənərlər. Bir rəvayətə görə, bu od yandırmaq ənənəsi "Muxtardavası" deyilən davadan qalıbdır. O dava ilin axırıncı çərşənbəsində müsəlmanların od yandırıb bir-birinə işarə verməsindən qaynaqlanır. Həmin odun üstündən yeddi dəfə atılaraq "ağırlığım, xəstəliyim, qəm-qüssəm bu odda yansın" deyirlər. İlin axırıncı çərşənbəsinə yeddiləvin deyildiyinə görə, həmin günü bazardan yeddi ləvin şey alarlar. Bunlar şirniyyat, meyvə, paltar və başqa

şeylər olur. Allahdan arzu edirik ki, bütün yeddiləvinlər elimizə-obamıza uğur gətirsin.

Axır çərşənbə gecəsi alma yeyərlər. İçindəki toxumları sayarlar və toxumlardan on dənəsini yastığının altına qoyub yatsan, qismətini yuxuda görərsən.

Axır çərşənbədə qulaq falına çıxarlar. Əgər hər hansı bir evdən yaxşı söz eşitsən, niyyətin qəbul olar, yox əgər pis söz eşitsən, niyyətin qəbul olmaz.

Axır çərşənbə gecəsində həyətdə olan hər ağacın dibinə balta ilə üç dəfə vurarlar ki, bu ağaclar gələn il yaxşı bar versin.

Axır çərşənbədə iki fincan götürərlər. Fincanlardan birinə niyyət edərlər. Əgər biri sənin niyyət elədiyin fincana su tökərsə, niyyətin qəbul olar. Yox əgər səhv fincana su tökərsə, onda niyyətin qəbul olmaz.

Axır çərşənbə günü evdən kibrit, od, neft verməzlər.

Axır çərşənbə günü evdən pul verməzlər.

Axır çərşənbə günü bütün işıqları yandırarlar. Deyirlər ki, rəhmətə gedənlərin ruhu o günü evə qayıdır.

Bunlar da ulu babalarımızdan bizə miras qalan müqəddəs inamlardır.

Axır çərşənbə günü axçam qızlar yığışar bir evə. Ortalığa suynan dolu bir qab qoyarlar. Hərə ürəyində bir niyyət tutar. Qabın sağ tərəfində oturan adam iki iynənin ucuna pambıq dolayıb hərəsini qabın bir tərəfindən salar suya. Bir nəfəri nəzərdə tutub gözləyər. Əgər iynələr baş-başa dəysələr, həmin adamın niyyəti bitəcək, əgər dəyməsə bitməyəcək.

İlaxır gecəsi qızlar əllərində güzgü tutardılar. Ayın şəkli düşərdi güzgüyə. Şəklin içində qızın sevdiyi oğlan görünsə, demək onlar evlənəcəklər.

## ÇARDAQ

Hər il Ordubadda Novruz bayramından otuz altı gün keçəndən sonra insanlar çardaq deyilən yerə gedir. Ora gedərkən insanlar evdən yeyib-içmək götürüb, orada yeyirlər. Bütün dərdi-səri olanlar orada dərdlərini tökürlər. Arzusu olanlar isə çardaqda başlarına su qırxlayırlar. Daha sonra yenə də arzu tutub, çardağın ətrafında üç dəfə dövrə vururlar. Bir az oturub çardağın havasını çəkdikdən sonra evə qayıdırlar. Bu adət, yəni çardağa getmək ancaq Ordubada aiddir.

## ƏLƏM

Məhərrəmlikdə aşıra-taşıra günündə insanlar Tiviyə (piri) gedirlər. Həmin yerdə ələm olur. Kimin nəziri qəbul olarsa, ələm həmin adamın üstünə gəlir. Ona görə adamın üstünə gəlir ki, adam ona pul salsın. Həmin yerdə çoxlu adam olur.

Ordubadda kimin nəziri olsa, Tiviyə gedir. Orada atın altından keçəndə nəzirin deyir. Onun nəziri qəbul olur.

# TOY ADƏTLƏRİ

## ORDUBADDA TOY ADƏTLƏRİ

Ordubadda toydan qabaq xına gecəsi eləyirlər. O gecə oğlan evi qız evinə xonça və xına aparırlar. Qız evində oğlan evindən bir nəfər qızın əlinə xına qoyur, lakin burada qız əlini açmamalıdır. Qızın əlinə qızıl üzük, qızıl boyunbağı və ya pul qoyulmalıdır ki, qız əlini açsın. Əks təqdirdə, qız əlini açmamalıdır.

Toyda qızı evindən çıxardanda belinə qırmızı lent bağlayırlar. Qırmızı lent qızın təmizliyini, paklığını bildirir.

Qızı evdən çıxardanda ayağının altına süzgəc qoyurlar və süzgəcin altında şam yandırırlar. Bu da onun yolunun işıqlı olmasını bildirir.

Qızı oğlan evinə gətirəndə ayağının altına boşqab qoyurlar. Gəlin o boşqabı sındırmalıdır. Əgər boşqabı gəlin ilk dəfədə qırarsa, bu, onun evdəki hər müqaviməti qıra biləcəyini bildirir. Bu boşqab qırıntılarından gənc qızlar götürüb yatanda yastığının altına qoysa, yuxuda öz gələcək nişanlısını görər.

## "DUVAQQAPMA" MƏRASİMİ

Toyun səhərisi günü şirinçay olur.

Oğlan evi, qız evini şirin çay içməyə dəvət edir. Şirin çayı içəndən sonra isə gəlini gəlin paltarı və başındakı duvağı ilə həyətə gətirirlər. Oğlan evindən, bir oğlan uşağı əlinə

oflaq alıb gəlinin duvağını qapır. Qapan kimi heç kəs əlindən almamış tez bir hündür ağacın üstünə tullayır.

## ŞƏNBİ ŞİRNİSİ

Ordubadda qıza nişan gələn həftənin altıncı, yəni şənbə günü oğlan adamı qız evinə qonaq gəlir. Təbii ki, xonçalar burda "öz şirinliyi" ilə seçilir. Yəni xonçalar ancaq şirniyyat ilə bəzədilir.  Bu, gənclərin ailə həyatına atdığı ilk addımın uğurlu, xeyirli olması arzusundan irəli gəlir.

## SƏDƏRƏKDƏ TOY ADƏTİ

Sədərəkdə, adətən, oğlan qızı toyda, yığıncaqda, əksər hallarda da bulaq başında, qrantada görür. Əgər qız da oğlanı bəyənsə xəbər göndərir ki, oğlan adamı gəlsin. Oğlan adamı da bir yaylıq və şirinlik üçün də bir qutu şokolad götürüv qız evinə yollanır. Bu, "hə alma" adlanır. Oğlanın qardaşı, əgər yoxdursa, yaxın qohumlarından olan bir kişi xeylağı yaylığı qızın başına atır, əlinə isə pul verir.

"Hə alma"da yemək süfrəsindən qabaq razılıq alınandan sonra şirin çay gətirilir. Şirin çayı içib qurtarandan sonra hər kəs zirə pul qoyur. Qız adamından qızın qardaşı çayları yığışdırarkən pulu götürür.

Nişan mərasimində isə oğlan adamı, yaxın qohumları yığılır, xonça tutub yollanır qız evinə. Xonçada qız üçün lazımi əşyalar, geyim, şirniyyat və qızıldan ibarət bəzək əşyaları olur. Nişan mərasimində səbəbkar, yəni oğlan iştirak et-

mir. Oğlan iki dostu ilə – sağdıc-soldıcıyla öz evində oturur. Qızın barmağına üzüyü oğlanın qardaşı salır. Nişan mərasimi ərəfəsində qızın bacısı bir xonça tutaraq iki nəfərlə oğlangilə gedir. Xonçada oğlana aid bəzi əşyalar olur. Başqa bir sinidə toyuq qızartması, içki və s. ola bilər. Qız xonçanı verəndə oğlan xonçanın əvəzinə nəmər verir.

Toy iki gün olur. Bu iki gün oğlan evində də, qız evində də toy çaldırılır. Birinci gün parça-xına, ikinci gün isə toy olur. Parça-xına günü oğlan adamı yığışaraq qız evinə parça aparırlar. Parça günündən bir-iki gün qabaq oğlan ana-bacısı qızla oğlan nişanlı qaldıqları ərəfədə nəki pal-paltar alınıb, gedib yığışdırıb gətirirlər. Parça günü oğlan evinin qadınları həmən qıızın paltarlarını çamodana yığaraq verirlər qohum-qardaşa ki, aparsınlar qız evinə. Qız evinin də adamları bu çamodanları kim gətiribsə, ona nəmər verir. Oğlan adamı qız evində çıxır uca bir yerə həmən bu paltarları bir-bir göstərir. Sonra bir dənə təzə parça götürürlər, «qəçikəsdi» eləyirlər. Bir nəfər oğlan adamı, bir nəfər də qız adamı bu parçanı iki yerə kəsirlər. Parçanı tutan adam oğullu-qızlı, ərli, bir sözlə, bəxtindən yarıyan olmalıdır (subay olmamalıdır). Adətən parça iki metr olur. Parçadan iki dənə ensiz, təxminən bir-iki qarış ip formasında kəsillər. Onun birini oğlan adamı, birini də qız adamı götürür. Onlar ayrı-ayrılıqda həmən parçalara düyün salırlar. Birini verirlər qızın anasına, birini də oğlanın anasına. Bunu saxlayırlar toy günü gəlin evə gələndən sonra qızın anası öz evində, oğlanın da anası öz evində düyünləri açırlar.

Parça günündə «qəçikəsdi» eliyəndən sonra oğlanın anası şirniyyat qoyulmuş siniyə dəmir pul atır. Elə atmalıdır, pulun şıqqıltı səsi bərk gəlsin. Bundan sonra hamı pul atır,

yerinə şirniyyat götürür. Daha sonra yemək süfrəsi açılır və bununla da parça mərasimi qız evində bitir. Bu mərasim ərəfəsində oğlanın bacısı həmən sinidən bir xışma konfet götürür, aparır verir qardaşına, yəni bəyə, nəmər alır. Oğlan adamı qayıdır oğlan evinə, calğı olur, başlayırlar oynamağa. Daha sonra həmən günü saat 7-8-də xınaya hazırlıq görülür. Şirniyyat və paltar xonçası hazırlanır. Kasaya quru xına tökülür aparılır qız evinə. Qız evində çalğı olur. Oynayırlar və xonçalara nəmər alınır. Qayıdırlar oğlan evinə. Qız evi həmən xınanı isladır. Qızın başına, ayağına, əlinə xına qoyulur. oğlanın adının baş hərfi qızın əlinə yazılır. Xınanın yarısını qız evi bəyə aparır. Qız evindən bir nəfər kişi xeylağı xınadan bir qaşıq götürür. Bəy oturmuş halda sağ əlini açılmış vəziyyətdə başının üstünə qaldırır. Həmən qız adamı qaşıqdakı xınanı oğlanın ovcuna qoyanda balaca bir oğlan uşağı xınanı tez götürür. Əlində qalanı da oğlan başına çəkir.

# IV. ƏFSANƏ VƏ RƏVAYƏTLƏR

## BUXKAR PİRİ

Buxkar piri Zəngəzur dağlarının yüksəkliyində yerləşir. 1920-ci illərdə bu torpaqlar satqınlıq və xəyanət üzündən Ermənistana verilmişdir. İndi isə Buxkar öz zəvvarlarının üzünə tamamilə həsrət qalmışdır. Müqəddəslər zirvəsinə qalxmış Ağanın, onun həyat yoldaşı Xanımın və onların uşaqlarının qəbirləri olan bu müqəddəs ziyarətgah indi nə gündədir bilmirik. Çox güman ki, erməni talançıları buranı da viranəliyə çevirmişlər.

Buxkar haqqında əfsanələr yüz illərdir ki, ağızdan-ağıza dolaşır. Buxkar çox gözəl mənzərəli bir yerdir. Bu yerlərin gözəlliyi çoxlarını valeh etmiş, fəqət, heç kəs burada məskən salmağa cürət etməmişdir. Səbəb də bu yerlər haqqında xalq arasında çoxlu rəvayətlərin dolaşması olub. Əvvəllər gecələmək üçün bu yerlərdə qalanlar görüblər ki, ətrafda alovlar məşəl kimi yanır və səslər eşidilir, elə bil ki, dua oxuyurlar. Orada gecələyənlər qorxu içərisində səhərin açılmasını gözləyib və çıxıb gediblər. Onlar bir daha oraya qayıtmazdılar. Nəhayət, cəsarətli, qorxmaz bir xan qərara gəlir ki, bu yerlərdə məskən salsın. Bütün günü ətrafı gəzib-dolaşır, tikinti üçün yer axtarır. Əsrlik küknar ağacları ilə əhatə olunmuş bur düzəngah yer tapır. O əmr edir ki, qaranlıq düşməmiş hər tərəfdə tonqallar qalansın və tonqallar səhərə kimi yansın. Belə də edirlər. Heç bir möcüzə baş vermir. Xanın nökərləri bir neçə gün ərzində Salam təpədən çoxlu tikinti materialları gətirirlər. Bina ucalmağa başlayır. Gecə möcüzə baş verir: tikilmiş divar bir gecənin ərzində uçulur. Uçulmuş divarı yenidən tikirlər, gecə yenə uçulur.

Xan və onun ətrafındakılar heyrət içində qalırlar. Dünya görmüş bir ağsaqqal xanı yanına çağırır və ona qəribə bir yuxu söyləyir. Ağsaqqal qoca yuxuda çox yaşlı bir qoca görübmüş. Qoca şikayətlənib ki, onun arvadına dinclik vermirlər, hər gün onun sol tərəfində elə divar qaldırırlar ki, qadın çox çətinliklə qolunu çəkə bilir. Dünya görmüş qocanın yuxusunu dinləyən xan belə qərara gəlir ki, din yolunda həlak olmuş şəhidlərin qəbirləri üzərində məqbərə tikdirsin. Az müddətdə məqbərə başa çatır, "Buxkar piri" belə yaranır.

* * *

Bir oğlan gedib, Buğukar pirinin yanındakı ağacların birini kəsir. Görür ki, ağacın kəsilən yerindən qan damır. Qorxudan oğlanın dili tutulur. Oğlanı aparıb baxıcıya göstərirlər. Baxıcı deyir ki, oğlan günaha batıb, aparın Buğukar pirində qurban kəsin.

Buğukar pirində qurban kəsilər, oğlanın dili açılır.

## YALQIZ AĞAC ƏFSANƏSİ

Çox-çox qədim zamanlarda Ordubadın Nüs-nüs kəndində Bəşir adlı kasıb kişi yaşayırdı. Odunçuluqla məşğul olar, dağlardan, kəndin yuxarı bağlarından odun qırıb satmaqla ailəsini dolandırarmış. Odunçu Bəşirin bir qız övladı var idi. Adını Sərvinaz çağırardılar. Sərvinaz kəndin qızlar bulağından su içib gözəl bir qız olmuşdu. Uca boylu, qoşa hörüklü, ağ bənizli, qara gözlü, çatma qaşlı, əsmər yanaqlı, bal dodaqlı, gül camallı, ürkək yerişli, cingiltili gülüşlü bu xanım adamı valeh edən bir nazənin idi. Bu qızı çox yerdən istəyirdilər. Kəndin dəliqanlı cavanları Sərvinazı görəndə

süstləşirdilər, dil-ağızları tutulurdu. Ancaq Sərvinaz könlünü kasıbların qoyun-quzularını otaran çoban Şəhriyara vermişdi. Şəhriyar da uca boylu, enli kürəkli, igidlikdə ad çıxarmış, çatmaqaşlı, gözəl bir oğlan idi. Çomağı ilə dağ itini öldürən Şəhriyar həm də kəndin başqa qızlarının da ürəyinə yatırdı.

Amma Nüs-nüs kəndinin varlı adamlarından birinin Saleh adlı oğlu Sərvinazın eşqindən dəli-divanə idi. Qıza göz verib, işıq vermirdi. Addım-addım onu izləyirdi.

Bir gün Saleh ağa öz atlı dəstəsi ilə qızı qaçırmaq istəyir. Sərvinaz duyuq düşüb dağlara tərəf qaçır və gəlib dağda qoyun otaran gözaltısı Şəhriyara çata-çatda Saleh ağa qəzəbindən uzaqdan qıza ox atır və ox Sərvinaza dəyib onu yaralayır. Sərvinaz namusunun ləkələnməməsi üçün Allaha yalvarır ki, onu ağaca döndərsin. Saleh ağa qaça-qaça gəlib Sərvinaza yaxınlaşanda, Allah-təala Sərvinazın duasını eşidir və Sərvinazı həmişə yaşıl ağaca, Salehi isə qara bir daşa döndərir.

Dağın başında tək bitən ağac ilin bütün fəsillərində yaşıl olur.

Günlərin bir günü Nüs-nüsdən bir nəfər həmin ağacın bir budağını kəsir və gətirib təndirdə yandırır. Bu zaman yanında duran balaca uşağı da təndirə düşüb yanır. O vaxtdan kənd camaatı qorxub ağaca yaxın düşmürlər. Həmişə yaşıl ağac uca dağın başında bir qolu kəsik kimi bu günə kimi durur və sanki kədərli bir baxışla kəndə baxır.

Üstündən uzun illər keçsə də, bu ağaca yaxın gedən olmur. Adamlar bu ağaca müqəddəs bir pir kimi baxırlar.

## QIRXLAR DAĞI

Ordubadda "Qırxlar" dağı adlanan bir dağ var. Bu dağın adı haqqında çoxlu rəvayət və əfsanə dillərdə dolaşmaqdadır. Onlardan biri belədir:

Qədim zamanlarda bu yerlərdə çox məğrur, sülhsevər insanlar yaşayırdı. Onlar heç kəsə xətər yetirməz və heç kəs də onlara dəyib dolaşmazdı, baxmayaraq ki, azsaylı idilər. Vaxt gəldi, ərəb xilafətinin qoşunları bu yerlərə də ayaq basdılar. Ərəblər bu məğrur insanların yaşayış yerlərini mühasirəyə alıb, əmr etdilər ki, təslim olsunlar, həmçinin ərəblərin dinini qəbul etsinlər. Yerli əhali qərara gəldi ki, düşmənə təslim olmasınlar və son nəfəsləri qalana kimi mübarizə aparsınlar.

Təslim olmaq istəməyən əhalinin çoxu dağlara qalxmışdı. Ərəblər dağın zirvəsinə qalxa bilməyənləri əsir aldılar. Bunu bilən ərəblər hər gün qadınları, uşaqları, qocaları öldürürdülər. Yüksəklikdə olan igidlər isə təslim olmur və gözləyirdilər ki, ətraf qalalarda olanlar da onlara birləşsinlər və düşmənə qarşı birgə mübarizəyə qalxsınlar. Günlər keçdi, kömək isə gəlmədi, çünki ərəblər dağı mühasirəyə almışdılar. Bu yolla onları aclıqdan öldürmək istəyirdilər. Ərzaq günü-gündən tükənirdi, ələlxüsus, içməyə bir qurtum da su qalmamışdı. İnsanlar tələf olurdular. Bu dağlarda çoxlu ilan var idi. Ən çox isə zınqırovlu ilanlar idi. Bu ilanlar yenilməz insanlara nəzarət edirdilər. Dağların qoynunda mübarizə aparan cəsurlar əvvəl elə bildilər ki, bu ilanlar onlara zərər vermək istəyirlər. Sonradan gördülər ki, yox, ilanlar onları qoruyurlar. Cəsurların sıraları get-gedə seyrəlirdi. Onlar aclıq və susuzluqdan həlak olurdular. Dağda ilanların sayı artırdı. Başa düşmək çətin idi ki, nə üçün ilanlar günü-gündən artır. Dağda

qalmış qırx nəfər igidin yarısından çoxu həlak olmuşdu. İlanlar insanların bu halını görüb hərəkətə gəldilər. İlanların başçısı dağdan aşağı sürünməyə başladı. Başçı ilanları mübarizəyə çağırırdı. İlanların nəriltisi elə bir vahimə yaratmışdı ki, ərəblər özlərini itirmişdilər. Onlar başa düşdülər ki, ilanlar onlara qarşı mübarizəyə qalxmışlar. Ərəb işğalçıları ilanların hücumuna tab gətirə bilməyib, qaçmağa başladılar.

Qalanın yolları azad edildi. Ətraf qalalardan köməyə gələn insanlar qırx nəfər igidi xilas etmək üçün tələsirdilər. Dağa qalxıb onlar nə gördülər? Qırx nəfər cəsurun hamısı həlak olmuşdu. Qədirbilən insanlar düşmənlə mübarizədə həlak olmuş qırx nəfər cəsuru unutmamışdılar. Onlar yenilməz insanların dəfn edildiyi yerdə dağın zirvəsində məqbərə tikirlər. Əsrlər boyu insanlar bu dağa qalxır, qırx cəsur igidin qəbirlərini ziyarət edirlər.

## OĞLAN-QIZ DAĞI

Əfsanəyə görə, bir-birini sevən iki gənc ailə qurmaq istəyirlər, lakin ailələri razı olmur. Bunlara dözəmməyən oğlanla qız, bir dağa çıxıb özlərini oradan atmaq istəyəndə Allah onları daşa çevirir və o gündən bu dağ "Oğlan-qız" dağı adlanır.

## AĞ OĞLAN İBADƏTGAHI

Müqəddəs ziyarətgahlar, pirlər, müəyyən yerlər haqqında əfsanələr, rəvayətlər xalqımızın mənəvi mədəniyyət tarixini özündə əks etdirən dəyərli folklor materiallarıdır. Bu

rəvayətlərdə yerli əhalinin qədim inamlarının, məişətinin müəyyən məqamlarını izləmək mümkündür. Sədərək rayonu ərazisindəki bir sıra yerlər haqqında əfsanələr yaşamaqdadır. Onlardan "Ağ oğlan" əfasanəsi daha çox diqqəti cəlb edir. Sədərək kənd orta məktəbinin mərhum müəllimi Hüseyn Hüseynov Sədərəyin bir sıra yer adları ilə bağlı çoxlu folklor materialları, əfsanələr toplamışdır.

Onun 1982-ci ildə yazıya aldığı "Ağ oğlan" əfsanəsini tarix elmləri namizədi Vaqif Məmməd "Oğuz yurdu" qəzetinin 2000-ci il 18 iyul tarixli sayında nəşr etdirmişdir. Həmin əfsanədəki bəzi məsələlərin izahından əvvəl onun mətnini oxuculara təqdim edirik.

"Yaşı yüzü haqlayan Heyran nənə nağıl edirdi ki, mənim babam Sədərək kəndi ərazisində olan "Cin təndiri", "Cəhənnəm dərə", "Qorxmaz", "Fərhad arxı", "Cindili bulaq", "Şəhər yeri", "Karvansara" və s. yer adları haqqında maraqlı rəvayətlər və əfsanələr danışardı. Həmin əfsanələrdən biri də "Ağ oğlan əfsanəsi" idi. Heyran nənənin babasının nağıl etdiyinə görə, lap qədim zamanlarda indiki Sədərək kəndinin yerində cəmi on-on beş ev var imiş. Adamları çox mehriban və etibarlı olan həmin kəndin dörd yanı meyvə ağacları ilə sıx meşə kimi örtülü imiş. Kəndin adamları o qədər səxavətli, mülayim və qayğıkeş imişlər ki, hamı biri-birinə can deyib, can eşidər, hiylə, yalan nədi heç kəsin ağlına gəlməzmiş. Qış tüğyan edəndə qızlar ətəklərinə dən yığar, yeniyetmə oğlanlar isə ot şələsi götürüb kəndin güneyindəki çeşmənin başına aparar, qarı süpürərək dəni və otu süpürülmüş yerə dağıdarmışlar. Elə onların gözü qabağında çöllərin, dağların quşları gəlib həmin dəni dənləyər, dağ keçiləri – ovlar isə otu yeyərmişlər. Dilsiz-ağızsız heyvanlar kəndin adamlarına o qədər isnişir ki, hətta güllü-çiçəkli yaz gələndə dölə düşən ovlar gəlib həmin çeşmənin başında balalayar, uşaqdan-böyükdən qaçmazmışlar. Həmin ovların sü-

dünü sağıb göy öskürəyin dərmanı kimi uşaqlara içirdiklərini Heyran nənəyə nağıl etmişdilər...

Ulu babaların dediyinə görə, qədim zamanlarda ovların gəlib kənddə sağılması xəbəri dörd yana yayılanda Sədərək kəndinə İrandan, Turandan, Ala dağdan, Qara dağdan çoxlu mühacirlər gəldi. Elə həmin gündən də kənddəki düzlüyün, etibarın üzü döndü elə bil. Dil bilməz heyvanlar da o gedən oldu, getdilər, qayıtmadılar bir də... Kəndə gələn mühacirlərdən bir dərviş ortaya çıxdı ki, mən fala baxmışam. Fal göstərir ki, bu yaxınlıqda cinlər məkanı var. Gecələr cinlər oyanır, ovlar da ürkəyə düşüb qaçırlar dağlara, buna görə də daha onlar kəndə gəlmirlər.

Dərvişin uydurmasına inanan camaat "bais cinlərə" qarğış tökə-tökə kor-peşman evlərinə qayıdır...

Heyran nənə nağıl edir ki, dərvişə qulaq asan insanlar arasında bığ yeri təzəcə tərləyən Qorxmaz adlı bir cavan da olur. O, gəlib dərvişin dediklərini anasına danışandan sonra deyir:

– Anacan dağlarında ov mələməyən, qayalarında kəkliklər qaqqıldaşmayan bir məkanda nə mərdlik olar, nə məhəbbət, mənim xeyir-duamı ver daha mən getdim!...

Ana çox desə də bala az eşidir, qılınc-qalxanını götürüb aylı bir gecədə evdən çıxır. Əslində uzaq bir səfərə çıxdığını deyən Qorxmaz xəlvətləyib evdən bir ağ örtük götürür, yerdəki qardan seçilməmək üçün düm ağ örtüyə bürünərək dərvişin dediyi "ovlar ürkən" yerə gəlib bir daşın dalında gizlənir. Çox keçmir ki, bir ov çəpişi mələyə-mələyə dağdan çeşməyə tərəf enir. Nə biləsən, acındanmı mələyir, yoxsa baş alıb gedən anasından ayrı düşüb onu axtarır... Elə bu vaxt qaraltı sinən yerdən kamandan ox çıxır, ilan kimi fışıldayır, körpə ovun böyrünə sancılır. Zavallı çəpiş ikicə dəfə mələyir. Elə mələyir ki, elə bil "ana", "ana" deyib ün çəkir!

Qaraltı bir göz qırpımında marıqdan qalxıb ovuna tərəf gedəndə Qorxmaz da qartal kimi onun üstünə şığıyır və onu qanına qəltan edir. Haraya, səs-küyə tökülüb gələn kənd camaatı yaralının son sözlərini eşidə bilir. O dili tutar-tutmaz – "məni ağ oğlan... ağ oğlan" sözlərini deyib canını tapşırır...

Canını tapşıran dərviş idi. "Cinlər məkanı" haqda fal açan dərviş...

Heç nə anlamayan kənd camaatı gecənin qaranlığında "ağ oğlan" deyə-deyə, dağı-daşı, dərəni-təpəni biri-birinə vururlar. Ağ oğlan da ki, hələ də gələcək...

Heyran nənə nağıl edirdi ki, həmin hadisənin səhərisi gün ana ov mələyə-mələyə dağdan enib öldürülmüş balasını tapır. Onu əmizdirmək istəyəndə balasının oxlandığını görür. Ana balasının yarasına öz südünü axıdır. Ana südü bala qanı ilə qarışıb daşa dönür. Yumurta qabığı kimi ağ, üstündə də qırmızı ləkələri olan bir daşa... Deyirlər, bir müddətdən sonra həmin daşın dibində bir ardıc ağacı göyərir. Həmin gün dan yeri ağaranda yarpaqlarından damcılar tökülən həmin ardıc ağacı daşa kölgə salır, daşı qızmar günəşdən, qar-yağışdan qoruyurmuş. Kəndin adamları da dəstə-dəstə həmin yerə ağ rəngi ana südündən, qırmızı rəngi bala qanından olan daşın ziyarətinə gedirmişlər.

Bir gün gedirlər ki, kimsə həmin daşı oğurlayıb...

Bir müddətdən sonra ardıc ağacı da alışıb yanır...

İndi Sədərək kəndi yaxınlığındakı Ağ oğlan adlı yerdə yuxarıda deyilənlərdən heç bir əsər-əlamət qalmayıb. Təkcə suyu öləziyib qurumaqda olan bir çeşmə qalıb, bir də nənələrin, babaların yaddaşında qalan bircə bayatı:

Məscidin ocağında,
Şam yana bucağında.
Allah muradın versin,
Ağ oğlan qucağında.

Hal-hazırda "Ağ oğlan" ibadətgahında bir türbə tikilmişdir və bu indi də Sədərək əhalisinin müqəddəs ziyarətgahıdır.

## VƏLİ DAĞI

Bu dağın adı haqqında XX əsrin 20-ci illərinin tədqiqatçısı K.Smirnov belə məlumat verir: "Yaxınlığında Vəli adlı bir dərvişin yaşamış olduğu dağ".

## HUMAY QAYASI

Deyirlər, Humay adlı bir qadın varıymış, uşağı olmurmuş. Niyyət eləyib gedir, başını bir qayanın üstünə qoyub yatır. Ondan sonra uşağa qalır. O vaxtdan o qayaya Humay qayası deyirlər. Camaat ara ziyarətə gedir.

## QURD BABA

Rəvayətə görə, bu dağda Baba adlı qorxmaz, cəsur bir insan təkbaşına yaşadığına görə, həmin şəxsə "qurd", yəni qorxmaz ləqəbi verilmişdir. Bu dağ da həmin insanın şərəfinə Qurd Baba adlandırılmışdır.

## ƏJDƏKAN

Sədərək kəndi məhz bu dağın ətəklərində yerləşir. Bu dağın adının haqqında belə bir xalq rəvayəti vardır:

“Sədərəyin yaxınlığında Əjdəkan dağı var. Dağın altından bir bulaq çıxır, adına Cindili bulaq deyirlər. Rəvayətə görə, bulaq yeddi ildən bir çıxır. Deyirlər, bu bulaq çox suluymuş. Əkini bağ-bağatı onun suyuyla suvarırmışlar. Bir əjdaha gəlib suyun qabağını kəsir, əvəzində gündə bir adam qurban istəyir. Qurban vermirlər. O vaxtdan bulağın suyu kəsilir. Əjdaha yeddi il bir tərəfi üstə yatır, yeddi il də o biri tərəfi üstə. Yeddi ildən bir tərpənib yerini dəyişəndə su gəlir, sonra kəsilir”.

Rəvayətdən də göründüyü kimi, Əjdəkan dağının adı mifik obraz olan əjdaha ilə bağlıdır. “Əjdəkan” əjdahanın məskəni mənasındadır.

## İSMƏT QAYA ƏFSANƏSİ

Ordubadın ucqar kəndlərindən birində bir dağ var. Bu dağ ətrafındakı dağların heç birinə bənzəmir. Xalq arasında ona İsmət qaya deyilir. Nə üçün bu dağ İsmət qaya adlanır. Bu haqda çoxlu rəvayətlər söylənilir. Onlardan ən maraqlısı belədir.

Qədim zamanlarda burada çox qəribə həyat tərzləri, adət və ənənələri olan insanlar yaşayırdılar. Onlar çox uzun ömür sürürdülər. Nadir hallarda bu insanlar yüz yaşa çatmamış ölürdülər. Əgər belə hal baş verirdisə, onda çoxlu söz-söhbət olurdu. Hər bir ailənin, hər bir qəbilənin öz qohumları var idi. Ailə qanunlarını pozan hər bir kəs ciddi cəzalandırılır, hətta ailədən qovulurdu. Belə ailələrdən birində iki qardaş yaşayırdı. Böyük qardaşın əlindən hər iş gəlirdi. Kiçik qardaşın isə qəribə xüsusiyyəti var idi. Bir də görürdün canla-başla işləyir, bəzən isə iş görməyə heç kim onu məc-

bur edə bilmirdi. Evdən çıxıb gedər və keyfi istəyəndə evə qayıdırdı. Valideynlər oğlanın hərəkətindən bezmişdilər.

Kicik qardaş evlənmək niyyəyində idi. Ancaq bu, qəbilənin adət və ənənəsinə zidd idi, böyük qardaş evlənməmiş kicik qardaş evlənə bilməzdi. Bundan əcdadların ruhu inciyər və onlara lənət oxuyardılar. Validenlər çox fikirləşirdilər. Qohum-əqrabaları, ağsaqqalları çağırıb onlarla məsləhətləşdilər. Belə qərara gəldilər ki, böyük qardaşı çağırıb onu razı salsınlar ki, kiçik qardaş ondan qabaq evlənsin.

Böyük qardaş isə evlənmək vaxtını gözləyirdi. Onun evlənmə yaşı çatmışdı, ikinci il idi ki, gözəl bir qızla sevişirdi. Qızla bulaq başında görüşər və evlərinə qədər yola salardı. Qızın valideyləri də bu izdivaca razı idilər. Oğlan istəyirdi ki, tezliklə toy olsun ki, qızın valideynlərini görəndə utanıb başını aşağı əyməsin.

Bir neçə gün keçdi. Böyük qardaş hiss edirdi ki, valideynləri onunla danışmaq istəyirlər. “Deyəsən, mənim evlənməyim üçün söhbət edəcəklər, bəs niyə susurlar? “ – deyə böyük qardaş fikirləşirdi.

Valideynləri kiçik qardaşla söhbət edəndən sonra böyük qardaşla danışmaq qərarına gəldilər. Böyük qardaş çox fikirləşdi, sevgilisi ilə söhbət etdi, axırda razılıq verdi, fikirləşdi ki, birdən kiçik qardaşa bir xəsarət dəyər, o, günahkar olar. Üç gün, üc gecə toy etdilər. Bütün qohumlar valideynlərin bu hərəkətini pislədilər. Çoxları deyirdi ki, bu evlənmənin sonu pis olacaq.

Toydan bir qədər keçdi. Kiçik qardaş doğrudan da dəyişildi. Təsərrüfata yaxından kömək etməyə başladı, evdən aralanmadı. Bu, çox uzun çəkmədi, oğlanın yenə əli-qolu işdən soyudu, evə vaxtı-vaxtında gəlmədi. Bir dəfə bir neçə

gün evə qayıtmadı. Valideynlər narahat oldular. Üç gün onu axtardılar. Onu iki qaya arasında əzilmiş vəziyyətdə tapdılar. Yəqin o evə qayıdan vaxt qayadan düşüb ölmüşdü.

Valideynlər qəm-qüssəyə batdılar. Bu faciə hamını məyus etdi. Qırx gün valideynlər yeni məsələnin həlli haqqında fikirləşməyə başladılar. Deyildiyi kimi, qəbilənin adamları uzun ömürlü idilər, hamı yüz yaşdan artıq ömür sürürdi. Əgər qəbilədən kimsə cavan ölərdisə, onda ölənin arvadı evdən çıxmamalı idi, gəlin ölənin qardaşına, qardaşı yoxdursa, yaxın qohumlarından birinə ərə getməli idi. Böyük qardaş valideynlərinə bildirdi ki, kiçik qardaşının arvadı ilə evlənməyəcək. Valideynlər hədə-qorxu gəldilər və axırda oğlanı razı saldılar.

Deməк lazımdır ki, gəlin kiçik qardaşı dəlicəsinə sevirdi. Onun ölümündən sarsılmışdı. Ağlına gətirə bilmirdi ki, qaynının necə arvadı olacaqdır.

Toy oldu. Gəlin və böyük qardaş uzun müddət səssiz-səmirsiz oturdular. Sonra böyük qardaş durub evdən çıxdı, sonra da gəlin evdən çıxdı. Qəribə də olsa, onların hər ikisi bir-birilərindən xəbəri olmadan dağa çıxmağa başladılar. Hər ikisi dağın təpəsindən özlərini qayaların üstünə atdılar.

Ertəsi gün onların meyidlərini tapdılar. Valideynlər, qəbilənin bütün sakinləri başa düşdülər ki, bütün adət və ənənələrə cəmiyyətdə yer vardır, ancaq mənəvi əzab verən, bədbəxtlik gətirən adət-ənənələrdən imtina etmək lazımdır.

O vaxtdan həmin dağı sədaqət rəmzi olaraq "İsmət qaya" adlandırırlar. İsmət qaya insanaları sədaqətə səsləyir. Öz sevgilərinə böyük qardaş və gəlin kimi sadiq olmağa çağırır. İsmət qaya sanki iki cavanın qətlinə bais olduğundan xəcalət çəkir. Məhz ona görə də, İsmət qaya günü-gündən qocalır, dağılır.

## MEHRİBANLIQ HAQQINDA RƏVAYƏT

Bir gün bir kişi peyğəmbərə müraciət edir ki, mənim var-dövlətim çoxdur, onun azalmasını istəyirəm. Peyğəmbərdən xahiş edir ki, bunu Allah-Təaladan xahiş etsin. Allah-Təala buyurur ki, ona çatdır ki, hansı mal-dövlətinin azalmasını istəyir, onun siyahısını tutsun. Peyğəmbər gəlir həmin kişiyə deyir ki, mal-dövlətinin hansı hissəsinin azalmasının lazım olduğunu ailə üzvlərindən soruş, gətir mənə, aparım Allah-Təalaya oxuyum. Kişi gəlir evə, ailə-uşağını yığır başına, onlardan fikirlərini soruşur. Oğlanlardan biri iri buynuzlu mal-qaraya baxırmış, digəri isə xırda buynuzlu heyvanlara, yəni qoyunlara. Giyəvləri isə bağ-bağata, digəri isə əkin-biçinə baxırmış. Onlar hərəsi öz sahəsində mallarının sayını azaldırlar.

Evdə xırda yaşlı bir qız uşağı varmış. O, heç bir təsərrüfata baxmırmış. Xırda qız atasına müraciət edir ki, sən məndən nə üçün soruşmursan. Atası buna deyir ki, axı, qızım, sən balacasan, heç bir işə baxmırsan. Qız deyir ki, mən heç bir işə baxmasam da, Peyğəmbər buyurub ki, ailə üzvlərinin hamısından soruşun. Burda atası soruşur ki, yaxşı, sən nəyin azalmağını istəyirsən. Qız cavab verir ki, mən istəyirəm hər nəyi azaltsa da, Allah-Təala bizim mehribançılığımızı azaltmasın.

Atası bunları olduğu kimi qeyd edib, gətirir siyahını Peyğəmbərə verir. Peyğəmbər Allah-Təalaya həmin yazını oxuyanda Allah-Təaladan xəbər gəlir ki, mən onların heç bir var-dövlətini azalda bilmərəm. Peyğəmbər sual edəndə ki, nə üçün, Allah-Təala deyir ki, onların kiçik qızları ailənin mehribançılığının azalmasını istəmir. Mən onların var-dövlətini

azaltmaq üçün onların mehribançılıqlarını əllərindən alacaqdım, var-dövlətləri də ona görə azalacaqdı. Mehribançılıqlarını əllərindən almadığıma görə var-dövlətləri də əllərində qalacaq.

Peyğəmbər gəlib həmin söhbəti kişiyə çatdırır və deyir ki, mehribançılıq harda varsa, orda bərəkət, var-dövlət var.

## KİM NƏ EDƏR, ÖZÜNƏ EDƏR

Günlərin bir günü bir dərviş ilahiyyat qəzəllərini deyə-deyə gedir. Hər qəzəlin sonunda deyir ki, kim nə edər, özünə edər. Gəlir bir məhəllədən keçəndə yenə həmən ilahiyyat qəzəlini deyir və sonunda deyir ki, kim nə edər, özünə edər.

Bu söhbəti təndirdə çörək bişirən bir qadın eşidir, dərvişin bu sözündən xoşu gəlmədiyinə görə dərvişə qəsd eləmək fikrinə düşür və dərvişə deyir ki, dərviş qardaş, qayıdan başı burdan keçsən, sənə təzə çörək verərəm.

Dərviş razılaşır. Qayıdan baş o, dərvişə cörək verir.

Dərviş təşəkkür edib yola düzələndə qadın deyir ki, bir neçə saatdan sonra baxarıq kim özünə nə edib. Dərviş çörəyi xurcuna qoyub yola düşür. Kəndin çıxacağında sərin bir çeşmənin yanında oturub çörək yemək istəyəndə atın üstündə gözəl-göyçək bir oğlan ona yaxınlaşır və deyir:

– Dərviş əmi, yeməyə nəyin vardı, mən bərk acmışam.

Dərviş ona verilmiş cörəyi oğlana verib deyir, bunu ye. Oğlan yoluna davam edə-edə ona verilən çörəyi yeyir. Bir zaman hiss edir ki, onun ağzı-burnu qana tirid olur. Bu halət ilə evlərinə yaxınlaşanda anası bunu qarşılayıb “ay bala, sənə nə oldu” deyir, cavabında isə oğlan deyir ki, dərviş mənə

çörək verdi, yedim, bu hala düşdüm. Arvad isə başına gözünə döyə-döyə oğlunun bu halına acıyıb deyir:

– Dərviş dedi ki, kim nə edər özünə edər. Özüm öz əlimlə oğlumu xataya saldım.

## GÜC BİRLİKDƏDIR, TƏK ƏLDƏN SƏS ÇIXMAZ

Dahi bir qoca öz övladlarını başına yığıb onları çağırdı və dedi ki, uşaqlarım, hərəəz gedib bir çubuq qırın gətirin. Uşaqlar gedib hərəsi bir çubuq qırıb gətirdi. Onlara dedi ki, hərə öz çubuğunu qırsın. Uşaqlar əyərək çubuğu ortadan qırdılar. Sonra isə kişi dedi ki, yenə gedib hərəəz bir çubuq qırın gətirin. Çubuqların hamısını kişi bir yerə yığıb möhkəm bağladı. Əvvəl verdi altıncı oğluna dedi ki, bunu ortadan qır. Kiçik oğlan nə qədər güc elədi, həmin çubuqları qıra bilmədi. Bunu görən ikinci oğlan gülməyə başladı və dedi:

– Ata, onu ən kiçik, qüvvəsiz görüb ona görə çubuqları qırmağa ona verdin?

Atası çubuqları ikinci oğlana uzadaraq dedi, buyur, sən qır. O da qıra bilmədi. O biri uşaqlar gülüşməyə başladılar. Bu gülüşməni görən ata bütün uşaqlarından bu çubuqları tək-tək qırmalarını istədi. Böyük oğlan çubuqları götürüb dedi ki, ata mən çubuqları qıraram, mən bunların hamısından qüvvəliyəm. Atası bağlanmış çubuqları böyük oğlana verdi. Böyük oğlan nə qədər elədi, o çubuqları qıra bilmədi. Bunu görən ata dedi ki, mənim balalarım, siz birlikdə olsaz, heç kəs sizi qıra bilməz. Ata uşaqlara birliyin nə olduğunu izah

etdi. Bunu görən uşaqlar həmin vaxtdan birlikdə işləyib, birlikdə yaşadılar.

## SÜD MƏSCİDİ

Yuxarı Əndəmic kəndinin dağ tərəfində bir məscid yerləşir. O məscidin yanında böyük bir çinar və çeşmə vardır. Ordubad rayonunun əksər məscidlərinin yanında çeşmə ilə çinar vardır. Süd məscidi bizim eramızdan əvvəl inşa olub və oradan çıxan suyun xüsusi bir özəlliyi vardır. Heç bir mənbəyi olmayan bir yerdən su çıxır. Rəvayətə görə, həmin yerdən su əvəzinə süd çıxırmış. Təzə uşağı olan qadınlar südləri olmadıqda həmin çeşmədən süd doldurub öz uşaqlarına verərmişlər. Rəvayətə görə, bəzi insanların natəmizliyindən həmin çeşmənin südü qurumuş, əvəzinə isə su gəlmişdir. İnancı olan analar həmin məsciddə ibadət eyləyib, südləri olmadığı səbəbindən Allah-Təaladan rica edərək döşlərini həmin su ilə yuyub südlərinə qovuşarmışlar.

## QIZIL KÖRPÜ

Pulu qazanmaq asandır, xərcləmək çətin. Xudafərin körpüsünü tikən kəs günlərin bir günü bir usta ilə razılaşır ki, o, körpünü tiksin. Bundan əvvəlin insanları tanımadıqları kəslərlə iş görməzmişlər. Usta bu kişini onun necə pul xərcləyəcəyindən xəbərdar olmaq üçün izləyir. Usta baxır ki, yumurta alan bu kişi yumurtanı əlində tutduğu halqadan keçirərək alır. Halqadan keçən yumurtaların kiçik olduğunu görən

kişi bunları almır. Bunu görən usta bu kişidən soruşur ki, körpü harada tikiləcəkdir. Kişi ustanı Araz çayının qırağına gətirərək cibindən qızıl pul çıxardır və Arazın ortasına tullayaraq deyir:

– Burdan tikiləcək.

Usta da belə bir sual verir:

– A kişi, sən yumurtanı halqadan keçirdərək alırsan, nə üçün körpünün təməli qoyulan yerə pul ataraq təməlin yerini müəyyənləşdirirsən?. Məgər ora xırda bir daş tullamaq olmazdımı?

Həmin kişi isə cavabında deyir:

– Pulu qazandığım kimi xərcləyirəm. Mən əbəs yerə pulu ora atmadım. Bu körpü qızıl kimi qiymətli olacaqdır. Bu körpü Azərbaycanı birləşdirəcəkdir.

Bunu görən usta ürəklənir və həmin körpünün inşasına başlayır. Bu kişinin belə pul xərclədiyini görən ustanın şəyirdi həmin kişiyə deyir:

– A kişi, ikinci bir körpünü tikmək istəyirsənsə, mən də səninlə körpü tikməyə hazıram.

Kişi həmin şəyirdlə ikinci körpünü tikmək üçün razılıq verir. Körpünün birindən insanlar, birindən isə karvanların keçməsi üçün istifadə olunur.

## NƏ TÖKƏRSƏN AŞINA...

Bir evdə toy olur. O evə gəlin gətirirlər. Qaynana gəlinə gəlib üzərlik salır. Gəlin yavaşca əyilib qaynananın qulağına deyir ki, evin əyəsi gəldi. Qaynana cavabında heç nə demir. Allaha yalvarır ki, bu gecə ona bir oğlan ver, mənə də ömür

ver ki, onun gəlin gətirdiyi günü görüm. Aylar ötür, illər keçir. Gün o gün olur ki, qaynananın gəlini evinə gəlin gətirir. Həmin qaynana gəlini qırağa çəkib deyir ki, qaynanan sənə üzərlik salanda əyilib qaynananın qulağına deyərsən ki, evin əyəsi gəldi. Gəlin deyir ki, mən deyə bilmərəm. Həmin qaynana deyir ki, mən böyüyəm və deyirəm ki, deyərsən.

Qaynana gəlinə üzərlik salanda gəlin əyilib qaynananın qulağına deyir ki, evin əyəsi gəldi. Qaynana bu sözləri eşidib qaçıb bir yerdə gizlənir. Qaynanası gəlini axtarır və bir yerdə tapır. Qaynanası gəlindən nəyə görə belə qəmgin olmasının səbəbini soruşanda gəlin deyir ki, bəs sənin xəbərin yoxdur ki, gəlin mənə dedi ki, evin əyəsi gəldi. Qaynana deyir ki, nə olsun, sən də mənə belə söz demişdin. Gəlin deyir ki, qaynana sənin də ürəyin yanmışdı? Qaynana deyir ki, hə, elə mənim də ürəyim yanmışdı, qoy indi də sənin ürəyin yansın.

## ƏSHABİ-KƏF

Bu barədə "Qurani-Kərimin" "Kəf" surəsində xəbər verilir. Rəsulu Əkrəmin dövründən əvvəl haqsızlıq çox idi. Böyük kiçiyə, padşahlar rəiyyətə çox haqsızlıq edərdilər. O, dövrdə padşahın zülmündən qaçan üç nəfər şəxs qaçıb Əsabi-kəf dağında gizlənmişlər. Gecə yuxuya getmişlər. O zaman Allahın möcüzəsi ilə dağ üz-üzə gəlib qovuşmuşdur. Üstündən üç yüz il keçəndən sonra yenə Allahın hökmü ilə həmin dağ ayrılmışdır. Bunlar yuxudan ayılır və onlardan birini yaxın kəndlərdən çörək almağa göndərirlər. O, kəndin bazarına gəlir. Çörək almaq məqsədilə pulu çörək satana uzadaraq deyir ki, mənə çörək ver. Çörək satan pulun üç yüz

il bundan qabaq olduğunu, indi də bu pulun işlənmədiyini deyir. İnsanlar bundan xəbər tutur. Həmin insanın sözlərinə inanmırlar ki, dünən yatıb bu gün durublar. Bunu görən bu adam üz tutur həmin dağa tərəf qaçmağa. Gəlib öz yoldaşlarına deyir ki, biz üç yüz ildir ki, burda yatmışıq. İndi başqa dövrandır. Yoldaşları Allaha üz tutaraq deyirlər ki, bizi həmin insanlarla qovuşdurma, biz onlarla yollaşammarıx. Allahın möcüzəsindən yenə həmin dağ qovuşur, bunlar həmin dağın içində qalırlar. Onların dalınca gələn kəslər isə bu möcüzəni öz gözləri ilə görürlər. Allahdan arzu edirlər ki, heç vaxt haqsızlıq olmasın.

## MALİKİ İBRAHİM

Belə bir rəvayət var ki, Maliki Əjdər, yəni Maliki İbrahimin atası Həzrəti Əlinin ən yaxşı sərkərdəsi idi. Maliki Əjdər öldürdükdən sonra Maliki İbrahimin on səkkiz yaşı yox idi. Maliki Əjdər Həzrət Əliyə Maliki İbrahimi tapşıranda belə buyurub:

– Ya Əli, nə qədər ki, Maliki İbrahimin on səkkiz yaşı yoxdur, mənim atıma minməsin.

Maliki İbrahim çox maraqlanır ki, atası nə üçün belə söz deyib. Bir gün Maliki İbrahim Həzrət Əlidən gizlin atasının atına minir. At Maliki İbrahimi götürüb qaçır. At İrandan keçdikdən sonra Ordubada gəlib çatır. Hətta həmin atı Bütküşdən su içəndə insanlar görüblər.

Bunlar Ordubada gəldikləri zaman da Ordubadda bir sultan varmış. Onun qızı Ordubadda Maliki İbrahimi görüb vurulmuşdu. Maliki İbrahim də qıza vurulmuşdu. Sultan isə

qızının Maliki İbrahimlə evlənməsinə razı deyildi. O biri yandan isə Həzrət Əlinin sərkərdələri eşidir ki, Maliki İbrahim atı götürüb qaçıb. Onlar da Ordubada yola düşürlər. Elə bu zaman da Sultan görür ki, qızı Maliki İbrahimlə qaçmaq istəyir. O da adamlarını ayağa qaldırır. Maliki İbrahimin adamları ilə Sultanın adamları toqquşurlar. Hər iki tərəf arasında böyük bir qanlı vuruşma olur. Hər iki qoşunun itgisi çox olur. Nəticədə hər iki ordu batır. Elə Ordubadın mənası da "ordu batan" deməkdir. Bu vuruşmada Maliki İbrahim isə qeyb olur. Maliki İbrahimin qeyb olduğu yeri isə onun adına ziyarətgah edirlər. Ordubadda Maliki İbrahimin qəbiristanlığı vardır.

## BƏLKƏ DAĞI

Deyirlər ki, Nuh babamız öz gəmisiylə bu tərəflərə gəlib. Gəminin altı sularda nəyəsə toxunanda, Nuh babamız, "bu, Bəlkə də dağdı" – deyib. Beləcə, Ordubaddakı dağların birinə "Bəlkə" adını Nuh babamız özü verib. Deyirlər ki, Nuh babamız öz gəmisini sulardan boylanan dağda əyləyib. Dağ gəmiyə, gəmi dağa qovuşub, indi ordubadlıların müqəddəs Türbə kimi baxdıqları "Gəmiqaya" beləcə yaranıb. Çoxları o dağın zirvəsində Nuh babamızın gəmisinin qalıqlarını öz gözləriylə gördüyünü söyləyir.

## BƏLKƏ DAĞININ YARANMASI

Deyilənə görə, bir arvadın yoldaşı dağa çıxır. Arvad nə qədər gözləyirsə, yoldaşı gəlib çıxmır. Onun oğlu da atasını

axtarmaq üçün dağa çıxır. Arvad nə qədər gözləyirsə, oğlu da, yoldaşı da gəlmir. Arvad özü onların dalınca gedir. O, Bəlkə dağının ətəyində öz oğlunu və yoldaşını gözləyir və deyir "bəlkə ölüblər, bəlkə də qalıblar". Ona görə bu dağın adı Bəlkə dağı adlanıb.

## BƏLKƏ QAYITDIM DAĞI

Kim Ordubadda olursa, buranı divar kimi əhatəyə alınmış, zirvələri qarla örtülmüş dağları heyrətlə seyr etməyə bilməz. Dağların gözəlliyinə, zirvələrin təkrarolunmazlığına heyran olar. Qəribədir ki, yan-yana duran dağlardan ikisi bir-birindən təsəvvür olunmaz dərəcədə fərqlənir. Dağlardan biri ətəyindən başlamış zirvəsinə kimi yaşıllığa bürünmüş, o birisində isə canlı aləmdən əsər-əlamət belə yoxdur. Hər bir dağın öz adı var. Vənənd dağı, Qapıcıq, Vəli dağ, Qırxlar, İsmətqaya, Gəmiqaya və bu adların hamısı əfsanə və rəvayətlərlə bağlıdır. Bu dağlar içərisində öz qəribə adları ilə fərqlənən bir dağ da "Bəlkə qayıtdım" adlanır.

Belə rəvayət edirlər ki, o vaxtlar bu dağın ətəyində bir qəbilə yaşayırdı. Qəbilə çox böyük idi, qəbilənin başçısı isə o diyarda ən güclü və varlı adam sayılırdı. Başqa qəbilələr bu qəbilənin şən və firavan yaşamasına, buranın çiçəklənməsinə həsəd aparırdılar. O qəbilələrin başçıları isə bu qəbilənin başçısı ilə yaxınlaşmaq və yaxud qohum olmaq istəyirdilər. Qəbilə rəhbərinin Nazəni adlı gözəl bir qızı var idi. Qızı Qismət adlı bir cavan sevirdi. Qız da oğlanı sevirdi, fəqət əsl-nəcabətli, varlı, adlı-sanlı yerlərdən elçi gözləyirdilər. Elçilər bir-birinin ardınca gəlməyə başladılar. Qız bütün el-

çilərə rədd cavabı verirdi. Qızının bu hərəkəti atanı narahat edirdi. O, şübhələr içərisində çabalayırdı. Nəhayət, qızın atası Nazəninin sirrini onun yanında olan qızlardan öyrəndi. Ata çox hirsləndi. Uzaq bir ölkədən elçilərin gəlişini gözləyirdi. Ata qızından tələb etdi ki, bu elçilərə müsbət cavab versin. Nazəni atasına yalvararaq ondan xahiş etdi ki, bu məsələnin həllini bir az təxirə salsın. Ata qızın xahişinə əməl etdi. Qızın atasının səbri tükəndi. Ata başa düşdü ki, nə qədər Qismət sağdır, onun qızı başqa bir adama ərə getməyə razılıq verməyəcək. Qəbilənin başçısı hiyləyə əl atmalı oldu. Qəbilənin yaşayış yerindən bir az aralı uca dağ var, onun zirvəsinə qalxmaq çətin idi, oraya qalxan isə geriyə qayıda bilməzdi. O dağın zirvəsində rəngarəng lalələr bitirdi. Lalələrin gözəlliyinə Nazəni uzaqdan heyran olmuşdu. Bunları yaxşı bilən ata Qisməti yanına çağırıb dedi:

– O dağın zirvəsindəki lalələrdən bir dəstə gətirə bilsən, qızımı sənə verəcəyəm, yox gətirə bilməsən, qızımdan əl çəkməlisən.

Nazəniyə olan məhəbbəti Qisməti bu ağır təklifi qəbul etməyə vadar etdi. Qəbilənin bütün üzvləri Qisməti yola salmağa gəlmişdi. Atasının hədə-qorxusuna baxmayaraq, Nazəni də yola salanlar arasında idi. Dağın ətəyində Qismət Nazəniyə nəzər salıb dedi: “Bəlkə qayıtdım”. Sonra iti addımlarla dağa tərəf getdi.

Günlər keçdi, cavan isə qayıtmadı. Nazəni hər gün dağın ətəyində Qisməti gözləyir, göz yaşı tökür və dönə-dönə təkrar edirdi: “Bəlkə qayıtdın”, “bəlkə qayıtdın”. Nazənini bu ayrılığa dözə bilməyib dağın ətəyindəcə öldü. Nəhayət, indi qızın atası başa düşdü ki, o nə qədər qəddar imiş. Artıq gec idi. Nazənini dağın ətəyində dəfn etdilər. Qəbrinin ya-

nında bir çinar ağacı bitdi. Yolçular dincəlmək üçün ağacın kölgəsində oturar və təəccüblə yarpaqların pıçıltısına qulaq asırdılar. Sanki yarpaqlar da "bəlkə qayıtdım" deyə pıçıldayırdılar. Elə o vaxtdan bu dağ "Bəlkə qayıtdım" dağı adlanır.

## QARA ASLAN ƏFSANƏSİ

Aslan adlı çox qoca bir xan vardı. Xanın qoca olmasına baxmayaraq, nə bir oğlu, nə də bir qızı vardı. Bir gün Aslan xanın xanımı oturub ağlamağa başlayır, "ah – deyir, – sən artıq çox qocaldın, əgər bir gün qonşumuz, baş düşmənimiz Kərim gəlib bizi öldürərərsə, malımızı-mülkümüzü talıyarsa, biz nə edərik?"

Doğurdan da, bir gün Kərim xan gəlir, Aslan xanı öldürür, malı-mülkü və nəyi varsa, hamısını talayır. Xanımının da gözlərini kor edərək bir ata bağlayır.

Aslan xanın iki vəziri vardı. Yurdda bunlardan başqa kimsə qalmamışdı. Bir gün böyük vəzir yanmış və dağılmış yurdda gəzərkən bir uşaq səsi eşidir. Aslan xanın otağına doğru yaxınlaşır və xanın bir oğlu olduğunu görür. Vəzir çox sevinir və bir yandan da qorxur: "Kərim xan duyarsa, bu uşağı öldürər" deyə öz-özünə gileylənir. Həmən yerdə bir quyu qazdırır, üzərini örtür və uşağı oraya saldırır. Quyunun içinə iki dənə də boru uzatdırır ki, uşağın südü və yeməyini burdan versinlər.

Kərim xan Aslan xanın bir oğlu olduğunu eşidir, cin atına minir. O dəqiqə bir ordu toplayır və Aslan xanın yurduna gəlir. Deyir:

– Uşağı mənə verin.

Amma heç kəs ağzını açıb belə bir uşaq olduğunu demir. Bu dəfə Aslan xanın xanımını tutub gətirirlər, döyürlər, qılınclayırlar, amma heç bir vasitə ilə uşaq haqda bir söz ala bilmirlər. Doğurdan da, uşağın yerini anası ilə böyük vəzirdən başqa heç kimsə bilmirdi. Ikinci vəzir isə xəyanət edir və möhkəm bağırır:

– Tez eləyin, uşağı tapın.

Üzünü Kərim xana çevirib deyir:

– Nə olur-olsun bu uşağı tapmalıyıq. Yox əgər bu uşaq yeddi yaşına çatıb böyüyərsə, hamımızı məhv edər.

Çox axtardılar, uşağı quyunun içindən tapıb gətirdilər. Kərim xan uşağı əlinə alan kimi qılıncı ilə vurur. Vurur, amma qılınc uşağı kəsmir. Nə edirlərsə, uşağı öldürə bilmirlər. Nəhayət, "uşağı yandırmaqdan başqa çarə yoxdur" deyirlər. Bir az odun toplayıb böyük bir ocaq qalayırlar. Uşağı ocağa atacaqları anda bir atın nal səsləri eşidilir. Bir atlı quş kimi uçaraq uşağı alır və sürətlə uzaqlaşır. Bu adam uşağın əmisi Atəş xan olur. Əmisi uşağı böyütməyə başlayır. Uşaq iki-üç aylıq olanda Allah tərəfindən yeriməyə, qaçmağa başlayır. Əmisi ata minir, o da minir. Əmisi ova gedir, o da silahlanıb gedir. Ov ovlayır, quş quşlayır, geri dönür. Əmisi ona bir at bağışlayır. Çıxırlar bir yerdə göyün otuzuncu qatına. Günlərin birində məhlənin uşaqlarından biri oğlana sataşır. Oğlan bir yumruqla uşağı yarı ölü halda yerə sərir. Əmisi bunu eşidəndə çox sevinir. Böyük qonaqlıqlar verir, şərablar paylaşdırır. Sonra oğlana ad qoyma mərasimi təşkil elətdirir. Oğlana Qara Aslan adı qoyurlar. Bir gün obanın qadınları Qara Aslanı çağırıb deyirlər:

– Göyün yeddinci qatında mavi bir dəniz var. Bu dənizin içində də bir qorxunc heyvan yatır. Sabah hamımız

birdən otuz qız uşağı dünyaya gətirəcəyik. Bununla da sayımız artacaq. Eşitdiyimizə görə, bu canavar gəlib hamımızı yeməyə hazırlaşır. Nə olar, get bu canavarı öldür, canımızı xilas et.

Oğlan bunu eşidincə minir atına, çıxır göyün üzünə. Göyün yeddinci qatını aşır. Baxır ki, qarşıda mavi bir dəniz görünür. Dənizin içində də bir canavar uzanıb yatır. Elə bir canavardır ki, boyu dünyanın bir ucundan o biri ucuna gedib çatır. Elə bir qulaqları var ki, hər biri qara qoça bənzəyir. Oğlanın qara atı canavarı görən kimi ürkür, özünü də buraxıb qaçır. Oğlan canavarla yeddi il savaşır və sonunda canavarı öldürərək dərisini çıxarıb gətirir. Qadınlar canavarın dərisini uzaqdan görüncə qışqırırlar:

– Amandır, canavar gəlir.

Sonra işin əslini örgənir, həyatlarını xilas etdiyi üçün oğlana çox təşəkkür edirlər.

## ZOĞAL MƏSƏLƏSİ

Belə rəvayət edirlər ki, Ağdam rayonunda Valeh adlı bir aşıq var imiş. Aşıq Valehin Şuşa qalasında Allahqulu adlı bir dostu var imiş. Aşıq Valehin əli bixərc olduğu üçün dostu Allahquludan əlli manat pul borc edir. Pulu verərkən dostu Valehə deyir ki, pulu bir ay müddətdində qaytararsan. Ancaq Valehin başı işə qarışır. Allahqulu verdiyi vaxtdan bir neçə müddət keçir. Allahqulu verdiyi vaxta Valeh pulu çatdırıb verə bilmir.

Yay fəsli imiş. Valeh dostu Allahqulu ilə Şuşa qalasında təsadüfən rastlaşırlar. Dostlar görüşdükdən sonra Allah-

qulu görür ki, dostu Aşıq Valehin əli bexərcdi. Yenə pulu ala bilməyəcək. Öz-özlüyündə götür-qoy edir, sonra deyir ki, o Allah haqqı gərək Valehin başına elə bir oyun açam ki, atasının toyu yadına düşə. Allahqulu yağlı dilini işə salaraq başdıyır Valehin başına yeni sövda salmağa. Yaltaqlanaraq Valehə deyir:

– Qardaş, sən gəl mən deyəni eşit. Sazı qoy evə, bir neçə müddət alverçiliklə məşğul ol.

Valeh təəccüb edir və deyir:

– Ay qardaş, mənim 30-35 yaşım var, ancaq alverçiliklə məşğul olmamışam. Mənimki odur ki, bir saz ola, bir məclis.

– Əşi, gəl sən mən deyəni eşit. Bununla bəlkə əlinə bir maya salasan. Həm də mənim bocumu verə biləsən.

Valeh bir qədər fikrə getdikdən sonra deyir:

– Ay qardaş, elə düz deyirsən, razıyam. Ancaq mənim elə bir satmalı şeyim yoxdur.

– Ay qardaş, sən lap avam imişsən. Axı sizin yerdə meşə çoxdur. Meşədə də ki, hər cür meyvə. Yığ bu meyvələrdən apar bazarda bala-bala sat, özün üçün maya topla. Ancaq bizim bu bazarda zoğal çox mataxdır. Əgər bir az gətirə bilsən...

Bu sözlər Valehin ağlına batır, Allahqulunun siyasətinə inanıb deyir:

– Ay qardaş, mənim nə ulağım, nə də ki, zoğalım var. Heç birisi yoxdur.

– Ay Valeh, sən lap avam imişsən. Bir qonşudan bir ulax al, o biri qonşudan isə zoğal al. Gətir çıxar bura. Mən zəhmət çəkib sataram. Zoğal yiyəsinin pulunu özünə verərsən, qalan pullar isə sənə qazanc qalar.

Valeh Şuşa qalasından evə qayıdır. Qonşularının birindən zoğal, o birindən at, digərindən eşşək, dördüncüsündən bir öküz alır. Zoğalın hamısını yığır səbətlərə, yüklüyür ulaxlara. Birbaş bazar deyib, daban alır Şuşa qalasına. Özü də bir dəst ağ paltar geyinir. Valeh gedərkən arvadı Valehə deyir ki, Valeh, Şuşu qalası tərəfdə düyü çox olur. Qayıdıb gələndə bir torba düyü alıb gətirərsən. Valeh, "baş üstə" – deyib, arvadla görüşüb, yolun binasını qoyur.

Valeh bir müddət yol getdikdən sonra gəlib körpüyə çatır. Valeh oturub burda çörək yeyir, sonra yola düşür. Toran düşən vaxtı Valehi bir möhkəm yağış tutur ki, vallah, necə deyərlər, "tut yağışın ucundan, çıx göyə". Valehin paltarı nazik, həm də ağ imiş. Zoğal yetişdiyi üçün dolu tamamilə zoğalı əzib puça çıxardır. Səbətin altınnan zoğalın qırmızı şirəsi axmağa başlayır. Ulaxlar özlərini tamam itirirlər. Hərəsi ağzını tutur bir yana. Ulaxlar bir-bir yükü yıxırlar. Valeh qaranlıqda ulaxların yükünü yükləməyə başlayır. Ulağı yükləyərkən zoğalın qırmızı şirəsi Valehi tamamilə boyuyur. Gecənin bir vaxtında Valeh çox əzab və əziyyətdən sonra özünü qardaşı Allahqulunun həyətinə yetirir. Qapını döyür. Qardaşı Allahqulu görür ki, Valehin axır nəfəsidir. Valehi tez otağa keçirir. Özü deyir ki, qardaş sən otur dincəl, mən özüm ulaxları rahatlayaram. Allahqulu ulağın palanını götürüb, ötürür erməni qəbristanlığına, atın yəhərini götürüb qapıda dirəyə bağlayır. Öküzü isə həyətə buraxır. Valeh deyir ki, qardaş, ulaxları neylədin. Allahqulu Valehi oturdub deyir ki, lap ərxeyin ol, hamısını yerbəyer eləmişəm.

Səhər tezdən Valeh durub baxır ki, eşşək yoxdur. Eşşəyi axtarır, görür ki, eşşəyi erməni qəbirstanlığında canavar yeyib. Qayıdıb evə gəlir, baxır ki, at qəysər olub, quruyub,

elə ayaq üstə qalıb. Allahqulu deyir ki, qardaş, bunun dilini mən bilirəm. Bəs burda yaxşı qoyun peyini var. Gətir yabını basdıraq peyinə at dirilsin. Atı peyinə basdırırlar. At peyinin içində ölüb qalır. Yazıq Valeh səbətləri həyətə boşaldıb yükləyir öküzə. Kor-peşman evə qayıdır. Görək Valehin başına nələr gəlir. Yazıq Valeh yola düşən kimi Allahqulu qaçıb lotuların ovucuna bir az pul basıb deyir ki, gedin uçurumun yanında durun, bir nəfər öküzlə gedir, onun öküzünü uçurumdan ürküdüb yıxın. Lotular Allahqulunun dediyi kimi edirlər. Gəlib uçurumun yanında dururlar.Valeh gələn kimi öküzü ürküdüb uçurumdan salırlar. Valeh yıxıla-yıxıla gəlib uçurumun ayağında öküzün başını kəsir. Burdan birbaş gəlib şəhərdən bir at arabası gətirir. Öküzün ətini aralayır, yükləyib bazara aparır. Allahqulu bütün qəssabları öyrədib deyir ki, öküzün əti təmiz deyil, haramdır. Heç kəs öküzün ətini almır. Valeh çar-naçar qalıb evə qayıdır. Bu vaxtı arvadı Valehi görcək aşın suyunu qoyur ocağın üstünə. Valeh özünü evə yetirib düncəlmək istəyirdi ki, bir də baxıb gördü ki, ulaxların sahibi və zoğal sahibi özlərini təngnəfəs Valehin yanına yetirdilər. Bir az söhbətdən sonra eşşək sahibi özünü saxlaya bilməyib deyir ki, qardaş, bir neçə yük otum var, hamısı qalıb çöldə, indi gedək, səni gözləyirəm ki, eşşəyi gətirib çatdırasan. Bəs gedib otumu gətirəm. Bu tərəfdən isə Valehin arvadı tez-tez gəlib deyir ki, Valeh, aşın suyu üstündə qaynayır, düyünü ver bişirim, sən də indi acsan. Valeh bir az fikir etdikdən sonra deyir:

– Arvad, mənim sazımı ordan ver mənə, düyünü verim. Bir də ki, düyü evdə olar.

Valeh sazın zilini zil, bəmini bəm edib, alır görək arvada nə deyir:

Arvad, eşitginən sənə söyləyim,
Mən belə bazarın nəyinə gəldim.
Mağdurum puç dolu, pula getmədi,
Getdim, Allahqulnun vayına gəldim.

Matax satılmadı mən alam düyü,
Dağıldı mağdurum, qalmadı diyi,
Eşşəyi canavar yedi, boş qaldı səbət tiyi,
Düşdüm yola, deyinə-deyinə gəldim.

Eşşək yiyəsi dedi:

– Vay evim yıxıldı. Ot qaldı çöldə.

Ürəyində Valehə söydüsə də, ancaq aşkara da bir söz demədi.

At yiyəsi irəli gəldi ki, qardaş, bəs mənim atım necoldu? Atı nə elədin? Valeh dedi ki, bu dəqiqə deyim atı neylədim:

Qardaş, eşitginən sözüm müxtəsər,
At orda qalacaq bu il sərbəsər.
Yaman dolu vurdu, yabı oldu qeysər,
Atını basdırdım peyinə gəldim.

Öküz yiyəsi irəli durub dedi:

– Bəs, qardaş, öküzü neylədin, xırmanım mətəl qalıbdır.

Valeh aldı görək öküz sahibinə nə dedi:

Bu dünyada belə talan olmadı,
Mənim kimin mağmın qalan olmadı.

Öküz öldü, ətin alan olmadı,
Düşdüm lotuların küyünə gəldim.

Zoğal yiyəsi irəli durub dedi:

– Qardaş, bəs mənim zoğalım necoldu? Canavar yemədi, yıxılıb ölmədi. Bəs mənim mataxımı neylədin?

Valeh aldı görək zoğal sahibinə nə dedi:

Valeh burdan yükləmişdi uç ulax,
Səbətin altından açıldı bulax.
Qaldı bir cəcəyi, bir də sapalax,
Tökdüm Allahqulnun goruna gəldim.

Zoğal yiyəsi dedi ki, qardaş, mən malımı bağışladım. At, eşşək və öküz yiyəsi gördü ki, Valeh cərmiyə düşüb, dedilər ki, biz də öz malımızı bağışladıq. Bununla Valeh cərimədən qurtardı.

## QIZIL GÜL HAQQINDA ƏFSANƏ

Qədim vaxtlarda bu yerlərdə bir varlı xan yaşayırdı. Özünün cavanlığı, gözəl bədən quruluşu, varidatı, xoş xasiyyəti ilə o, bu diyarın gözəl qızlarını məftun etmişdi. Ancaq onlardan heç biri onun qəlbinə sahib ola bilməmişdi. Xanın bacısı gördü ki, bu yerlərdə xanın ürəyinə yatan qız yoxdur, qərara gəldi ki, onu səyahətə göndərsin, özü üçün bəlkə o yerlərdə bir gözəl tapa. Ayrılıq günü gəldi. Xanın bacısı qardaşına tapşırdı ki, Şərgin ən gözəl qızını özü ilə gətirsin.

Xan çox yerləri gəzdi, dolaşdı, bərli-bəzəkli saraylarda oldu. Özünün alicənablığı ilə hamının hörmətini qazandı. Varlılar xan ilə qohum olmaq məqsədilə öz qızlarını ona göstərdilər. Xan isə özü üçün o gözəllər içərisindən bir gözəl seçə bilmədi. Evə qayıdarkən yolda istirahət etmək üçün bir bulağın yanında dayandı. Bulağın yanında al-qırmızı güllərə bürünmüş gül kolları var idi. Güllərin ətri xanı məst etmişdi. Xan təəccüb etdi ki, indiyə kimi o, belə gül görməmişdir. Bu gülgarlıqda xan bir qız gördü. Deyəsən, o, ən gözəl bir gül axtarırdı. Qız çox gözəl idi. İlk baxışdan qız xanın xoşuna gəldi. O, qızın yanına gəlib güllər haqqında soruşdu. Qız dedi ki, bu güllərə qızıl gül deyirlər. Məlum oldu ki, onları qızın atası becərir.

Xan xahiş etdi ki, onu qızın atası ilə görüşdürsün. Qız xanı evlərinə gətirdi, özü isə gülgarlığa qayıtdı. Xan qızın xoşuna gəlmişdi, ancaq qızın öz istəklisi var idi. O, istəklisi ilə gülgarlıqda görüşdü. Qız gülləri çox sevirdi və onlarsız yaşaya bilmirdi.

Xan bağbanla tanış oldu və onun qızı ilə evlənmək arzusunda olduğunu bildirdi. Bağban razı oldu. Qız atasına nə qədər yalvardısa ki, onu ərə verməsin, atası razı olmadı. Atasının inadkarlığını görən qız son dəfə onun güldarlığa getməsinə icazə verməsini xahiş etdi. Qız orada sevgilisi ilə görüşüb onunla vidalaşmaq istəyirdi. Xan bağbandan xahiş etdi ki, gül kollarından bir neçəsini ona versin. Bu güllər xanın vətənində bitmirdi. Yolda xan fikirləşirdi ki, qız bacımın xoşuna gələcəkmi, axı, o, xan nəslindən deyildi, adi bağban qızı idi.

Xan öz vətəninə qayıtdı. Qız hamının, eləcə də xanın bacısının xoşuna gəldi. Üç gün, üç gecə toy çalındı. Bütün

bu günlərdə gəlin göz yaşı tökdü. Xan və bacısı fikirləşirdi ki, yəqin bu, doğma yerlərdən, atadan ayrılıqdan irəli gəlir, bir vaxtdan sonra qız bu yerlərə öyrəşəcək. Günlər keçdi, xan günbəgün öz sevgilisini daha çox sevir, onu müxtəlif bəxşişlərlə sevindirmək istəyirdi. Qız isə aramsız olaraq ağlayır və günü-gündən solurdu. Bir gün qız onun vətənindən gətirilmiş qızıl güllərin açdığını gördü. Qızın sevincinin həddi-hüdudu yox idi. Bu, çox da uzun sürmədi. Qız yenə tənha oturub ağlayırdı. Xan da qəm-qüssəyə batdı. Xanın bu vəziyyətini eşidən bir yolçu qadın belə bir məsləhət verdi ki, qızın otağındakı stolun üstünə müxtəlif yeməklər və bir dəstə gül qoyulsun. Əgər qız otağa daxil olan kimi yeməklərə tərəf getsə, deməli, ona doyunca yemək vermirlər, yox gülləri götürüb bağrına bassa, demək, onun sevgilisi var və onu unuda bilmir.

Yolçu qadının dediyi kimi etdilər. Xan nə görsə yaxşıdır?! O gördü ki, qız otağa girən kimi gülləri götürüb bağrına basdı və ağlamağa başladı. Xan özünü itirdi, vəziyyətdən çıxış yolu axtarmağa başladı. Sevgilisiz yaşamağı təsəvvür edə bilmirdi, qızı da bu vəziyyətdə saxlamaq istəmirdi. Xan üç gün fikirləşdi. O, qərara gəldi ki, qıza atası evinə getməyə razılıq versin. Üçüncü gün xan sevgilisinin otağına girdi ki, öz qərarını bildirsin. Xan gördü ki, sevgilisi artıq yoxdur. O öz dünyasını dəyişib. Ölü vəziyyətdə də çox gözəl və səmimi idi. Xan qəm-qüssəyə batdı. Uzun müddət özünə gələ bilmədi. Xan o vaxt təsəlli tapdı ki, öz sevgilisinin xatirinə qızıl güllərin sayını artırdı və əmr etdi ki, diyarın bütün guşələrində qızıl güllər əkilsin, bəlkə buna görə də o zamandan Ordubadda qızıl güllərin sayı hesabı yoxdur.

## YALQIZ AĞAC

Deyilənə görə, bir qızı istəmədiyi adama ərə vermək istəyirlər. Qız bunu istəmir və qaçıb Nüs-nüsdə dayanıb Allaha dua edir ki, onu qaya parçasına, quşa və yaxud da bir ağaca çevirsin. Allah onu ağaca çevirir və bu ağacın adı Yalqız ağac adlanır. Bu ağacın bir budağını qırdıqda onun budağından qan tökülür.

## ARVAD VƏ CİNLƏR

Ordubadda bir çox əhvalatlar var. Deyilənə görə, bir arvad çörək yapan işləyirdi. Günlərin bir günü gecə yarı cinlər adam cildində gəlib arvadı çörək yapmağa aparırlar. Arvad durub cinlərlə gedir. Bir az getdikdən sonra arvad düşünür ki, gecə vaxtı mən hara gedirəm və "Bismillahir rəhmanir-rəhim" deyir. Bundan sonra cinlər yox olur və arvad gecəyarı dağın ortasında tək qaldığını görüb dəli olub ölür.

## CİN TUTMAQ HAQQINDA ƏHVALAT

Mənim ulu babam çox ağır bir seyid olub. O, cin tutub. Cini sancaqla tuturdu. O, deyirdi ki, əgər kimsə cinin sancağını açardısa cin yox olub gedərdi.

Günlərin bir günü cin qadın halında gedir su doldurmağa. Arxın kənarında bir qızın ayağına tikan batır. O, çığıraraq deyir:

– Kimdə iynədən, sancaqdan varsa, ayağımın tikanını çıxarsın.

Cin olan qız deyir ki, mənim yaxamda sancaq var, lakin mən çıxara bilmərəm gəlin siz çıxarın. Və adamlar qızın yaxasındakı sancağını çıxarırlar və qızın vedrələri yerdə qalır, lakin özü göyə uçur. Adamlar məəttəl qalırlar. Gecə yarı cin ulu babama deyir ki, verdiyiniz çörəyi mənə halal edin. Halal edirlər. Qız gedəndə deyir ki, siz məndən cənnətin-cəhənnəmin necə olduğunu və bir də cavan ölümün nədən belə çox olduğunu nahaq soruşmadınız.

## QAZAN ƏHVALATI

Günlərin bir günü Nüs-nüsdə bir kişi gecə vaxtı bağında işləyirdi. Qulağına çalğı səsi gəlir. Bu zaman cinlər adam cildində toy edirdilər. Cinlər bu kişini də toya dəvət edirlər. Kişi gəlib oturur. Cinlər ondan nə istədiyini soruşurlar. Kişi plovla dolu olan qazana əlini atıb "bismillahir-rəhmanir-rəhim" deyir, bütün cinlər yox olurlar. Bir o kişi, bir də qazan qalır. Nüs-nüsdə harada toy, yas olursa, o qazanı aparırlar. O qazanı Molla Müslümün babası Molla Fəsud tapdığına görə qazanın üstündə "bismillahir-rəhmanir-rəhim" yazıblar ki, bu qazanı bir də cin aparmasın.

## ASNI PİRİ

Asnı piri Kəngərli rayonunun Qarabağlar kəndində yerləşir. Asnı çayının qaynağı xalq arasında müqəddəs pir

kimi ziyarət olunur. Asnı çayı ilə bağlı bir-birindən fərqli üç əfsanə vardır. Əfsanələrdən birində deyilir ki, Güney Azərbaycanda bir oğlan vardı. O, bir adamın qızını istəyirmiş. Qızın adı da Asnı imiş. Qızın da oğlana meyli varmış. Atası qızı başqasına vermək istəyəndə oğlanla qız qaçıb Qarabağlar kəndi yaxınlığındakı Qalaq adlı yerə gəlirlər. Hər tərəf meşə imiş. Onların yeməyi, suyu qurtardıqdan sonra oğlan su axtarmağa gedir və meşədə azır. Qız sevgilisinin gəlmədiyini görəndə yanıqlı-yanıqlı ağlayır. Qızın göz yaşlarının töküldüyü yerdən su çıxır. Qız bir çobana rast gəlir. Çoban sevgilisini tapmaqda qıza kömək edir. Suyun çıxdığı yerin adı isə Asnı qalır.

* * *

İkinci əfsanə Asnı çayının adı ilə bağlıdır. Əfsanəyə görə, zalım bir hökmdar olur. Ona itaət etməyən insanlara hökmdarın bərk acığı tutur. Qabaqcadan axan çay boyunca dar ağacı qurdurmuşdu. Şah acığı tutduğu adamları bu dar ağacından asdırır. Elə o vaxtdan da çayın adına Asnı deyirdilər.

* * *

Üçüncü əfsanədə bir kişi olan-qalan varını qızıla çevirib əsanın içinə doldurur. Dərələyizdən olan bu kişi su içəndə əsası bulağa düşür və axıb gedir. Həmin su əsanı gətirib Qarabağlara çıxardır. Bu əsanı bir çoban tapır.

Əsanı sahibi axtara-axtara gəlib kəndə çıxır. Kişi baxır ki, əsası çobandadır.

Əsanın sirrini deyib onu çobandan alır. Qayalarının arasından çıxan gur bulaq xalq tərəfindən müqqədəs hesab olunur.

## BİBQƏTƏL PİRİ

Bibqətəl piri Ordubad rayonunun Gəmiqaya ərazisində ziyarətgahdır. Yerli əhali arasında Bibiqətəl, Bibiqətl. "Bibinin qətlə yetirildiyi yer" kimi də adlandırılır. Buraya ilin yay fəsilində – iyul ayında gələr, gecəni orada qalar, sübh çağı otların üzünə düşən səhər şehindən üzlərinə sürtər və ətrafa su səpərlər. Ona görə də buraya ziyarətə gəlinən günə və həyata keçirilən mərasimə Susəpən deyirlər. Xalq arasında olan rəvayətlərə görə, "Susəpən bayramı", Bibqətəlin ziyarət edilməsi Nuh peyğəmbər və dünya tufanı ilə bağlıdır. Nuh peyğəmbərin quruya çıxarkən ilk qurbanı burda kəsməsi haqqında bəzi fikirlər vardır.

## GƏLİN QAYASI

Qədim zamanlarda kasıb bir kişinin gözəl bir gəlini varmış. Bu gəlin o qədər gözəlmiş ki, gözəlliyi bütün aləmə yayılıbmış. O elin padşahı bunun sorağını alır. O, kişiyə elçi göndərib deyir ki, nə istəyirsə verim, gəlini mənə ver. Kişi və gəlin razı olmur. Buna qəzəblənən padşah gəlini ələ keçirmək istəyir. Aradan bir müddət keçir, el yaylağa qalxır. Kasıb kişi də gəlini və mal-qarasını götürüb yaylağa qalxır. Padşahın adamları bundan xəbərdar olur. Gəlini qaçırmaq üçün fürsət gözləyirlər. Bir gün gəlin su gətirmək üçün bulağa gedir. Bunu görən padşah adamları gəlini qaçırmaq istəyirlər. Gəlin özünü qorumaq üçün uca bir qayanın başına qalxır. Adamların ondan əl çəkmədiyini görən gəlin özünü qayanın zirvəsindən aşağı tullayır. Elə o vaxtdan donu kü-

ləkdə yayılmış gəlinə bənzəyən həmin qayanın adı Gəlin qayası adlanır.

## GÜLÜM-GÜLÜM PİRİ

Gülüm-gülüm piri Ordubadda yerləşir. Gülüm-gülüm dağının əfsanəsinə görə, indiki Nəsirvaz kəndi əvvəl bu dağın ətəklərindəymiş. Deyilənə görə, kənddə bir gəlin hər gün dağın səsini eşidirmiş: "Gəlim, gülüm". Gəlin "gül" – deyincə, bütün çöl-çəmən gülüzarlığa dönür, insanlara sanki xoşbəxtlik verilir. Bir gün "Gəlim-gülüm" çağırışına acıqlı-acıqlı "gəlirsən, gəl" deyir. Dağ gurultu ilə gəlib kəndi basır.

## SEYİDLƏR PİRİ

Seyidlər piri Culfada yerləşir. Xalq arasında Seyid Həsən piri adlanır. Xalq arasında olan rəvayər görə Seyid Həsən pirinin ilanı vardır. Əgər pirə natəmiz adam girmək istərsə, ilan onun qarşısını alır.

## GİZLİ QALA

Naxçıvanda Gizli qala adlanan bir qala vardır. Həmin qalanın girişi bilinmir, çünki onun girişi qaya altından keçir. Buranın girişi çox dardır, buradan ancaq bir nəfər keçə bilər. Həmin qalanın içərisində daşdan çarpayılar vardır. Girişində isə gözləmə nişangahı vardır. Əgər içəriyə xəbərsiz biri gir-

səydi, dərhal qayanın oyuğundakı nişangahdan həmin şəxs vurulardı. Özlərindən başqa kimsə ora icazəsiz girə bilməzdi. Həmin hadisə üç qardaşın vaxtında olub. O, üç qaçaq qardaşın adını heç kim indi də bilmir. Ona görə də həmin qalaya Gizli qala adı verilibdir.

## XUDU DİVANƏ XANƏGAHI

Xudu Divanə xanəgahı Naxçıvan yaxınlığında yerləşir. Naxçıvan şəhəri yaxınlığında, Hacıvarda iki qarağac ağacı vardır. Onlar əkiz sayılırlar. Bu yerlərin sahibləri orada öz ölülərini dəfn edirlər. Buna görə də ağacın ətrafında müsəlman qəbiristanlığı əmələ gəlib. Buranın adı ağaclarla birlikdə Xuda Divan adlanır. Rəvayətə görə, əgər kimsə oradan qarağacdan qopmuş bir çırpı belə aparsa, qızdırma xəstəliyinə tutular. Belə fikirləşirlər ki, orada hansı isə müqəddəs güc-qüvvə var. Bu qüvvə qızdırma xəstəliyinə tutulmuş adamları və heyvanları xilas edir. Buna görə də vaxtilə xəstə qoyun sürülərini qovub buraya gətirirdilər. Qızdırmalı adamlar da buraya gəlirlər. Xəstəliyə tutulmuş adamlar bir-iki yumaq pambıq-sap və bir neçə yumurta şəklində nəzir verirlər. Gətirdikləri nəziri qəbir otaqlarının qapısının ağzına qoyurlar ki, burdan ötüb-keçən, qızdırmadan qorxmayanlar faydalansınlar.

Bundan başqa, buraya gələn xəstələr bardaqda gətirdikləri su ilə hər hansı bir qəbrin üstündə əl-ayaqlarını yuyur, sonra bardağı başları üstündən fırladaraq qəbir daşına çırpıb sındırırlar. Bu ziyarət Xudu-Divanə adlanır. Burada qadınların parça asdıqları iki ağac vardır. Ziyarətgahın adı Xudu adlanan adamın adından götürülmüşdür. Bu adam dərviş ol-

muşdur. O, əhali arasında hərəkətlərinə görə dəli kimi tanınmış, bu səbəbdən də ona dəli-divanə ləqəbi verilmişdir. Xudu-Divanə vəfat etdikdən sonra uyğun olaraq öz xanəgahı yanında dəfn olunmuşdur. Ziyarətgah mənsub olduğu adamın adı ilə Xudu Divanə adlanır.

## PİR YAQUB XANƏGAHI

Pir Yaqub xanəgahı Naxçıvanda yerləşir. Mömünə Xatun türbəsinin yaxınlığında Pir Yaqubun qəbri vardır. Pir Yaqubun adı ilə bağlı həmin yer Pir Yaqub xanəgahı adlanır. Yerli əhalinin dediyinə görə, bu qəbirlərdə dəfn olunanlar qardaş olublar. Xalqın dediyinə görə, xanəgaha əvvəlcə Pir Əli rəhbərlik etmiş, vəfatından sonra isə rəhbərlik qardaşı Pir Yaquba keçmişdir.

## İLAN DAĞI

İlan dağı Şərur rayonunda yerləşir. Rəvayətə görə, burada bir qara kişi və qadın yaşayırmış. Yuxuda onlara deyiblər ki, bu yerin sahibi var, buradan çıxın. O vaxtdan qocalar evi tərk edir və həmin ev ziyarətgaha çevrilir.

## İLAN OCAĞI

İlan ocağı Şərurda yerləşir. Xalq arasında olan rəvayətə görə keçmişdə müəyyən günlərdə ilanlar toplu şəkildə piri ziyarət edərmişlər. Ona görə də həmin yer İlan ocağı adlanır.

## QARA DAŞ OCAĞI

Qara daş ocağı Şərurda Aşura kəndində yerləşir. Qara daş ocağına hələ də inam var. Ürəyindəki arzu və istəyinin həyata keçməsini istəyən şəxslər ocağa nəzir deyirlər. Arzu-istəklərinə çatdıqda oraya nəzir aparırlar. Daşın ətrafına bir neçə kiçik ölçülü daşlar düzülmüşdür. Əfsanəyə görə, iri qaya daşlar göydən gəlmiş ana, ətrafında olan kiçik daşlar isə onun övladlarıdır. Ona görə də ocağa ancaq qadınlar və uşaqlar girə bilər. Kişilərin ocağa gəlməsi qadağandır.

## QIZ PİRİ

Qız piri Şərur rayonunda yerləşir. Pirin yaxınlığında şəlalə vardır. Pir təbii qayalıqdan axan su qaynağı və onun ətrafındakı kollardan ibarətdir. Bu ərazi yerli əhali tərəfindən müqəddəs hesab edilərək ziyarət olunur. Rəvayətə görə, gecələr pirdə od yanarmış və o, hərəkət edərmiş.

## PİR XAMUŞ XANƏGAHI

Pir Xamış xanəgahı Naxçıvanda yerləşir. Bəzi fikirlərə görə, əvvəllər məscidin yerinə ətrafı qamışla hörülmüş pir olmuş, bu səbəbdən də sonralar onun yerində inşa olunan məscidə Pirqamış adı verilmişdir. Keçmişdə məscidin yerində Xanəgah olmuşdur. Məscidin ilkin adı Pirqamış deyil. Pirxamış olmuşdur. Deyilənə görə, Şahab məhəlləsindəki bu xanəgahın şeyxi çox danışmağı sevməyən, gününü sakit, zikr

etməkdə keçirən bir adam olduğundan xalq arasında susan pir – Pir xamış adı ilə tanınmış, onun xanəgahı da belə adlanmışdır. Xanəgahın ziyarətgaha çevrilməsi Pir Xamış öldükdən sonra onun xanəgahda dəfn olunması ilə əlaqədardır.

## ŞIXBABA OCAĞI

Şıxbaba ocağı Şərur rayonunda yerləşir. Binanın yaxınlığında bir-birinin üzərinə yığılmış qara daşlar var. Ziyarətçilər dilək tutaraq həmin daşların arasında şam yandırırlar. Xalq arasında olan rəvayətə görə, Püsyan kəndinə gələn və özünü heç kimə bəlli etməyən Şıxbaba burada qeyb olmuşdur.

## TİVİ QƏBİRİSTANLIĞI

Bu ərazi yaylaq kimi istifadə edilir. Eyni zamanda yaylaqda olan ağaclar və daşlar müqəddəs hesab olunur. Deyilənə görə, əhali yaylağa çıxdığı zaman, vəfat edənlər burada basdırılarmış. Qəbiristanlığın mərkəzində pir kimi sitayiş edilən bir məzar vardır.

## YUNİS PEYĞƏMBƏR

Rəvayətə görə, günlərin birində Allah-Təalanın Yünis peyğəmbərə acığı gəlir. Peyğəmbəri cəzalandırmaq üçün bir balığa buyurur ki, onu udsun. Allah-Təala balığa deyir:

– Ey balıq, Yunis iman əhlidir, özü peyğəmbərdir. Mən onu sənə yem kimi vermirəm. Qoy, bir müddət sənin qarnında dustaq olsun. O, mənim zaminimdir. Bir vaxt gələcək ki, onu səndən tələb edəcəyəm.

Allah Təalanın buyruğunu dinləyən balıq qorxuya düşür. O, peyğəmbəri udandan sonra qırx gün dilinə bir şey vurmur, ağzı açıq halda suda üzür. Yünis peyğəmbər isə, balığın qarnında Allaha dua etməklə məşğul olur. Balığın bədəni şüşə kimi şəffaf imiş. Peyğəmbər dua edərkən onun səsini eşidən bütün canlılar dayanıb balığa baxırmış.

Peyğəmbərin səsi göyün qatlarına da gəlib çatır. Mələklər Allah-Təaladan soruşurlar:

– Bu nə səsdir, elə bil ki, dənizin dibindən gəlir.

Allah-Təala deyir ki, dua edən Yünis peyğəmbərin səsidir. Onu balığın qarnında dustaq etmişəm, səs balığın qarnından gəlir. Mələklər Allah-Təaladan xahiş edirlər ki, peyğəmbəri bağışlasın. Qadir Allah mələklərin xahişini nəzərə alaraq, balığa buyurur ki, Yunis peyğəmbəri azad etsin. Balıq Allahın buyruğunu yerinə yetirir. O, sahilin kənarına gəlib peyğəmbəri azad edir.

## NƏZIR BULAĞI

Yazı düzündə taxıl susuzluqdan yanırmış. Camaat Allaha üz tutub deyir: "Ay Allah, yağış yağdır, bulaq üstə qurban kəsəcəyik!"

Yağış yağır, camaat aparıb Yazı düzünün yuxarı dərəsindəki bulağın üstündə öküz kəsir. O vaxtdan o bulağın adı qalır Nəzir bulağı.

## AŞAĞI BUZQOV PİRİ

Aşağı Buzqov piri Babək rayonunda yerləşir. Xalqın dediyinə görə, müqəddəslərin biri buraya qayanın altına sığınmış, ona görə də bulaq və yaşıllıq əmələ gəlmişdir. Bu ərazi Aşağı Buzqovda yerləşidiyinə və müqəddəs hesab olunduğuna görə, bura Aşağı Buzqov piri adlanır.

## QAÇAQ QUŞDAN

Qaçaq Quşdan Keçili kəndinin dağlarında qaçaqlıq edib. O, çox gənc olub. Yaşının az olmağına baxmayaraq çox gözəl sərkərdəymiş. Onun bir sözü iki olmurmuş. Bir gün Dərəyurd adlanan yerdə yermək yeyirmişlər. Birdən görürlər ki, Sovetin saldatları bunları hər tərəfdən əhatəyə alıb. Qaçaq Quşdan qalxıb qışdırır ki, saldatlar bizi əhatəyə alıb. Qaçaqların hamısı at belinə qalxırlar. Döyüş başlanır. Elə bir güclü döyüş olur ki, qaçaqların çoxu ölür.

Qaçaq Quşdanın Maral adında bir atı var imiş. İş o yerə çatır ki, onlar atdan düşüb döyüşməyə başlayırlar. Qaçaq Quşdan arxasına baxanda görür ki, atı qaçır. O, atının başqalarının əlinə düşəcəyini bilir və öz atını güllə ilə vurur. Döyüş qurtardıqdan sonra o, atının yanına gedir. Atının başını dizinə qoyub onun üzündən öpür, elə oradaca at ölür.

## NƏFƏSÇIXAN

Nəfəsçıxan adında bir yer vardır. O yer təbii pilləkənlər vasitəsilə yerin altına gedir. Oradan Keçili kəndinə yeral-

tı yol gəlir. O yollar kənddə iki evə gəlir. Torpaq sürüşmələri zamanı o yollar tutulub, ancaq vaxtı ilə o yollaradan Qaçaq Quşdan və onun dəstəsi kəndə gəlib ərzaq götürüb qayıdırmışlar. Bu yol neçə-neçə böyük dərələrin, dağların altından keçir. Qışda hava həddən artıq soyuq olanda da isti buxar çıxır. Oradan isti buxar çıxdığına görə həmin yer Nəfəsçıxan adlanır.

## "ORDUBADLILAR ALLAHA QALIB" İFADƏSİ

Belə eşitmişik ki, keçmişlərdən üzü bəri, hətta indi də Ordubadda yaxın qonşu kəndlərdə, təbii fəlakət və ya hadisə baş verəndə adamlar üzərini Allaha tutub yalvarmışlar: "Ay Allah, Ordubadlıları qoru. Ordubadlılar təmiz, pak, Allaha yaxın adamlardır". Təhlükə beləcə ötüşərmiş.

* * *

Keçmiş qocalar belə nağıl edirmişlər ki, ötən əsrin 20-30-cu illərində Ordubad çayına, indiki adıyla Dübəndiyə güclü sel gəlir. O zaman çayın dərinliyi 1-2 metr olmazmış. İndi çayın dərinliyi 10-15 metr arasıdır. Çayın hər tərəfində dəyirman, çayxana, dükan, xəstəxana var idi. Sel həmin dükanları, xəstəxananı, dəyirmanları aparır. Bu zaman dəyirmançı erməni Depoş üzünü Allaha tutub deyir: "Ya müsəlmanların Həzrət Abbası, mənim dəyirmanıma bir şey olmasın, nəzir verəcəm". Güclü sel ətrafdakı bütün tikililəri yuyur. Lakin Depoşun dəyirmanına heç nə olmur.

* * *

Belə rəvayət var ki, Nadir şahın dövründə Ordubada bir nəfər acgöz, savadsız vali təyin olunur. Bu adam o qədər zalım olur ki, vergiləri artıraraq son həddə çatdırır, xalq heç cür dolanışıq tapa bilmir. Bir nəfər dünya görmüş ordubadlı gedir Təbriz şəhərinə və sarayın qabağında o baş-bu başa var-gəl edir və hər dəfə deyir: "Ordubadınki Allaha qalıb". Axırda bunu şaha xəbər veririlər və onu saraya çağırırlar. Şah ondan soruşur ki, bu nə sözdür. Həmin dünya görmüş şəxs cavab verib deyir ki, şah sağ olsun, bir nəfər nadan vali təyin etmisiniz, bütün vergiləri artıraraq xalqı zinhara gətirib. Biz də fikirləşib gördük ki, bu şəxs sizin adamdır. Əgər bundan şikayət etsək, siz həmin adamı müdafiə edəcəksiniz. Deməli, bizimki sizə yox, Allaha qalıb. Ona görə bu sözü deyirəm ki, bəlkə Allahın rəhmi gələ bizə.

Şahın bu sözdən xoşu gəlir. Şahın əmri ilə nadan vali dəyişdirilir və ordubadlılar vergi verməkdən azad olunurlar.

## DOSTU DAĞI

Dostu dağında bir qala vardır ki, indi də qalmaqdadır. Bu qalada vaxtilə Nadir şah olmuşdur. Bir gün Nadir şah Ordubada gəzməyə gəlibmiş. O, bu qalaya çıxır, oturur. Buranın adı da Şahtaxtı qalır. Nadir şah deyir ki, hər məhəllədən gedin bir pəhləvan, qamətli insan gətirin. Onlar gəlib Üçtürləngədən qabaqlarına çıxanı aparırlar. Bu da onu göstərir ki, üçtürləngəlilərin hamısı qamətlidirlər.

## SÜRƏYYA DƏRƏSİ

Əfsanəyə görə, Ordubadın gözəl kəndlərindən biri olan Gilançayda Sürəyya adında gözəl bir qız yaşayırmış. Sürəyya o qədər gözəlmiş ki, adam görəndə lap heyran qalırmış.

Qonşu kəndlərin birində Əhməd adlı bir oğlan yaşayır. O, tərbiyəli, mərifətli, savadlı oğlan idi. Əhmədlə Sürəyya ailə qurmaq istəyirdilər. Lakin Sürəyyanın atası razı deyildi. Əhməd bir gün oturub fikirləşdi və qərara gəldi ki, əgər atası onu mənə vermirsə, mən də qaçırdaram. Əhməd bu qərarı Sürəyyaya çatdırdı.

Axşam oldu. Sürəyya hazırlaşıb Əhmədi gözləyir. Əhməd gəlir və onlar birlikdə gedirlər. Az gedirlər, çox gedirlər, axırda gəlib bir sakit yerə çatırlar. Əhməd Sürəyyaya deyir:

– Gəl bu dərədə bir az dincələk, səhər yolumuza davam edərik.

Səhər olur. Bu məsələni öyrənən atası çox qəzəblənir və silahını götürüb onların dalınca gedir. Gəlib onların yanlarına çatanda silahı ilə Əhmədi vurmaq istəyir, güllə Sürəyyaya dəyir və Əhmədin qollarında can verib ölür. O gündən bu dərə "Sürəyya dərəsi" adlanır.

## NAR AĞACI

Əfsanəyə görə, bir kənddə bir ev varmış. Bu evin həyətində bir nar ağacı əkilibmiş. Bu nar ağacı hər fəsil olurdu, yəni meyvə gətirirdi.

Bir dəfə ağacdan ev əyəsi narı dərib yeyir, sabahısı gün durub gedir. Görür ki, həmin dərdiyi yerdə yenə nar var və bunlar bir neçə gün təkrarlanır. Artıq təngə gələn ev əyəsi qərara gəlir ki, bu ağacı kəssin və onun yerində hamam tik-sin. Dediyi kimi də eləyir. Səhərisi gün ağacı kəsib yerində hamam tikir. Tikilən günün səhərisi durub görürlər ki, hama-mın üzərində nar ağacının budaqları çıxıb. Bunlardan qorxub uzaq olmaq istəyən ailə burdan köçüb gedir və o zamandan o evdə heç kəs qalmır.

## QIZLAR BULAĞI

Əhvalata görə, Qızlar bulağı adlanan bir bulaq varmış. Bu bulaqdan kim su içsə, gözəlləşirmiş.

Bir gün bir qız aynaya baxıb deyir: "Mən nə qədər çir-kinəm. Mən çirkin olduğum üçün, heç kim mənim yanıma yaxınlaşmaq istəmir. Allahım, sən böyüksən, mənə kömək et". Deyir və dua edir.

Yenə bir gün bu qız gəzintiyə çıxanda bir bulaq görür və susadığı üçün bu sudan içir. Sonra o, gözəl bir qız olur. Elə gözəl olur ki, adam baxanda heyran qalırmış. O gündən bu bulaq "Qızlar bulağı" adlanır.

## NƏ ATAM VAR, NƏ ANAM, YARANMIŞAM DAŞDAN MƏN

Bir gəlin vaxt gəlir, vədə çatır, yükünü yerə qoyur. Gəlin uşağa baxanda az qalır ki, dəli olsun. Uşaq anadan ölü

doğulmuşdu. Gəlin ərinin qorxusundan tez uşağı gizlədir, onun yerinə beşiyə daş qoyur və başlayır yırğalamağa.

Əri evə qayıdanda arvadının bar-yükünü yerə qoyduğuna çox sevinir. Beşiyə tərəf gedir ki, övladına baxsın. Gəlin tez yerindən qalxır. Dili tutar-tutmaz deyir ki, təzəcə yuxuya gedib, oyadarsan. Kişi daha beşiyin yanına getmir. Bir az gözləyir, amma səbri çatmır. Arvadının sözünə baxmır, özünü salır beşiyə. Görür ki, beşikdə gözəl bir uşaq var. Hər ikisini heyrət bürüyür. Arvad görür ki, beşiyə qoyduğu daş uşaq olub. Kişi də çaşır ki, bir günlük uşaq "nə atam, var nə anam, yaranmışam daşdan mən" – deyə mahnı oxuyur.

## ANA DAŞ
## (Daban təpə)

Aza kəndinin yaxınlığında bir təpə var. Adına Daban təpəsi deyirlər. Orada olan daşlar ocaqdır. Onlar göydən düşüblər, keçmişi də bilirlər, gələcəyi də. Adamların dərdini də bilirlər, dərmanını da. Orada olan daşlardan biri qalanlarından daha böyükdür, el arasında həmin daş o birilərinin anası hesab olunur. Balaca daşlar da onun balalarıdı. Ana daş həmişə balalayır. Onu öz yerindən götürüb başqa yerə aparanda o, gecə ikən qayıdıb gəlir, balalarının içində olur.

## SU PƏRİSİ

Su pərisi gözəl bir qız imiş. Bir gün bu qız çayda çiməndə sel gəlir, az qalır ki, boğulsun. Allahın buna yazığı gəlir.

Bu dəmdə dalğa oturur, qızın qurşaqdan yuxarı hissəsi eşiyə çıxır. Eşiyə çıxan hissəsi qalır, ancaq suda olan hissəsi balığa dönür. Ona görə də su pərisinin qurşaqdan yuxarısı qız, qurşaqdan aşağısı balıqdır.

## ƏLƏYƏZ VƏ AĞRI

Ələyəzin başı dörd haçadı. Deyirlər ki, Ağrıynan Ələyiz vuruşub. Ağrı güclü olub, vurub Ələyizin başını parçalayıb.

## BALA AĞRI

Keçmişdə Ağrı ilə Haça dağı yaxın qonşu olublar. Çox da istəkli imişlər. Həmişə bir-birini gözlər, mehriban dolanıb ömür sürərlərmiş. Bir gün bu dağların arasında bərk mübahisə düşür. Iş o yerə çatır ki, onlar hirslənib düşmən kimi dalaşmağa başlayırlar. Haça dağı özünü haqlı bilib qəzəbindən bir dəli nərə çəkir. əl atıb Ağrıya güclü zərbə vurur. O zaman Ağrı yüklü imiş. Zərbənin gücündən bala salır.

Ağrı qonşunun bu hərəkətinə tab gətirə bilmir. Özünü toplayıb o da Haça dağa öz zərbəsini göstərir. Haça Dağın fəryadı yeri-yurdu götürür. Ağrının zərbəsindən onun da başı aralanır. Deyirlər ki, o vaxt başı ayrıldığından adı Haça dağ qalmışdır. Ağrının saldığı bala isə böyüyüb onun yanında göylərə baş çəkmişdir. Adına "Bala Ağrı" demişlər.

## İLAN DAĞI, KƏMÇİ DAĞI, AĞRI DAĞI

İlan dağının, Kəmçinin, Ağrının adını Nuh qoyubdur.

Dünyanı su basanda Nuh gəmisi ilə bərabər qalmışdı su üzündə. Gün keçir, vaxt dolanır, vədə tamam olanda su yavaş-yavaş çəkilməyə başlayır. Su çəkildikcə gəmi aşağı enir. Nuhun gəmisi hər yerdən sakit keçsə də, bir dağdan keçəndə gəmi bir az ilişir. Nuh deyir:

– İnan ki dağdı.

Ona görə də bu dağın adı İlan dağı qalır.

Nuhun gəmisi xeyli aralıda yenə də çətinliyə düşür. Nuh deyir:

– Bu dağ o dağdan kəm deyil.

Bu sözə görə o dağın adı Kəmçi olur. Üçüncü dəfə Nuhun gəmisi daha bərk çətinliyə düşür. Nuh deyir:

– Bu dağ daha ağır dağdı, gəmi burdan keçə bilməyəcək.

Bu dağın da adı Ağrı dağı qalır.

## DİRİDAĞ

Nazan nənə adlı bir qarı sacda çörək bişirirmiş. Nəvəsi də yanındaymış. Birdən dünyanın üzünü su alır. Qoca qalır suyun altında. Nəvəsi qaçıb çıxır bir dağın başına. Nuhun gəmisi gəlir, uşağı dağın başından sağ-salamat götürüb gedir. O vaxtdan o dağa Diridağ deyirlər. Nazan nənənin çörək bişirdiyi yer ocaqdır.

## KOROĞLUNUN NAL DAŞI

Ordubadın Ələhi kəndi yaxınlığında bir dərə var. Nal daşı dərənin ortasındadır.

Deyilənə görə, Koroğlu düşmənlə təkbətək vuruşur. Sonra da aradan çıxmaq istəyir. Nərə çəkib Qıratı capır. At quş kimi uçub dərənin o tayına düşür. Qıratın ayağının biri sal daşın üstə bərk dəyir, daşa nalın dərin izi düşür.

Həmin daşa "Koroğlunun nal daşı" deyirlər.

## MARAL BULAĞI

Bir zamanlar bizim meşələr marallar, ceyranlar oylağı imiş. Uzaq-uzaq ellərdən də bura ova gələrmişlər. Bir gün bura bir mahir ovçu gəlir. O, gündə neçə günahsız qana bais olurmuş. İsti günlərdən biri imiş. Ovçu çoxdan bəri axtardığı bir ana maralın izinə düşür. Deyilənə görə, elə gözəl heyvan yox imiş. Ovçu onu bulağa su içməyə enəndə vurur. Köksündən vurulan maral çırpına-çırpına həsrətlə gah suya, gah da meşəyə baxır. Onun başını kəsmək istəyən ovçu maralın gözlərindən axan yaşı görüb sarsılır. Maralın baxdığı səmtə çevriləndə anasına doğru boylanan bir cüt bala görünür. Əməlindən peşman olub, bir də ovçuluq etməcəyinə and içir. Maralı həmin yerdə basdırır. Üstünə nişanə üçün bir ağac sancır. Səhərə yaxın kəndin əhalisi bulağın başında bitmiş qollu-budaqlı çinarı görüb heyran qalır. Hamı bu möcüzənin tamaşasına çıxır. Baxırlar ki, ondan azacıq aralı kiçik təpəciyin yanında isə bir cüt bulaq əmələ gəlib. Ucalan çinar da hər iki bulağın ortasında bitib. Ovçu əhvalatı söyləyir. Bunu

hərə bir yerə yozur. Elə o vaxdan da bulağın adı "Maral bulağı" qalır.

Deyilənlərə görə, indi də hər günorta Maral bulağına bir cüt maral enib su içir. Heç kəs də onlara dəyib-dolaşmır.

## ZİYARƏTGAH

Bist kəndində Hüsniyyə adlı bir arvad olub. Onun bir oğlu, bir gəlini olub. Hər gün oğlu işə gedəndən sonra bu arvad nəvəsini, gəlinini evdə qoyub harasa gedir, süd götürüb gəlir. Bir neçə gün belə təkrar olunur. Bir gün gəlin deyir ki, bu arvadın arxasınca gedib baxacağam, görüm o neyləyir. Gəlin gedib görür ki, qaynanası bağda bir cüt ana ceyranı sağır. Bu dəm qaynana çevrilib dala baxır. Elə orada da quş olub ceyranlarla bərabər çıxıb gedir.

Həmin yer indi ziyarətgahdır. Hamı gedib oranı ziyarət edir.

## YUSİF, DUR SU İÇ!

Bir arvadın Yusif adında bir oğlu var imiş. Bir gün arvad bu Yusifi çimizdirir. Çiməndən sonra oğlan su istəyir. Anası vermir. Uşaq ağlayır, özün öldürür, ancaq anası xəstələnməsindən qorxduğu üçün su vermir ki, içsin. Axırda arvad görür ki, uşaq dözə bilmir, gedir su gətirməyə. Ancaq arvad gələnə kimi uşaq ölür.

Arvad bunu görəndə özünü didib tökür. Allaha yalvarır ki, Allah, məni quş elə.

Allah onu quş eləyir. Bu quş başlayır oxumağa. Həmişə də oxuyanda deyir: “Yusif, dur su iç!!!”

## XINALI KƏKLİK

Qədimlərdə çox gözəl, ağıllı, namuslu bir qız varmış. Bu qız öz əmisi oğluna adaxlı imiş.

Qızın toy günü olur. Onun əl-ayağına xına qoyurlar.

Hamının başı həyət-bacada toya qarışır. Qız təkcə yengə ilə evdə oturubmuş. Bu vaxt çoxdan bəri qızı izləyən, onu ələ gətirməyə çalışan başqa bir oğlan başının dəstəsi ilə içəri girir. Yengənin əl-ayağını, ağzını bağlayıb yerə yıxırlar.

Qız nə qədər dartınır, qışqırır, yalvarır, ona qulaq asan olmur.

Hər yerdən əlacı kəsilən, əli üzülən qız üzünü göyə tutub deyir.

Tanrı, məni quş elə,
Qanadı gümüş elə.
Eldə rüsvay eləmə,
Dağda günüm xoş elə,
Daşlara yoldaş elə.

Qız bunu deyən kimi dönüb kəklik olur, pırıltı ilə uçub çəmənliyə düşür.

Qızın əl-ayağı xınalı olduğu üçün, kəkliyin də ayağı xınalı olur. O gündən də bu kəklik xınalı kəklik adlanır.

## “ŞANAPİPİK” DARAQÇİN

Qoca bir kişinin gözəl, həyalı bir gəlini var imiş. Bir neçə vaxt keçir, gəlin boylu olur. Qaynata evdə olmayanda gəlin su gətirib uzun qara saçlarını yumağa başlayır. Saçını daradığı vaxt qaynatası evə gəlir. Gəlin darağı saçına taxır, əllərini göyə qaldırıb deyir:

– İlahi, məni ya daş, ya da quş elə.

Söz gəlinin ağzından çıxar-çıxmaz quş olub göyə uçur. O, həmin quşdur ki, indi də darağını başında gəzdirir. Ona şanapipik, daraqçin deyirlər.

## ALABAXTA

Keçmiş əyyamlarda bir qız varmış. Bir bəy oğlu da qıza bənd olubmuş. Amma Alabaxtanın onu görməyə gözü yoxmuş.

Bəy oğlu bilir ki, bu sevda baş tutan deyil. İstəyir bir aralığı xəlvətə salsın qızı götürüb qaçsın. Bəy oğlu Alabaxtanı çox izləyir, çox fürsət gözləyir. Axır günlərin bir günündə Alabaxtanı təklikdə tutur. Cumur onun üstünə ki, atının tərkinə alsın, aradan çıxarsın. Nə qədər çalışırsa, qızı atın tərkinə qaldıra bilmir. Bəy oğlu görür ki, bu xəbər hər yana yayılacaq, biyabır olacaq ki, bir qız nədi, qaçırda bilmədi. Ona görə də Alabaxtanı elə oradaca öldürür. Ancaq bəy oğlu Alabaxtanın ölüsünü görə bilmir. Qız quş olub uçur. Alabaxta adlı quş bəy oğlunun öldürdüyü həmin qız imiş. İndi bu quş koldan-kola uça-uça hal-qəziyyəni car çəkib oxuyur. Bəy oğluna nifrət yağdırır:

Alabaxtayam, Alabaxta,
Sinəm olub taxta-taxta.
Məni vuran bəy oğlu,
Qan qussun laxta-laxta.

Alabaxtanı vurmaq. Ona daş atmaq olmaz. Yoxsa qarğıyar.

## DİLBƏR MƏSCİDİ

Dilbər məscidi Ordubad rayonunda yerləşir. Məhəllə məscidi kimi fəaliyyət göstərir. Yerli əhalinin məlumatına görə, Dilbər adlı qadının şərəfinə inşa edildiyindən, yaxud da Dilbər adlı qadının inşa etdirdiyindən belə adlandırılmışdır.

## CARÇI DAŞI

Carçı daşı Ordubad rayonunun Biləv kəndində yerləşir. Deyilənlərə görə, kəndlə bağlı ən mühüm xəbərlər bu daşın üzərinə çıxan carçı tərəfindən deyildiyi üçün Carçı daşı adlanır.

## SEYİDLƏR PİRİ

Seyidlər piri Culfada yerləşir. Xalq arasında Seyid Həsən piri adlanır. Xalq arasında olan rəvayətə görə, Seyid Həsən pirinin ilanı vardır. Əgər pirə natəmiz adam girmək istərsə ilan onun qarşısını alır.

## DİVANXANA

Divanxana Ordubad rayonunun Vənənd kəndində yerləşir. Qədim zamanlarda kəndin igid oğulları düşmən tərəfindən ələ keçirilərkən kəndin ən hündür nöqtəsində həmin igidlərə divan tutularmış. Xalq arasında bu yerin adı zaman keçdikcə dəyişərək Divanxana adını almışdır.

## QIRXPİLLƏ

Qırxpillə adlanan çeşmə Ordubadda yerləşir. Qırxpillələrdə həmişə sabit temperatur olduğundan, ilin fəsilindən asılı olmayaraq, oraya qoyulmuş ərzaq xarab olmur.

Xalq arasında Qırxpillələr Qırxayaq da adlanır.

## ŞAH ABBAS MƏSCİDİ

Şah Abbas məscidi Ordubad rayonunda yerləşir. Səfəvi hökmdarı Birinci Şah Abbas tərəfindən inşa edildiyi üçün el arasında Şah Abbas məscidi, kəndin mərkəzi meydanında yerləşdiyinə görə isə Meydan məscidi də adlanır.

## AĞ İLAN VƏ OVÇU ƏHMƏD

Şərurda bir ovçu varmış, adına ovçu Əhməd deyərlərmiş. Ovçu Əhməd bir gün ova çıxır. Gəlib oturur bir daşın üstündə. Bir də görür ki, bir yaralı ağ ilan ona tərəf sürünür.

İlan ona çatıb arxasınca gəlməsini işarə edir. Ovçu Əhməd durub ilanın dalınca gedir. Gəlib bir qara daşın dibinə çatırlar. İlan girir mağaraya. Bir azdan bir qara ilanla vuruşa-vuruşa gəlir. Ovçu Əhməd oxunu qoyub qara ilanın başını vurur. Bu vaxt ağ ilan çaşıb atılır ovçu Əhmədin üzündən vurur. Əhməd özündən gedir. Bir vaxt ayılıb görür ki, ağ ilan onun üzünün yarasını yalayır. Ovçu Əhmədin üzünün yarası sağalır. O gündən Ovçu Əhməd ağ ilanla dost olur.

## SU PƏRİSİ

İranla bizim aramızda Araz çayı axır. Əzəl bizlər gedib-gələrdik o taya. Bir dəfə cahıllar gedirlər o taya gəzməyə. Arazı keçəndə baxırlar ki, çayın ortasında qayanın üstündə üç dənə qız oturub. Qızlar çılpaqdı, ancaq uzun saçları var, tökülmüş saçları bədənlərini örtüb. Cavanlar yaxınlaşanda bunlar özlərini atırlar Araza. Cahıllar baxır ki, bunlar qurşaqdan aşağı balıqdır. Sən demə, bu qızlar su pərisiymişlər.

## QIRXLAR PİRİ

Bir kişinin qırx oğlu varmış. Bir gün onlar namaz qıldıqları yerdə daşa dönürlər. Kişi Allaha şükür eyləyir ki, mənim balalarım ibadət vaxtı ölüblər. Allahın xoşuna gəlib kişiyə bir oğul da verir.

Qırxlar piri o vaxtdan qalmadır.

## ALMA RƏVAYƏTİ

Bir arvad çölə pencər yığmağa getmişdi. Uşağı yaxındakı təpəyə qoymuşdu. Qayıdıb gələndə görür ki, uşaq yoxdu. Ağlaya-ağlaya evə gəlir. Başına gələnləri ərinə danışır. Gecə yatanda yuxuda deyillər ki, get uşağı qoyduğun yerdə yat. Yanına da bir piltə qoy. Arvad elə də edir. Yuxuda görür ki, ağ atlı, ağ geyimli nurani bir qoca iki gözəl alma gətirib arvadın yanına qoydu. Arvad ayılanda görür ki, yanında iki alma var. Almaları götürüb evə gəlir. Əri deyir ki, neyləyək?

Arvad deyir:

– Gəl saxlayaq.

Kişi deyir:

– Yeyək.

Arvad deyir:

– Yox.

Üç gün keçir. Kişi dözə bilməyib almanı yeyir. Səhər durub kişiyə baxıb arvad da yeyir. Görürlər ki, uşaq yanlarındadı.

## QULEYBANI

Bir kişi əkin suvarmaqdan gəlirmiş. Birdən qabağına bir quleybanı çıxır. Kişi əlindəki beli qaldırıb quleybanını vurmaq istəyir. Elə beli qaldıranda quleybanı dilə gəlib deyir ki, ay kişi, mənim sənə nə pisliyim keçib? Məni niyə vurursan?

Bayax ha kişinin ürəyi keçir, bayılıb yıxılır yerə. Quleybanı da çıxıb gedir, bir də o yerdə görünmür.

## QARA DAŞ

Bir çoban öz sürüsünü yaylağa yayıb dururmuş. Gün hər tərəfə od ələyirdi. Çoban da, sürüsü də bərk susayır. Heç yerdə su tapmayan çoban naəlac qalır, üzünü yuxarı tutub yalvarır:

– Ay Allah, burada bir bulaq yarat, doyunca su içək, sənə bir qurban kəsəcəyəm. Söz çobanın ağzından qurtarmamış bir bulaq fəvvarə vurur. Sürü bulaqdan doyunca içir. Çoban sudan doyandan sonra sözünə əməl eləmir. Əl atıb qoltuğunun altından bir bit tutub, "bu da sənin qurbanın" – deyib, biti öldürür. Az keçmir ki, çoban qara daşa dönür. Qoyunlar da qara daş olub dörd yanına səpələnir.

## BAYQUŞ ƏFSANƏSİ

Həzrət Süleyman Sara adlı gözəl bir qızla evlənmək istəyir. Lakin qız şərt kəsir ki, su üzərində quş qanadından bir ev tikdirsin, sonra gələrəm. Həzrət Süleyman bütün canlıların hökmdarı olduğundan əmr edir ki, bütün quşlar yığılsın. Cəmi quşlar az keçmir ki, Həzrət Süleymanın yanına toplaşırlar. Həzrət Süleyman bir də baxır ki, cəmi quşların arasında bayquş gözə dəymir. Soruşur ki, bəs bayquş hanı? Deyirlər ki, "Deyir, gəlmirəm". Həzrət Süleyman qəzəblənib qırğını bayquşun dalınca göndərir. Qırğı isə bayquşla dost olub. Deyirlər bu dostluq indi də davam edir. Bayquş qırğının sözünü yerə salmayıb, Həzrət Süleymanın qulluğuna gəlir. Həzrət Süleyman bayquşa deyir:

– Sən mənim əmrimi yerinə yetirmədiyin üçün sənə ağır cəza verəcəyəm. Ancaq sənə üç sualım var, əgər tapa bilsən, azad edəcəyəm, yox əgər tapa bilməsən, özündən küs.

Bayquş deyir:

– Buyur.

Həzrət Süleyman soruşur:

– De görüm, abad yer çoxdu, ya xaraba?

Bayquş cavab verir:

– Xaraba. Çünki xaraba xarabadı, abad yer də vaxt gələcək, xarabalığa çevriləcək.

– Bu cavabın düz. Indi de görüm, ölü çoxdu, yoxsa diri?

– Əlbəttə ölü. Ölü ölüdü, dirilərin də vaxtı çatıb öləcək.

– Bu da yaxşı. Bəs, arvad çoxdu, kişi?

– Arvad.

– Nə üçün?

– Çünki arvad arvaddı, sənin kimi arvad sözünə baxan kişilər də arvadların bir tayıdı.

Söz Həzrət Süleymanın çox xoşuna gəlir. Bundan sonra o, bütün quşları azad etdirir. Onu isə quşlara hökmdar təyin edir, özünə də bəylik verir. Həm də nahar yeməyi üçün bir sərçə ayırır. Bu əmri Həzrət Süleyman verdiyindan bayquş heç bir əziyyət çəkmir, sərçələr özləri bayquşa yem olmağa gəlir, həmişə düz onun qarşısına çıxırlar. Bayquş da gündə onlardan yalnız birini tutub yeyir.

## İLANLI DAĞ

Haça dağa həm də İlanlı dağ deyərlər. Bu dağda ilan çox olar. Deyilənə görə, onlar qoşun çəkib, başqa dağların ilanları ilə vuruşarmışlar.

Bu dağın yaxınlığında Araz çayının qırağında bir kişi yaşayırmış. O, qayıqla adamları Arazın o tayından bu tayına keçirər, bundan aldığı xırda-xuruşla ömür-gün sürərmiş. Günlərin bir günündə kişi yatdığı yerdə gecənin bir vaxtında qapı döyülür. Kişi tez geyinib qapını açır. Qapını açanda bir böyük ilanla qarşılaşır. Qorxub qapını örtmək istəyəndə ilan başı ilə ona işarə edir. Kişi bu işə mat qalır, çar-naçar ilanın arxasına düşüb başlayır yol getməyə. Gethaget, gəlib çıxırlar Araz çayının qırağına. Bu həmin yer imiş ki, orada kişinin qayığı dururmuş. Kişi baxıb görür ki, Araz çayı boyunca bir ilan var ki, bir ilan var ki, nə sayı var, na hesabı. Kişi baxıb görür ki, ilanların çoxu yaralıdı. O bilir ki, bunlar İlanlı dağın ilanlarıdı. Araz çayının o biri tərəfində yaşayan ilanlar davadan gəlirlər. İlanlardan bir zorbası kişini qarşılayıb başı ilə qayığa yığılmış ilanları çayın o tərəfinə keçirməsini əmr edir. Kişi əhvalatı başa düşüb tez qayığa minir, kürəkləri əlinə alır, sübh açıalanacan qayığı o tay-bu taya sürüb ilanları sahilə keçirir. İlanların böyüyü ona yaxınlaşıb, ağzından bir qiymətli daşı salır yerə və onu götürməsini işarə edir. İlanlar gedəndən sonra kişi sevincək ilanın ona bağışladığı daşı yerdən götürür.

## ƏNDƏMİCDƏ YAYILAN KƏLLƏGÖZÜN RƏVAYƏTİ

Əndəmicdə bir kişi varıdı, İrza adında. Vırıp-tutan bir igidiydi, çoxlu da düşmənləri varıydı. Bir gün bu İrza qalada gecələyir. Gecə yarı görür ki, qapı döyüldü. Tez durub geyinir, beşatılanı götürüb gəlir qapıya, soruşur:

– Kimsən?

Qapını döyən deyir:

– Məni qonaq elə.

Deyir:

– Çəkil, açım qapını.

Aylı gecəymiş. Irza qapını açanda görür ki, qabağında bir bədheybət şey durub. Boyu iki adam boyundadı, əlləri dizinə çatır. Təpəsində bircə gözü var, o da düz alnının ortasında. İrza bunu gülləyə tutur, vurub öldürür. Səhərisi gün hay düşür, hamı gedib Kəlləgözün ölüsününə baxır.

## NORAŞENDƏKİ VƏNK PİRİ

Belə deyirlər ki, keçmişlərdə Noraşendə bir qadının uşağı olmurmuş. Kükü kəndinin yanında Vənk pirinə niyyət edir ki, əgər uşağı olsa, gətirib orada od yandıracaq. Həmin qadın bu niyyətlə bir boş beşik götürüb, Vəng pirinə gəlir. Beşiyin içinə uşaq əvəzinə daş qoyub başlayır tərpətməyə. Gecə olduğundan əli beşikdə başlayır mürgüləməyə. Yuxusunda görür ki, bir qara çarşoylu qadın onu dala çəkib deyir:

– Qızım, bura niyə gəlmisən?

Qadın cavab verir ki, uşağım olmur, onun üçün gəlmişəm.

Qara çarşoylu qadın deyir:

– Daha qanını qaraltma. Qismətində var. Get, sənə bir uşaq verdim.

Qadın diksinib yuxudan ayılır. Boylanır. Ancaq heç nə görmür. Beşiyi dalına alıb içindəki daşla bərabər götürüb gecəynən evə qayıdır. Deyirlər ki, həmin gündən qadın hamilə olur.

## QIZILGÜL VƏ BÜLBÜL ƏFSANƏSİ

Keçmiş zamanlarda Qızılgüllə Bülbül bir-birini ürəkdən sevirmişlər. Onların bu sevgisi hər yana yayılır, axırda gəlib qızın atasının qulağına çatır. Ata bərk qəzəblənir, qızını çağırıb deyir ki, bu sevdadan əl çək. Qız çox yalvarır, amma ata heç cürə razı olmur. Qız sevgilisi ilə qovuşmayacağını başa düşüb, başqasına getməkdənsə ölümü istəyir. Allaha yalvarır ki, bu arzusunu yerinə yetirsin. Qızılgül ölmür, ancaq bir gülə çevrilir. Bülbül sevgilisinin başına gələn əhvalatdan xəbərdar olub göz yaşı tökür. Onun ahı göylərə gedib çatır. Bir gün adamlar gedib görürlər ki, Bülbül yoxdu. Onun yerində qızılgülün başına dolanıb qəmli-qəmli oxuyan bir bülbül var. Bülbül gülün başına dolandıqca özünü zərb ilə onun tikanlarına çırpır. Tikanlar bülbülün sinəsini dağıdıb qana qəltan eləyir. Bu qan gül koluna səpələnib onun rəngini qızardır. Deyirlər, o vaxtdan həmin gülün adı Qızılgül qalıb. Bülbülü qana qəltan edən tikanlar da qızın atasıdı.

## QANLI GÖL

Rəvayətə görə, bir kişi çuxur bir yerdə şum edirmiş. Özü də, öküzləri də susayır. Kişi şum edə bilmir. Əl qaldırıb Tanrıya yalvarır ki, buradan su çıxartsın, əvəzində bir qurban kəsəcək. Belə də olur. Burdan bir bulaq çıxır. Kişi özü, sonra da öküzləri sudan doyunca içirlər. Amma kişi vədinə xilaf çıxır. İkinci il kişi yenə oranı şumlayırmış. Birdən çuxurdakı su elə gur çağlayır ki, kişi öküzləriylə yerə batır. Üstündə də böyük bir göl yaranır. El-oba da adına "Qanlı göl" deyir.

## GÜNƏŞLƏ AY

Günəş ilə ay bacı qardaş imiş. Bunlar elə hey dava edirmişlər. Günlərin bir günü yenə dava edirlər. Anaları da xəmir yoğururmuş. Birdən Günəş əlini xəmirə batırıb çırpır Ayın üzünə. Anaları isə hirslənib, onlara qarğış edir. Deyir ki, sizi görüm, bir-birinizin üzünü heç görməyəsiniz.

Odur ki, Günəş gündüz çıxır, ay isə gecə. Günəş ki, xəmiri çırpmışdı ayın üzünə, indi də gecə aya baxanda həmin ləkə onun üzündə görünür.

## ÇOBANYASTIĞI ÇİÇƏYİ

Keçmişdə bir varlı adamın gözəl bir qızı olur. Ona hər yerdən elçilər gəlir, amma qız heç birinə getmir. Varlı adamın acığı tutur. Ancaq qız bir çobanı sevirmiş. Sevgililər

gizlində görüşürlərmiş. Atası bundan xəbər tutub, bərk qəzəblənir. Qızı yanına çağırıb, deyir:

– Qızım, sən bu nə işdir edirsən, mənim dediyimə getmirsən, çobanı istəyirsən.

Qız deyir:

– Ata, getsəm, çobana gedəcəyəm.

Atası qəzəblənib çobanı qovdurur. Qızı da heç bir yerə buraxmır. Bağlı yerdə saxlayır. Çoban uzaqlarda gün keçirir. Nə rahatlıq, nə də yuxu bilməyən çoban getdikcə üzülüb əldən düşür. Çobana nə qədər dərman verirlərsə, çoban yata bilmir. Qız özünün sevdiyi, ilk dəfə çobana verdiyi çiçəkdən gündə bir dəstə bağlayıb, axar suya buraxır.

Çobanı da çayın kənarına çıxarıblarmış. Gözlərinə işıq gəlir. Çobanın xahişi ilə çiçək dəstəsini tutub ona verirlər. Çoban çiçəkləri bərk-bərk sinəsinə basıb, qoxulayır. Sonra başının altına qoyub, dərin yuxuya gedir. Çiçəkləri gecələr yastıq əvəzinə başının altına qoyaraq yatır.

Çoban sağalıb, ayağa qalxır.

Bir gün yenə çay kənarına gəlir. Amma görür ki, çiçək gəlmədi. Bir neçə gün keçir. Çiçək yenə gəlmir. Çoban başa düşür ki, nə isə baş verib. Doğma yerlərinə qayıdır. Sevgilisinin tələf olduğu yerə gəlir. Çoban bu ağır dərdə dözə bilmir.

Deyirlər ki, o vaxtdan güllər solduqca çoban təzəsini dərib, başı altına qoyar, yatarmış. Həmin vaxtdan da bu çiçək çobanyastığı adlanır.

## ÜÇTÜRLƏNGƏ TOPONİMİ

Üçtürləngə Ordubadın ilk yaşayış məskənidir. Bu ad iki hissədən ibarətdir. Şütür – dəvə, ləng – dayanmaq de-

məkdir. Tacirlər əvvələr öz mallarını satmaq üçün öz dəvələri ilə gəlib bu məhəllədə dayanardılar. Ona görə də bu məhəllənin adı Üçtürləngə qalıb.

## NÜS-NÜS PİRİ

Ordubadda çoxlu sayda məscidlərdən əlavə bir neçə pir də mövcuddur. Nüs-nüs (əsl adı Nüst-nist, yəni deyil-deyil) kəndindəki "Cintalan" ən çox diqqət çəkəndir. Əslində "cintalan" sözü fars dilində "ehltənhal" sözünün qısaldılmış forması olub, mənası qırx nəfər, qırx kimsənə deməkdir. Burada abidənin zirzəmisində Abbasilər dövründə qaçıb gəlmiş qırx naməlum şəxsin qəbirləri ilə əlaqədardır. Sonralar bu adlar kəndin adı ilə uyğunlaşdırılmış və pirə çevrilmişdir. Balaca taxta qapı üzərində oyma şəklində xəlifələrin adları yazılmışdır. Sonradan Xəlifə Ömərin adı silinmiş, qalanlar isə olduğu kimi qalmışdı. Aşağı hissəsində Allaha və peyğəmbərə dualar yazılmışdı. Yazıların müəllifi Atabəy oğlu Səncərdir. Bu yazılarda o, qeyd etmişdir ki, kim bu duaları oxusa, Allah ona xeyir versin və rəhmət eləsin.

## VƏNƏND MƏSCİDİ

Bu məscid tikiliş formasına görə digərlərindən tamamilə fərqlənir. Məscidin içində ağac üzərində qara rəngli, süls, nəsx, sonra isə şikəstə xətt növü ilə yazılar vardır. Yazılar ərəb və fars dilində olub, məscidi tikənlər qeyd edildikdən sonra tikintiyə nə qədər xərc çəkildiyi göstərilir. Bundan əla-

və, o zaman əhalinin vəziyyətinin çox ağır olması qələmə alınıb. Qiymətlərin həddindən çox baha olması aclıq, işsizlik nəticəsində kənd sakinlərinin köçüb kənarlara getmələrindən xəbər verir. Sonra yazanın adı və tarixi göstərilir.

## ƏLİNCƏ QALASI

Əlincə qalası qədim zamanlarda "Erincaq", "Erincik", "Alancuk", "Alınca" kimi də qeyd edilmişdir. Bəziləri isə qalanın adını düzənlik mənasında işlədilən "alan" sözü ilə bağlayırlar. Bu, qalanın yerləşdiyi sahənin kiçik meydançaya bənzəməsi ilə əlaqədardır. Əlincə qalası dağın zirvəsində yerləşir. Xalq arasında qalanın adı "Əlincək" yəni əlini çək kimi yozulur. Bu da qalanın alınmazlığı, məğlub edilməzliyi ilə əlaqədardır.

## "TƏKEŞİYİ" MƏSCİDİ

Ordubadda bir çox məsciddən başqa dini ayinlərin yerinə yetirilməsi üçün, xüsusilə məhərəmlikdə aşura-taşura keçirtmək və ehsan vermək üçün tikililər də olmuşdur. Təkayanlar (yəni təkiyə keçirmək üşün yerlər) adlandırılmışdır. Şəhərin mərkəzində yerləşən xalq arasında "Təkeşiyi" məscidi kimi tanınan tarixi abidə belələrindəndir. Bu abidənin giriş qapısının gözəl nəstəliq xətti ilə, mərmər üzərində oyma şəklində yazılmış kitabə, xüsusilə, diqqəti cəlb edir. Buraya klassik fars dilində Şah Abbasın şəninə şeir parçası həkk edilmişdir. Hər bir beyt haşiyəyə salınmışdır.

## CÜMƏ MƏSCİDİ

Şah Abbasın qızı atasının ölümündən sonra hər cümə axşamı bu məsciddə dua edərmiş. Ona görə də bu məscidin adını cümə məscidi qoyurlar. Bu məscidin adı əvvəllər "Came məscidi" olmuşdur.

## CARÇI DAŞI

Carçı daşı Ordubad rayonunun Biləv kəndində yerləşir. Yerli əhalinin məlumatına görə, kəndlə bağlı ən mühüm xəbərlər bu daşın üzərinə çıxan carçı tərəfindən elan edildiyi üçün "Carçı daşı" adlanır.

## DİLBƏR MƏSCİDİ

Dibər məscidi Ordubad şəhərində yerləşir. Məhəllə məscidi kimi fəaliyyət göstərir. Yerli əhalinin məlumatına görə, Dilbər adlı qadın tərəfindən inşa edildiyindən, yaxud inşa etdirildiyindən belə adlanmışdır.

## ŞƏFA PİRİ

Şəfa piri Şərur rayonunda yerləşir. Müxtəlif xəstəliyə tutulan insanlar piri ziyarət edib şəfa tapdığı üçün yerli əhali pirə Şəfa piri adını vermişdir. Deyilənə görə, sarıyara xəstə-

liyi olanlar həftənin çərşənbə günləri o dağın torpağından götürüb bədənlərinə sürtərlərsə, sağalarlar.

## KOROĞLU QALASI

Koroğlu qalası Sədərək rayonunda yerləşir. Xalq arasında olan rəvayətə görə, mərdlik, igidlik, sədaqət, ləyaqət rəmzi olan xalq qəhrəmanı Koroğlunun adı ilə bağlıdır.

## ƏHMƏD QAYASI

Qonşu kəndlə rəqabəti olan Keçili kənd camaatı dağ yolunda qonşu kəndin adamlarından birinə rast gəlirlər. Həmin adamın adı Əhməd olur. Banditizm dövrünün ən fəal iştirakçıları olan Keçili qaçaqları həmin adamı güllə ilə vurub uca qayanın başından aşağı atırlar. Dərə çox dərin olduğundan kişinin cəsədi parça-tikə olur. Həmin vaxtdan qayanın adı Əhməd qayası adlanır. İndi də həmin yerə Əhməd qayası deyilir.

## QANLI ÇÖL

Banditizm dövrünün canlı şahidlərindən biri də Qanlı adlanan çöl sahəsidir. Orada qaçaqlar bolşevik əsgərlərini o qədər qırmışlar ki, həmin sahə qırmızı qana boyanmışdır. Elə o vaxtdan həmin yerin adı "Qanlı çöl" qalmışdır.

## QOTUR DAŞ

Düzənlik bir ərazinin ən uc nöqtəsində böyük bir qotur daş varmış. O daş o qədər kələ-kötürmüş ki, hətta insan belə o deşiklərdə gizlənə bilərmiş. Ona görə də həmin daşa "Qotur daş" deyilir.

## CAMAL QALASI

Qədim zamanlarda sovet hakimiyyəti ilə banditlərin döyüşü olub. Bu zamanlarda Camal adlı bir igid var imiş. Camal həmişə bütün döyüşlərdə qalib gəlirmiş. O, öz evinə artıq getmir. Daşdan yaranmış qalalarda qalır. Camalla birlikdə çox igidlər də həmin qalada yaşayırmış. Camal çox cavan və güclü idi. Bu qala Şahbuz rayonunun Keçili kəndində yerləşir. Həmin gündən Camal o qalada gizləndiyi üçün qalanın adı Camal qalası adlanır.

# V. MARAQLI ƏHVALATLAR

## BELƏ DEYİRLƏR Kİ...

Ordubadda danışırlar ki, Səkinə adlı gənc bir qızı ərə verirlər, qız da ki, nə qız, ağız açmağa məəttəlsən, qan düşər. Toyunun səsi qulaqlardan getməmiş Səkinə ev adamını evdən qaçaq salır. Anası qızdan nigaran qalır, durub onlara gəlir. Çox söhbətdən sonra qaynanası Səkinədən kinayə belə narazılıq edir.

Səkinə xanım sazanda,
Aş bişirər qazanda.
Özünə çəkər nimçədə,
Ərinə saxlar qazanda.

Qızın anası isə and-aman edir ki, mənim gəlinim isə xörək az olanda hamısını özü yeyir, heç birimizi hesaba almır, buna görə siz qızımla fəxr etməlisiniz!

## QAÇAQ NƏBİ

Qaçaq Nəbi Ordubadda olubdur. Üçtürləngə məhəlləsində Nəzər baba adlı biri varmış. Qaçaq Nəbi bir gün Nəzər babagilə qonaq gəlir. Bu vaxt çar məmurları da onu axtarırmışlar. Məmurlar öyrənirlər ki, Qaçaq Nəbi Nəzər babagildə düşüb, ordadı. Onlar Nəzər babagilin evinə gəlib, Qaçaq Nəbini soruşurlar. Nəzər baba deyir ki, mən Nəbini tanımıram,

amma mənim evimdə qonağım var. Nəzər baba Nəbini evinin arxa qapısından çıxarır. Qaçaq Nəbi Ordubad məhəllələrindən keçib Nana dağlara gedir.

Qaçaq Nəbi Ələngəz dağından enib Üçtürləngə məhəlləsindən aşağı düşəndə bir həyətdən mahnı səsi eşidirlər.

Qoy sənə desinlər, ay Qaçaq Nəbi,
Arvadı özündən ay qoçaq Nəbi.

Maraqlanır görsün ki, bu sözləri kim deyir. Bunun üçün də o, qapını açıb içəri daxil olur. Görür ki, bir kişi həyətdə oturub palan toxuyur və bu mahnını zümzümə edir. Ondan soruşur ki, sən tanıyırsan Qaçaq Nəbini. O kişi isə Qaçaq Nəbinin igidliyindən danışır. Həmin kişi Qaçaq Nəbiyə yolu göstərir və onunla sağollaşır.

## KİMDİR CİNAYƏTKAR

Bir məhkəmə iclasında prokuror qanundan çox danışır. Nahaqdan məhkəməyə düşmüş kasıb müttəhimi qatı cinayətkar adlandırır. Şükür onunla yanaşı oturmuş yoldaşına deyir:

– Dur, dur gedək. Bunlar qovunu yeyənləri bağışlayır. Qabığını gəmirəni tuturlar.

## XALAOĞLULAR

Iki xalaoğlu olur. Biri bu kənddə müəllim işləyirmiş. O biri də Ordubadda. O gün gəlir ki, Ordubaddakı xalaoğlunun

atası rəhmətə gedir. Lakin nüsnüslü xalaoğlu bir dəfə də olsun gedib başsağlığı vermir. Ordubadlı xalaoğlu bunun səbəbini öyrənəndə aydın olur ki, o, Ordubadda məktəb direktoru işləyərkən nüsnüslü xalaoğluya dərs təklif etməyibdir və buna görə də nüsnüslü müəllim bu qisas yolunu seçibdir. Bu əhvalatdan sonra nüsnüslü xalaoğlu "Öküz" ləqəbi qazanır. "Öküz" ləqəbi də hər adama verilmir ha...

## VARLI VƏ ÇOBAN

Bir çoban çöldə qoyun otarırdı. O, atını ağaca bağlamışdı. Sonra isə bir varlı gəlib atını həmin ağaca bağladı. Çoban bunu görəndə qışqırdı.

– Atını başqa ağaca bağla. Mənim atım vəhşidir, vurub səninkini öldürər.

Varlı cavab verdi:

– Heç nə olmaz. Mənim atım özünü qoruya bilir.

Bir azdan atlar dalaşmağa başladı. Çobanın atı şıllaq atıb varlının atını öldürdü.

Varlı yapışdı çobanın yaxasından ki, atımın pulunu ver. Axırda hakimin yanına gedəsi oldular. Divanxanaya çatan kimi varlı adam hakimə dedi:

– Bu çobanın atı mənim atımı təpiklə vurub öldürüb. İndi istəyirəm o, atımın pulunu versin.

Hakim ədalətli idi. O, çobandan soruşdu:

– A kişi, bu adam düzmü deyir?

Çoban dillənmədi. Hakim nə qədər soruşdusa, çobandan səs çıxmadı. Axırda hakim dedi:

– Bu kişi, deyəsən, laldır. Ona görə də başqa şahid tapılmayana qədər mən sizin mübahisənizi həll edə bilməyəcəm.

Varlı özündən çıxdı:

– Lal-zad deyil. Bir az bundan əvvəl dil-dil ötürdü.

Hakim soruşdu:

– Nə deyirdi ki?

– Deyirdi ki, atını mənim atımın yanına bağlama, vurub öldürər.

– Aha, deməli, o səni xəbərdar edib. Onda günah sənin özündədir.

Sonra hakim üzünü çobana tutdu:

– Çoban qardaş, bəs bayaqdan niyə dinmirsən?

Çoban dedi:

– Mən istəyirdim ki, bu kişi həqiqətin hamısını özü söyləsin.

## BU DA SƏNİN ƏLLİ TÜMƏNİN

Günlərin bir günü alimlə bir savadsız yol yoldaşı olur. Alim görür ki, kəndlinin cibində xeyli pul var. Kələk işlədib kəndlidən bir az pul qopartmaq qərarına gəlir. Ordan-burdan xeyli söhbət eləyəndən sonra kəndliyə deyir:

– Gəl bir-birimizə sual verək, kim tapa bilməsə, o birinə 100 tümən versin. Razısan?

– Yox.

– Nə üçün?

– Sən alim, mən bisavad, bizimki tutmaz.

– Bəs sən nə təklif edirsən?

– Gəl belə şərtləşək, sən tapmasan 100 tümən verəcəksən, mən tapmasam, 50 tümən. Hə, üstəlik bir şərtim də var.

– O nə şərtdir?
– Şərtim budur ki, ilk sualı mən verəcəm.
Alim razılaşdı:
– Buyur!
– O hansı quşdur ki, uçanda iki ayağı olur, yerə düşəndə üç ayağı?
Alim ha fikirləşirsə də, bir şey çıxmır və təslim olur.
– Tapa bilmədim. Bu da sənin yüz tümənin. Hə, indi de görüm, o hansı quşdur?
Kəndli deyir:
– Heç mən də bilmirəm. Buyur. Bu da sənin 50 tümənin.

# VI. ATALAR SÖZLƏRİ

Az idi arıq-uruq, biri də gəldi boynu buruq.

Azarlının yanında armud yeməzlər.

Al əlinə silahı,
Qüvvət versin İlahi.

Kişi anası olmaq hər ananın işi deyil.

Qızı gözəl kişiylə alver etməzlər.

Arvad üzlü kişiylə arvad söhbəti eləmə.

Bez gətir, qız apar.

Ata malın övlad mal edər.

Ərə gedən qız gora da gedər.

Qonağı pis qarşılayan ev sahibinə deməzlər:
– Çuxamı hardan asım?

Bığsız adam, saqqala salam verməz.

Böyük ağacın kölgəsinə çox adam sığınar.

İri qazanın iri qulpu olar.

Fikir də var, şükür də.

Boş süfrəyə də “bismillah” deməlisən.

Dünya hamını udsa da, uduzmaz.

Qara kişmişin ağ dadı.

Dayaz ağılla dərinə getməzlər.

Ağı qaradan seçməyənin üzü qara olar.

Oraq nə bilir yaraq nədir.

Sirli sözü ağıza atarlar, amma yeməzlər.

Ağıllı özündən, sarsaq talehindən küsər.

Soğan bişəndən sonra şirin olar.

Mühitə uyğunlaşmaq, düşməndən qorunmaq deməkdir.

Düyünlü ağac rəndə qırar.

Diş əzməsə, damaq qırar.

Acıq gələr üz saralar, acıq gedər üz qaralar.

Ac qarına bulamac nə edər?!

Bablı babıyla, çömçə qabıyla.

At atlını tanıyar.

Arvad var ev dayağıdır, arvad var qab boyağıdır.

Elə qayğı göstərməyən eldən küsməməlidir.

Analı qızın özü böyüyər, anasızın sözü.

Dəryaya daş atmaqla su bulanmaz.

Ordubad Təbrizin gül bağıdır.

Ordubad torpağı behişt, Ordubad əhli behişt yaradandır.

İnək su içər - süd olar, ilan su içər - zəhər.

Malı gedənin imanı da gedər.

Öldürən ox, günahkar ox atan.

O hacı, bu hacı, kim olacaq boyaqçı.

Ac donuz darıdan çıxmaz.

Allahın yarası da var, çarası da.

Ovçu neçə hiylə bilsə, ayı da o qədər yol bilər.

Yetimin qaydasıdı: gec gülər, tez ağlar.

Toyuq anasından süd görməyib.

Qarışqadan ibrət al,
Yaz ikən qışı düşün.

Hər hürənə daş atsan, daş üstə daş qalmaz.

İri qazanın iri qulpu olar.

Dayaz ağılla dərinə getməzlər.

Bülbül qarğa yuvasında da yaşaya bilər, ancaq qarıldamağı öyrənə bilməz.

Yaxşı gündə on iki qardaş olur, yaman gündə hay verən tapılmır.

Ağacın barı ona yük olmaz.

Yeni ağacın barı az olur, kölgəsi çox.

Dostun olmasını istəyirsənsə, özün dost ol.

Zarafat dostluğun qayçısıdır.

Qocanın biliyi, cavanın biləyi.

Söz var el içində, söz var ev içində.

Qocaya hörmət elə, sən də qocalacaqsan.

Qocadan demək, cavandan əmək.

Yalan söz üz qızardar,
Yaxşı iş üz ağardar.

Varlıya mal əzizdir, kasıba uşaq.

Uşaqlı evdə qeybət olmaz.

Əməksiz yemək olmaz.

Bilikli adam az danışar.

Böyüksüz evdə bərəkət olmaz.

Böyüklərlə böyük ol, kiçiklərə göstər yol.

Aclıqdan kimsə ölməz, ölən toxluqdan ölər.

Oldu ilə öldüyə çarə yoxdur.

Ocaq içində tutuşar.

Düşə bilməyəcəyin yerə çıxma.

Boş sünbülün başı yuxarı olar.

Ağız yeməsə üz utanmaz.

Allah var, rəhmi də var.

Tuman geyinməklə arvadlıq olmaz.

Acı bibəri qurd yeməz.

Su mundarlıq götürməz.

Paxıl artsa, qurd da artar.

Ay işığında qoz yığmazlar.

Toyun bəzəyi xonçadı.

Erkək quşun yuvası olmaz.

Qabağı yazdı, ömrü azdı.

Kora gecə-gündüz birdir.

Allah heç kəsin təknədə çörəyini tək eləməsin.

Yeyərsən, qurtarar, yeməzsən, ac qalarsan.

Evlad dediyin məscid qapısıdır: nə yara bilmirsən, nə yandıra bilmirsən.

Çay həmişə qırmızı alma gətirməz.

Tək deyənin qabağında cüt deməsən, elə bilərlər ki, ağzın yoxdur.

Ot yolun gah o tərəfində bitər, gah bu tərəfində.

Aşın sıyıxlığı dənin yoxluğundandır.

Başı dağca olsa, dibi qılcadır.

Kiminə yağlı kökə, kiminə yağlı kötək.

Həzər qıçı gödək toyuğun əlindən.

Xiyar puluna alınan eşşək suda boğular.

Əhməd-Əhməd, bəs sənə nə zəhmət.

İnsan dili bir qamçıdır; haqlını da vurur, haqsızı da.

Gülmə gülünc olana, plovu linc olana.

Sərvətə sahib olmaqdansa, namusa qul olmaq yaxşıdır.

Gündüz dar-dar eləyir, gecə yeri dar eləyir.

Bulama qalıb dəliyə: ya yeyə, ya yalaya.

Uzun-uzun meşələr, sizdən qalmış peşələr.

Kor qoyun gecə otlayar.

İynə verin, sap verin, şaqqulu yamaq yamıyır.

At atın dalını borc qaşıyar.

Həmişə şəban, bir gün də rəmazan.

Əlimdən tutan gəlmir, ayağımdan çəkən gəlir.

Qoz-qozu qovur, ağacın xəbəri yoxdur.

İşlədim, işləmədim, günüm budur, yediyim yarma aşı - yarısı sudur, yeddi dəst paltarımın təzəsi budur.

Qaşıq aşdan istidir?

Qatır tavlamıxı yerdən çıxarar, iki özünə vurar, bir yerə.

Doğru itə vurarsan, oğru it özün bildirər.

İlan öz əyriliyini bilməz, dəvə boynuna əyri deyər.

At təpikləməz, it qapmaz, demə.

Od alov ilə söndürülməz.

Dayça atlaşarsa, at dincələr, oğul kişiləşərsə, ata dincələr.

Can verirsən sərçəyə ver, qaranquş gəldi-gedərdir.

# VII. HİKMƏTLİ DEYİMLƏR

Ağılsız adamdan
Kənar gəz ancaq
Sən ondan gözləmə
Kamal, qanacaq.

Alsan bir kimsədən
Hədiyyə, ya pul
Onun qabağında
Olacaqsan qul.

Miraslıq dövlətdən
Uzaq ol qəti.
Mirasın mirasdır
Son aqibəti.

Dövlətin qanunu
Olsa müqəddəs
Yoxsullar ordusu
Əziyyət çəkməz.

Kağız üzərində
Qalasan qanun.
Hər yerdə çoxalar
Ağılsız, cünun.

Ən yaxşı insanı
Alçaldar, əlbət,

Fırıldaq yoluyla
Toplanan sərvət.

Sənə pislik etsə,
Başqa pis, əgər
O pisi başqa pis
Bir gün gəbərdər.

Kökdən yarımasa
Meyvə ağacı
Onun meyvələri
Olacaq acı.

Ən yaxşı insanı
Alçaldar, əlbət
Fırıldaq yoluyla
Toplanan sərvət.

Qanun ac-yalavac
Üçündür bəli
Ağıllı adamı,
Neyləyir dəli.

Əgər istəyirsən,
Gur çıxsın səsin
Çalış ki, dilinə
Haram deyməsin.

Qadın məhəbbəti
Yaşa baxmayır

Oğulsan, sevəni
Bu yoldan ayır.

Var-dövlət əsiri
Artandan bəri.
Daha aqillərin
Görünmür yeri.

Ağılla, cəsarət,
Olsa hər kəsdə.
Çıxmağa yol tapar
Dəmir qəfəsdən.

Qohumun kasıbdırsa
Ona əl tut həmişə
Zamana nə etibar,
Hər şey birdən dəyişər.

# VIII. TAPMACALAR

O nədir ki, işığı var, istisi yox?
**(ay)**

Bir damım var, tək dirəkli
**(göbələk)**

Bir qızıl öküzüm var,
Harda yatsa, ot bitməz.
**(od)**

Qulaq üstə, quş yatar.
**(sırğa)**

Özü qara, sözü ağ.
**(yazı lövhəsi, təbaşir)**

O nədir ki, yetmiş iki dil bilir?
**(saz)**

Bir il əkərlər,
Yeddi il biçərlər.
**(qızılgül)**

Gündüz yatar yuvada,
Gecə gəzər obada.
**(yarasa)**

Biri gedər gəlməz,
Biri yatar durmaz?

**(tüstü)**

Bir təndirim var,
İki çörək tutar.

**(qoz)**

Əl ilə tutmaq olmaz,
Göz ilə görmək olmaz.

**(külək)**

Göydə doğular,
Yerdə boğular.

**(yağış)**

Yer altında sarı biz.

**(kök)**

Bədəni yerdə,
Saqqalı göydə.

**(turp)**

Balaca quyu,
Pıqqıldar suyu.

**(samovar)**

Bizdə bir kişi var
Hər gələn əl verir

**(qapı)**

Görüblər çox qərinələr,
Dünyada gör olur nələr,
Biri gedər biri gələır.

**(günəş)**

Əzizim, mən çoxusu,
Yəqin bilir çoxusu,
Aşıq bir bağa çıxdı,
Azı quru, çoxu su.

**(yer kürəsi)**

Ağ qız çiməndə uzanır

**(düyü)**

Axşam doğular,
Səhər yer ovar,
Axşam yığılar,
Səhər dağılar

**(cücə)**

Başı darağı,
Quyruğu orağı.

**(xoruz)**

O yazılmış cahana,
Həyat verir insana.
Nədir ki, çox istəyir
Bizim gözəl zamana?

**(sülh)**

Getsə, heç zad gətirməz,
Çox şeyləri götürməz.
Deyin görüm o nədir,
Tapdığını itirməz?

**(maqnit)**

Heç küpə, hellənə küpə,
Yüz il qalsa, çürüməz küpə.

**(ad)**

Suya salaram lillənir,
Sudan çıxır dillənir.

**(zınqıroy)**

Göydən gələn dərvişlər,
Kürkün yerə sərmişlər.
O qədər oynamışlar,
Xurd-xəşil düşmüşlər.

**(qar)**

Aban abanı,
Dəvə dabanı.
Altı qıçı var,
İki dabanı.

**(tərəzi)**

O nədir ki, üç başı var, on ayağı.

**(inək, buzov, sağıcı)**

Dəyirmana dən gəldi,
Çuvalları gen gəldi,
Toxumamış çuvalda
Üyünməmiş un gəldi.

**(iydə)**

Bir qonağım gəldi haqdan,
Bir quzu kəsdim yoxdan.
Nə qonağımın dişi var,
Nə quzumun sümüyü,
Qaraca köpək, qapıda yatar.

**(yeni doğulmuş uşaq və əlcək)**

Ata-anası vardı,
İş-gücdə etibarrı.
Həm erkəkdi, həm dişi,
Evlənməklə yox işi.

**(qatır)**

Ağırlıqda dağ kimi,
Qolları budaq kimi.
Əyilir su içməyə,
Bəyirir oğlaq kimi.

**(mancanaq)**

O nədir ki, anası qara, qızı qırmızı, oğlu qıvrımca-qıvrımca.

**(kösöv, alov, tüstü)**

# IX. NAĞILLAR

## MİSMAR YARASI

Biri varmış, biri yoxmuş, bir atanın gözünün ağı-qarası bircə oğlu var imiş. Ona görə də ata oğlunu çox ərköyün böyüdür. Günlər keçir, oğlan yavaş-yavaş böyüyür.

Get-gedə atanın kədəri də böyüyür. Çünki oğlunun əlindən bir adam da olsa, yaxşılıq görmür. Ata nə qədər oğluna nəsihət verirdisə də, bir xeyri olmurdu.

Bir gün ata həyətdəki ağacı oğluna göstərib deyir ki, indən belə nə qədər pislik etsən, o qədər bu ağaca mismar vuracağam.

Oğlan yenə öz bilidiyində idi.

Günlərin bir günü oğlan baxıb görür ki, ağacda mismar əlindən yer yoxdur. Gördüyü işlərdən utanır. Atasından xahiş edir mismarları ağacdan çıxarsın. Ata belə şərt kəsir ki, indən belə oğlu hər dəfə yaxşı bir iş görəndə o da ağacdan bir mismar çıxardacaq.

Aylar, günlər keçir. Bir gün oğlan görür ki, ağacda bir mismar qalıb. Oturub ağacın dibində ağlayır.

Ata oğlunun ağladığını görüb deyir:

– Ay oğul, daha niyə ağlayırsan. Ağacda cəmisi bircə mismar qalıb, istəsən, indi də çıxardıb ataram.

Oğlan deyir, ay ata, mismarların yarası neçə vaxtdır ağacdan getmirsə, gör mənim əməllərim adamların ürəyini necə yaralayıb. Yəqin ki, onların da yeri sağalmır. İndi etdiyim pis əməllərə ağlayıram.

## QURDUN NALƏSİ

Biri var idi, biri yox idi. Keçmişlərdə bir qurd var idi. qurd bir gün yolda gedərkən bir qoça rast gəlir. Qurd qoça deyir:

– Gəl səni yeyim.

Qoç cavab verir:

– Tək məni yemə. Qoy gedim özgə qoçları da gətirim sonra ye".

Qurd razı olur.

Sonra bir az da getdikdən sonra bir qoyuna rast gəlir. Deyir:

– Gəl səni yeyim.

Qoyun deyir:

– Məni tək yeməkdən fayda yoxdur. Gedim, o biri qoyunları da gətirim.

Qurd yenə razılaşır.

Yenə gedərkən bir keçiyə rast gəlir. Deyir:

– Keçi, gəl səni yeyim.

Keçi deyir:

– Mən quru sümüyəm. Qoy gedim bir neçə dənə də keçi gətirim, sonra ye.

Qurd onunla da razılaşır, buraxır. Sonra bir eşşəyə rast gəlir. Onu yemək istəyir. Eşşək deyir:

– Sənin atan mənim atamı yeyəndə yorğan-döşəkdə yemişdi. Qoy gedim yorğan-döşək gətirim, rahatlıq ilə ye.

Qurd onu da yemir. Bir az da getdikdən sonra bir ata rast gəlib deyir:

– Ay at, gəl səni yeyim.

At deyir:

– Sözüm yoxdur, ye. Mən sahibkara kağız aparıram. Gəl kağızı apar ki, məni yeyəndən sonra sahibimə yetirəsən.

Qurd gedir kağızı atın dalından götürsün, at təpik ilə vurur, qurdun çənəsi əzilir. At da qaçır.

Haldan düşmüş qurd ağlaya-ağlaya dağın başına çıxır, sonra bu sözləri oxuyur:

– Sən gördün bir dənə qoç, ye qalsın quru qıç. Sən neyləyirsən, neçə cüt qoç. Məgər qoç döyüşdürməyə gedəcəkdin?

– Sən gördün bir dənə qoyun, ye qalsın quru boyun. Sən neyləyirsən oyun-moyun. Məgər oyunçuluğa gedəcəkdin?

– Sən gördün bir dənə keçi, ye qalsın quru qıçı. Sən neyləyirsən çoxlu keçi. Məgər çobanlığa gedəcəkdin?

– Sən gördün bir dənə eşşək, ye qalsın köşşək. Sən neyləyirsən yorğan-döşək. Məgər yorğan-döşəkdə yatacaqdın?

– Sən gördün bir dənə at, ye qalsın yerdə mat. Sən neyləyirsən kağız barat. Məgər qasid olacaqdın?

Bu sözləri deyib ağlayır. Qurd muradına çatmadı. Siz muradınıza çatasınız, nağılları unutmayasınız.

## BİRLİK

Biri var idi, biri yox idi. Bir kişinin üç öküzü var idi. Qara, ağ, sarı öküzlər. Kişi bunları çox işlədirdi. Lakin yaxşı yemək vermirdi.

Bir gün qara öküz taylarına dedi:

– Bu kişi bizi çox işlədir, lakin yaxçı yemək vermir. Gəl qaçaq, özümüz üçün yaşayaq.

O biri öküzlər də razı oldular. Bir gün fürsət tapıb meşəyə qaçdılar. Orada yaxşı ot yeyib, təmiz su içib, təmiz havadan nəfəs aldılar. Get-gedə kökəldilər. Bunların arasında birlik və səmimiyyət var idi. Ona görə də vəhşi heyvanlar onlara hücum edə bilmirdilər, edəndə isə onlar birləşib hücumu dəf edirdilər.

Bu birliyi görən tülkü məzlumanə görkəm alıb, özünü verdi qara öküzün yanına. Başladı onu tərifləməyə. Bir az tərif edəndən sonra dedi:

– Sən o biri öküzləri özünə lazımsız şərik etmisən. Gərək tək özün buranın ağası olasan.

Qara öküz tülkünün yalan təriflərinə aldanıb, bir bəhanə ilə ağ öküzü, sonra isə sarı öküzü oradan uzaqlaşdırdı. Ətlərini isə hiyləçi tülkü yedi.

Öküzün zəifliyindən istifadə edən tülkü qurdun yanına gedib dedi:

– Get öküzü öldür, ətini, sümüyünü ye. Bir az artıq-urtuğundan mənə də ver.

Qurd gəlib öküzü bir az müqavimətdən sonra öldürdü. Öküz vuruşmadan əvvəl tülkünü görüb öz səhvini başa düşdü. Amma artıq gec idi.

## PƏRİ XANIM

Bir Hacının bir qızı varıymış, bının adı Pəri xanımıymış. Bı qız hesab elə, şah balası deməhdi. Bir günnəri bı Hacı çıxarmış, atını götürərmiş, gedərmiş, hesab elə, kətdən çıxarmış meşənin kənarına-zadına, ova gedərmiş. Bı Hacı getdiyi yerdə baxır ki, bir çinar ağacı var. Bı ağacın başına bir dənə quş düşüpdü. İsdiyir ki, bını ovlasın. Oxunu sıyırıp tuşdıyır, onu atanda baxır ki, o ağacın dibinə bir uşax qouplar. Balaca, təzə anadan olmış bir uşaxdı, bəliyiplər, qoyuplar, bir oğlan uşağıdı. Deyir ki, aha, yaxşı oldı, mən oğlımı tapdım, mən mını aparım verim arvadıma, arvadım da bını köynəyinnən salsın içəri, çıxartsın, Pəriyə qardaş olsın.

Bını bı fikirnən gətirir əvinə, səvinə-səvinə, deyir ki, mən ovumda bı dəfən bir uşax tapbışam. Oğlumuz yoxdı, bını özümizə oğul eliyəciyih. Gətirir verir, arvad da bını köynəyinnən salır içəri, çıxardır. O günüsünnən bıın adın Tapdıx qoyullar. Bı Tapdıx beş yaşınnan on yaşına, on yaşınnan on beş yaşına, böyüyüp bir oğlan olur. Bir günü bını atası-anası çağırır yanına. Deyir, oğul, Tapdıx, biz gedəciyih ticarətə. Mınnar arvadıynan hazırraşıllar, yollarına yiməy-işməh düzəldillər. O zaman da maşın-zad yoxumuş, atnan gedirmişdər. Uzax məsafələri atdarı yükliyip, yəhərriyip belə gedirmişdər.

Bınnar evi-eşiyi tapşırıllar nökərrərinə, sabah namazında durullar atdarını minillər, getməhdə olsunnar, Pəriynən Tapdıx da evdən-eşihdən muğayat olullar. Bı Tapdıx da, dediyimiz kimi, 15 yaşını tamamlıyır. Durur atasının həmin atını minir, oxunu götürür, gedir şikara. Meşənin kənarında ov vırır, quş vırır, nə qayırır, cavan uşaxdı da, həvəskardı. Gedir baxır, atası mını necə tapıp gətirib ki,

həmin o çinar ağacının başına bir quş tüşüp, çox gözəl quşdu. O quşun adına Zümrüt quşu deyilir. Oxunu sıyırır, isdiyir bını vırsın, həmin ağacın dibində bir qoca arvad oturupdu, orda cəhrə əyirir, yun əyirir (cəhrə varıydı bınnan qabağa, biz görmüşüy, siz görməzsiiz onu). O yan-bı yana keçip quşu rasdıyanda bının ayağı dəyir qoca qarının yununı dağıdır. Yel də yunu ora-bıra səpir. Qarı hirsdənip deyir:

– Ay atasınnan bixəbər, mənim yunumı niyə dağıtdın o yan-bı yana?

– Tapdıx deyir, qarı nənə, bı necə sözüydü, sən məə dedin. Axı mənim Hacı Səyyah kimi atam var, sən niyə məə atasınnan bixəbər dedin.

Qarı deyir:

– Yox, sən öləsən, yox. Sən o evin oğlu dəyilsən. Atan səni həmən bı ağacın dibinnən aparıb özünə oğul qayırıb. Adıı da Tapdıx qoub, indi Tapdıx kimi də yaşıyırsan. İndi o evdə o xəznədən, o dəhnədən səə heş dat çatan dəyil.

Tapdıx deyir:

– Qarı nənə, bə mən neyniyim, o əvdən-əşihdən məə də çatsın.

Qarı deyir ki, get Pəriynən başbir ol, o sənin bacın dəyil.

Bı qarı mını örgətməhdə olsun, bı, bı şəkildə də eliyir, durur atını minip gəlir. Pəri də oturup qardaşının yolunu gözdüyür. Pəri görür ki, yox, bı dəfən Tapdıx elə gəlir ki, atını yolun bilmir altına sürə, bilmir üsdünə sürə, təmtələsik.

Gəlir çatır evə, çatan kimi Pərini qucaxlıyır, Pəri bı dəmkənədə yanında dəmir aftaya varıydı, bını götürür, vırır bının başına. Mının başına vıranda bayax mını qan apa-

rır. Qan aparanda Pəri bilmir neynəsin, mının qanın-qoxun silir, təmizdiyir, mını oyadıp başını sarıyır, üz tutur qardaşına:

Gələndə mən nə deyim o Hacıya,
Şirincə nemətim döndü acıya.
Heş qardaş da kəm baxarmı bacıya,
Tapdıx, çıxma yoldan, aman günüdü!

Çarxı dönmüş, gör nə işdər qayırdı,
Xəncərinən bağrım başın oyurdu.
Atam Hacı Səyyah belə buyurdu:
Tapdıx, çıxma yoldan, aman günüdü!

Vaxd o vaxd olur ki, atasıynan anasının gəlməh vaxdıdı. Atası-anası deyip ki, biz gələndə filan tüşərgədə tüşəciyih, siz də qabax gələrsiz, bir yerdə gəlip şəhərə girərih.

Belə... Atasıgilin gəlməh vaxdıdı. Tapdıx bilmir, nə deyəcəh. O durur atını minir, gedir atasıgilə qabax: ora çatanda onnar görür ki, Tapdığın başı sarıxlı gəlir, deyir, sən öləsən, nəsə bınnarın içində olup. Başa tüşüllər ki, nəysə bir hadisə olup. Tapdıx gəlip çatır, atasıgilnən görüşür, deyillər ki, get bacıı da gəti, bir yerdə gedəyin, şəhərə girəyin. Tapdıx deyir ki, bəs Pərini pis iş üsdə tutdum, dannadım, o da mənim başımı yardı. Atası deyir ki, onun qannı köynəyini gəti bizə, biz gedəh şəhərə girəh. Ola bilməz də bı bı vəziyyətdə olıpdı, başqasıynan sözbir oluplar, sən də danışıpsan, vırıp sənin başıı yarıp.

Gedir əvə deyir ki, bacı, atamgil deyir ki, Pərini də gəti. Durur, mindirir mını atının tərkinə, çıxıllar yola. Yola çıxanda bı da bələtdi da. O qədər bı ərköyün uşax olup,

bını hər yeri gəzdiriplər, ona görə də bələtdi hər yerə. Pəri baxır ki, yox, bı atasıgilin getdiyi yollar dəyil, ayrı bir meşə yoludu. Meşənin kənarında bulax var, sürür o bulağın başına. Aparıp tüşürdür o bulağın başında Pəri xanımı. Pəri başa tüşür da, bilir Tapdıx bını öldürəcəh. Ağlıyır, qardaşına deyir:

Bircə deynən görüm günahım hası,
Silinsin, qalmasın köylümün pası.
Düldülün sahabı, Qəmbər ağası,
Evladı Musaya bağışda məni!

Pəri tutar ətəyinnən dadınan,
Qorulmuşam pərvanə tək odunan.
Gəl məni öldürmə sən pis adınan,
Öldürmə, Xudaya bağışda məni!

Tapdıx da yazığı gəlir, deyir ki, bacı, soyun köynəyi ver məə. Bacısı köynəyini verir. Bı qurtdan-quşdan ovluyır, bacısının köynəyini pükür qurdun-quşun qanına. Minir atını, gətirir köynəyi verir atasıynan anasına. Deyir, Pərini öldürdüm, bı da Pərinin köynəyi. Bınnar durup gəlillər şəhərə.

Bınnar getməhdə olsun, Pəri xanım qaldı o günüsü bulağın başında, meşədə. Axşam oldu, ayılar anqırışır, çakqallar ulaşır, vəhşi heyvannar tökülüp insan nəfəsi anıyıplar. Qarışıplar bir-birinə ki, harda tutsalar, orda parçalıyacaxlar. Pəri baxır, vəziyyət pisdi, çıxır ağacın üsdünə. Bulağın başında ağaş varıymış, çıxır onun üsdünə. Orda o gecəni gecəliyir. Baxır ki, səhər açılıb. Onda da saad-zad yoxumuş, xoruz banıynan hamı saadı bilərmiş. Baxır ki, yolun kənarıınan, bıdı, bir dəsdə karvan gəlir. O karvandı

ki, bınnar da indi Haca gedir. Bınnarın səsini eşidir, Pəri xanım öz-özünə deyir:

Ay doğupdu, ülkər aydan ucadı,
Gələn bəzirgandı, bilməm, xocadı?
Deyən yoxdu, Pəri, halın necədi,
Mınnan gələn xeyir-şər nəyə lazım?!

Bı dəmkənədə[1] karvanbaşının oğlu tüşür o bulaxda, gedir əlini yumağa. Bilmir ki, orda nə var, nə yox. Ancax suyun üzünə baxır, isdiyir əlini suya vıra, suya vıranda baxır görür ki, bir gözəl qızın şəkli tüşüpdü ki, aya, günə deyir, sən çıxma, mən çıxacam, elə bir gözəl qızdı. Əlini atır suya, əlini atanda bı şəkil itir. O yana baxır, bı yana baxır, heş nə görə bilmir. Yuxarı baxanda göör ki, ağacın üsdə bir elə gözəl qızdı ki, elə şəkli tüşür suyun içinə, elə suyun içində bın gözəlliyinə vırılır oğlan. Başını qaldırıp deyir:

– Kimsən, ordan yen aşağı.

O oğlan bını yendirdi, aldı bını atının tərkinə, götürüp qayıtdı bını öz vətəninə.

O karvan da yoluynan savışdı getdi.

Gətirdi bını qoydu ata-anasının yaana, bına 40 gün, 40 gecə toy çaldırdılar, bını köçürtdülər həmən bı oğlana. Belə olan halda, gəlir mının boynuna uşax düşür, bının bir cüt oğlu olur. Bı uşaxlar da 5 yaşınnan 10 yaşına böyüyüp çatıllar.

Bir gün Pəri evdə tək-tənha oturub ağlıyır. Bın yoldaşı gəlip görür, deyir ki, Pəri xanım, necə ola ki, dünya-

----------------

1. Bu anda

da nə isdiyəsən ki, mənim atamın xəznəsində-dəhnəsində olmuya onnardan. Dünyanın yeddi baci-xəracı olsa, biz onu tapa bilərih. Nə deyirsən, onu eliyəh. Deyir ki, nə eliyəciyih, mən də bir gedəm atamı-anamı görəm da, mən də onu isdiyirəm. Sizin fikriiz nədi? Bu da deyir ki, yaxşı, baş üsdə, qoy atama deyim. Atasına deyir, atası-anası razıçılıx verir, gətirir bınnar həmin atdarı yəhərriyir, hazırrıx görür. 40 gün, 40 gecə yol gedəcəhlər. O zaman vəzirə-vəkilə təhvil verir gəlini, deyir, mını apar filan şəhərə.

Bınnar gedillər. Bir tüşərgədə qarannıx tüşür. Tüşüllər, gecəliyillər həmən yerdə. Bı vəzir, elə olur ki, bı Pəriyə gözü düşür. Pəri o qədər gözəldi. Bının oğlannarı da yanındadı. Deyir mənnən başbir olursan, ol, olmursan, oğluu öldürrəm. Pəri bına söz vermir. Oğlının birinin başın kəsir. Onda vəzir deer ki, oğluun o birinin də başın kəsirəm.

Deyir:

– Allah səə nəhlət eləsin. Sən məni gətimişdin bınnan ötrü. Heç olmasa, qoy durum, yenim su başına, onnan sora gələrəm, nə deersən, olsun da.

Pərinin ayağına bı kəndir bağlıyır. Pəri gedir dəriyə bir kolun dibində oturur, çərşou da atır kolun başına. Çərşo da gedir, amma köynəhcəyhdi, köynəh yoxdu əynində. Vəzir də mının ipini dartır, ip də kola bağlanıp. Pəri qaçır, diyarbadiyar, dərə mənim, təpə mənim, deyip qaçır.

Görür ki, kətdən bir sürü qoyun çıxır, çoban da bıdı, yayıp dağın döşünə sürünü, otaar.

Oturur bir qayanın dibində çılpaxca, köynəh də yoxdu əynində. Vəzirin əlinnən qaçıp. Heyvannar görür bını, püskürür o yan-bı yana, itdər görür, hürüşüllər. Çoban gəlir, baxır ki, bı qayanın dibində elə bir gözəl qız oturup, adam deyir, yimiyim-işmiyim, bına tamaşa eliyim. Tez qo-

yunun birinin başını kəsir, dərisini çıxardır geyindirir bının əyninə. Qayıdır evə tərəf ki, evdən bına pal-paltar gətirə, geyindirə, apara. Bını kim aparmaz?! Gözəl bir şeydi da, hamı apara bilər bını. Gözəllih başa, deyəllər, bəladı.

Çoban getməhdə olsun, Pəri durur ordan da qaçır. Həmən bı qoyunun dərisində qaçır. Qaçhaqaç, gəlip çatır atasıgilin küllüyündə uzanır. Heş kim tanımır, bı heyvandı, ya da insandı, kim nə bilir, qoyun dərisi geyip. O uşax çıxar qıçıynan vırar ki, ay qıllıca, dur o yana, bıralara qılıı töhmə. Bı uşax ayağıynan vırar, ay qıllıca, dur bırdan cəhənnəm ol, bizim küllüyimizə qılı-zadı töhmə.

Bir gün bı Tapdıx çıxır göür ki, qapılarının ağzında bir qıllıca şey yatıp, deyir ki, ay qıllıca, dur o yana ey, bıralara qılıı töhmə. Əma baxır bına, bir cür olur. Qayıdır gedir əvdə anasına deyir ki, ana, küllüyimizdə bir qıllıca şey uzanıp, elə bir gözdəri Pərinin gözdərinə oxşuyur. Anası da deer ki, indi ki, onun gözdəri Pərinin gözdərinə oxşuyur, get onu gətir ötür, oda, touxların içinə, qoy elə dəni-zadı o versin touxlara.

Mınnarın at ilxısı var, mal-heyvannnarı, qoyun sürüləri var, hərəsinə də bir nökər qulluğ eliir. Belə olan halda Tapdıx gəlir deyir:

– Qıllıca, anam səni çağıır.

Qıllıca durup Tapdığınan gəlir. Tapdıx apaar ötürür touxların içinə, touxların dənini verir göstərir ki, nə boyda atassan; nə boyda axşam, nə boyda səhər dən atassan touxlara. Pəri deyir, yaxşı.

Əmə, axşam olanda bir gün Tapdıx bını pusur. Taxdaların arasınnan baxır ki, bı həmin bı qılın soyundu, paltar geyindi, uzandı yerinə, yatdı. Başa tüşür ki, bay, bı Pəridi.

Vaxd o vaxd olur ki, Pərinin atasıgilin qapısına ərinin vəziri, vəkili, əri, özü, bıdaa, atnan gəldilər. O zamanda soruşub eliyən yoxuydu ki, nəyə gəlipsən, kimin adamısan. O saadı qonağı qəbul eliyəllərmiş. Tez o saadı Hacı Səyyah da əmr eliyir, qonağı qəbul eliyillər. Qoyunnar kəsilir, kabaplar tutulır. Əmə, bı Qıllıca eləcə ha irəlliyir qapının ağzına, deyillər, ay Qıllıca, qılıı tökmə bıralara, qonax var, çəkil ged o yana. Bını qoymasalar da, bı irəlliyir qapının ağzına tərəf. Onda danışıx qutarannan sora, bayax qoyun dərisini sıyırıp bədəninnən atır, anasına deyir, ordan məə bir dəs paltar ver. Anası gətirip mına bir dəs paltar verir, görür kü, mının canı yara töküpdü. Pəri paltarı geyip, keçir içəri – qonaxların yanına. Onda deyir ki, heş kim yerinnən dərbəşməsin, mən də sözümü tamamlıyım, sora.

Qonaxlar görüllər ki, bı öz gəlinnəridi. Pəri deyir ki, qoyun mən öz başıma gələn müsibətdərdən danışım. Pəri əvvəldən axıra nə olupsa, hamısını danışır. Hacı Səyyah da, qonaxlar da Pərini dinliyənnən sora, əvvəlcə o qarını gətirtdirillər – həmən o çinar ağacının altındakı qarını. Onun boynunu vırdırır, sora Tapdığın boynun vırdırır, sora vəzirin boynun vırdırır, çağırıllar o çobanı. Çobanın da adı Budax çobanıydı. Hə, bı çobana çoxlu maldan-puldan verillər, deyillər, sən get.

## ÇÖLMƏYİN NAĞILI

Biri varıydı, biri yoxuydu. Bir kişi varıydı, bir də arvad. Bınnarın qazannarı yoxuydu şorbanı pişirməyə. Bir gün araba gəlir küçiyə, "Ay çölməy alan, ay çölməy alan" deyip haraylıyır. Kişi küçədən gəlir deyir ki, arvad, çölməh satıllar.

Arvat deyir:

– Qaç o çölməhdən birini al, gətir əvə.

Kişi gedip soruşur ki, ay qardaş, çölməyi neçiyə verirsən?

Dedi:

– 100 tümənə.

Kişi çölməyi alıp gətirir əvə. Arvad deyir ki, ay kişi, örgəndin ki, çölməyə nə qədər duz atacıyıx?

Kişi deyir:

– Yox.

Kişi qayıdır küçiyə, çıxır görür ki, çölməh satan gedir. Kişi gedir, çata bilmir. Gedir bir kəndin içində dayananda deyir ki, ay çölməh satan qardaş, de görüm çölməyə nə qədər duz atacıyıx?

Çölməh satan avcının içini göstərip deyir:

– Bir belə, bir belə.

Kişi "bir belə, bir belə" eliyə-eliyə qayıdıb əvə gəlirdi. Çöldə bir taxıl əkən cütcüyə çatdı. Onda o taxıl əkən cütcü elə bildi ki, o deyir ki, taxılın bir belə, bir avıc olsun.

Bı cüt əkən cütünü dayandırdı, gəldi bı kişini tutdu, nə yiyipsən, turşulu aş, bını verdi qəmçinin dəminə, döy ki, döyəsən.

– Ədə, köpəy oğlu, niyə deyirsən sənin taxılın bir belə olsun, denən ki, bol olsun, çox olsun, dalı gələn olsun.

Kişi yenə "bir belə, bir belə" eliyə-eliyə gəlirdi əvinə. Gəldi gördü ki, bir kəndin qırağında bir qoca kişi ölüb, aparıllar basırmağa. Kişi bı dəfə də deyir:

– Çox olsun, bol olsun, dalı gələn olsun.

Bını bırda da tutdular döydülər. Dedi ki, bə nə deyim. Dedilər ki, denən ki, görüp-görəcəyiz bı olsun, ta bir də belə şey görmiyəsiz.

Kişi bu dəfə getdi bir kəndin içinə girdi, gördü kü, orda toy çalınır. Dedi ki, bınnan görmiyəsiz, görüp-görəcəyiz bı olsun. Bını bırda da tutdular döydülər. Kişi birtəhər çıxdı, bırdan da qaşdı.

Gəldi çatdı əvinə. Dedi ki, arvad. Arvad dedi, nədi. Dedi, arvad, dədəə goru yansın, çölməyə bı boyda da duz atırsan.

Arvad gətdi şorbanı bişirdi, bı boyda duz atdı, gətdi çölməyi atdı təndirə.

Axşam gətdilər şorbanı yidilər. Şorba duzdu olmuşdu. Arvad durdu şişi götürdü, düşdü kişinin dalına. Kişi qaşdı, divardan aşdı, başmağı düşdü, itdər hürüşdü, kişilər gülüşdü. Onda kişi arvada tərəf üzün tutdu, dedi:

– Zəhra, Zibeyda,
Hamısı bir boyda.
Zəhra savaşdı,
Zibeyda qaşdı.
Başmağı tüşdü,
İtdər hürüşdü,
Kişilər gülüşdü.

Onnar yidilər, işdilər, yerə keşdilər, biz də yidik, işdik, arzumuza yetişdik. Göydən üç alma tüşdü, biri mənim, biri sənin, biri də nağıla qulağ asannarın.

## ÖRKƏNİN NAĞILI

O vaxdarısı arandakılar dağa gedirmişdər. Onda da genə atnan, qatırnan, öküznən yühlərini götürüb aparıllarmış dağda yaşamağa. İsdi vaxdarı yaylaxlarda günnərin keçirdirmişdər. O vaxtda maşın yoxudu, indi maşınnan gedillər, həmən dağlara yol çəkilib. Əmə o vax atnan gedirmişdər.

O zaman kəndir yoxumuş, örkənimiş. Deməh, bəndəh deyirdilər, o vax salırdılar atın üsdünə aşırma kimi, örkənnən çəkirdilər. O örkəni də yunnan-zaddan toxuyurdular arvatdar. Hansı arvat qoçağımış, hazırrıyırmış örkənini, qoyurmuş ora, əri isdiyən zaman gətirirmiş verirmiş ona. Bı arvat da tənbəl iymiş. Heş bir ipdən-zaddan hazırramıyıp. Gəlib əri bınnarın yükünü çəkəndə köçəköç vaxdıdı, yükü çəkip gedillər. Tüşərgədə tüşüplər, gecəni gecəliyiplər. Onda səhər açılacax, genə də bının əri bını dannıyacax ki, ay arvat, heş sən arvat dəyilsən, sənin bir ipin yoxdu ki, biz bı şələlərimizi çəkəh, salağ atın üsdünə.

Onda gecə durur, örkən hanası uzadır. O zaman uzadıp toxumağıdı, ipi əyirirdilər yunnan, uzadırdılar, sora toxuyurdular. Gecə axşamnan azar dolur ki, neynəsin bının səhərə ipi olsun. Axşam hamı yatannan sora durur bı örkən uzadır həmən o yurt yerində. Orda səni, onu, o birini çağırır durquzur. Mının da əriin adı Abıtalıpdı. Yaxşı adam olupbış, hamıyın hörmətin qazanıpbış. Deyir ki:

Köçüm ellər köçü,
Saçım olub örkən ucu.
Abutalıbın xətri üçün,
Hərəniz bir arqaş keçin.

Onda durup o gecəsi gəlinnər həmən o yurt yerində örkəni toxuyup, kəsip səhərə kimi başa çatdırıllar. Səhər tezdənnən durup yühləri çəkəndə onda arvat gətirir ipi hazırca verir kişinin əlinə. Onda kişi səvinir ki, əşi, halal olsun mənim arvadımın yidiyinə-işdiyinə. Bı arvat dəyilmiş ki. İndiyə kimi dannıyırdım, bını necə toxuyup, necə başa çatdırıp, bir gecəni hazır eliyip.

Şələlərin çəkip düşüllər yola.

# FIRIM TUTANDA GƏTİR...

Biri varıydı, biri yoxuydu. Bir arvadın gözəl bir qızı varıydı. Bının yoldaşdarı – özünnən alçağ, özünnən uca qızdarın hamısı köçərmiş. Əmə bı qızın heş taleyi yoxuymuş. Elə bil bı gözəl qızın talehinə bir oğlan yazılmamışdı. Bir gün mının anası baxdı ki, hamı köçür, mının taytuşdarı ərə gedillər, mının bı gözəl qızının heç adın da çəkən yoxdu.

Deməh o vax pambığ əyirməh varıydı cəhreynən, arvatdar da pambıxları əyirərdilər. Palaz-xalça toxuyardılar. Bir gün o xeyirdə, bı şərdə, orda-bırda deyir ki, mənim qızım qırx günə qırx ton pambığ əyirir. Bir tacir də mını eşidip deyir ki, hə, bı qız mənim malımdı. Beləliyhnən, tacir bı qızı alır.

İş elə gətirir ki, bı tacir qırx ton pambığ alır, özü də qırx günnüh səfərə gedəcəh. Gedəndə tapşırır ki, mən gəlincə bı pambığ ip olmasa, sənin boynun vırılacax. Alır yığır həyətə. Özü də səfərinə davam eliyir. Bı qız da bir gün, beş gün, əlinnən gəlmir ki, pambığı əyirsin. Qullar atdarı yəhərrədi, bınnar 40 günnüh yola düşdü. Getdi, Hacı ticarətin elədi, 39 günü tamam oldu. Sabax qayıdacax, qayıdan kimi o pambığı əyirilməmiş görsə, arvadın boynun vırdıracax.

39 gün tamam olmuşdu. Gəlin pişirdiyi hörrədən bir qab götürüp çıxdı yola, çömçəynən o çiyninə töhdü, bı çiyninə töhdü və başdadı oxumağa:

Həf, ərim gələcəh vaxdıdı,
Həf, sabax gələcək vaxdıdı.
Həf, boynum vırılacax vaxdıdı.

Bı dəmkənədə şahın oğlunun boğazında sümüh qalır. Mını qoyuplar faytona, gəzdirillər. Loğmannar müəyyən eliyip ki, bı uşax gülsə, sümüh boğazınnan tüşəcəh. Uşax da, nə qədər eliyillər, gülmür ki, gülmür. Mını görən uşax güldü, sümüh boğazınnan düşdü. Şah əmir elədi ki, o arvadı gətirin mənim yanıma. İsdəsin görüm mənim bı xəznəmnən-dəhnəmnən, onu dünya malına qəni eliyim. Bını apardılar şahın yanına. Arvat dedi ki, şah sağ olsun, mənə heş nə lazım dəyil, bını əyirip, sabah namazına kimi gətirip mənim qapıma yığasız.

Şah əmr elədi şəhər əhalisinə, hamı gəlip yığışdı şahın hüzuruna. Arvatdar, hərə kimin nəyə zoru çatır, götürüp əyirir. Əyirip sabah namazına kimi gətirip yığıllar arvadın qapısına. Vax tamam oldu, Hacı Səyyah Dəmir qapı Dərbəntdən gəldi, gördü ki, doğurdan, pambıx əyrilipdi. Arvat neyniyir, lavaşı yaxır, qurudur, tökür palazın altına, uzanır üsdünə. O yana dönür, bı yana dönür, lavaşdar xırtaxırt xırtıldıyır. Kişi gəldi gördü ki, arvad yatır. Keşdi arvadın başına-ayağına ki, bıy, başına dönərəm, ay belə arvat, bir də mən sənə pambıx almanam. Arvat dedi ki, o qədər pambıx əyirmişəm ki, qabırğalarım sınıpdı.

O vaxd oldu ki, bir gün, beş gün, kişinin tamahı tüşdü ki, yenə pambığ alsın versin arvada. Yenə aldı 40 ton pambığı, dedi ki, arvat, mən səfərə gedəcəm 40 günə, mən gələnə kimi əyirməsən, boynun vırılacax.

Arvat fikrə getdi ki, o dəfən belə şeynən qutardım. Bı dəfən neyniyəcəm. Dedi ki, bilirsən, gərək məni aparasan atamı-anamı görəm, sora əyirəm.

Onda da Arazdan soyunup suyun içiynən keşməliydilər. Arvat dedi ki, mənim fırım tutanda pambığı əyirə bilərəm. Onda mən nə vax desəm ki, pambığı gətir, gətimə-

lisən. Kişinin ağlına gəlmədi ki, bı Arazın ortasında dəəcəhdi ki, fırım tutdu, pambığı gət.

Onnar Arazı keçəndə kişi arvadı aldı dalına, girdi suyun içinə. Beş-on addım qalmışdı ki, Arazın o tayına çatsın. Orada arvat dedi ki, ay kişi, fırım tutdu, pambığı gəti. Kişi hersdəndi, arvadı atdı suyun içinə. Dedi ki, o necə fırdı, o necə pambıxdı? Bırda pambıx var, mən gətirəm, sən əyirəsən?!

Bı əziz-ərköyün arvadı yerə çırpıp dedi ki, cəhənnəm ol, sən məə lazım dəyilsən. Gəldi qayıtdı öz əvinə, genə arvatsız qaldı. Arvadı da qayıtdı öz dədəsinin-anasının əvinə.

## DƏYİRMANÇI

Biri var idi, biri yox idi. Bir kəntdə bir dəyirman var idi, yel dəyirmanı. Onun yiyəsi hamının hörmət elədiyi Baba kişi idi. O, gecə də, gündüz də dəyirmanda yatırdı. Bir belə, beş belə, bir gün gecə yarıdan keçmiş gördü ki, onu bir qadın çağırır. O, əynin geyinib çıxdı bayıra, gördü, bir gözəl qız uşağıdır, saçlar topuğuna dəyirdi. Kişi dedi:

– Nədi, nə var?

Qız dedi:

– Səni toya çağırırlar.

Kişi dedi:

– Bu gecə yeddinin yarısı nə toydur.

Qız dedi:

– Düş arxama, özün görərsən.

Kişi kişiliyə sığışdırmadı. Düşdü qızın arxasınca. Gəlib iki dərənin içində, doğurdan da yığınaq, toy-dürük gördü. Kişini götürüb lap stolun başında oturtdular. Qabağına ürəyi nə istəyir yığdılar. Dedilər, yeməyini ye, ancaq yadındakını demə. O saat kişi başa düşdü ki, cin yığnağına rast gəlib. Tez "bismillah" dedi. Dediyinən hər şeyin yoxa çıxmağı bir oldu. Gördü gecənin yeddi yarısıdır qalıb şeytan düzündə. Tez geri döndü.

Hamının üstə xeyir sabah açılsın. Səhər açıldı. Baba kişi kəndin içində başına gələni danışdı. Camaat dedi:

– A Baba kişi, gəl sən ayıq ol. İynə götür həmin qız gələndə üstə keçir, olsun adam balası. Allah səninkini yetirib, nə istəyirsən.

Baba kişi gözləməyə başladı. Həmin vaxt da qapı yenə döyülməyə başladı. Baba kişi durub qapını açdı, tələsik iynə-

ni cinin üstə sancdı, cin nə qədər yalvardısa, kişi iynəni çıxartmadı. Baba kişinin o gündən bəxti üzünə güldü. Halın bişirdiyi qurtarmaq bilmirdi. Deyilənə görə, o, təknədən bir çimdik xəmir götürüb atsa, üç gün onun yoğurduğu xəmirini bişirsən, dadı tükənməzdi. Kişinin varı-halı başından aşıb daşır.

Nağılçılar belə nağıl edir ki, bir gün Hal bulağa suya gedir. Orada bir qız uşağına yalvarır ki, bu iynəni məndən çıxar. Qız başa düşmür, iynəni çıxardır. Hal yoxa çıxır. O gündən Baba kişinin dəftəri çevrilir. Nə qədər dəyirmanda yatır ki, hal yenə gələr, gəlmir ki, gəlmir. Hamı heyfslənir ki, niyə bilməmişik uşağı qoymazdıq iynəni çıxartmağa. Baba kişini ölənə qədər deyillər.

# BƏXTİNİ AXTARAN OĞLAN

Qədim zamanlardan birisində Rüstəm adlı bir cavan oğlan olur. Bu oğlan qazanardı, amma sabaha heç nəyi qalmazdı. Bir gün o qocaman bir kişinin yanına gəlib deyir:

– Ay əmi, mən görürəm ki, sən yaxşı yaşayırsan. Mən necə eliyim ki, mənim də bəxtim yaxşı olsun.

Qoca görür ki, bu oğlan ağıldan bir qədər kəmdi, deyir:

– Oğlum, yeddi dağ aşarsan. Səkkizinci dağ axırı zamandı. Gözəgörünməz xuda ordadı. O, sənə bəxt verər. Gedib ora bəxtini istəyərsən, o, sənə bəxt verər.

Oğlan birinci dağı aşır, ikinci dağı aşanda görür ki, uzaqdan bir canavar gəlir. Oğlan qalxır ağaca. Canavar başlayır hərlənməyə. Oğlan deyir:

– Ay canavar, mən gedirəm o gözə görünməz xudadan bəxt istəməyə. Qoy gedim.

Canavar dedi:

– Ey oğlan, o gözəgörünməz xudaya deyərsən ki, filan yerdə bir qocaman canavara rast gəldim, o da özünə bəxt istədi.

Bu sözləri deyib canavar oğlana yol verir. Oğlan ağacdan düşüb yoluna davam eləyir. Üçüncü dağı aşıb, dördüncü dağı aşanda görür ki, bir qocaman kişi durub. Gəlib salam verir. Qocaman kişi soruşur.

– Oğlum, hardan gəlib, hara gedirsən?

Oğlan deyir:

– Gedirəm o gözəgörünməz xudadan özümə bəxt istəməyə.

Qocaman kişi deyir:

– Oğlum, o gözəgörünməz xudadan mənim də bəxtimi istəyərəsən. Bax, bu yeri əvvəl əkmişəm, sonra səpmişəm. Bir dənə sünbül hasilə gəlməyib. Bunun sirri nədi, bilmirəm.

Oğlan deyir:

– Baş üstə, babacan.

Oğlan yenə başlayır yola, beşinci dağı aşıb altıncı dağa çatanda qabağını nizəli, qılınclı-qalxanlı adamlar kəsir. Oğlan deyir:

– Yol verin, gedim.

Deyirlər:

– Gedək, paccahımızın dərgahına. O, səni görmək istəyir.

Oğlanı gətirirlər paccahın dərgahına. Görür ki, bir cavan əyləşib. Paccah soruşur:

– Ay oğlan, hardan gəlib, hara gedirsən?

Oğlan deyir:

– Ay paccah, o gözəgörünməz xudadan bəxtimi istəməyə gedirəm.

Paccah deyir:

– Ay oğlan, o gözəgörünməz xudaya deyərsən ki, mən filan paccahın torpağınnan keçdim. O da öz bəxtini istədi.

Oğan deyir:

– Baş üstə.

Yenə başlayır yol getməyə, yol gedə-gedə öz-özünə fikirləşir ki, ay balam, bu paccahın nəyi əksikdi. Bunun ki, hər şeyi var. Bu nə istəyir. Oğlan yeddinci dağı aşıb səkkizinci dağa çatır. Görür dağlar yoxdu. Başlayır qışqırmağa:

– Ay xuda, dərgahına gəlmişəm, mənim üçün bəxt.

Xudadan səs gəlir:

– Ay oğlan,  get, bu gündən səndən bəxtli insan yoxdu, bəxtini verdim.

Oğlan deyir.

– Ay xuda, yolda bir qocaman canavara rast gəldim. O da özünə bəxt istədi.

Xudadan səs gəlir:

– Ay oğlan, o qocaman canavara deyərsən ki, bu gün qabağına nə çıxsa ye, sabah ruzunu xuda verəcək.

Oğlan deyir:

– Ay xuda, yolda gəlirdim, bir qocaman kişiyə rast gəldim, o da özünə bəxt istədi. O qocaman kişi deyirdi ki, əvvəl əkdim, sonra səpdim, amma bir sünbül də hasilə gəlməyib.

Xudadan səs gəlir:

– O qocaman kişiyə deyərsən ki, torpağın altında qayalar var. O qayaları çıxarsın. Onun da bəxtini verdim. Qoca vaxtında xoşbəxt olacaq.

Oğlan deyir:

– Ay xuda yolda cavan bir paccahın torpağınnan keçdim. O da özünə bəxt istədi.

Xudadan səs gəlir:

– Ay oğlan, o, paccah qızıdı, anası ona vəsiyyət eləyib ki, kim sənin sirrini açsa, ona ərə gedərsən. Gedib o paccaha deyərsən ki, ay paccah, bəsdi tac altında gizləndin, sən qızsan, xuda da sənin bəxtini verdi.

Oğlan başladı geri qayıtmağa. Altıncı dağa çatanda gəlib girir saraya.

Paccah deyir:

– Oğlan, mənim də bəxtimi gətirdinmi?

Oğlan deyir:

– Atam-anam sənə qurban olsun, qorxuram danışmağa.

Paccah deyir:

– Ay oğlan, qorxma sən nə desən, yerinə yetirəcəyəm.

Oğlan deyir:

– Ay paccah, o gözəgörünməz xuda dedi ki, o paccaha deyərsən ki, bəsti kişi paltarında, tac altda gizləndin, sən kişi paccah deyilsən, qız paccahsan.

Oğlan bunu deyən kimi paccah tacını başınnan çıxardı. Hamı baxıb gördü ki, paccahları gözəl bir qız imiş.

Paccah dedi:

– Ay oğlan, atam mənə vəsiyyət eləyib ki, sənin sirrini kim açsa, ona ərə gedərsən. İndi gəl məni al. Buranın da paccahı ol.

Oğlan qəh-qəh çəkib deyir:

– Ay paccah, mənim sənin torpağında nə işim var. Mənim bəxtim Dərbənddədi.

Oğlan başlayır geri qayıtmağa. Gəlib görür ki, dördüncü dağda qocaman kişi onu gözləyir.

Kişi deyir:

– Oğlum, mənim üçün də bəxt istədinmi?

Oğlan deyir:

– Bəli, babacan, istədim. Gözəgörünməz xuda dedi ki, o qocaman kişinin bəxti elə həmin torpaqdadı.

Başlayırlar yeri qazmağa. Daşları, qayaları çıxarıb atırlar. Bir də görürlər səs gəlir. Həmin yerdən düz qırx kisə qızıl çıxır. Qocaman kişi deyir;

– Oğlum bu qızılların iyirmi kisəsi mənim, iyirmi kisəsi sənin bəxtindi. Götür öz payını.

Oğlan deyir:

– Babacan, bu qızılları mən neynirəm. Məni Dərbənddə bəxtim gözlüyür.

Qoca deyir:

– Oğlum, yaxşı-yaxşı fikirləş.

Oğlan yenə deyir:

– Babacan, mənim bəxtim Dərbənddədi.

Oğlan başlayır yenə geri qayıtmağa. Gəlib görür canavar yoxdu. Deyir, qoy gözlüyüm canavar yazıxdı. Onun da bəxtini deyim. Bir görür ki, budu canavar ulaya-ulaya gəlir. Oğlan canavardan qorxmur. Sinəsini irəli verir. Canavara deyir:

– Ay canavar, xudadan sənin də bəxtini istədim. Gözəgörünməz xuda dedi ki, bu gün nə çıxsa ye, sabah xuda köməyin olar.

Canavar deyir:

– Ay oğlan, sən gedəli dilimə heç nə dəyməyib, bir dovşan da tuta bilməmişəm. Mənim bəxtim elə sənsən.

Bunu deyib canavar oğlanı ayaqlarının altına aldı. Parçalayıb yedi. Siz gedin o yana, mən bu yana. Nağıl burda tamama yetdi.

## ÜÇ GƏLİN

Biri var imiş, biri yox imiş, bir gədə və bir qarı yaşayırmış. Bu qarının üç oğlu var imiş. Qarı çox danışan, çox dalaşqan imiş. Əri cavan ölüb, uşaqları əziyyətnən saxlamışdı. Ona görə də oğlanlar analarının bir sözünü iki eləmirdi. Üçü də evlənmişdi. Gəlinlər avadın əlinnən yesir olmuşdu. Yeməyi sanayıb verirmiş. Yazıx gəlinlər doymasalar da, səslərini çıxartmazdılar. Qarı bişirdiyi xörəyin yağının üzünü özünə, oğlanlarəna götürüb, qalanını gəlinlərə verirmiş. Bir gün kəndə hay düşür ki, padşah gözünün ağı-qarası bir qızına toy eyləyir. Yeddi para kəndə yemək-içmək paylanacaq. Qarı bunu eşidən kimi bəzənib, düzənib yolu əlinə aldı. Gəlinlər ac idi. Elə də sandığı qıfıllayıb getdi toya. Gəlinlərin ən kiçiyi çox bilmiş idi. Dedi:

– A qızlar, o qoca arvad olduğu halda, biz cavanları qoyub toya getdi. Yeyib-içib, oynayıb-gülüb gələcək. Gəlin qarı toydan gələnə kimi halva çalaq, fətir bişirək, barı qarnımız doysun.

Gəlinlərdən böyüyü dilləndi ki, mənciyəz qoxuram, halvanın iyinnən bilər. Ortancıl gəlin dedi:

– Bilir, indi bilsin. Mən razı.

Tez ocaq qaladılar, xəmiri böyük yoğurdular, ikisi fətiri bişirdi, kiçik gəlin halvanı çaldı. Yenicə yeyib qurtarmışdılar ki, gördülər qarı elə gəlir, daha demə. Fətiri çox bişirmişdilər. Tez yenə kiçik gəlin dilləndi, dedi:

– Sanayın fətri. Kimin payına nə düşür, belimizə bağlayaq, yoxsa bilib bizi tuncur eyliyəcək.

Fətiri böldülər, halva qazanını yudular. Hərə öz payını öz belinə bağladı. Üçü də qatarla durdular. Qarı içəri girib başladı deyinməyə:

– Niyə qatarlaşıbsınız, işiniz, gücünüz yoxdumu?

Tez balaca gəlin özünü verdi qabağa:

– A qaynana, imanına qurban olaq, danış görək, toy necə keçdi. Bizi qoymadın getməyə, al bu taydan danqıllat, biz də oynuyaq.

Qarının kefi duruldu, başladı çalmağa. Gəlinlərin məqsədi onun başını qatmaq idi. Ona görə də başladılar oynamağa. Birdən böyük gəlinin ağlına gəldi ki, şal açılar fətir tökülər, qiyamət qopar. Başladı oynaya-oynaya deyişməyə:

– Bəsdi, bacı.

– Bilsə, qiyamətdi, bacı.

– Bağlamışam, bərkdi, bacı.

Qarı o qədər çalmağa qızışmışdı, heç nə eşitmədi. Eşitsə də, onlar yedi, içdi, yerə keçdi. Siz də yeyin, için, dövrə keçin.

# OYNAĞAN ARVAD

Bir vilayətdə bir kişi, bir arvad varıymış. Kişi arvadın əlinnən zara gəlibmiş. Harada bir toy səsi eşitsə, arvad özünü oraya yetirərmiş. Kişi boşaya bilmirmiş, uşaqlar dörd yanını alıbmış. Elə olur ki, el yaylağa köçəsi olur. Kişi fikirləşir ki, arvadı yaylağa göndərsin. Dağın təpəsində toyu hardan tapacaq ki, oynasın. Buna görə də səhər tezdən öküzü arabalara qoşdu, arvadı səsləyib dedi:

– Arvad, yır-yığış elə, səni uşaqlarla yaylağa köçürürəm. Aran qızmardı, get bir az dincəl.

Arvad nə lazımdı yığışdırdı, uşaqları da götürüb yola rəvan oldular. Bir müddət getdikdən sonra kişi gördü ki, yaxın kəddən olan tanışı Xəlilnən Cəlil də yaylağa köç aparırlar. Fikirləşdi ki, arvad-uşağını bunlara tapşırsın, özü dönüb çatmayan şeyləri alıb atnan gəlsin. Kişi dedi:

– A qardaş, uğur olsun. Sizdən bir xahişim var. Mənim arvad-uşağımı da aparın. Mənim görüləsi işim var, atnan axşama dalınızca çatacam.

Dedilər:

– Baş üstə, belimizdə ha getmir.

Kişi fikirləşdi ki, arvadı tapşırsam xar ollam, yaxşısı budu deyim, öküzüm bir az tərsdi, gözdə-qulaqda olsunlar. Kişi dedi:

– Başınıza dönüm, sağ tərəfdəki öküz çox tərsdi, gözünüzü üstündən çəkməyin.

İkisi də “baş üstə” dedi. Kişi geri döndü, amma fikri arvadın yanında qalmışdı. Məni xar eləməsə, yaxşıdı. Kişi geri dönməkdə olsun, sənə arvaddan deyim. Arvad bir az gedənnən sonra gəldiyinə peşman olmağa başladı: “Mən bu altı

ayı yaylaqda neyləyəcəyəm, toysuz-düyünsüz”. Elə bu dəmdə lap uzaqdan qarazurnanın səsi gəldi. Düşündü ki, çox gözəl, gedib toy hardadı, tapıb oynuyum, gözümün qurdunu öldürüm. Uşaqlara yağlı fətir verib yatırdı.Özü kirimiş başladı düşməyə. Ətəyini belinə yığdı, toyun səsi hardan gəlir ora doğru irəlilədi. Bir kəndin qulağına çatanda yolda duran bir yolçudan soruşdu ki, bu toy hardadı? Yolçu elə başa düşdü ki, toya gələn qonaqdı. Səslədi:

– Ayə, a uşaqlar, aparın bu arvadı toy evinə qoyun.

Toy kəndin ağasının qızının idi. Yetirən kimi yeməkdən, içməkdən verdilər. Arvad nəfəsini dərdi.

İndi sizə kimdən xəbər verim, arvadın ərindən. Kişi nə lazımdı alıb atı yəhərlədi. Sonra düşdü yola. Gəlib ilkindi çağı köçə çatdı. Kişi arvadı arabada görmədi. Elə bil başına daş düşdü.

– A qardaşlar, bizim arvad hanı?

Dedilər:

– Görməmişik, sən öküzü tapşırmışdın. Ona da göz qulaq olmuşuq.

Uşaqlar ağlaşdılar:

– Dədə, anamızı xortdanmı yedi?

Kişi çığırdı:

– Xortdan yesə yaxşıdı.

Kişi atını minib geri döndü. Soraqlaşa-soraqlaşa gəlib çıxdı toy olan kəndə. Amma sənə deyim, arvad çox gözəl oyunçu idi. Kişi gəlib özünü yetirdi. Arvad bir oynayır, bir oynayır, gəl ki, görəsən. Xanın adamları ona xələt verir. Kişini cin vurdu başına. Tez xəncərin sıyrıb xalxı araladı. Toy babası kişinin qabağını kəsib dedi:

– Başın bədəninə ağırlıq eləməsin. Toya hay-hay salma. Kişi çığırdı.

– Ə köpək qızı, köç hanı, uşaq hanı?

– Sən nə gəzirsən burada?

Arvad oynuya-oynuya başladı deməyə:

– A kişi, get Xəlildən xəbər al, get Cəlildən xəbər al.

Deyilənlərə görə, elə kişi o gündən arvadı tərk elədi. Arvad da o toyda, bu toyda oynamaqnan ömrünü başa vurdu.

## YAXŞILIĞA YAMANLIQ

Nağılçılar belə nağıl edir ki, bu vilayətin ağası bir yol qul bazarında qul alarkən, bir adamın üzünün əti tökülüb sümüyü qaldığını gördü. Ağası onu satmağa gətirmişdi. Heç kəs danışdırmırdı. Ağanı maraq götürdü, dedi:

– Mən onun üzünün sirrini öyrənməkdən ötəri alacağam.

Yaxınlaşıb qulun yiyəsinnən qiymətini öyrəndi. Qulun sahibi:

– Bir eşşəyə dəyişərəm, – dedi.

Ağanın qəzəbi tutdu. Dedi:

– O necə qiymətdi deyirsən.

Qulun özü dilləndi.

– Ağa o çox baha deyir məni, mənim qiymətim qəpik-quruşdu.

Ağanı daha da maraq aldı. Müxtəsər, azdan-çoxdan, qəpik-quruş verib qulu aldı. Ağa evə çatan kimi qulu yanına çağırdı. Qul baş əyib, ağanın önündə diz çökdü. Ağa dedi:

– İndi danış görüm, sənin üzünə nə olub.

Qul dedi:

– Allahdan gizlətmədiyimi səndən nə gizlədim. Məhərrəm ağanın qulu idim. Köç gedəndə dəvənin biri məni yaman incitdi. Mən də dəvəni döydüm, dəvə özünnən çıxıb düşdü dalımca. O qaçdı, mən qaçdım. Gəlib bir mağaraya yetişdim. Mağaranın içinə girəndə gördüm qıvrılmış bir ilan yatır. Çarəm yox idi. Dəvə mənə çathaçatda idi. Ona görə də ilan məni vursa da, mağaraya girməli idim. Mən qorxudan tir-tir əsirdim. İlan başını qaldırıb üzümə baxdı, yenə başını yerə qoydu. Dəvə gəlib mağaranın ağzında yatdı. Mən dü-

şündüm ki, mənimki buraya qədərdi, ya ilan öldürəcək, ya da dəvə. İlan yerinnən asta-asta sürüşüb dəvənin yanına getdi. Ayağını çalıb geriyə döndü. Mağaranın bir tərəfinə çəkildi. Mən mağaradan çıxıb üzü aşağı yeriyib yüyürdüm, gəlib bir bazara çatdım. Gördüm şahın adamları çığırır, deyirlər:

– Kim bir qara ilan görüb yerini desə, bir kisə qızıl verəcəyik.

Mən Allahımı unudub ilanın yerini şahın adamlarına dedim. Yarısı ilan dalınnan getdi, yarısı məni ortalarına alıb saxladılar. İlanı tapsalar, bir kisə qızıl verəcəklər, tapmasalar, məni öldürəcəklər. Yalan danışdığıma görə. Bir də gördüm, budur, şahın adamları ilan qucaxlarında gəlirlər. Mənə yaxınlaşıb, bir kisə qızılımı verdilər. Bu dəmdə ilan başını qaldırıb sifətimə tüpürdü. O dəmdə üzümün əti töküldü, sümüyü qaldı. Mən nə elədiyimi dərk etikcə, xəcalət çəkirəm. Yaxşılığın önündə yamanlıq eyliyənlərə qoy bir dərs olsun.

Deyillər, həmin ağa o günnən hamıya yaxşılıq etməyə başladı.

## ATI DA MİNDİ GETDİ

Bir kasıb kişi varmış. Anadan olannan hələ dilinə buğda çörəyi dəyməmişdi. Dedi:

– Arvad, bu il gedib buğdada işləyəcəm.

Getdi bir xana üzüm bağı bellədi. Qurtarannan sonra xan gətirib bir çuval arpa verdi. Kasıb kişi köksünü ötürdü.

Xan dedi:

– Niyə elə eliyirsən? Azdımı?

Dedi:

– Yox, xan sağ olsun, az deyil, amma anadan olannan bu yaşa gəlmişəm, buğda çörəyi yeməmişəm.

Xan dedi:

– Tök arpanı yerə.

Xan bir dağarcıq buğda verdi. Kişi sevincək atdı dalına, xana dua eliyə-eliyə evinə gəldi.

Arvad dedi:

– A kişi, bu nədi?

Dedi:

– Arvad, buğdadı. Beləcə saxla, daha Novruz gələnə qədər. Mən də gedim işləyim, iki girvəngə də yağ alım. Bu da bizim Novruzumuzu görəcək.

Kişi getməkdə olsun. Arvad baxdı ki, toyuq-cücə buğdanı yeyib, bir az qalıb. Öz-özünə dedi ki, toyuq-cücə buğdanı yedi, kişi gələndə məni öldürəcək. Arvad çıxdı yolun qırağına, gördü bir atlı gəlir.

– A qardaş, sən Novruzsanmı?

Kişi nə "hə" dedi, nə də ki "yox". Dedi:

– Hm.

Arvad dedi:

– Zəhrimar hm, çor hım. O amanatın toyuq-cücənin ayağı altında qalıb, niyə gəlib aparmırsan?

Kişi fikirləşdi ki, toyuq-cücənin ayağının altında çəltik olar, buğda olar, arpa ola bilər. Dedi:

– Ay bacı, vallah yatırdım, ona görə gec gəldim.

Arvad gətirib dağarcığın ağzını bağlıyıb kişinin qucağına vedi. Dedi:

– A Novruz qardaş, xəcalət olduq sənin yanında, bir az toyuq-cücə yedi.

Kişi dedi:

– Sağ olun, zərər yoxdu.

Kişi atı sürüb getməkdə olsun, arvadın əri gəldi. İki girvəngə də yağ alıb gətirdi. Dedi:

– Arvad, iki girvəngə də yağ düzəldib gətirmişəm, bu da bizim Novruzumuza bəsdi.

Arvad dedi:

– Ey, ay kişi, sən gedib işdiyirsən, elə bilirsən ki, mən boş oturutwram. Hər gün yolun qırağına çıxıb Novruzu gözləyirəm.

Kişi dedi:

– Ay arvad, hansı Novruzu?

Arvad dedi:

– A kişi, buğda yiyəsini.

Kişi elə bil ki, yuxudan ayıldı. Dedi:

– Az, yoxsa sən buğdanı başqa adama vedin?

Dedi:

– Yox, Novruza verdim, halallıq da aldım.

Kişi ayağa durub arvadının canını qamçıya verdi. Dedi:

– Az hansı tərəfə getdi?

Arvad yolun səmtini göstərdi. Kişi düşdü dalınnan. O atlı, bu piyada, haradan çatır ki. Axır gəlib bir kəndə çatdı. Qız-gəlin bulağın başında su doldururdu. Kişi dedi:

– A bala, mənə bir az su verin, içim.

Tər kişinin dabanınnan tökülürdü. Gəlin bir qabda su verdi. Kişi suyu içib getmək istəyəndə gəlin xəbər aldı:

– A qardaş, hardan belə gəlirsən qan-tərin içində?

Dedi:

– Cəhənnəmdən gəlirəm, gordan gəlirəm.

Gəlin ağladı. Dedi:

– Sən Allah, mənim qardaşımı gördünmü?

Dedi:

– Az, Abbasqulu səninmi qardaşındı?

Dedi:

– Hə.

Kişi dedi:

– İkimiz də bir məqamdaydıq.

Gəlin bir də ağladı. Dedi:

– Sən Allah, cənnətdədi, yoxsa cəhənnəmdədi?

Dedi:

– İkisinin arasında. Bir kalidor var, oraya salıblar.

Gəlin ağladı:

– Niyə?

Dedi:

– Vallah, bilmirəm. İşıqlı dünyada kimnən yüz manat alıbsa, ona görə nə cəhənnəmə qoyurlar, nə də cənnətə.

Gəlin yenə ağladı:

– Bacın ölsün, a qardaş. Tələsmirsən ki? Kişinin öydə yüz manatı var, gedim gətirim, apar.

Kişi baxdı gördü ki, bu, öz arvadınnan da ağılsızdı. Gəlin getmək istəyəndə dedi:

– Abbasqulunun paltarı da köhnədi.

Dedi:

– Kişinin bir dəst paltarı var. Onu da gətirrəm.

Gəlin tərpəndi. Kişi dedi:

– Amma tez ol. Axşam yoxlanış olacax, məni axtararlar.

Gəlin gedib paltarı da, pulu da gətirib kişiyə verib ağla-ağlaya yalvardı ki:

– Sən Allah, mənnən Abbasquluya salam-dua apar.

Dedi:

– Bacı, ağlama. Bizə tapşırıblar ki, işıqlı dünyadan salam-dua aparmaq olmaz. İxtiyarım yoxdu. Amma nə amanat gətirərsən, get gətir.

Kişi paltarı alıb yola düşdü. Bu gəlinin də əri xərac yığan idi. Gəlib atın üstündə qapıda dayandı. Adınan çağırdı ki, o sandıxdakı yüz manatı mənə gətir. Gəlin ağladı.

– Az, niyə ağlayırsan?

Dedi:

– O yüz manatı Abbasquluya göndərdim.

– Az, hansı Abbasquluya?

Dedi:

– Ölən qardaşıma.

Kişi dedi:

– Ay ölən qardaşıya Allah nəhlət eləsin.

Bunu deyib, bir-iki qamçı arvadın qumquluğuna vurdu. Dedi:

– Az, hansı tərəfə getdi barı?

Dedi:

– Bax, belə getdi.

Bu da sürdü bunun dalınca.

Kişi baxdı ki, bir atlı gəlir, yel kimi. Atlı buna yaxınlaşana qədər bu özünü bir qayalığa verdi. İki əlli qayadan tutdu. Atlı atından düşüb buna yaxınlaşanda kişi dedi:

– Kömək elə, qaya uçur, gözlə, mən paltarı da çıxardım, pulunu da verim.

Atlı çiynini qayanın altına verdi. Kişi çəkilib atlının atını da qamçılaya-qamçılaya apardı. Atlı qorxusundan qayanı buraxa bilmədi.

Bir xeyli sonra kişi kor-peşman evinə gəldi.

Arvad baxdı ki, kişi gəlir, yeriyib irəli dedi:

– A kişi, bəs at hanı?

Kişi dedi:

– Allah Abbasquluya nəhlət eləsin, cənnətə piyada gedə bilmirdi, atı da mindi getdi.

## HƏSƏN KİŞİ VƏ İLAN

Biri var idi, biri yox idi. Bir qoca kişi var idi. Onun adı Həsən idi. O, arvadı ilə heç yola getmirdi. Arvad çox kür idi. Bir gün kişi arvadına deyir ki, o quyuda gedək görək qızıl varmı? Həsən kişi arvadını aldatmaq üçün belə bir fikrə düşür. Arvadın iştahı iti olduğuna görə səhər tezdən kişiyə deyir ki, kişi, tez ol gedək.

Onlar çox getdilər, az getdilər, gəlib kəndin qırağındakı quyuya çatdılar.

Həsən kişi arvada dedi:

– Arvad, gəl gücümüzü yoxlayaq. Görək birimiz quyuya düşsək, o birimiz kəndiri çəkə bilərmi?

Onlar bir-birini qaldırmaqla güclərini sınadılar. Arvad quyuya düşəsi oldu. Həsən kişi arvadın əlindən elə bezmişdi ki, arvad quyuya çatan kimi kəndiri kəsdi, arvad quyunun dibində fəryad qopartdı. Həsən kişi çıxıb gəldi evinə.

Bir-iki gün keçdi. Uşaqlar heç yola getmirdilər. Çörək bişirən, paltar yuyan yox idi. Onlar dədələrinə çox yalvardılar, yapışdılar ki, dədə, get anamızı gətir. Həsən kişi burada qalsın. Görək arvad necə oldu. Nağıllarda vaxt yüyrək olur. Arvad gördü ki, quyuda bir yekə ilan yatıbdır. İstədi bir yekə daş götürüb vursun ilanın başına. İlan qalxanda arvadı görüb qorxdu və istədi arvadı vursun. Arvad daşı götürüb vurdu ilanın başına. İlanla arvad 4 gün, 4 gecə vuruşdular.

Uşaqlar kişini təngə gətirdilər. Kişi axırda bir gün gəlib quyuya kəndir saldı və arvadı səslədi. Arvad gördü, quyuya kəndir salladılar. O, çıxmaq istəyəndə ilan ondan qabaq kəndirə sarmaşdı. Kişi kəndiri çəkəndə nə görsə yaxşıdı, ilan. Qorxusundan istədi qaçsın.

İlan dedi:

– Ey kişi, qorxma sənin arvadın çox pis arvaddı. Onu çıxartma. Sağ ol ki, məni quyudan, arvadının əlindən qurtardın. Nə istəsən, mən sənə verərəm. Sənin yaxşılığından çıxaram.

Kişi kor-peşman evlərinə qayıtdı.

Sizə kimdən xəbər verim, İsa padşahdan. Isa padşahın gözünün ağı-qarası bir qızı var idi. Qız, nə qız, ay parçası. Aya deyir sən çıxma, mən çıxacam, günə deyir sən çıxma mən çıxacam. Bir gün padşaha xəbər getdi ki, deməzsən qızının boğazına bir ilan dolanıb. Padşah az qaldı dəli olsun. Tez hər yerə xəbər verdilər ki, deməzsənmi İsa padşah deyir ki, kim mənim qızımı ilandan azad etsə, ona qızıl, daş-qaş, xələt verdirəcəyəm. Heç kim padşahın qızını xilas eləyə bilmirdi. Şəhərdə bütün ovsunçular bi işə girişmişdi, amma heç bir şey çıxmırdı. Heç kim ilanı qızın boğazından xilas eyləyə bilmirdi.

Bir gün xəbər gəlib Həsən kişiyə çatdı. Onun da az-çox ovsunçuluqdan başı çıxırdı.

O, durub getdi padşahın hüzuruna. Dedi:

– Qibley-aləm sağ olsun, izin ver qızını xilas edim.

Padşah bir kişiyə baxdı, bir vəzirə və dedi:

– A kişi, bu boyda ovsunçuların heç biri qızımı xilas edə bilmədi. Sən hardan edəcəksən? İşdi, xilas eləsən, sənə qızıl, qiymətli daş-qaş, nə istəsən, verərəm. İşdi, qızımı xilas eləyə bilməsən, boynunu vurduracağam.

Kişini apardılar qızın yanına. Kişi gördü ki, bir vaxt onu quyudan çıxardığı həmin ilandı. İlan kişini o saat tanıyıb, yavaşca qızın boynundan sürüşüb düşdü. İlan Həsən kişiyə dedi ki, bu da mənim sənə yaxşılığım.

Padşaha xəbər getdi, deməzsənmi, qızını Həsən kişi xilas elədi. Əvəzində padşah Həsən kişiyə qiymətli daş-qaş, qızıl verdi.

Bir xeyli vaxtdan sonra yenə xəbər gəldi ki, deməzsənmi, indi də başqa bir şəhərdə filan padşahın qızının boynuna yenə ilan sarılıbdır. Bütün şəhərdəki ovsunçular nə qədər eyləyirdilər, yenə qızı xilas eliyə bilmirlər. Xəbər gəlib İsa padşaha çıxdı ki, o padşah soruşur ki, onun qızını kim xilas eliyib. Padşah da Həsən kişini nişan verdi. Həsən kişini apardılar padşahın yanına. O da İsa padşah deyəni dedi. Həsən kişi getdi qızın yanına. İlan kişini görən kimi dedi ki, a kişi, adama yaxşılığı bir dəfə eyləyərlər. İndi necə səni vurum. Həsən kişi dedi ki, ilan qardaş, arvadı quyudan çıxartmışam, bu saat gələcək, gəldim deyəm ki, qaç canını qurtar.

İlan arvadın sorağını eşidən kimi çıxıb getdi. Əvəzində padşah Həsən kişiyə çoxlu qızıl verdi. Kişi evlərinə gəlib başladı qızıllardan xərcləməyə. Qabaqdan  kasıb olan Həsən kişi indi artıq varlanmışdı. O, xoş güzaranla ömür sürdü.

# X. LƏTİFƏLƏR

Bir gün nüsnüslünün on qəpiyi itir. Bu vaxt da işıqlar sönür. Nüsnüslü iyirmi manatı yandırıb başlayır on qəpiyi axtarmağa.

* * *

Bir gün bir qadın bazarda satıcıdan soruşur:
– Pomidor neçəyədir?
– Bir məmmədəminə.
– Aşağı düşərsənmi?
– Nərdivan yoxdur axı?

* * *

Anası oğlandan soruşdu:
– Qonşu qızı niyə vurdun?
Oğlu dedi:
– Vurdum ki, üzr istəyim, mədəni olduğumu görsün.

* * *

Bir gün bir nəfər Mollaya 5 manat pul verib deyir ki, beş vaxt namazdan sonra mənə dua elə.

Molla pulun 1 manatını qaytarıb deyir.

– Ay filankəs, gecələr qısa, mənasız söhbətlər də ki, istədiyin qədər. Ona görə də səhər namazını qılmağa dura bilmirəm. Al, pulun 1 manatını qaytarım özümə.

* * *

Bir gün Mollanın həyətinin qapısını çıxarıb aparırlar. Molla nə qədər axtarırsa oğrunu tapa bilmir. Axırda gedib məscidin qapısını çıxardır. Gözətçi onu görüb deyir:

– Nə eləyirsən!

Molla deyir:

– Deyirlər ki, Allah hər şeydən xəbərdardır. Əgər doğrudursa, onda mənim qapımı oğurlayandan da xəbəri var. Desin oğrunu, verim qapını.

* * *

Bir nəfər Mollaya bir bişmiş qoyun kəlləsi gətirir. Adam gözləyir, Molla kəlləni yeyib qurtarandan sonra deyir:

– Molla, mənə bir dua elə!

Molla deyi:

– Filankəs, sən ki, bu kəlləni mənə verdin, Allah o dünyada sənə cənnət əhlinin kəlləsindən qismət eləsin.

* * *

Molla qızını ərə verir. Gəlin aparanda Mollanı çağırırlar ki:

– Molla, gəl, qıza xeyir-dua ver. Bir də ki, bəlkə tapşırığın-zadın var.

Molla qızın yanına gəlib qulağına pıçıldayır:

– Qızım, yadında qalsın, təzə getdiyin evdə nə qədər tikiş tiksən, sapın ucunu düyünlə. Yoxsa sap çıxar, iynə qalar əlində.

* * *

Bir gün bir Gənzəli arvad birinci dəfə samalyota minib Bakıya gedir.

Bakıdan qayıdanda arvad samalyot sürənə deyir:

– Əmi, Gənzədə səxla düşüm dəə.

Bütün samalyotdakı sərnişinlər, başlayırlar gülməyə. Arvad deyir:

– Nəyə gülürsüz, sefeyhsiz?

* * *

Bir gün Molla bazarda alma satır. Amma almalar çürük olduğundan heç kim almır. Axırda bir oğlan gəlir almaları alır. Gedir evdə baxır ki, almalar çürükdür. Gəlir bazarda Mollaya deyir ki, almalar çürükdür.

Molla deyir:

– Axı mən sənə dedim, alma.

## *ŞÜKÜRÜN ATMACALARI*

*Ordubad şəhər əhli Şükür Quliyevin 75 yaşı var. Çox məzəkeş və hazırcavab kişidir. Aşağıda onun bir neçə atmacaları verilmişdir.*

## BƏS BİR TAYI

Bazarda Şükür qaloş satırmış. Bir nəfər alıcı qiymətini soruşur və ucuz qiymət deyir. Şükür cavab verir:

– Bəs qaloşun bir tayını kimə satım?

## VƏSİYYƏT EDƏCƏYƏM Kİ...

Bir nəfəri tabutda aparırmışlar. 5-6 nəfər öz qohum-əqrəbasından başqa ölünü basdırmağa kənardan heç kim getmirmiş. Çünki o, çoxlarına pislik, mərdimazarlıq etməkdə ad çıxarmışmış. Tabutun arxasınca baxan Şükür uca səslə deyir:

– Öləndə deyəcəyəm, məni bu ölünün qəbiri yanında basdırsınlar.

Ondan soruşurlar:

– Nə üçün?

– Ona görə ki, bu pis adam barədə nə vaxt söhbət düşsə, hamı deyəcək: Allah yanındakılara rəhmət eləsin.

## DINQI FƏRZİ

Keçmişdə çox zalım bir şah olur. Belə ki, onun zülmündən bütün qoşun qaçıb dağılır. Bütün sarayda ancaq Fərzi adlanan birisi qalır.

Bir gün qonşu padşahlardan biri bu şahın vilayətinə hücum edir.

Məğlub olacağından qorxduğundan sarayın başına çıxan şah Fərziyə tez-tez əmrlər verir:

– Fərzi, ordan vur, Fərzi, burdan vur, Fərzi, onu vur!

Meydanda tək qalan Fərzi deyir:

– Qibleyi-aləm sağ olsun, bütün qoşunu dağıtdın, ortalıqda qalıb bir dınqı Fərzi. İndi Fərzi başına daş düşmüş, hardan vursun, necə vursun, kimi vursun?

## PADŞAHIN SÜD QARDAŞI

Keçmiş zamanlarda bir dövlətli şah olur. Şah çox ağır xəstələnir. Bütün loğman, həkimlər gəlir, ona baxır, ancaq onun xəstəliyindən baş aça bilmirlər.

Şah car çəkdirir ki, kim onun dərdinə əlac eləsə, onu dünya malına qəni edəcəkdir.

Bir nəfər gəlib ona baxır, deyir ki, şah sağ olsun, əgər dərman desəm, qəzəblənmərsən ki?

Şah cavab verir ki, həkim mənə əlac eləsə, ona nə istəsə verərəm, əgər eləməsə, dar ağacından asdıracıyam. Nə dərman bilir desin. Həkim deyir:

– Şah sağ olsun, sən 40 gün eşşək südü içsən, naxoşluğum tamam keçib gedər.

Şah vəzirinə tapşırır ki, həkimin dediklərinə əməl et. Qırx gün vəzir süd apardıqca, şahın vəziyyəti yaxşılaşır. Sonuncu gün vəzir eşşəyi sağanda, xotuq vəziri itələyib yıxır. Vəzir durub tərs-tərs xotuğa baxıb deyir:

– Ay Allahın heyvanı, bilirsən ki, dərini soyaram. Ancaq get qurban ol ki, şah ilə süd qardaşısan. Yoxsa, bilərdim sənə nə eləyərdim.

## İKİSİ YOLA GETMİR

Vaxtilə Kərəm adlı bir quldur olur. Tez-tez kəndə hücum edən Kərəm kənd camaatını var-yoxdan çıxardır. Bu kənddə iki keşiş yaşayırmış. Keşişlər heç vaxt yola getməz, həmişə biri-birinə düşmən kimi baxarmışlar.

Bir gün Kərəm dəstəsi ilə kəndə gəlir. Keşişlərdən birinin var-dövlətini götürür, keşişi də öldürüb qaçır.

Bir neçə gündən sonra Kərəmi tutub məhkəməyə verirlər. Hamı tələb edir ki, keşişi nə üçün öldürdüyünü desin.

Söz Qaçaq Kərəmə verilir:

– Camaat, vallah, elə gördüm ki, bunlar yola getmir, birini öldürdüm ki, o biri rahat yaşasın.

## NƏ İŞİ VAR?

Bir kişi nəql edir ki, keçmişdə mən faytonçu idim. Tiflisdən Naxçıvana gəlirdim. Faytonda dörd müsafirim var idi. Bunlardan biri Molla Tarverdi, ikisi tanımadım kim idi. Biri də erməni idi. Qıraxda qarşımıza səkkiz it çıxdı. Yeddisi birini boğurdu. Bu vaxt erməni müsafirim haray saldı ki:

– Ədə, qoymayın, mollanı öldürdülər.

Molla Tarverdi həmin dəqiqə ona cavab verdi:

– Eh, yaxşı eləyirlər, bir mollanın yeddi keşişin içində nə işi var?

## ÜÇARVADLI

Üç arvadı olan bir kişi bir gün arvadlarından birinə boyunbağı, birinə sırğa, birinə isə üzük alır. Ayrı-ayrılıqda hər birinə tapşırır ki, o biri arvadlara deme. Lakin bir-birinə acıq vermək istəyən günülər öz qızıllarnı göstərmək üçün fürsət axtarırlar.

Bir gün böyük arvad üzünü ortancıla tutub barmağını silkələyərək deyir:

– Az, sənə deməmişəm samovara odun sal?

Ortancıl gəlin sırğalarını göstərmək üçün başını yelləd-yellədə deyir:

– Haçan dedin?

Kiçik arvad görür ki, bunlar öz qızıllarını göstərdilər, dözə bilmir sinəsinə döyüb deyir:

– Di bəsti, bəsti, bəsti. Sizin bu pis işləriniz səbrimi kəsdi, kəsdi.

## KÜRDÜN SÖZÜ

Bir kürd eşşəyinə qənd yükləyib dağ yolu ilə gedirmiş. Yarı yolda bərk yağış yağmağa başlayır. Qənd tamam islanır. Bir azdan göy gurultusundan ürkən eşşək dərəyə yıxılır. Tez-tez ildırım çaxmasından qorxan kürd, bir daşın arxasında gizlənib deyir:

– Xar-xar elədin qəndimi islatdın, gur-gur elədin eşşəyim öldü, indi də çaxmaq çəkib özümü axtarırsan?

## PULUMUZU İSTƏMƏYƏK?

Qonşusundan yüz manat borc alan bir kürd neçə ay keçməsinə baxmayaraq, aparıb həmin adamın pulunu vermir.

Təsadüfən, həmin qonşuya pul lazım olur. Qızını göndərir kürdgilə və deyir ki, get deginən, vardırsa, mənə 1 manat borc versin.

Kürd 1 manat pul verir. Səhərisi gün kürd gedir ki, bizim pulu qaytarın. Pulu olmayan qonşu kürdə deyir:

– Ay kürd, axı sən onsuz da bizə yüz manat borclusan.

Kürd deyir:

– Vah, elə biz sənə yüz manat borcluyux ki, bir manatımızı istəməyax?!

## XƏBƏRLƏRİ OLMAYIB

Bir nəfəri quldurlar tutub var-yox pulunu aparırlar. Kişi evə gəlib əhvalatı arvadına danışır. Ancaq özünü sındırmayıb deyir:

– Amma arvad, deməyəsən, quldurların atasını yandırmışam.

– Kişi, nə edibsən?

– Bir dənə qəlp üçlüyüm var idi, elə ilişdirmişəm ki, heç xəbərləri də olmayıb.

## KARIN KÖNLÜNDƏKİ

Bir ailədə ana, nənə və qız, üçü də kar olur. Bir gün qızın atası evə gəlib şən halda arvadını dindirir. Arvad kişini başa düşməyib, tez qızının yanına qaçıb deyir:

– Muştuluğumu ver, atan mənə təzə paltar alacaq.

Qız sevinə-sevinə nənəsinin yanına qaçıb deyir:

– Nənə, ay nənə, gözün aydın, dədəm məni ərə verir.

Nənə cavab verir:

– Eh... mənə nə var, nə bişirirsiniz, bişirin, yumşaq olsun.

## DƏY NƏ VAR, NƏ YOX....

Ordubadda, eləcə də respublikada məşhur cərrah-həkim kimi tanınmış Əkbər Fəttahovu hamı tanıyır. O, xəstəni müalicə edəndə də, operasiya edib yaranda da şux zarafatlarından qalmazdı və qarşısındakı adamı mütləq güldürərdi.

Günlərin bir günü Əkbər doxtur Bakıya gedir və bir tanış ordubadlıya rast gəlir. Tanış ordubadlı Əkbər doxturu sual-cavaba tutur:

– Doxtur, salam. Nə var, nə yox, Ordubadda havalar necə keçir, öləndən-itəndən, qalandan bir xəbər.

Həkim cavab verir:

– Sağlığın, elə bir şey yoxdur. Nə ölən var, nə də itən. Havalar da babat keçir.

– Doxtur, uşaqlar necədir?

– Sağlığın, canaa dua edirlər.

– Gilas-milas, ərik-mərik yetişibmi?

– Növrəstə ərik yetişib, amma Bakıya gətirə bilmədim.

– Doxtur, dəy nə var, nə yox?

– Sağlığın.

– Yenə olsun. Dəy nə var, nə yox?

Onda Əkbər doxtur əsəbləşib deyir:

– Rəhmətliyin oğlu, dəy nə olacaq. Ordubadlının dəy nəyi olar? Bir maş şorbamız var, axşamdan onu yeyib, bir qərə çırağımız var, onu yandırıb yatırıq. Axşamdan səhərə qədər ağzımızdan qərə su axır yastığa.

Bu söhbətin sorağı gəlib Ordubada da çıxır. Bu əhvalatı hamı deyib-gülərdi. Kim-kimə rast gəlsəydi, soruşardı: «Dəy nə var, nə yox?»

## NOXUD AL, MOXUD ALMA, DÜYÜ AL, MÜYÜ ALMA...

Ordubadın qoca kişiləri, yaşlı adamları xatirələrə dönmüş yaxşı adamların mənalı ömürlərindən misallar çəkib danışarlar.

Qocaman müharibə və əmək veteranı Əjdər Sadiqov və II Dünya müharibəsində almanlara qarşı Fransa partizan hərəkatında iştirak etmiş Əməkdar müəllim Səyyad Şəfiyev söyləyirlər ki, keçən əsrin ortalarına qədər yaşamış ordubadlı Məşə Məmmədəli adlı bir xeyirxah kişi var idi. Bu adam Ordubadda meyvə qurusu, tut qurusu yığıb satardı və qazandığı pulları özünə az xərclərdi. Harada şalvarı cırıq, ayaqqabısı yırtıq və paltarı nimdaş uşaq görsəydi, mütləq yanına çağırıb, ona təzə şalvar, ya ayaqqabı, ya da bir yelan (pencək) alardı. Heç vaxt da bu barədə danışmazdı. Çox xeyirxah bir adam idi. Çətinə düşən adamlara təmənna ummadan kömək edərdi. Ondan borc pul alan adam borcunu illərlə gecikdirsəydi belə, dilə gəlməzdi. Bəzən borcunu heç qaytarmazdılar. Buna görə də el içində hörməti böyük idi (İndi belə adam tapmaq çətindir. Ancaq Ordubadda çayçı Miri deyilən bir nəfər seyid var. O, kasıblara əl tutar, taşura-aşura günləri yığılan pullardan ya məscidləri abad edər, ya da kimsəsiz, qoca adamlara əl tutar, amma heç kəsə bildirməz.

Məşə Məmmədəlinin oğlu Rəşid Ordubad rayon SES-in pediatr-həkimi Mirmehdi Seyidovun yanında feldşer işlədikdən sonra Bakıya oxumağa gedir və təhsilini qurtarandan sonra Bakıda Botanika bağında (indiki Nəbatat bağı) direktor işləyirmiş. Səyyad müəllim söyləyir ki, o zaman mən Bakıda tələbə idim və Mərdəkanda yaşayırdım. Hərdən bir

Rəşidin yanına gəlib çörək yeyər və söhbət edərdik. Bir gün o, atasına məktub yazır ki, ata, mənə 300 manat pul göndər. Tezliklə rayona gələcəyəm, gələndə Bakıdan bir az yağ-mağ, qənd-mənd, düyü-müyü, noxud-moxud və s. alıb gətirim.

Atası Məşə Məmmədəli oğluna məktub yazır, içinə də 150 manat pul qoyur və bildirir ki, oğul, mən sənə 300 manat yox, 150 manat göndərirəm. Yağ al, mağ lazım deyil, noxud al, moxud lazım deyil, düyü al, müyü lazım deyil, qənd al, mənd lazım deyil.

Bu söhbət də Ordubadda gülüş və baməzə söhbətə səbəb olmuş, hələ də pulu israf edən oğlanlarına valideynləri deyirlər ki, yağ al, mağ alma, noxud al, moxud alma...

* * *

Ordubadda aptekçi Cəfər adında bir kişi var. Kim onun aptekindən dərman istəsə, deyər ki, o yoxdur, əvəz edicisi var. Bir gün gedir bazara deyir ki, lapatka var? Deyirlər, o, yoxdur, amma əvəz edicisi var, istəyirsən, verək.

* * *

Bir gün də toyların birində Cəfər dayıya danışmaq üçün söz verirlər. Bu da toyda durur deyir ki:

– Məhəbbət elə bir şeydir ki!

Bu vaxtı kimsə yerdən Cəfər dayıya:

– Əvəzedicisi yoxdur.

* * *

Ordubad kəndlərindən birində bir kişi çaya balıq tutmağa gedir. Toruna qızıl balıq düşür. Balıq ona deyir ki, məni burax, sənin üç arzunu yerinə yetirim. Kişi deyir ki, yaxşı.

– Birinci arzum, mənə bir 07 maşını ver.

Qızıl balıq dərhal kişinin arzusunu yerinə yetirir. İkinci arzsunda da yenə 07 istəyir. Üçüncü arzusunda yenə də kişi 07 istəyir və beləliklə, üç ədəd 07-si olur. Balığı buraxır suya. Balıq ona deyir:

– Bəs niyə üç arzun da eyni oldu? Niyə üç ədəd eyni markalı maşın?

Kişi də cavabında deyir:

– Üç ədəd 07-ni satıb bir cip alacağam.

* * *

Ordubadda Malik adlı bir kişi var. Bir gün o Naxçıvandan Bakıya gedir. Təyyarədə stüardessa, əgər təyyarə suya düşərsə, qoruyucu göndərəcəklərini, ondan necə istifadə edəcəklərini bütün sərnişinlərə göstərərək danışır. Malik özünü saxlaya bilməyib deyir:

– Bəs quruya düşsək, nə edək?

Stüardessa fikir vermədən davam edir, deyir:

– Əgər okeana düşsəniz, balina görsəniz, fit çalın başqa tərəfə gedəcək.

Malik dayı yenə də özünü saxlaya bilmir, deyir ki, mənim elə pis bəxtim var ki, yüz faiz, mənim qarşıma kar balina çıxacaq.

* * *

Yenə bir gün Malik dayı motosikleti ilə gedirmiş. Yol polisi bunu saxlayıb deyir ki, dayı, zəhmət olmasa, sənədlərinizi təqdim edin. Elə bu mament bir Mercedes möhkəmdən bunların yanından keçir. Malik dayı qayıdır ki:

– Qardaş, mən dayı deyiləm, daycanıyam. Dayı, bu gedən Mercedes idi.

* * *

Ordubadlı Rasim dayı bir gün birinin şəklini çəkir. Nə qədər vaxt keçir, şəkili gəlib almır. Bir gün həmin kişini yolda görür və şəklini gəlib almasını söyləyir. Kişi cavabında deyir:

– Artıq mənə lazım deyil, kimə satırsan sat.

## *NÜS-NÜS LƏTİFƏLƏRİ*

*Ordubad rayonunun Nüs-nüs kəndi gözəl təbiəti, yaxşı insanları ilə fərqlənir. Amma burada hər şeyə inanan, bir qədər cadəlövh adamlara da rast gəlmək olur. Məhz belə insanlar nəzərdə tutularaq xalq arasında maraqlı lətifələr yaranmışdır:*

* * *

Bir nüs-nüslü Bakıda təsərrüfat mağazasına gedir və ilk gördüyü “televizor”un qiymətini soruşur. Satıcı cavab verir ki, biz nüs-nüslülərə televizor satmırıq.

– Niyə? – deyə alıcı təəccüblənir.

– Ona görə ki, gördüyünüz kondisionerləri ancaq nüs-nüslülər televizor hesab edirlər.

* * *

Başqa bir nüs-nüslünün başına mismar batır, onu xəstəxanaya aparırlar. Həkim nə qədər çalışırsa, mismarı başdan

çıxara bilmir. Ağrıya bir təhər dözən nüs-nüslü həkimə deyir:

– Doxtur, qurban sənə, mıxı çıxartma, əy üstünə.

* * *

Evinə təzə televizor alan nüs-nüslü onu işə salanda xokkey oyunu nümayiş olunurmuş. Arvadı ərindən heyrətlə soruşur:

– A kişi, bu nədir belə?

Kişi cavab verir:

– Nə olduğunu bilmirəm. Onu bilirəm ki, ora-bura, qaçanlar nəyisə diri tutmaq istəyirlər.

* * *

Deyilənə görə, bir nüs-nüslü koka-kolanın qapağını açır və görürür ki, yazıblar ki, "bəxtinizi bir daha sınayın". Kişi qapağı açır, bağlayır görür ki, yenə eyni söz yazılıb. Bir daha bağlayır, bir daha açır və beləliklə, bir neçə dəfə qapağı açır-bağlayır və yenə həmin sözü görür.

* * *

Bir dəfə bir nüs-nüslünün dostu onlara qonaq gəlir. Gilaslar təzə yetişibmiş. Qonağına təklif edir ki, çıx ağaca, doyunca ye. Ağacın üstündə gilas yemək xeyirlidir.

Qonaq deyilənə əməl edir və bundan məmnun olduğunu bildirir.

O gün olur ki, nüsnüslü də onlara qonaq gələn dostunun evinə getməli olur. Əncirin yetgin vaxtı imiş. Qonaq yiyəsi dostuna məsləhət görür ki, ağaca çıxıb əncirdən nübar eləsin.

Dostu razılaşır. Yarım saat keçir, nüs-nüslüdən səs-səmir çıxmır. Ev yiyəsi onu səsləməli olur:

– Dost, nə edirsən? Doymadın bəyəm?

Nüs-nüslü belə cavab verir:

– Bayaqdandır əncirin ancaq birini yeyə bilmişəm, ə, nə iri ənciriniz varmış.

Dostu təəccüblənir. Sonra aydın olur ki, nüs-nüslü əncir ağacına sarınmış tağın yetirdiyi qabaqlardan birini əncir hesab edib yeyirmiş.

# XI. DASTANLAR

## AŞIQ QURBANİ

Bir nəfər vəzirin uşağı olmur. Uzun nəzir-niyazdan sonra onun arvadı hamilə olur. Həmin vəzir də Şah Abbasın vəziri imiş. Şah vəziri uzun müddətli səfərə göndərməli olur. Vəzir bundan çox kədərlənir. Evə gəlib əhvalatı arvadına nəql edir.

Vaxt gəlib yetişir. Vəzir arvadı ilə halallaşıb görüşür:

– Eh arvad, illərlə arzuladığımız uşağın üzünü bəlkə heç görə bilmədim. Mənim sənə tapşırığım budur ki, əgər uşağımız oğlan olarsa, adını Qurbani qoyarsan və məndən ona yadigar olan bu qızıl bazibəndi onun qoluna salarsan. Yox, əgər övladımız qız olarsa, yenə də eybi yoxdur. 100 min tümən başlıq alıb ərə verərsən.

Vəzir arvadı ilə halallaşıb yola düşür. İl keçir, ay dolanır, bu övrətin gül üzlü, ay parçası kimi bir oğlu olur. Uşağın adını Qurbani qoyur və ərinin verdiyi qızıl bazibəndi onun qoluna salır. Uşaq böyüyür, böyüdükcə gözəlləşir, qüvvətlənir. Arvad onu molla yanında məktəbə qoyur.

Qurbaninin on yeddi yaşı tamam olur. Misli-bərabəri tapılmır. Bir gün Qurbani yatıb yuxuda Gəncə şahının qızı Pəri xanımı görür. Bir könüldən min könülə bu qıza vurulur. Qurbani yuxuda görür ki, Pəri xanım oturub öz otağında. Pəri xanımın gözəllikdə tayı-bərabəri ola bilməz. Yuxuda ona deyirlər ki, bu qız sənindir. Get, axtar, tap.

Qurbani dəli kimi yuxudan ayılır. Ağzından köpük gəlir. Bunu görən Qurbaninin anası tez nəzir-niyaz edir, molla

yanına qaçıb dua yazdırır. Ancaq bunların heç birinin Qurbaniyə təsiri olmur. Qurbani günü-gündən saralıb solur. Anası soruşur:

– A başına dönüm, axı sənin dərdin-sərin nədir ki, bu günə düşübsən. Dərdini aç, anana de, bəlkə sənə bir köməklik edə bildim.

– Anacan, mənim dərdim elə dərddir ki, sən ona əlac edə bilməzsən. Yaxşısı budur ki, qoy mən özüm öz dərdimi çəkim.

Anası çox deyir, çox yalvar-yaxar edir. Qurbani görür ki, yox, anası ondan əl çəkəsi deyil. Nəhayət, üzünü anasına tutub deyir:

Çoğul qalxdı mərdə sarı yeridi,
Orda bir şəhər var, adı Gəncə hey.
Gözəllikdə, məhbubluqda, xubluqda
Xub batıbdı mala-mülkə onca, hey.

Gözəl gördüm, gözlərinin xabı var,
Əmmək üçün ləblərinin balı var.
Hər bir kəsin tayı-tuşu, babı var,
Tutmaq olmaz hər yetənnən pəncə, hey.

Qurban deyər, mətləbimə varmadım,
Əl uzadıb qonça gülün dərmədim.
Cahan gəzdim, çarx altında görmədim
Gözəllikdə, məhbubluqda onca, hey.

Anası başa düşür ki, oğlu hansı gözələsə vurulub, aşiq olub.

Bu vaxt bu şəhərdən bir nəfər varlı tacirin karvanı gedirmiş. Tacirbaşı dəvələrini əyləndirir ki, bir az dincəlsinlər. Qurbaninin anasına xəbər çatır ki, bir karvan var, Gəncə şəhərinə gedir. İndi isə şəhərin filan karvansarasında əyləniblər.

Arvad soraqlaşa-soraqlaşa gəlib tacirbaşını tapır. Başına gələn qəzavü-qədəri tacirbaşına nəql edir. Tacirin arvada yazığı gəlir və deyir ki, oğluvu gətir mən aparım Gəncə şəhərində düşürdərəm, o da soraqlaşa-soraqlaşa gedib aşiq olduğu qızı tapar.

Arvad sevincək evə gəlib, əhvalatı oğluna deyir. O gecə ana fikrindən, oğluysa sevindiyindən yata bilmədilər. Sübh tezdən durub, Qurbaninin yol heybəsini də götürüb gəldilər həmin karvansaraya. Qurbaninin anası göz yaşlarını axıda-axıda Qurbanini tacirə tapşırdı:

Qurban olum qaşlarının təhrinə,
Oğlum düşüb nazlı yarın qəhrinə.
Apar Qurbanini Gəncə şəhrinə,
Can sənindir, can oğlumun Qurbani.

– Qurbanın olum tacirbaşı, oğlumu sənə əmanət verirəm. Ondan yaxşı muğayat ol. Allah amanında.

Tacirgil yola düşür. Yolda tacirbaşı Qurbaniyə diqqətlə baxır. Fikirləşir ki, aya bu gülüzlü, gözəl oğlanı gəl sən Gəncə şəhərində düşürtmə, gizli keçirt, apar özünə oğulluq et. Tacir bu fikirnən Qurbanidən yaxşı muğayat olur, onu yedirir, içirir, yatırır.

Bunlar bir müddət yol gedirlər, gəlib çatırlar Gəncənin yaxınlığına. Tacirbaşı Qurbanini yatırtmaq istəyir ki, Gəncə-

dən gizli keçsinlər. Qurbani isə haqq aşiqi olduğundan tacirin bu hiyləsini başa düşür və yatmaq istəmir. Tacir görür ki, yox, bu oğlan yatmayacaq. Fikirləşir ki, aya, gələsən deyəm ki, bura Gəncə şəhəri deyil, filan şəhərdi.

Tacir bu fikirnən də şəhərə daxil olur. Karvanın yolu da Pəri xanımın qəsrinin yanından keçəcəkdi. Qurbani uzaqdan qəsri görür. Baxır ki, bu qəsr yuxuda gördüyü elə eynidir.

– Tacirbaşı, bura Gəncə şəhridir, izn ver, mən düşüm.

– Yox, oğlum, bura filan şəhərdir. Gəncəyə isə çox var.

Qurbani görür ki, yox, bu tacirbaşı onu yenə də aldatmaq fikrindədir. Odur ki, dəvədən atıldı yerə və üz tutdu şəhərin içərisinə getməyə.

Qurbani gəlib bazara çatdı. Bir az dolandı. Baxdı ki, burada bir dükan var, xalis saz satırlar. Girir dükana və üzünü tutur dükançı ustaya:

– Usta, mənə bir yaxşı saz ver, çalım.

Usta baxır ki, bu bir qərib uşaqdır. Odur ki, onun qəlbini sındırmaq istəməyib, götürüb bir sınıq saz verir. Qurbani sazı alıb, o tərəf, bu tərəfinə baxır və qaytarır ustaya:

– Usta, mənə əsl saz ver.

Usta çox deyir, Qurbani az eşidir. Axırda usta əlacsız qalıb deyir:

– Cavan oğlan, görürəm çox bənd oldun. Ancaq bil ki, hər kəs bir neçə bənd şeir oxumasa, ona saz verməröm.

Qurbani deyir ki, ay usta, elə bunu bayaqdan deynən də. Mən adam axtarırdım ki, ürəyimi ona deyəm.

Qurbani deyir:

Usta, bir qız sevdim sizin ellərdən,
Cümlə aləmlərin səbəbkarıdır.

Alma yanaqlıdır, qələm üzlüdür,
Tərlan xəyalımın can şikarıdır.

Canan bilsə gəlməyimi can eylər,
Qəzəbnahdır, qəmzələrin can eylər.
Canın yar yolunda ərməğan eylər
Gözəllər şahının sitəmkarıdır.

Usta, sənə kar eyləməz bu sözlər,
Açılıb bağında lalə, nərgizlər.
Canan intizardır, durub yol gözlər,
Gözüm o gözəlin bəndüvarıdır.

Qurbaninin iki qaşı şeydadır
Quranda yazılan əlif-beydadır.
Desələr, sərində bu nə sevdadır
Deynən Pəri xanımın yediyarıdır.

Usta görür ki, yox, bu, doğurdan da, haqq aşiqidir. Seçir, Qurbaniyə bir yaxşı saz verir və deyir ki, cavan oğlan, elə bu saat şahın evinin yanında aşıqlar yığışıb deyişir. Gəlsənə mən də səni ora aparım. Qurbani deyir:

– Ay usta, mən bir qərib oğlan, məni ora kim qoyacaq.

Usta deyir ki, sənin işin olmasın. Mən səni ora apararam.

Usta tez Qurbaniyə bir dəst yaxşı aşıq paltarı geyindirir, çiyninə də bir yaxşı saz salır, gətirir meydana.

Qurbani baxır ki, on səkkiz aşıq oturub. Meydanda bir nəfər aşıq var-gəl edir. Bu aşıq sözdə hamını bağlayıb.

Qurbani girir meydana. Qalib aşığın da adı Aşıq Yadigar imiş. Aşıq Yadigar baxır ki, meydana on yeddi yaşlı bir cavan oğlan girdi. Üzünü Qurbaniyə tutub deyir:

– Ay bala, qaç get öz işinə, sənin burada nə işin var.

– Mən də öz bəxtimi sınamaq istəyirəm. Səninlə bir-iki kəlmə deyişmək istəyirəm, – deyə Qurbani cavab verir:

– Ay bala, bu on səkkiz nəfər aşığın hamısını mən bağlamışam, sazlarını da əllərindən almışam. Özünə yazığın gəlsin, çıx get.

Nə isə, Aşıq Yadigar çox deyir, Qurbani az eşidir. Axırda Aşıq Yadigar deyir ki, əgər mən səni sözlə bağlasam, mən səni əsir aparacağam. Yox, əgər sən məni bağlasan, sən mənə və bu on səkkiz nəfər aşığa nə istəsən, edərsən.

Qurbani Aşıq Yadigarla rastlaşır.

Aşıq Yadigar sazı alıb deyir:

O kimdi ki, tapa bilmədi imanı?
O kimdi ki, bəyənmədi sübhanı?
O kimdi ki, nazir oldu, gətdi Quranı?
O kimdi ki, o kitabı açar, hey.

Qurbani cavab verir:

O şeytandır tapa bilmədi imanı,
O ömərdir bəyənmədi sübhanı.
Cənabi Cəbrayıl gəldi gətdi Quranı,
Peyğəmbərdi açdı, oxudu Quranı.

Aşıq Yadigar:

O nədir ki, daldalarda əkildi?
O nədir ki, bədəninə vəkildi?
O nədir ki, mürəkkəbsiz çəkildi?
O nədir ki, aləm ordan keçər, hey.

Qurbanı:

O dişindir daldalarda əkildi,
O dilindir bədəninə vəkildi.
Quşlarındır mürəkkəbsiz çəkildi,
O könlündür aləm ordan keçər, hey.

Aşıq Yadigar:

O nədir ki, göydən yerə sallanır,
O nədir ki, hər nə versən allanır,
O nədir ki, dalısından nallanır,
O nədir ki, qatarlanmış gedər, hey.

Qurbani:

O yağışdır göydən yerə sallanır,
O uşaqdır, hər nə versən allanır.
Tabutdur ki, dalısından nallanır,
O meyitdir qatarlanmış gedər, hey.

Aşıq Yadigar Qurbanini bağlaya bilmir. İndi isə Qurbani üzünü Aşıq Yadigara tutub deyir:

Bizdən salam olsun, ey gələn aşıq,
Əlinin qələmi nə rəngdə idi?
Yazdıran kim idi, yazanı kimdi?
Əlinin qələmi nə rəngdə idi?

Neçə yüz min ildi dünyanın yaşı?
Nə il yonulub Kəbənin daşı?
Ərşin xoruzunun neçədir yaşı?
Başının cığqası nə rəngdə idi?

Qurbani der, yoxdur sözüm çarası,
Neçə ildi yerlə göyün arası?
Həzrəti-Adəmin lələ babası
Çiyninin əbası nə rəngdə idi?

Qurbani çox deyir. Lakin Aşıq Yadigar onun suallarının heç birinə cavab verə bilmir. Qurbani deyir:

– Aşıq Yadigar, indi sözümüz sözdür.

Qurbani aşığın sazını əlindən alır. Aşıq Yadigar başlayır ağlamağa, yalvar-yaxar etməyə:

– Bala, sən gəl bizi bağışla, hərəmizin 5-6 uşağımız var. Onlara yazığın gəlsin.

Qurbani heç bir söz deməyib, aşıqları bağışlayır. Ona yığışmış üç tabaq qızılı da camaata və aşıqlara paylayır.

Qurbani üz tutur saz satan dükançının yanına. Bir neçə müddət onun yanında qalır, çalır, oxuyur. Qurbaninin şöhrəti bütün şəhərə yayılır. Xəbər çatır Pəri xanımın atası Məhəmməd şaha ki, qibleyi-aləm sağ olsun, şəhərimizdə bir nəfər aşıq peyda olub. Çalmaqda, oxumaqda ona çatan yoxdur.

Özü də çox cavandır. Məhəmməd şah bu aşıqla maraqlanır və əmr edir ki, aşığı tapıb tez şahın yanına gətirsinlər.

Tez bir qul göndərirlər ki, Qurbanini şəhərdən tapıb gətirsin. Qul gəlib Qurbanini axtarıb tapır və əhvalatı ona söyləyir. Qurbani razılıq verir və qul ilə gəlir Məhəmməd şahın hüzuruna. Qul onu Pəri xanımın bağının içi ilə aparır. Qurbani görür ki, aha, bu bağ, bu imarət elə yuxuda gördüyü bağa və imarətə oxşayır. Başını yuxarı qaldırıb bir pəncərəyə baxır. Görür ki, Pəri xanım pəncərəsindən məlul-məlul ona baxır. Pəri xanım Qurbanini tanıyır. Pəri xanıma da axı yuxuda Qurbanini göstərmişdilər və qız da Qurbaniyə vurulmuşdu.

Qurbani həsrətini çəkdiyi nazlı yarını gördükdə tanıyır. Üzünü pəncərədən baxan Pəri xanıma tutub deyir:

Pəncərədən mayil-mayil baxan yar,
Baxıb-baxıb, məni candan eylədin.
Ağ əllərə Qurbaninin qanından
Yaxan dilbər, məni candan eylədin.

Xudam sənə nə əcəbdi qaş verib,
İnci sədəf, dürriyyətdən qaş verib.
O döşlərin köynək altdan baş verib,
Baxan dilbər məni candan eylədin.

Qurbanini aparan qul qorxur ki, indi şaha xəbər gedəcək ki, aşıq qızına vurulub. Qul da bunu bilirmiş ki, qəsdən onu qızın bağından gətirib. Qul Qurbaniyə yalvarır:

– Amandır, ay aşıq. Məni xətaya salma, yazığam. İndi şaha xəbər çatsa, məni tikə-tikə doğrayarlar.

Qurbani üzünü qula tutub deyir:

Qorxum yoxdur soltanından, xanından,
Aç oxunu, tikan çıxsın canımdan.
Ağ əllərə Qurbaninin qanından
Yaxan dilbər məni candan eylədin.

Pəri xanım tez düşür aşağı. Gəlib qula çox yalvar-yaxar edir ki, Qurbanini onunla bir neçə günlüyə qalmağına izn versin. Qul qorxur. Qız tez əl atır boynundan boyunbağısını açıb verir qula. Qul çox sevinir və şaha xəbər aparır ki, qibleyi-aləm sağ olsun, bəs Qurbani bir neçə günlüyə gedibdir başqa şəhərə. Qayıdan kimi gətirəcəyəm hüzuruna. Şah bu qulun sözlərinə inanır.

Qurbani ilə Pəri xanım bir-birləri ilə görüşüb, keçirlər içəri. Bir neçə gün bir yerdə qalırlar, əhd-peyman bağlayırlar. Nəhayət, qula verdikləri vəd gəlib çatır. Qul gəlir Qurbanini şahın hüzuruna aparmağa. Hər iki sevgili görüşüb ayrılırlar.

Qurbani gəlir şahın hüzuruna. Ədəb-ərkanla baş əyib, salam verir. Şah soruşur:

– Oğlan, kimsən, nəçisən, hardan gəlib, haraya gedirsən?

– Qibleyi-aləm sağ olsun, mən bir haqq aşiqiyəm. Şəhərləri gəzirdim, istədiyimi axtarırdım. Nəhayət, gəlib onu bu şəhərdə tapdım. Odur ki, mən burada qalıram.

Padşah görür ki, bu çox qanacaqlı, mərifətli oğlandır. Əmr edir ki, Qurbani öz sarayında qalacaq və onun aşığı olacaqdır. Qurbani bir müddət burda qalır. Lakin sevgilisi Pəri xanımdan intizardır. Nə etsin? Çox fikirləşir. Axırda bu qə-

rara gəlir ki, aya, gəlsənə açım əhvalatı şaha nəql edim. Görüm onun fikri nədir.

Bu fikirnən Qurbani şahın sarayında dolanır. Şah baxır ki, bu neçə gündə Qurbani çox saralıb, özü də həmişə fikirli olur. Əmr edib Qurbanini yanına çağırtdırır:

– Bala, sənin dərdin-sərin nədir? Niyə bu hala düşübsən? Bəlkə qəriblik sənə təsir edir, ya da ki, sarayda səni incidirlər.

Qurbani şaha deyir ki, bunların heç birisi məni incitmir. Məni incidən başqa şeydir.

Şah deyir:

– Mən böyük bir ölkənin hökmdarıyam. Sən dərdini mənə aç de. Necə ola bilər ki, mənim məmləkətimdə dərdinə çarə edən tapılmasın?

Qurbani görür ki, yox, şah bundan əl çəkməcəyəcək. Öz-özünə deyir, aya, bəs mən bu sirrimi şahdan nə vaxta qədər gizli saxlayacağam. Odur ki, gücünü yığıb biləyinə, sazı alır əlinə:

Yatmışıdım başım üstə ərənlər,
Nə yatmışsan, qafil oyan, dedilər.
Ayıldım qəflətdən, açdım gözümü,
Bu durana şahi-mərdan dedilər.

Naməhkan şəhrində gəldim dünyaya,
Nə məh verdim, nə məkana yetişdim.
Əldən-ələ, qabdan-qaba süzüldüm,
Gövhər oldum, həddim kama yetişdim.

Ərişdən kəməri vurdum belimə,

Ərəmlərdən su bağladım gölümə.
O mərfətdən bir də düşsə əlimə,
Qətrə vurub mən ümmana yetişdim.

Heç yox idim, bir qətrədən var oldum,
Sancmaq üçün cəngim üstə mar oldum.
Cəhd eylədim gözəttəməm tez aldım,
Əcəb-əcəb din-ərkana yetişdim.

Məsələ şaha agah olur. Şah deyir ki, Qurbani, qızım vəzirimin oğluna deyiklidir. İndi gəl belə edək. Bir üzük sən al, birini də vəzirin oğlu. İki üzüyü də qoyaq xonçaya göndərək Pəri xanıma. Hansı üzüyü götürsə, qız da həmin üzük sahibinin olsun.

Qurbani razılaşır və üzük almaq üçün bazara çıxır. Cibində də ki, pulu lap az qalıb. Gəlir üzük satılan yerə. Hansı üzüyün qiymətini soruşur, görür ki, yox, bunlar çox bahadır. Axırda cibindəki pullarının hamısını verib, bir dəmir üzük alır.

Xəbər çatır vəzirin oğluna. O isə qiymətli, misli-bərabəri olmayan bir üzük alır.

Üzükləri qoyurlar xonçaya və göndərirlər Pəri xanıma. Pəri xanım Qurbaninin üzüyünü götürür. Məhəmməd şaha xəbər aparırlar ki, qızın Pəri xanım Qurbaninin üzüyünü götürdü. Şah deyir ki, neynək, yəqin qızımın qismətı belə imiş.

Vəzir bu əhvalatı eşidəndən batır qəm dəryasına. Elə həmişə fikirli olur. Vəzirin bir Niyar adında qızı varmış. Bu qız çox fitnə-fəsad, çoxbilmiş qız imiş. Atasının qəmgin olması onun gözündən yayınmır.

Bir gün atasından soruşur:

– Ey mehriban atam, sənə nə olmuşdur ki, belə qəmginsən. Dərdini aç mənə de.

Vəzir əhvalatı qızı Niyara açıb deyir. Niyar deyir ki, ata, gəl belə edək. Get şaha de ki, qibleyi-aləm sağ olsun, bu oğlan bəlkə elə lotunun birisidir. Gəlib ki, sənin qızını alsın, səni də öldürüb, taxt-tacına sahib olsun. Sən gəl 3 günlüyə şahlığı idarə etməyi qızım Niyar xanıma tapşır. Qoy o, bu oğlanı bir sınaqdan çıxarsın. Əgər yaxşı adam olar, qızını verərəsən, pis olarsa da, boynunu vurarsan.

Şah vəzirin sözlərinə inanır və 3 günlüyə özü çıxır şikara, şahlığı da verir vəzirinin qızı Niyar xanıma.

Niyar xanım başlayır fəaliyyətə. Qurbanini çağırtdırır yanına:

– Oğlan, sən şahın qızı Pəri xanıma vurulubsan. Pəri xanım da sənin üzüyünü götürüb. İndi mən öyrənəcəyəm, görüm sən, doğrudan da, Pərini həqiqi sevirsən, ya sən fırıldaqçısan.

Niyar xanım əmr edir, Qurbaninin gözlərini yeddi qat möhkəm qara parça ilə bağlayırlar. Pəri xanımın da qırx nəfər nökərinə bir rəng, bir formada paltar geydirir və Pəri xanımı da oturdur onların ortasında. Üzünü tutur Qurbaniyə:

– Ey aşıq, indi sən bu qırx nəfərin içindən Pəri xanımı seçə bilsən, onda bilərəm sən doğurdan da haqq aşığısan. Yox əgər seçə bilməsən, sənin boynunu vuracağam.

Qurbani razılaşır. Meydan qurulur. Camaat yığışır meydana. Qurbanini yeddi qat gözü bağlı halda gətirirlər meydana. Qurbani sazı alır:

Sənin də mənimtək bir qanı dolmuş,
İşçi qurub qabağında saqinin.

Kərim qullar bir-birindən vırıcı,
Qanlar oynar qabağında saqinin.

Yar atlandı, mən də yarın dalınca,
Candan oldum yarın könlün alınca.
Qırx incə qız gedər sağı-solunca,
Gözüm olsun ayağında saqinin.

Ayla-günəş gərdiş edər fələkdə,
Gözüm qaldı huri, qılman, mələkdə.
Bir əlim əlində, könlüm könlündə,
Çıxsın canım qucağında saqinin.

Qurban deyər, necə dövran dolunca,
Saralıban gül rəngim solunca.
Bu uzun gecələr sübh olunca,
Yansın bağrım çırağında saqinin.

Məclisində necə canlar oturmuş,
Onlar üçün neçə töhfə gətirmiş.
Sövdügərim piyaləni götürmüş,
İçən içsin qabağında saqinin.

Niyar xanım deyir ki, yox, sən görürsən. İndi sənin gözünü yeddi qat da bağlatdıracağam. Qırx nəfər qız gəlib yanından keçəcək. Onların içindən Pərini tanımalısan.

Qurbani isə haqq aşığı idi. Odur ki, o qızları və Pəri xanımı asanlıqla seçə bilir. Birinci qız gəlib Qurbaninin yanından keçəndə Qurbani deyir:

Dağların başı dumandı,
Bağrımın başı qandı.
Bu gələn qızın adı Sübhandı,
Qoyun mənim yarım gəlsin,
Qoyun mənim gülüm gəlsin.

İkinci qıza deyir:

Peyğəmbərimiz Musadı,
Əlinə alan əsadı.
Bu gələn, adın Xasadı
Qoyun mənim yarım gəlsin,
Qoyun mənim gülüm gəlsin.

Üçüncü qız keçəndə:

Bu gələnin adı Leylan,
Olum camalına heyran.
Gözlərinə olum qurban,
Qoyun mənim yarım gəlsin.
Qoyun mənim gülüm gəlsin.

Bu gələnin adı Güllü,
Oxuyur şeyda bülbülü.
Gümüş kəmər şitə beli,
Qoyun mənim yarım gəlsin,
Qoyun mənim gülüm gəlsin.

Bu gələnin adı Bəyim,
Dilin-dodağını yeyim.

Nə işim var, eybin deyim (qız çolaq imiş)
Qoyun mənim yarım gəlsin,
Qoyun mənim gülüm gəlsin.

Bu gələnin adı Bəsti,
Astanadan qulaq asdı.
İynəsinin ucu paslı (tənbəl imiş)
Qoyun mənim yarım gəlsin,
Qoyun mənim gülüm gəlsin.

Vəzir qızı keçdikdə:

Qızlar gəlib burdan keçər,
Yaxşısın, pisini seçər,
Vəzir qızı başı keçəl,
Qoyun mənim yarım gəlsin,
Qoyun mənim gülüm gəlsin.

Növbə Pəri xanıma çatır:

Bu gələnin adı Pəri,
Olmuşam dərdindən dəli.
Oldum dərdinin sərsəri,
Qoyma mənim Pərim getdi,
Qoyma mənim gülüm getdi,
Qoyma mənim yarım getdi.

Niyar xanım bu dəfə başqa bir oyun düzəldir. Pərixanımı yeddi otağın içində oturdur və deyir ki, indi zülflərini

dara. Qurbaniyə də deyir ki, sən də indi tap görüm Pəri xanım otaqda oturub nə edir.

Qurbani sazla cavab verir:

Baxçamızda səriyirlər barama,
Məhləm dedim, duz qoydular yarama,
Dedim, Pəri zülflərini darama,
Zülflərin tökülsə əlamət olar.

Yenə köç eylədi Pərinin köçü,
Cənnətin bağıdır qoynunun içi.
Əbrüşüm tellərin müsəlləh saçı,
Hərdən şeyda qılır dallara doğru,
Ürküşdü sonalar göllərə doğru.

Bu vaxt şah şikardan qayıdır. Niyar xanıma deyir ki, daha kifayətdir. Bu cavan aşığı nə qədər incitdin, bəsdir. Sözünə əməl et. Niyar xanım şahdan bir neçə günlüyə də icazə istiyir. Şah buna razı olur.

Bu dəfə Niyar xanım kələk qurmaq və Qurbanini öldürtmək fikrinə düşür. Odur ki, Pəri xanımı qoyur öz otağına və Qurbaniyə tapşırır ki, gərək gözü bağlı gedib Pəri xanımı otağında tapasan. Ancaq əslində isə bu bir bəhanə idi. Qurbani Pəri xanımla görüşdüyü yerdə öldürüləcəkdi. Bütün bunlar Qurbaniyə məlum idi. Pəri xanımın isə bundan xəbəri yox idi.

Pəri xanım:

Ala gözlü cahil oğlan,
Dur gəl qoynuma-qoynuma.

Gəlsə hər nə şah babamdan,
O da boynuma-boynuma.

Əlin qoynuna qoyubsan,
Bimürvət, məndən doyubsan.
Pərini məlul qoyubsan,
Dur gəl qoynuma-qoynuma.

Qurbani cavab verir:

Niyar pəncərədən baxar,
Baxıban himayil taxar.
Fitnə eylər evim yıxar,
Get, yarım gələ bilmərəm,
Get, gülüm gələ bilmərəm.

Məhəmməd şah vəziri çağırır yanına:

– Vəzir, hər şey bitdi, qız daha Qurbaninindir.

Vəzir qalır məəttəl. Nə etsin, nə çarə qılsın. Çox götür-qoydan sonra bu qərara gəlir ki, gecə ikən Qurbanini oxumaq bəhanəsi ilə çağırtdırsın və qaranlıqda öldürtdürsün. Şah isə Qurbanini yatırdır öz taxtının altında. Şah bilir ki, vəziri necə kələkbaz, xain bir adamdır. Bilir ki, axırı Qurbaninin başına bir oyun gətirəcək.

Bir gecə Qurbani yatmışdı. Görür ki, onu çağırtdırırlar. Durur, oturur. Şahı oyatmağa cürət etmir. Ancaq onu da bilir ki, çağıran vəzirdir və o, düz ürəklə onu çağırmır. Odur ki, sazı alıb deyir:

Gecələr uzundur, gözlərim uymaz,
Balalar şirindir, analar doymaz.
Gecənin bu vaxtı yığıncaq olmaz,
Vəzir, sənin bu işlərin ağ oldu.

Qəmər nə yandırar, günəş nə yaxar,
Sel olar, göz yaşım ümmana axar.
Qurban deyər hər kəs şaha kəm baxar,
Onun kamalına tez zaval olar.

Dad eylərəm şaha yetişməz dadım,
Ərşə qalxıb naləynən fəryadım.
Başım üstə duran qəvi cəlladım,
Vəzir, sənin bu işlərin ağ oldu.

Şah yuxudan ayılır. Vəziri öldürtmək istəyir, Qurbani qoymur. Vəziri möhkəm döydürür, vəzir üç ay xəstə yatır.

Nəhayət, vəzir yaxşı olur. Bir gün deyir ki, qibleyi-aləm sağ olsun, gəlin, bir şikara çıxaq, Qurbanini də özümüzlə aparaq.

Şah axşamdan Qurbaniyə xəbər göndərir ki, hazırlaşsın, səhər çıxacayıq şikara. Qurbani bilir ki, bu da vəzirin növbəti kələklərindən biridir. Odur ki, evə gəlib çox fikirləşdikdən sonra gedir Pəri xanımın yanına və əhvalatı ona deyir. Pəri xanım tez qulluqçudan bir az zəfəran alır. Onu su ilə isladıb sürtür Qurbaninin üz-gözünə və onu uzandırır yorğan-döşəyə. Səhər şah adam göndərir ki, bəs biz Qurbanini gözləyirik. Gəlsin çıxaq gedək ovumuza. Pəri xanım deyir ki, Qurbani axşam xəstələnib yatıbdır.

Şah, vəziri nökər-naiblə düşürlər yola. Vəzir çox pis olur. Axı onun bu niyyəti də baş tutmadı. Odur ki, şikarda şahı tələsdirir ki, çıxaq gedək evimizə.

Bunlar şikardan qayıtdıqdan sonra vəzirə xəbər verirlər ki, bəs Qurbani xəstə deyil. Üzünə Pəri xanım zəfəran sürtüb. Vəzir tez tüpürüb dabanına, üz tutur şahın otağına sarı qaçmağa. Gəlib xəbəri şaha verir. Şah bir nəfər həkim götürüb gətirir Qurbaniyə baxmağa. Həkim baxır ki, Qurbanidə heç bir xəstəlik yoxdur. Deyir ki, bir bu aşığı yuyundursunlar. Qurbanini yuyundururlar. Şah görür ki, bu doğurdan da kələkdir.

Bir yandan da Məhəmməd şaha xəbər çatır ki, bəs Pəri xanımın Qurbanidən qanunsuz uşağı olacaq. Şah təşvişə düşür. Odur ki, cəlladı çağırtdırır ki, Qurbaninin boynunu vursun. Cəlladın Qurbaniyə rəhmi gəlir. Odur ki, şaha deyir ki, qibleyi-aləm sağ olsun, icazə ver bu aşığı aparım çöldə öldürüm, köynəyini də bulayım qanına gətirim. Qoy bunun qanı sənin imarətinə tökülməsin.

Şah razı olur. Qurbanini bağın içi ilə cəllad və iki nəfər də qul ilə apardılar öldürməyə. Bu bağın bağbanı bir qoca kişi idi. Qurbani bağbanı sınamaq üçün bir nar istəyir. Bağban narı vermək istəmir. Qurbani bağbana deyir:

Əzzəlinnnən bağban idim bu bağa,
Bağban əsirgədi narı da məndən.
Döydülər, söydülər, yola saldılar,
Zülmlə aldılar yarı da məndən.
Tər yaqubun təhnə-təhnə sözləri,
Vurdu ayrı saldı yarı da məndən.

Qurbanini gətirib çıxardırlar çölə. Qullar və cəllad Qurbaniyə deyirlər ki, ey cavan oğlan, bu gündən azadsan. Get, ancaq bir də bu məmləkətə gəlmə.

Könəyini də alırlar. Bir quş vurub qanını sürtürlər Qurbaninin köynəyinə və şaha vermək üçün gətirirlər. Qurbani onlara çox razılıq edir və yaxşılıqlarından çıxacağını vəd edir. Onlara yalvarır ki, onun bu sözlərini Qurbanidən Pəri xanıma çatdırsınlar:

Səhər-səhər oğrun əsən dan yeli,
Mənim ərz dilimi yara deyərsiz.
Əgər xəbər alsa yar əhvalamı,
Halım pərşan, günüm pərşan deyərsiz.

Gedərsən, Pərinin yanında yuban,
Çıxar qabağına bir mələk zoğan.
Dolanım başına qul alım qadan,
Necə görübsünüz, eylə deyərsiz.

Gedərsən pərimin xəkirahına,
Üzünü tutarsan xah dərgahına.
Cümə günü çıxar seyrəngahına,
Necə görübsünüz eylə deyərsiz.

Cəllad və qullar köynəyi götürüb gətirirlər şaha və Qurbaninin də bu sözlərini Pəri xanıma çatdırırlar.

Qurbani üz tutur yol ilə getməyə. Gedib-gedib çıxır Səhnə xanım adlı bir gözəlin məmləkətinə. Burda da belə bir adət varmış ki, şəhərə hər kim təzə gəlsə idi, gərək onu aparardılar Səhnə xanımın yanına.

Qurbanini də apardılar Səhnə xanımın yanına. Səhnənin Qurbanidən çox xoşu gəlir. Odur ki, onu yanında saxlamaq istəyir. Qurbani isə başına gələn əhvalatı açıb Səhnə xanıma söyləyir. Belə olduqda Səhnə xanım onunla deyişəcəyini bildirir. Əgər Səhnə xanım Qurbanini bağlasa idi, Qurbani həmişəlik Səhnə xanımın yanında qalmalı idi.

Qurbani razılıq verir və sazı alır əlinə:

Bizdən salam olsun, a Səhnə xanım,
Dovu-tələb bu meydana gəlmişəm.
Yolunda qoymuşam can ilə başı,
Şirin cana qəsd eyləyib gəlmişəm.

Səhnə xanım:

Bu meydanda dürüst söylə sözünü,
Pərvanə tək atma gözə özünü.
Yəqin bil ki, oyduraram gözünü,
Düz satansan bu meydana gəlibsən.
Ya dəlisən, ya divana gəlibsən.

Qurbani:

Gözəl, mənə vermə dərdi-yəməndi,
Salmışsan boynuma eşqin kəməndi.
Matahım duz deyil, yolum Yəməndi,
Sən sərrafsan, mən xırdaya gəlmişəm.

Səhnə xanım:

Könül deyəcəyin bir dənə şüşə,
Alışa ürəyim, ciyərim şişə.
Karvan adamısan, güzarım düşə,
Aclığın var, yoxsa nana gəlibsən,
Ya dəlisən, ya divana gəlibsən.

Qurbani:

Səhnə, qurban olum qara qaşına,
Urusqat ver, durum dönüm başına.
Özümü vurmuşam eşq ataşına,
Pərvanə tək yana-yana gəlmişəm.

Səhnə xanım:

Mən gəzərəm İsfahanı, Kamanı,
Tanımaram xanı, bəyi, paşanı.
Səndə yoxdur aşıqlığın nişanı,
Aclığın var, yoxsa nana gəlibsən,
Ya dəlisən, ya divana gəlibsən.

Qurbani:

Övladım-əcdadım, urufum acı,
Ağam şahı-mərdan döydürsün acı.
Yəqin bil ki, sənsən dərdim əlacı,
Təbib bilib bir dərmana gəlmişəm.

Səhnə xanımın çarəsi kəsilir. Görür ki, yox, Qurbanini özünə bağlaya bilməyəcəkdir. Odur ki, Qurbaniyə yalvarır ki, heç olmazsa qayıdanda onu da özü ilə aparsın Pəri xanımın yanına.

Qurbani yaxşı deyib yola düşür. Bir müddət getdikdən sonra gəlib çıxır Şah Abbasın məmləkətinə. Gedir Şah Abbasa şikayətə:

On bir aydır səni deyib gəlmişəm,
Eylə divanımı Əqil şah mənim.
Müşkülüm, imanım, kamım mənim,
Ol mənim dərdimdən bir agah, ey şah.

Yar əlindən düyünlüyəm, dağlıyam,
İllərə tək yar-yar deyib ağlaram.
Qaradağlı Mirzəli bəy oğluyam,
Eylə divanımı Əqil şah mənim.

Qurbani bunları söyləyəndə şahın vəziri də burada imiş. O, Mirzəli bəy adını eşitdikdə tez diksinir. Keçmişi yada salır və arvadını hamilə qoyub gəldiyini xatırlayır.

– Oğlan, əyər sən doğrudan da Mirzəli bəyin oğlusansa, onda gərək qolunda bazibənd ola, – deyə vəzir bildirir.

Cəld Qurbaninin qoluna baxır ki, doğrudan da arvadına verdiyi qızıl bazibənd onun qolundadır. Ata-oğul qucaqlaşıb öpüşürlər. Qurbani başına gələn əhvalatı açıb atasına nəql edir. Mirzalı bəy qoşun hazırlayır ki, getsin Məhəmməd şahdan Pəri xanımı alsınlar.

Bir müddətdən sonra Mirzalı bəy qoşun götürüb gedir Məhəmməd şahın üstünə. Bu xəbər çatır Məhəmməd şahın

vəzirinə. Vəzir düşür təşvişə. Nə edim, başıma nə çarə qılım. Belə qərara gəlir ki, elə qəbristanlıq yol üstündədir. Yalandan bir qəbr düzəldim, bir-iki nəfər də qoyum qəbrin başında ağlasınlar. Soruşsalar, desinlər ki, bu, Pəri xanımın qəbridir.

Mirzalı bəyin qoşunları çatır qəbristanlığa. Görürlər ki, təzə qəbir, üstündə də ağlaşırlar. Soruşurlar ki, bu kimin qəbridir. Deyirlər ki, bəs bu Pəri xanımın qəbridir. Qurbani isə bilir ki, bu yenə də vəzirin kələyidir. Odur ki, deyir qoy qəbiri söksünlər. Pəri xanım sağ və salamatdır.

Qoşun hücum çəkir saraya. Pəri xanım batıb qəm-qüssəyə. Pəri xanıma xəbər çatır ki, bəs Qurbani gəlmişdir. Pəri əvvəlcə inanmır, sonra baxır ki, yox, budur, Qurbani gəlir. İki sevgili görüşürlər.

Mirzəli bəy Qurbanini və Pəri xanımı gətirir öz məmləkətinə. Onlara toy edib, evləndirir.

## ZİYAD-ŞÖVKƏT

Ustadalar dastan deməzdən ustadnamə deyərlər, biz də deyək ki, düz olsun, ustad ömrü yüz olsun.

Özündən kiçiyi işə buyurma,
Sözün yerə düşər, heç miqdar olmaz.
Hər nə ki, kar görsən, öz əlinlə gör,
İnsan öz işində cəfakar olmaz.

Özündən böyüyün saxla yolunu,
Düşən yerdə soruş əhli-halını,
Amanat-amanat qonşu malını,
Qonşu yox istəyən özü var olmaz.

Soruşdun, qul Abbas, halın necədi?
Gündüzlərim ay qaranlıq gecədi.
Sərv ağacı hər ağacdan ucadı,
Əsli qıtdı, budağında bar olmaz.

Ustadlar ustadnaməni bir deməz, iki deyər. Biz də deyək iki olsun, düşmənin dərdi yekə olsun.

Çoxu aşıqlığı iqdam eylədi,
Əlində çaldığı saz ola bilməz.
İstiyir ki, mətahını xırd edə
Hərifi dəhanda düz ola bilməz.

Qulluq eyləməyən ustad pirinə,
Nədən bilməm özün salar dərinə?!

Ala qarğa düşsə su kəmərinə,
Silkinər, çalxanar, qaz ola bilməz.

Göycə mahalımdı, Alıdı adım,
Ümidim, pənahım, mənim imdadım.
Atəşliyəm, səni yandırar odum,
Eşq əhlində atəş az ola bilməz.

Ustadlar ustadnaməni iki deməz, üç deyər, biz də deyək üç olsun, düşmən gözü puç olsun.

Yaxşı olar ellik, günlük, obalıq,
Yalqız daşdan olmaz divar, deyərlər.
Bəzirgansan, göstərməsən mətahın,
Axtarıb yükündə nə var deyərlər.

İsgəndər atlandı, çıxdı zülmatdan,
Xızır gedib içdi abı-həyatdan.
Bəs düşdü qılıncdan, geyimdən, atdan,
Süfrəni onlardan suvar deyərlər.

Əsil səyyad saxlar alaca quşu,
Sərraf olan seçər qiymətli daşı.
Bir oğul atadan artırsa işi,
El içində ona tavar deyərlər.

Xoca Əziz quldu, buradan getməz,
Seyrağıb olanlar mətləbə yetməz.
Hər neyləsən ulu yolunda, itməz,
Yüz min qada başdan sovar, deyərlər.

Keçmiş zamanda Ərdəbil şəhərində Fətəli xan adında bir xan yaşayırdı. Fətəli xanın Şövkət adında bir qızı, İzzət xan adlı bir oğlu vardı. İzzət xan bığ yeri təzəcə tərləmiş gözəşirin oğlan idi. On səkkiz yaşa keçmişdi. Şövkət xanı da on beş yaşında, on beş gecəlik ay kimi. Aya deyirdi sən çıxma, mən çıxacam, günə deyirdi sən çıxma, mən çıxacam. Şəhərin cavanları bir könüldən min könülə ona aşiq olmuşdular. Di gəl ki, Fətəli xanın qorxusundan bir elçi gəlməmişdi qapısına. Görənlər pambux-qov kimi içəridən yana-yana qalırdılar.

İndi eşit söhbətin o biri başından.

Bu Fətəli xanın naxırçısının, çobanının, nökərinin, qulluqçusunun sayı-hesabı yox idi. Bunların içində Xəlil adlı bir qoca naxırçı da vardı. Hamı onu Xəlil naxırçı çağırırdı. Xəlil naxırçının gözünün ağı-qarası bir oğlu var idi. Adı da Ziyad. Naxırçı oğlu Ziyadın nə qolunu qatlayan olmuşdu, nə də kürəyini yerə vuran. Özü də on səkkiz yaşına girmişdi. Boyuna-buxununa bir baxan deyirdi, bir də baxım. Özünə o qədər dost tutmuşdu ki, bir gün onu görməyəndə dalınca gəlirdilər. Fətəli xanın oğlu İzzət xan da Ziyadın xətrini çox istəyirdi.

Ziyadla İzzət xanın dostluğu qalsın bir yana, sən demə, xəlbəti Ziyad Şövkətlə görüşürmüş. Əhdi-peyman qoyublar ki, mən səninəm, sən də mənim. Əyər Ziyad dövlətli olsaydı, məsələni açardılar. Kasıblığın üzü qara olsun. Fətəli xan naxırçı oğluna qız verər? Eşqin közü hər ikisini yandıra-yandıra dolanlrdılar. Xəlvəti-xəlvəti görüşürdülər.

Qəzanın beş barmağı var, deyərlər. Qəza insanı tutanda ikisini gözünə qoyur, gözü görmür, ikisini qulağına tıxır ki, danışa bilməsin, bu vaxt qəza insanı tutur. İndi eşit Ziyadın başına gələn qəza-qədərdən.

Bir gün İzzətlə Ziyad həyətdə oynayırdı. Birdən Ziyadın əlindən daş çıxıb İzzətin gicgahına dəydi. Ziyad döndü ki, İzzət yerdə çabalayır. Ziyad bir az ayağına-başına çırpdı. Gördü yox, İzzət nə gəzir, bayaqdan keçinib. Şəhərdən çıxıb düşdü çöllü-biyabana. Bu burada qalsın, görək İzzət xan nə təhər oldu.

Qulluqçu su gətirirdi. Gördü ki, İzzət xan yıxılıb yerə, günün qabağına. Qışqırdı, evdəkilərin hamısı qaçıb gəldilər, gördülər İzzət xan çoxdan qəflət yuxusuna gedib. O dedi buna nə olub, bu dedi buna nə olub? Dürüst bir söz deyən olmadı. Qulluqçu dedi:

– Mən suya gedəndə Ziyadla İzzət xan aşıq-aşıq oynayırdılar. Yanlarında heç kim yox idi, buna nə olubsa, Ziyad eləyib.

Ziyadı nə qədər axtardılar, tapa bilmədilər. Fətəli xan Ziyadın qoca atasını, anasını zindana saldırdı ki, oğlunuzun yerini deyin, yoxsa sizə işıq üzü yoxdur. İzzət xanın qırxı, iki ayı keçdi. Eşqin közü başladı Şövkət xanımı yandırmağa. Nə eliyim, nə təhər eliyim, Fətəli xanın bir Salman adlı nökəri var idi. Onun başına and içirdilər. Şövkət həmin Salmanı çağırıb dedi:

– Necə bir qardaş-bacı kimi sənə bir söz deyəcəm.

Salman yerində quruyub qaldı. Dedi:

– Xanım, nökərlə xanımın nə sözü olar?

Şövkət dedi:

– Qorxma, sən mənim dediyimə əməl elə, mən səni dünya malından qane eləyəcəm. Sənə də heç kim bir söz deyə bilməz. Bu sirri də bir adam bilsə, sən də ölməlisən mən də.

Salman dedi:

– İndi ki, belə oldu, canla-başla hazıram, nə olar nökər olanda, baxarsan dünyada necəoğlanlar var.

Bu burda qalsın, görək Ziyad necə oldu. Çox yol gedəndən sonra gəlib bir meşəyə çıxdı, qaranlıq düşmüşdü, dırmaşdı bir ağaca ki, burda qurda-quşa tuş gəlməsin. Sonra da belindən kəmərini açıb, özünü ağaca bağladı ki, yuxlasa yıxılmasın. Səhər işıqlananda Ziyadın qulağına səs gəldi. Gördü ki, iki atlıdır. Ağacdan düşüb atlıların yanına gəldi, dərdini onlara danışdı. Atlılar onu götürüb özləri ilə apardılar. Ziyad bir-iki ay bu qardaşların yanında qalandan sonra öz-özünə fikirləşdi ki, bə yaxşı, mən özüm baş götürüb qaşdım, görən yazıq ata-anamın başına nə gəldi? Nigarançılığını yoldaşlarına söylədi. Üç adam olub üz tutdular Ziyadgilin şəhərinə. Günüzdən gəlib şəhərə çatdılar. Bir qoca kişi çöldə cüt əkirdi. Ziyadı nə tanıyır, salam verib dedilər:

– Əmi, yorulmayasan.

– Oğul, sağ olun.

Ziyad dedi:

– Əmi, bir söz soruşsam deyərsən?

– Oğul, bilsəm niyə demirəm.

Dedi:

– Əmi, Fətəli xanı tanıyırsan?

Dedi:

– Oğul, qorxuram danışmağa.

Dedi:

– Qorxma, düzünü de, bizdən sənə xətər gəlməz.

– Oğul, onu it donunda ölsün, oğluna nə bilim nə olmuşdu, yazıq o naxırçını, arvadını zindana saldırıb gün üzünə həsrət qoyub.

Ziyad atın üstündə quruyub qaldı. Bir söz deməyib qoca ilə sağollaşdılar. Sonra atı sürdülər birbaş şəhərə. Göz-

lədilər gün batıb, hava qaraldı. Fətəli xan tutduğu əməldən sonra o qədər gözdən düşmüşdü ki, gün batan kimi nökər-qulluqçu yıxılıb yatırdı. Ziyadgil gəldi zindanın yanına. Ziyad dedi:

– Siz burda atları saxlayın, mən ata-anamı zindandan çıxarım.

Kəmənd atıb düşdü həyətə, qapının dalını açdı, yavaşca girdi içəri, ata-anasını tapdı. Görüşüb öpüşdü. Səs-küy qopmamış atı qamçılayıb gözdən itdilər. Səhər açıldı, xəbər yayıldı. Fətəli xan onsuz da dərd-qəm içində üzülüb getmişdi, bu da ona bir yük oldu. O qədər fikir-xəyal elədi ki, axırı bağrı çatlayıb öldü. Fətəli xanı mənzilinə çatdırdılar. Xanın Bəhram adlı bir ağıllı vəziri var idi. Onu özlərinə xan seçdilər.

İndi görək Şövkət xanım, Salman nə oldular.

Naxırçı ilə arvadının zindandan qaçırılmasından Şövkət xanım bildi ki, Ziyad sağdır. Ürəyinə dammışdı ki, Ziyad bu işi qəsdən eləməyib.

Nə isə, keçək əsli mətləbə.

Şövkət xanımı məhəbbət közü şam kimi əridirdi, dedi:

– Salman sənə durmaq yaraşmır, yolçu yolda gərək.

Pərişan zülflərindən üç tel ayırıb basdı sinəsinə, görək naməni necə yazdı.

Atamnan, anamnan əlim üzüldü,
Qədəm basıb bircə bizə gələsən,
Huş başımdan getdi, uruf bədəndən,
Ürəyimin gizlin sirrin biləsən.

Atam öldü, başa qara bağlaram,
Xuni-ciyar eşq oduna dağlaram.

Gecə-gündüz səndən ötrü ağlaram,
Əl uzadıb çeşmim yaşın siləsən.

Qırx gün möhlət qoyub yola baxaram,
Ürəyimi eşq oduna yaxaram.
Mən Şövkətəm, din-imandan çıxaram,
Bircə saat sən üzümə güləsən.

Naməni büküb verdi Salmana dedi:

– Get, işin avand olsun, xoş xəbərlə gələsən.

Salman atı yəhərləyib, qalxdı atın belinə, atı qamçıladı. Şəhərdən çıxıb düz yolla getməyə başladı.

Deyir, yara sağalsa, təbib qarşı gələr. Gördü qabaqda bir atlı çapa-çapa gedir. Atı dəhmərləyib ona çatdı. Baxdı ki, bu bir yaraxlı cavandı, amma bu tərəflərin adamına oxşamır.

Atlı onu görən kimi atın başını çəkib soruşdu:

– Qardaş, hardan gəlib, hara gedirsən?

Salman birdən-ikiyə nə görmüşdü nökərçilikdən başqa, dili topuq vurdu, bilmədi nə desin. Atlı onun yör-yöndəmindən nə başa düşdüsə, dedi:

– Gedək mənim qonağım ol.

Salman bir aşağı baxdı, bir yuxarı. Söhbət edə-edə çatdılar meşəyə. Bu atlı da Ziyadın yoldaşı idi. Elə ki alacığa girdilər, Ziyad Salmanı gördü, durub özünü atdı onun üstünə. Bir-birini duz kimi yaladılar. Salman hal-qəziyəni nağıl elədi. Sonra Şövkətin məktubunu çıxarıb verdi Ziyada. Ziyadın üstünə gün doğdu, naməni oxudu. Qəribçiliyə düşəndən bəri Ziyad özünə saz almışdı. Üçtelli sazı basdı sinəsinə, üzünü Salmana tutub belə dedi:

Şad xəbərlə gələn qasid,
Qurbanam canana mən də.
Yollara toz salan qasid,
Namə verim ona mən də.

Namus, qeyrət ardan ötrü,
Alagözlü yardan ötrü,
Gülüzlü dilbərdən ötrü,
Düşdüm biyabana mən də.

Ziyadın dərdini bildir,
Görüşmək işi müşküldür.
Şövkət bir qəmli bülbüldür,
Olmuşam divana mən də.

Söz tamam yetdi. Salman bir qədər burda qalıb, Ziyadın sağ-salamat olmağını Şövkət xanıma yetirmək üçün təzədən atlandı. Salman uzaq yolu yaxın eləyib, özünü çatdırdı Şövkət xanıma. Gözaydınlığı verib, söz-söhbəti ona yetirdi. Şövkət xanım pərvanə zülflərindən üç tel ayırıb basdı sinəsinə, aldı görək nə dedi:

Salman, sənə qurban olum,
Ağ eylədin üzüm mənim.
Yarımdan namə gətirdin,
İşıqlandı gözüm mənim.

Gözüm yollarda qalmışdı,
Gül kimi rəngim solmuşdu,
Vaxtımız tamam olmuşdu,
Sənə qurban özüm mənim.

Şövkət deyərlər adıma,
Haq özü yetsin dadıma.
Yetişəydim muradıma.
Ziyad çəkə nazım mənim.

Nigarançılıqdan qurtaran Şövkət xanım Salmana xeyli sor-sovqat verib, onu razı saldı. Bir həftə keçəndən sonra axtardı görsün ki, Salman nə işlə məşğuldu. Gördü ki, Salman yoxdu. Soruşdu, dedilər ki, üç gün bundan qabaq gedəsi yeri vardı, getdi ora, tezliklə gələsidi.

Şövkət xanım səbirsizliklə gözləməyə başladı. Nə isə, Salman getməkdə olsun, görək Şövkətin başına nə iş gəldi.

Təbriz şəhərindən bir tacir, oğlu ilə gəlir Ərdəbil şəhərinə mal satmağa, adına da Cavad tacir deyirlər, oğlunun adı da Ələmdardı. Tacir mal verir Ələmdara, o da sata-sata gəlib çıxır düz Şövkət xanımgilin qapısının ağzına. Başlayır sələməyə. Qulluqçular səsə gəlib görürlər ki, bir cavan oğlandı. Gözəl-göyçək parçalar satır. Biri də gedib xanıma deyir ki, bir oğlan elə parça satır ki, istəmirsən əlindən yerə qoyasan. Gedək özünə də al, bizə də.

Xanım heç kimin qəlbinə dəyməzdi. Odur ki, durub çıxdı ki, parçalara baxsın. Oğlan onu görən kimi özünü itirib durdu ayağa, bilmədi ki, neyləsin. Şövkət xanım parçanın ən gözəlindən bir top götürüb kənizin qucağına verdi. Soruşdu ki, pulu nə qədər eləyir, Ələmdar pulu almaq istəmədi, sinəsinə söz gəlmişdi, sözünü belə dedi:

Başına döndüyüm gül üzlü xanım,
Sən mənə verdiyin pul lazım deyil.
Ağlımı başımdan təqayül etdin,
Camalın görənə pul lazım deyil.

**Aldı Şövkət xanım cavabında:**

Gəl hədyan danışma, ay cavan oğlan,
Adaxlıyam, mənə al lazım deyil.
Al pulunu, gözüm üstə, xoş gəldin,
Gətirdiyin tirmə-şal lazım deyil.

**Aldı Ələmdar:**

Dərya olub çaylar kimi çağlıyam,
Məhəbbətlə bil ki, sənə bağlıyam.
Ələmdaram, Cavad tacir oğluyam,
Xanım, mənə acı dil lazım deyil.

Şövkət xanım parçanı kənizdən aldı, qoydu yerə, hirslə dedi:

– Al parçanı, götür get. Bir də bu tərəflərə hərlənmə.

Sonra dönüb getdi evlərinə. Xanım getməkdə olsun, görək Ələmdar neylədi. Ayağa durub yolu, imarəti bələdləyib qayıtdı atasının yanına. Əlindəkiləri bir tərəfə atıb üzüstə düşdü yerə. Atası nə qədər dil tökdü, yalvardı, Ələmdar dinmədi ki, dinmədi. Atası əlini qoydu oğlunun başına. Gördü ki, istiliyi-zadı yoxdu. Ələmdarı evdə qoyub üz tutdu şəhərə sarı. Yolda Cavad tacirin qabağına bir qarı çıxdı. Tacir dünyagörmüş adam idi. Öz-özünə dedi ki, qoy bu qarını dindirim, görüm hansı qarılardandı. İman qarısıdı, şeytan qarısı?

Odu ki, qarıya yanaşıb, cibindən bir xışma pul çıxarıb, basdı qarının ovcuna. Sonra oğlunun əhvalını qarıya danışdı. Qarı iman qarısı idi, dedi:

– Apar məni oğlunun yanına. Dərdi-dilini öyrənib sənə deyim.

Cavad tacir qarını götürüb gəldi. Qarı özünü verdi oğlanın yanına, tacirə tapşırdı ki, sən gəlmə. Bir az ordan, bir az burdan söz salıb dedi, güldü. Axırda oğlan açıb dərdini danışdı.Qarı tacirin yanına qayıdıb dedi:

– Muştuluğumu ver, oğlun aşiq olub.

Ata oğlundan soruşdu:

– Oğul, bu nə sevdadır belə?

Oğlan dedi:

Başına döndüyüm ata,
Bir qız məni dərdə salıb.
Ağ saqqalın nura bata,
Bir qız məni dərdə salıb.

**Aldı Cavad tacir:**

Başına döndüyüm oğul,
Söylə görüm harda salıb?
Yedirdim qəndindən noğul,
Söylə görüm harda salıb?

**Aldı oğlu:**

Aşiqlər söhbət sazıdı,
Göydəki dan ulduzudu.
Fətəli xanın qızıdı,
Bir qız məni dərdə salıb.

**Aldı Cavad tacir:**

Dərdi-qəmini atarsan,

Muradına tez çatarsan.
Sən öz yarını taparsan,
Söylə görüm harda salıb?

**Aldı oğlu:**

Ələmdaram, oldum yaman,
Sərimi bürüdü duman.
Şövkətdə yoxdu din-iman,
Bir qız məni dərdə salıb.

**Aldı Cavad tacir:**

Cavadam, malım sataram,
Gedib vətənə çataram,
Onunla toyun edərəm
Söylə görüm harda salıb?

Söz tamama yetişdi. Cavad tacir işin nə yerdə olduğunu bilib dedi:

– Sən otur evdə, mən əlac taparam.

Yollandı şəhərə. Gördü ki, bir qarı yolda oturub. Qarıya niyaz verib dedi:

– Qarı nənə, sənə bir işim düşüb. Onu eləsən, səni ala-şala bürüyərəm.

Əhvalatı söylədi. Qarı dedi:

– Oranı mənə göstər, sən get hazırlaş beş-on adamnan qızı qaçırmağa.

Qarı dingildəyə-dingildəyə düşdü tacirin yanına. Tacir onu Şövkət xanımgilin qapısına çatdırdı. Özü qayıdıb beş-on

adamla qarı tapşırdığı yerdə xəlvətə çəkilib başladı gözləməyə.

Qarı özünü verdi Şövkət xanımın yanına. Bu qarı da özünə görə qarı deyildi, şeytan qarısı idi. Alnan-felnan qızı aldadıb gətirdi tacirlə vədləşədiyi yerə. Bayaq ha qızı qamarlayıb atın belinə mindirdilər. Atlar götürüldü. Onlar getməkdə olsun, sizə kimdən deyim, Salmandan.

Salman səfərdən gəldi, gördü lələ köçüb, yurd ağlayır. Soruşdu ki, kim apardı, hara apardı. Dedilər Təbriz şəhərindən Cavad adlı tacir gəlmişdi, oğlunun da adı Ələmdar. Araya qarı salıb nə elədilərsə, qızı yoldan çıxarıb apardılar.

Salman sözə bəndimiş, tüpürdü dabanına, özünü çatdırdı Ziyada. İstədi deməsin, Ziyad əl çəkmədi ki, düzünü de, qaradan artıq da boya var? Salman dili tutula-tutula bir təhər hal-qəziyyəni danışdı. Elə bil Ziyadı ilan vurdu. Qapqara qaralıb kömürə döndü. Dedilər, görən buna nə oldu belə. Ziyad kirimişcə sazı köynəkdən çıxarıb basdı bağrına:

Dindirməyin, qan ağlaram,
Əldən ixtiyarım getdi,
Çərxi-fələk belə yazıb,
Verdiyim ilqarım getdi.

Ziyad sazı tuta bilmirdi, yarpaq kimi əsirdi. Aldı ikinci bənddə nə dedi:

Əzəldən qayda qalmadım,
Əlindən badə almadım.
Bir gecə mehman olmadım,
O şirin köftarım getdi.

Ziyadın qədrini bilib,
Çeşminin yaşını silib,
Gözüm yollarında qalıb,
Şövkət kimi yarım getdi.

Söz tamama yetişdi. Ziyad dedi ki, mən gedəsi oldum, siz sağ qalın. Dedilər hara gedirsən, bir de bilək.

Götürüb belə dedi:

Dost yolunda qəsd eləyib canıma,
Bir od salıb şirin cana gedirəm.
Nə bir güldüm, nə sevindim dünyada,
Baş götürüb biyabana gedirəm.

Mən bilirəm, şirin dilə allanıb,
Kecavada gözübağlı yollanıb.
Məhəbbətin ürəyində sallanıb,
Eşq oduna yana-yana gedirəm.

Ziyad yoldaşlarından ayrılmaq istəmirdi. Aldı görək sözün tapşırmasında nə dedi:

Bu miskin Ziyadı hey yada salın,
Kimsəsiz qəribdi, qaydına qalın.
Yardan soraq gəlib, qarışıb halım,
Şövkət gedən ol məkana gedirəm.

Sözünü tamam eliyib, sazı qoydu köynəyinə. Hal-hekayəti danışdı, ata-anasını yoldaşlarına tapşırıb sağollaşdı. Sonra atın belinə qalxdı. Bir xeyli getmişdi, birdən baxdı ki,

başının üstündən durna dəsti keçir. Dedi qoy xəbər alım, bəlkə Şövkəti görüblər?

Göy üzündə uçan düzüm durnalar,
Deyin görüm yarım haraya getdi?
Qanadı boynundan uzun durnalar,
Deyin görüm yarım haraya getdi?

Uçar ikən açıq olsun yolunuz,
Nə məkandır vətəniniz, eliniz?
Namə verim, çox şirindi diliniz,
Döndərib qəlbimi yaraya, getdi.

Ziyadam, çöllərdə qaldım avara,
Əlacsız dərdimə olunmaz çara.
Baş götürüb gedim hansı diyara,
Yoxsa nifaq qatdı araya, getdi?

Sözünü tamam eləyib, atının başını buraxdı. Az getdi, çox getdi, soraqlaşa-soraqlaşa gəlib çatdı Təbriz şəhərinə. Bir qapını taqqıldatdı. Bir qarı səndələyə-səndələyə gəlib qapını açdı, gördü bir cavan oğlandı, dedi:

– Oğul, kimsən?

Ziyad cavab verdi:

– Allah qonağıyam, ay qarı nənə.

Qarı dedi:

– Allaha da qurban olum, qonağına da. Oğul, keç içəri.

Ziyad qarıya pul verib dedi:

– Get bazara, axşama könlün nə istəyir al, yavaş–yavaş şam tədarükü gör.

Qarı dedi:

– Sağlığına hər şeyim var. Səhər alaram.

Oturub şam elədilər. Şamdan sonra ordan-burdan söhbət saldılar. Axırda Ziyad dedi:

– Qarı nənə, imanın kamil olsun. Mən Ərdəbildən gəlmişəm bura. Təbrizdə Cavad tacir var, oğlunun da adı Ələmdardı. Mənim nişanlımı nə yollasa aldadıb gətirib. De görüm onu tanıyırsan, ya yox?

Qarı dedi:

– Oğul, tanıyıram. Nə desən, mənim gözüm üstə. Mən imanbeh qarılardanam, nə desən, mənim gözüm üstə.

Dedi:

– Nənə, adın nədi?

Qarı dedi:

– Oğul, adım Fatmanisədi, nə dərdin olsa, əlacı məndə.

Ziyad sazı köynəkdən çıxarıb basdı sinəsinə, aldı görək qarını necə dindirdi:

Mən sənə oğulam, sən mənə ana,
Amandı, dərdimə bir əlac, nənə.
Haq yetirsin səni dinə–imana,
Amandı, dərdimə bir əlac, nənə.

Qarı da sözdən kasad deyildi. Aldı cavabında görək nə dedi:

Qarı nənən alsın sənin qadanı,
Oğul, mən dərdinə əlac eylərəm.
Açıq danış, mən eşidim sədanı,
Qorxma, mən dərdinə əlac eylərəm.

**Aldı Ziyad:**

Qara bulud başın üstün alıbdı,
Gül irəngim saralıbdı, solubdu,
Mənim yarım Ərdəbildən gəlibdi,
Amandı, dərdimə bir əlac, nənə.

**Aldı Fatmanisə qarı:**

Qadan gəlsin mən qarının canına,
Onu uydurublar dünya malına.
Sən gedərsən Şah Abbasın yanına,
Oğul, mən dərdinə əlac eylərəm.

Ziyad bir az arxayınlaşıb aldı görək sözün axırını necə tapşırdı:

O uzax yolları gəldim piyada,
Canımı yolunda vermişəm bada.
Ölürəm, rəhm eylə bədbəxt Ziyada,
Amandı, dərdimə bir əlac, nənə.

Qarı da sözünü belə xətm elədi:

Sən mənim oğlumsan, mən sənin anan,
Mən Fatmanisəyəm, halına yanan.
Qismətin olacax gül üzlü canan,
Qorxma, mən dərdinə əlac eylərəm.

Söz tamama yetişdi. Qarı dedi:

– Oğul, tanıyıram taciri, şəhərdə danışırdılar ki, o, bir gözəl qız gətirib, oğlu Ələmdara toy eləyir. Qız da razılıx vermir. Deyən, o qız sənin nişanlındı. Ziyad cibindən pul çıxartdı verə qarıya, qarı almayıb dedi:

– Oğul, mən imanbeh qarıyam. Təki siz bir–birinizə qovuşun. Hə, de görüm, qızın səndə nəyi var?

Ziyad sevindiyindən bilmirdi neyləsin. Dedi:

– Qarı nənə, məndə bir üzüyü var.

Qarı üzüyü alıb qoydu cibinə, dedi:

– Bu ev, bu çay, bu da çörək, özün nə eləyirsən elə, mən getdim. Ziyad yol gözləməkdə olsun, görək qarı necə oldu. Qarı üzüyü ipək dəsmala bağlayıb qoymuşdu cibinə. Elə ki, çatdı toy evinə, gördü bir vurçatdasındı ki, gəl görəsən. Birtəhər özünü saldı toy evinə. Dedi, mən gəlinin yanına gedəcəm, gəlinin xalasıyam. Nə qədər dil tökdü, yalvardı, məhəl qoyan olmadı. Gün günorta olana qədər qarı yalvardı. Aman vermədilər ki, gəlinin yanına getsin. Axşamüstü qarı fürsət tapıb gəlinin otağına yaxınlaşdı, səsini atdı başına, elə qışqırdı ki, səsi ərşə yayıldı.

Şövkət xanım pəncərədən boylandı. Gördü bir qarıdı, ilan kimi qabıqdan çıxır, içəri ötürmürlər ki, ötürmürlər. Özünü verdi qapıya, dedi, o qarını ötürün gəlsin, mənim doğma xalamdı. Elə bil Şövkətin ürəyinə dammışdı, az qaldı özü çıxıb qarını içəri gətirə. Qarını apardılar gəlinin otağına. Qarı içəri girən kimi elə bil Şövkətlə can-ciyərdi, başladı qızı duz kimi yalamağa. Fürsəti fota verməyib qulağına dedi ki, muştuluğumu ver, sənə şad xəbər gətirmişəm. Odur ki, Şövkət xanım üz tutub otaxdakılara dedi ki, siz hamınız çıxın çölə, mən xalamnan bir az söhbət eləmək istəyirəm. Qız-gəlin çıxdı çölə. Şövkət xanım az qaldı qarının başına dolana.

Dedi:

– Qarı nənə, sən gedən yollara qurban olum, sözünü de, yoxsa ürəyim partlayacax.

Qarı dedi:

– Qızım, gözün aydın olsun, Ziyad mənim evimdədi.

Üzüyü verdi qıza. Qız dedi:

– Nənə, Ziyadı axşam götür gəl toya. Mən də qaynatamnan icazə alıb gələcəm toya. Sonrasını mən bilərəm.

Qarı üzüyü qıza verib düzəldi yola.

İndi eşit Ziyaddan. Ziyad gözünü yola dikib səbirsizliklə qarını gözləyirdi. Qapı döyüldü. Ziyad tez qaçıb qapını açdı. Qarı girdi içəri. Ziyad gördü qarının gözləri gülür, qırışığı açıldı. Tez soruşdu:

– Qarı nənə, söylə görüm necə getdin?

Qarı əhvalatı necə olmuşdu, eləcə də söylədi. Ziyadın sevindiyindən iştahası qaçdı. Qarı dedi:

– Mən sənin sözünə baxdım, sən mənim sözümə baxmırsan. Ye, iç, arxayın yat. Rəngin-ruhun qaçar, biyabır olarıq. Səhər ikimiz də toydayıq.

Səhər hamının üstünə xeyirliynən açılsın. Səhər açıldı. Qarıyla Ziyad geyinib-keçinib yollandılar toy evinə. O vaxt toya çatdılar ki, Dursun adlı aşıq oxuyur. Şövkət xanım da yeddi qələmnən özünə bəzək-düzək verib pərdənin dalında toya qulaq asırdı. Qarı gəlinin yanına keçdi. Ziyad da çiynində saz aşığın məclisinə gəldi. Salam verdi, salamın alıb yuxarı başa gətirdilər. Aşıq sazı yerə qoyub dedi:

– Aşıq, mən toyda ola-ola sən həddini aşıb niyə gəldin mənim məclisimə? Bir məclisdə iki aşıq olmaz, ya sən qalmalısan, ya da mən.

Ələmdar tez yerindən durub dedi:

– Səni mən gətirmişəm, məclis sənindi. O aşıq çıxıb getsin.

Bu dəmdə Şövkət xanım qırx incəbel qıznan pərdənin dalında oturmuşdu. Söhbəti eşidib dedi:

– Aşıqlar bir-birinə bağlama desinlər. Kim bağlasa məclis onundu.

Razılaşdılar. Dursunla Ziyad sazlarını kökləyib çıxdılar meydana. Dursun dedi:

– Aşıq, birinci sən deyirsən, yoxsa mən?

Ziyad dedi:

– Sən deməlisən. Məclis sənindi, sən de, mən cavab verim.

Aldı görək Aşıq Dursun nə dedi:

Arzulayırdım, əlimə keçibsən büyün, aşıq,
Əcəb çağımda tapıldı iqbalı yeyin aşıq.
Nə səbəbə qədəm qoyub gəlibsən meydanıma,
Gətirərəm başına olmazın oyun, aşıq.

**Aldı Aşıq Ziyad:**

Ağzını avara qoyma, qafası peyin aşıq.
Qurd kimi təpilərəm mən sənə, qoyun aşıq.
Çox ucadan yerimə, bil ki, xeyir çəkməzsən,
Çəkdirəcəyəm sinənə dağınan düyün, aşıq.

**Aldı Aşıq Dursun:**

Mahallarda söyləyirlər, bir qoç oğlu qoçam mən,
Sən ki, bir qorxaq tülküsən, elə bilmə heçəm mən.
Xırdalasan xəzinəni yaxşı-yaman seçəm mən,
Getməz, qalar boğazında çörəyin, suyun, aşıq.

**Aldı Aşıq Ziyad:**

Sən ki, bir yoluq cücəsən, pələng oğlu pələngəm,
Yaxın gəlsən odlanarsan, həm də şiri cəngəm.
Zorun çatmaz qaldırasan, tərpənməz xətəngəm,
Əyər ki, məni bağlasan, get sonnan oyun, aşıq.

**Aldı Aşıq Dursun axırıncısını:**

Laf eyləmə boş söhbəti, bərkə-boşa düşərsən,
Dursun, sən də lovğalanma, daldan başa düşərsən.
Yol tapmazsan, bu məclisdə bitməz işə düşərsən,
Quruyar cəsədin, qalar bir quru boyun aşıq.

**Aldı Aşıq Ziyad:**

Bülbül kimi zarı qılıb tərk olmuşam gülümdən,
Eşidənlər əhsən desin mətləb qansın dilimdən,
Adımdı Aşıq Ziyad, Ərdəbilin elindən,
Yarımçıq qoyaram əlində qismətin, toyun, aşıq.

Ziyadla Dursun neçə yerdən suallaşıb bir-birinə bağlamalar dedilər. Axırda Aşıq Dursun bağlandı. O, sazı yerə qoyub dedi:

– Bu saz sənindi, sən bağladın.

Ziyad dedi:

– Mən sənin sazını alım, bu kişilikdən deyil.

Camaat yer-yerdən dedi:

– Onda sazını götür çıx get. Məclisi təzə gələn aşıq aparsın.

Aşıq Dursun sazı köynəyinə qoyub düzəldi yola.

Ziyad baxdı ki, Şövkət xanımın gözləri onun üzərindədi. Sazı götürüb üzünü tutdu ona tərəf, dedi:

İxtiyar verilib, gəlibsən toya,
Qaldır qollarını süz, qadan alım.
Ağlımı başımdan təğayül etdin,
Eyləmə qaş altdan göz, qadan alım.

Qaradır qaşların, boyun gülbəstə,
Dərib qızıl gülü tutubsan dəstə,
Bimürvət, dərdindən olmuşam xəstə,
Dərdimi sinənə yaz, qadan alım.

Lalədi yanağın, xaldı qarası,
Bulunubdu bu dərdimin çarası.
Əlimiə keçibdi işin sırası,
Urusxat ver, durum tez qadan alım.

Dodaqların güldü, gözlərin ala,
Niyə məni saldın qovqaya, qala,
Ziyad da Şövkətdən bir busə ala,
Olmaya burada söz, qadan alım.

Söz tamama yetişəndə Ələmdar durub dedi:

– Aşıq, sən sazını götür, çıx get. Mən ayrı aşıq gətirəcəyəm. Sən mənim adımı biyabır elədin. Bu qədər camaatın içində sən mənim nişanlımın adını çəkdin.

Camaat hərə bir tərəfdən Ələmdarı danladı ki, aşıq ala da deyər, kürə də deyər, sözdü oxuyur, qoy oxusun. Ələmdar çəkilib yerində oturdu. Şövkət xanım pərdənin arasından

Ziyada baxıb gülümsədi. Bu vaxt Ziyad aldı görək daha nə dedi:

Bir gün gözəlliyin sehrinə vardım,
Gözüm camalında qaldı, neyləyim.
Hər qıya baxışın aldı canımı,
Eşq odu ürəyə doldu, neyləyim.

Aşıq olub ilqar-iman vermişəm,
Dal gərdəndə siyah zülfün hörmüşəm.
Öz gözümlə Şövkətimi görmüşəm,
Nazınan üzümə güldü, neyləyim.

Eşqin dəryasında üzə bilmirəm,
Seyrağub sözünə dözə bilmirəm.
Durub bu məclisdə gəzə bilmirəm,
Ziyadı odlara saldı, neyləyim.

Söz tamama yetəndə Ələmdar durub Ziyadın yaxasınnan yapışdı, dedi:

– Başın bədəninə ağırlıq eləməsin. Vaxt ikən sazını götür, çıx burdan. İki dəfədi sən camaatın içində mənim nişanlımın adını çəkirsən. Mən gedib ayrı aşıq gətirərəm.

Şövkət xanım pərdənin dalından çıxdı, rübəndin üzündən götürüb dedi:

– Camaat, eşidin-bilin, mən Ziyadın nişanlısıyam. Cavad tacir məni zorla gətirib. Mən razılıq verməmişəm, toyu da özbaşına eləyir. İndi bəxtim kəsib, nişanlım gəlib, gedək padşahın yanına. Hamı dərdini desin. Padşah nə desə, o da olsun.

Sözü bir araya qoyub getdilər şahın hüzuruna.

Şah kim ola, Şah Abbas. Şah Abbas çox ədalətliydi, haqqı nahaqqa verməzdi. Hərənin şikayətinə ayrı-ayrı baxırdı. Şah Abbas əvvəlcə Şövkət xanımdan soruşdu:

– Qızım, dərdin nədi, söylə.

Şövkət xanım irəli yeriyib, pərvanə zülflərindən üç tel ayırıb, sinəsinə basıb dedi:

Başına döndüyüm ədalət şahım,
Könlümdəki mətləbimi ara sən.
Ədalət şahımsan, ol qibləgahım,
Hər kim günahkardı, çəkdir dara sən.

Gedib məni Ərdəbildən götürüb,
Beyman qarı sehrə salıb gətirib.
Baxtım kəsib, Ziyad yarım yetirib,
Vurma ürəyimə dürlü yara sən.

Cavad tacir istəyirdi qaça. Padşah dedi:

– Gəl otur gözümün qabağında.

Görək Şövkət axırıncı xanəni necə dedi:

Qışın çilləsinin yağmış qarıyam,
Özüm öz yarımın vəfadarıyam.
Şövkət deyər, mən Ziyadın yarıyam,
Ədalətlə eylə dərdə çara sən.

Şövkət sözünü tamamladı. Bu zaman Ziyad irəli yeriyib, padşahdan icazə aldı. Padşah dedi:

– Oğlum, de.

Aldı görək Ziyad nə dedi:

Dağları, daşları yandırır ahım,
Şahım, möhübümü düzəsən gərək.
Sən özün ol mənim ümid, pənahım,
Hərənin taqsırın yazasan gərək.

Gecə-gündüz axıtdım göz yaşımı,
Qadir Allah, özün düzəlt işimi.
Dərd əlindən itirmişəm işimi.
Özün bu işləri pozasan gərək.

Ziyadın varlığı yara bağlıdı,
Halal bağban bağda bara bağlıdı,
İki sevgi düz ilqara bağlıdı,
Mətləbə çatmağa dözəsən gərək.

Söz tamama yetişdi. Şah Abbas Cavad tacirə dedi:

– Bu nə işdi belə? Niyə bu oğlanın nişanlısını zorla alıbsan?

Tacir nə qədər yalavar-yaxar elədisə, şah onu bağışlamadı. Əmr elədi ona otuz şallax vurdular. Sonra Cavad tacir suyu süzülə-süzülə oğluyla kor-peşman çıxıb getdi.

Şah Abbas Ziyada toy xərci verdi. Sübh obaşdan atlanıb düzəldilər yola. Gecəli-gündüzlü at sürdülər. Axırda gəlib Ərdəbil şəhərinə çatdılar. Birinci Salman özünü atdı Ziyadla Şövkətin üstünə. Sonra Salmanı göndərdilər gedib Ziyadın ata-anasını, bir də meşədəki yoldaşlarını çağırıb gətirdi. Görüşüb, öpüşdülər. Toyu başladılar. Yeddi gün, yeddi gecə toy çaldırdılar. Ziyadla Şövkət mətləbə yetişdilər. Siz də öz mətləbinizə yetişin. Ziyad üçtelli sazı bağrına basıb dastanını bu duvaqqapmaynan sona yetirdi:

Qəfildən çıxdın qarşıma,
Niyə göz-qaş elədin sən.
Artırdın dərd azarımı,
Bir dərdim beş elədin sən.
Saz çaldım məclisində,
Bir saat guş elədin sən.
Guşda guşvara,
Günümdü qara,
Oldum avara,
Dərdimə çara,
Dərdimə qarış.
Sinəndi balış.
Gəl mənlə barış.
Söndürüb mənim eşqimi,
Baharım qış elədin sən.

Hər nə desən qayıl oldum,
Baş əyib qabağında,
Hər qatında sayıl oldum.
Olaram sayıl,
Hüsnünə mayıl,
Boyu həmayıl,
Gün kimi yayıl,
Günəş tək isti,
Canımın qəsdi.
Əhvalım pisdi.
Niyə pozdun pərgarımı,
Əllərim boş elədin sən.

Bəstə boylu, qara gözlü,
Gəlişin necə gözəldi.

Can alansan, şirin sözlü,
Duruşun necə gözəldi.
Ziyadın ağlını aldın,
Gülüşün necə gözəldi.
Adındı Şövkət,
Eşqi məhəbbət,
Çox çəkdin zəhmət,
Tez getdi xilqət.
Çatdın murada,
Ay mələkzada,
Qurbanam ada.
Yıxılan könlümü alıb,
Günlərim xoş elədin sən.

## «AŞIQ QƏRİB»-dən

### Qəriblə Sənəmin deyişməsi

**Qərib:**

Birisinin ayağında məsti var,
Birisinin can almağa qəsdi var.
Birisinin bəlkə burda dostu var,
Üç gözəlin sənəminə mən qurban.

**Sənəm:**

Getmə, Qərib, getmə, yolun kömürdür,
Məgər ki, ürəyin daşdır, dəmirdir.
Yeddi ilin bir iyidə ömürdür,
Get Qəribim, sağlıq ilə gələsən,
Gül tutasan, yaylıq ilə gələsən.

**Qərib:**

Qürbət elə atdın mənim daşımı,
Axıtdın çeşmimdən qara yaşımı.
Əgər yastığına qoyam başımı,
Bəlkə yar əylənəm, bəlkə gəlməyəm.

**Sənəm:**

Hayana gedərsən izin izlərəm,
Xəncər alıb qara bağrım bizlərəm.

Yeddi il deyərsən, on il gözlərəm,
Get Qəribim, sağlıq ilə gələsən.

**Sənəm:**

Dərya kənarında ağca qıtanım,
Hə demişəm sövdəgardan utanım.
Qiyamətdə ətəyimdən tutanım,
Gedən olsan, Qərib yara de gəlsin,
Üzü dönmüş biilqara de gəlsin.

Xocam qurban olum iştə yoluna,
Sağ gedərsən vətəninə, elinə.
Qiyamətdə yapışaram əlindən,
Gedən olsan, Qərib yara de gəlsin,
Üzü dönmüş biilqara de gəlsin.

Xocam, yükün çalın-çarpaz bağladı,
Bir ah çəkdi, bağrım başın dağladı.
Şahsənəm də Qərib deyib ağladı,
Gedən olsa, Qərib yara de gəlsin,
Üzü dönmüş biilqara de gəlsin.

Xocam, sən də əmbərkəmi atarsan,
Yəqin bil ki, sən Kəbəni yaparsan.
Ya Urumda, ya Hələbdə taparsan,
Gedən olsan, Qərib yara de gəlsin,
Üzü dönmüş biilqara de gəlsin.

# XII. BAYATILAR

Əzizim, Ordubada,
Yol gedər Ordubada.
Sərkərdə igid olsa,
Verərmi ordu bada?

O tayda ana ağlar,
Baxar bu yana ağlar.
Qorxuram bu nalədən,
Od tutub yana dağlar.

Bu qala, bizim qala,
Həmişə bizim qala.
Tikmədim özüm qalam,
Tikdim ki, izim qala.

Mən aşiq, gül biçərəm,
Gülü güldən seçərəm.
Vətənimin yolunda,
Gözlərimdən keçərəm.

Yağış gəlir, dayanmır,
Yar qəflətdən oyanmır.
İkimiz də oddayıq,
Mən yanıram, o yanmır.

Əzizim, yaxşı ata,
Yar oxun yaxşı ata.

Sözü de qoç iyidə,
Pulu ver yaxşı ata.

Ox atma sən bu daşa,
Bu qayaya, bu daşa.
Düşməni elə vur ki,
Kəlləsindən bu aşa.

Əlimdə var bağlama,
Mən gedirəm, ağlama.
Bəlkə getdim, gəlmədim,
Namərdə bel bağlama.

Mən aşiq, sözüm qurban,
Qoy olsun gözüm qurban.
Yara qurban nə lazım ,
Mən özüm ona qurban.

Maral getdi bu dağda,
Gedib itdi bu dağda.
Bağban sənə nə deyər,
Bülbül ölsə bu dağda.

Kağızın ağına bax,
Sinəmin dağına bax.
Könül gözəl istəsə,
Gənzənin bağına bax.

Tapmısan güldə məni,
Görürsən ildə məni.

Dedin səni sevirəm,
Sevirsən dildə məni.

Dağlarda səslə məni,
Qoynunda bəslə məni.
Necə ki mən istərəm,
Elə də istə məni.

Payız qışdan əzəldi,
Yarpaq tökən xəzəldi.
Vətən vicdanda olsa,
O, cənnətdən gözəldi.

Fələk mənə daş vurdu,
Daşın atdı çaş vurdu.
Qanlı qəm dəryasına,
Yar da gəldi baş vurdu.

Elə baxma, belə bax,
Dağdan gələn yelə bax.
Tər tökdük, oba saldıq,
Evlər yıxan selə bax.

Mən aşiq, qala məndə,
Bürc məndə, qala məndə.
Yardan bir busə aldım,
Yadigar qala məndə.

Gəlirlər süzə-süzə,
Qızılgül üzə-üzə.

Yar mənə qaş-göz atdı,
Tellərin düzə-düzə.

Mən aşiqəm, yar düzə,
Ya çəmənə, ya düzə.
Sənsən ömrün qönçəsi,
Qoyarammı yad üzə.

Dəsmalın ağdı məndə,
Güllüdü, ağdı məndə.
Yar sənin bir "yox" sözün,
Düyündü, dağdı məndə.

Karvan gedir Təbrizə,
Yolu çıxıbdı düzə.
Dünən dedin, gəlmədin,
Bu gün barı gəl bizə.

Araşqının təpəndə,
Üzə gülab səpəndə.
Könlüm murada yetər
Ağ üzündən öpəndə.

Dağlara çən düşəndə,
Sünbülə dən düşəndə.
Ruhun bədəndən oynar,
Yadıma sən düşəndə.

Ay doğdu bircə barmaq,
Qəlbimə batdı qarmaq.

El yatdı, oba yatdı,
Mənə qaldı yalvarmaq.

Əzizim, səndən iraq,
Düşmüşəm səndən iraq.
Qoy dərdin mənə gəlsin,
Tək olsun səndən iraq.

Göydə ulduz olaydım,
Dibəkdə duz olaydım.
Yar qapıdan keçəndə,
Evdə yalqız olaydım.

Göydə ulduz zərnişan,
Çətindir, eşqə düşən.
Ya huridir, ya mələk,
Sevdiyinnən görüşək.

Göydə ulduz gedir,
Yerə xəbər edir.
Bir aydı görməmişəm,
Yarı canım gedir.

Göydə ulduz əllidir,
Əllisi də bəllidir.
Yüz igidin içində,
Mənim yarım bəllidir.

Aya bax necə gedər,
Dolanıb gecə gedər.

Qız, sinən arasında,
Bir yol var haca gedər.

Ay çıxar sini-sini,
Mən sevdim birisini.
Cəllad boynumu vursa,
Demərəm doğrusunu.

Ay çıxar düzə düşər,
Qar yağar dizə düşər.
Qəbrim yol üstə qazın,
Yar yolu bizə düşər.

Ay doğdu düzə düşdü,
Qar yağdı dizə düşdü.
Fələk bölgü böləndə,
Ayrılıq bizə düşdü.

Ay çıxar minaradan,
Mən ölməm bu yaradan.
Yarımı mənə göndər,
Yeri-göyü yaradan.

Qərənfil əkdim bir lək,
Dadandı qara leylək.
İstədim murad alım,
Qoymadı zalım fələk.

Qərənfiləm qələmsiz,
Qərarım gəlmir sənsiz.

İstədim namə yazam,
Qələmim yazmır sənsiz.

Qərənfil çini-çini,
Öpəm ağzın içini.
Haralarda gəzirsən,
Könlümün göyərçini.

Qərənfil nədən olur,
Tökülür, dən-dən olur.
Mən ayrılıq bilməzdim,
Ayrılıq səndən olur.

Qərənfil allananda,
Yel vurub, sallananda.
Kafir imana gələr,
Mən sənə yalvaranda.

Əzizinəm, ağlama,
Gündüz-gecə ağlama.
Bu qapıyı bağlıyan
Bir gün açar, ağlama.

Əzizim, özə qurban,
Sürməli gözə qurban.
Ya məni sizə apar,
Ya sən gəl, bizə, qurban.

Əzizim, nə bağışlar,
Dost-dosta nə bağışlar.

Başım cəllad dizində,
Nə keçər, nə bağışlar.

Əzizim, günə düşdüm,
Kölgədən günə düşdüm.
Düşman, gözün kor olsun,
Nə zülüm günə düşdüm.

Əzizim, çalxa zülfün,
Çaylara çalxa zülfün.
Kəndlərdə hamam olmaz,
Çaylara çalxa zülfün.

Əzizim, qala yeri,
Bürc yeri, qala yeri.
Qiyamət o gün qopar,
Yar gedə, qala yeri.

Pəncərədən gün düşdü,
Düşdü də, bağrım bişdi.
Cənazəmi gec qoyun,
Bəlkə yar yola düşdü.

Çay daşı, çıqıl daşı,
Qardaşım əsgərbaşı.
Bəzədim, yola saldım,
Allahdır arxadaşı.

Məni dedim, beş dedim,
Gəl qapıdan keş dedim.

Babam sənə qız verməz,
Al məni də, qaş dedim.

Bulaq başı ot, alaq,
Gəl bərabər oturaq.
Al məni, apar məni,
El dilindən qurtulaq.

Bulağa qızlar gəlir,
Qanadı sızlar gəlir.
Bəxtəvər, bulaq, sənə,
Nişanlı qızlar gəlir.

Buz üstə,
Ürək yanar, buz üstə.
Sənə ümid bağladım,
Sən də saldın üz üstə.

Əzizinəm, nə çarə,
Biçarəyə nə çarə.
Ət qoxudu, duz gətir,
Duz qoxudu, nə çarə?

Mən aşiq, naz bəri gəl,
Yolunu az bəri gəl.
Bir öpüş versən mənə,
Dünya qopmaz, bəri gəl.

Bu dağda qar qalmasın,
Ərisin, qar qalmasın.

Lal olsun mənim dilim,
Qoy sənə yalvarmasın.

Qəriblər dəstə-dəstə,
Eyləyib məni xəstə.
Ürəyim dağ-dağıydı,
Əritdim asta-asta.

Gəlirdim yavaş-yavaş
Qollarıma dəydi daş.
Vəfasızın əlindən,
Düşmənə dedim qardaş.

Bu gəlin, saşdı gəlin,
Divardan aşdı gəlin.
Bu gəlinə nə gəldi,
Evindən qaşdı gəlin.

Ordubad düzən yerdi,
Gözəllər gəzən yerdi.
Əlin ver halallaşaq,
Bura ölüzən yerdi.

Yollar yoran göründü
Yağış, boran göründü.
Gəldim, səni görmədim
Könlüm viran göründü.

Yaralıyam, yatmanam,
Dərdi batman-batmanam.

Yüz il, yüz ilə qalsa,
Mən yarımı atmanam.

Köynəyin ağa dönsün,
Yuduqca ağa dönsün.
Elə gəl, gəlişindən,
Ürəyim dağa dönsün.

Dağlar başı kağala,
Duman gəlib dağıla.
Yaram yaman yaradı,
İnanmıram sağala.

Əzizim, xalxa qala,
Yandı bağrım, ay xala.
Qorxuram qərib öləm,
Nazlı yar xalxa qala.

Qoy getsin ellərinə,
Qar yağsın yollarına.
Gül qoyub, tikan biçir,
Qoy batsın qollarına.

Mən aşiqəm, al məndən,
Yaşıl məndən, al məndən.
Ya dərdimə şərik ol,
Ya bu canı al məndən.

El köç eylər bu dağa,
Quşlar qonmaz budağa.

Elə ki, mən dözürəm,
Heç kəs dözməz bu dağa.

Əziziyəm, qolumda,
Qüvvətim yox qolumda.
Gör necə qarabaxtam,
Bu da varmış yolumda.

Çıxdım hündür divara,
Baxdım bir gözəl yara.
Mən baxdım, o baxmadı,
Qəlbimə vurdu yara.

Narınca bax, narınca,
Saxlaram saralınca.
Öləydim, qurtaraydım,
Bu günlərə qalınca.

Bu yol gedir otara,
Otar hara, ot hara?
Yoxsul da bir at aldı,
Yer tapmadı otara.

İl alır ayı məndən,
Günləri, ayı məndən.
Yar ox atır qəlbimə,
Gizlədir yayı məndən.

Dağların qarı məndən,
Bağların barı məndən.

İnsafsız yara bir bax,
Əsirgər narı məndən

Tərlan gəlib bu dağa,
Qonur budaq-budağa.
Ölü olsam dirilləm,
Dəysə dodaq-dodağa.

Naxçıvanı il aldı,
Bir yar sevdim el aldı.
Kaş ki sevməyəydim hec,
Arzum gözümdə qaldı.

Naxçıvan yolu yovşan,
Halım olub pərişan.
Bir ilə kimi gəlməsən,
Qoyallar mənə nişan.

Əzizim, ay əzizim,
Dalınca qaldı gözüm.
Yavaş get, ayaq saxla,
Sinəmdə çoxdu sözüm.

Bostan əkili qaldı,
Kəmənd çəkili qaldı.
Yarım getdi qürbətə,
Məndə şəkili qaldı.

Ağacda bara baxmaz,
Heyvaya, nara baxmaz.

Gözlərim səni gözlər,
Başqa bir yara baxmaz.

Əzizim, sözüm sənə,
Düşübdür gözüm sənə.
Pulum yox qurban alım,
Qurbanam özüm sənə.

Ay oğlan, doxtur oğlan,
Dərmanım çoxdu oğlan.
Sevgilin xəstələnib,
Xəbərin yoxdu, oğlan.

O tayda quzu gördüm,
Tükü qırmızı gördüm.
Açdım cənnət qapısın,
Sevdiyim qızı gördüm.

Əzizim, xana salmaz,
Gün vurar, xana salmaz.
Olsa, öz anam olsun,
Özgədən ana olmaz.

Arazım kəm üstədi,
Axırı nəm üstədi.
Aşıq bir hava çalır,
O da ki, qəm üstədi.

Bu dağda ilan olmaz,
Dərdimi bilən olmaz.

Dərd-dərdə söykənəndə,
Sevinən, gülən olmaz.

Xırmanda sana qaldı,
Sancıldı sana qaldı.
Yarımın al dəsmalı
Məndə nişanə qaldı.

Aşiqəm, qara balıq,
Ağ balıq, qara balıq.
Mən burdan gedər olsam,
Qoy qalsın xarabalıq.

Aşiqəm örtmək olmaz,
Körpəni örtmək olmaz.
Elin atdığı daşı,
Yerdən tərpətmək olmaz.

Mən aşiqəm axıtmaz,
Daşları çay axıtmaz.
El tikən qalaçanı,
Min bir tufan dağıtmaz.

Naxçıvan düzən yerdi,
Xanımlar gəzən yerdi.
Əlini ver halallaşaq,
Bura əlüzən yerdi.

Dam üstə yatan oğlan,
Qan-tərə batan oğlan.

Nişanlın apardılar,
Bəxtəvər yatan oğlan.

Bülbüləm qəfəsdəyəm,
Gör necə qəfəsdəyəm.
Yaralanmış quş təki,
Ürəyimdən xəstəyəm.

Bu maral ayıq deyil,
Yatıb da ayıq deyil.
Yarını atıb gedən,
Adına layıq deyil.

Əmim oğlu biçində,
Köynəyi tər içində.
Getdim tərini siləm,
Qaldım tikan içində.

İki qaşın arası,
Ürəkdə yar yarası.
Yar dərdinə düşməsin,
Heç ananın balası.

Üzüm, üzüm, üzüm var,
Bağda şirin üzüm var,
Özüm çiçək olsam da,
Çiçəklərdə gözüm var.

Əzizim, güldən alam,
Gülabi güldən alam.

Gülşəndə bülbül ölsə,
Qanını güldən alam.

Mən aşiq, yatan hanı,
Oyanan, yatan hanı,
Vəfalı yar yolunda,
Canını satan hanı?

Əzizim, gülə-gülə,
Bizə gəl gülə-gülə.
Öləndə səni görsəm,
Can verrəm gülə-gülə.

Əzizim, uzaqlaşmaz,
Dost-dostdan uzaqlaşmaz,
Sən məndən uzaqlaşsan.
Məhəbbət uzaqlaşmaz.

Əzizim, gülmədilər,
Oynayıb gülmədilər.
Mən vəfalı yar idim,
Qədrimi bilmədilər.

Əzizim, dağlar düzü,
Yoldadır yarın gözü,
Yarınan özün danış,
Ev yıxar ara sözü.

Əzizim, dost gözünə,
Qurbanam dost gözünə.

Mərd oğula can qurban,
Tikan namərd gözünə.

Əzizim, dərdə məni,
Salmasın dərdə məni.
Namərdə xan olmaram,
Kəs qurban mərdə məni.

Əzizim, elə bəndəm,
Bülbüləm gülə bəndəm.
Dindirmə qan ağlaram,
Yanıqlı dilə bəndəm.

Əzizim, öz yolunda,
Duraram düz yolunda.
Min dənə zalım olsa,
Qoyaram dost yolunda.

Əzizim, demiyəsən,
Hər sözü demiyəsən.
Dərd əlində öləsən,
Namərdə demiyəsən.

Əzizim, azarım var,
Pətəkdə bal, arım var.
Yarımı görsəm, şad ollam,
Görməsəm azarım var.

Əzizim, dolub ağlar,
Qar yağar, yolu bağlar,

Yar yadıma düşəndə
Gözlərim dolu ağlar.

Bir quş uçsa havadan,
Nar səslənər savadan.
Bala anadan dönsə,
Ana dönməz baladan.

Əzizim, səndən iraq,
Düşmüşəm səndən iraq.
Qoy dərdin mənə gəlsin,
Tək olsun səndən iraq.

Ərik ağacı buruldu,
Dibində su duruldu.
Hamının yarı gəldi,
Mənim boynum vuruldu.

Gənzədən gəl, Gənzədən,
Atın yesin yoncadan.
Sən ki məni sevmisən,
Belin sınsın incədən.

Xırdaca balınc üzü,
Biz nə tanıyırıq sizi.
O qədər getdin-gəldin,
Namusa saldın bizi.

Ərik ağacı deyiləm,
Hər gələnə əyiləm.

Əyil üzündən öpüm,
Mən özgəsi deyiləm.

Kəklik uçar havada,
Yumurtası tavada.
İyid ona deyərlər,
Sevdiyini tez ala.

Oturmuşam otaxda,
Nimtənəm taxta-taxta.
Bir yel gəldi qəfildən,
Gül qoymadı budaxda.

Ordubad boran haqqı,
Qannıda duran haqqı.
Yarımdan əl üzmərəm,
Otuz cüz Quran haqqı.

Tufli geydim doyunca,
Tufli rəngi solunca.
Yarımı tərk etmərəm,
Nərdivana qoyunca.

Burda dağlar ucadı,
Gündüz deyil, gecədi.
Mənim əziz sevgilim,
İndi kefin necədi?

Bakılıyam, Bakılı
Başımda var kəkilim.

Mən bir gözəl qız sevdim,
Kimdi onun vəkili?

Bakıda ilan yoxdu,
Dərdimi bilən yoxdu.
Özüm deyib ağlaram,
Göz yaşım silən yoxdu.

Ovçu, ovçu, ha maral,
Budur getdi ha maral.
Belə can almaq olmaz,
Can alırsan, hamar al.

Qarabağın alçası,
Döşənibdi xalçası.
Bir gözəl qız sevmişəm,
Qızıl gülün qonçası.

Tovuza bax, tovuza,
Köynəyi qonavuza.
Sevdim ala bilmədim,
Qaldı gələn payıza.

Əzizim, arı şanda,
Beçələr arı şanda.
Mələklər şadlıq eylər,
İki yar barışanda.

Aşıq qocalar gəzər,
Eldə ucalar gəzər.

Sonsuz öləndən sonra,
Ruhu bacalar gəzər.

Əziziyəm, sini var,
Qalıbdır sini var.
Olmuşam yar dəlisi,
Deyirlər ki, cini var.

Narınca bax, narınca,
Əl vurma saralınca.
Məndə ürək qalmadı,
Yar könlünü alınca.

Gözüm o gələndədi,
Xəncəri belindədi.
Mən ağlaram, o gülər,
İnsaf öz əlindədi.

Qərənfili dərəndə,
Dərib yerə sərəndə.
Yara könlümü verrəm,
Mənə könül verəndə.

Bağı gəzdim əzəldən,
Dəstə tutdum xəzəldən.
Bilsəydim vəfan budu,
Dost olmazdım əzəldən.

Dağa çıxdım əzəldən,
Ömür getdi tez əldən.

Yoxsulluq ayrı saldı,
Məni səntək gözəldən.

Qar yağdı, basdı məni,
Yel əsdi, kəsdi məni.
Canıma bir od düşdü,
Alovu qarsdı məni.

Yollar yaran göründü,
Yağış, boran göründü.
Gəldim, səni görmədim,
Könlüm viran göründü.

Gəl gedək kəndə belə,
Səninlə mən də belə.
Şadlığıynan işim yox,
Qəminlə məndə belə.

Fələk-fələk eylədi,
Fələk kələk eylədi.
Girdi cavan bağına,
Ələk-vələk eylədi.

Mən aşiqəm, ol məndən,
Yaşıl məndən, al məndən
Ya dərdimə şərik ol,
Ya bu canı al məndən.

Əzizim ala dağa,
Gün düşür Ala dağa.

Mən Qaradağ əhliyəm,
Yaz məni Qaradağa,

Payız qışdan əzəldi,
Yarpaq tökən xəzəldi.
Vətən viran da olsa,
O, cənnətdən gözəldi.

Araza gəmi gəldi,
Mən dedim, hamı gəldi,
Sən ağla, ay gözlərim,
Ayrılıq dəmi gəldi.

Əzizinəm dilən, gəz,
Bağda gülə dilən, gəz.
Qürbətdə xan olunca,
Vətənində dilən gəz.

Baxdım şirin dillərə,
Düşdüm quru çöllərə.
Axtardım qohum-qardaşı,
Həsrət qaldım ellərə.

Göydə dolanan bulud,
Rəngi saralan bulud.
Mən eldən aralandım,
Sən də aralan, bulud.

Bu yerlər qala yeri,
Bürc yeri, qala yeri.

Qiyamət o gün qopar,
El köçə, qala yeri.

Qızılgül açılanda,
Açılıb saçılanda.
Yarımdan ayrılaydım,
Hər sabah açılanda.

Əziziyəm, bu canda,
Gözəl olmaz bu canda.
Eşqin məni yandırdı,
Alovlandı bu can da.

Sürünü sürün dağa,
Duman, gəl, bürün dağa.
Leylisi itmiş Məcnun,
Salıbdı bir ün dağa.

Yar gəlibdi yatmağa,
Gündə bir boy atmağa.
Sabah yuxusu şirin,
Qıymıram oyatmağa.

Bu dağda bar olunca,
Heyvalar nar olunca.
Dil açar dəli könlüm,
Sən mənə yar olunca.

Gözlərim axdı sənə,
Axdıqca baxdı sənə.

Mən səni qiblə bildim,
Qıldım beş vaxtı sənə.

Saydım ulduz yüz dənə,
Bir təsbehdi, yüz dənə.
O gündən çox qorxuram,
İnciyəsən, üz dönə.

Əziziyəm, nəh demə,
Nəh danışma, nəh demə,
Qoy öpüm al yanaqdan,
Mən də çatım əhdimə.

Gecəni dan eyləmə,
Zülfünü yan eyləmə.
Baxışına mən qurban,
Könlümü qan eyləmə.

Ay qız, çıxma çəkilə,
Çit köynəyin sökülə.
Bu canım qurban olsun,
Qız, səndəki şəkilə.

Qızılgül dəstə-dəstə,
Bülbül qonar gül üstə.
Burda bir yar sevmişəm,
Ala göz, boyu bəstə.

Bu dağı enmək olmaz,
Yaşıl geyinmək olmaz.

Hər yetənin sözüylə,
İlqardan dönmək olmaz.

Elə ağlamaq olmaz,
Sinə dağlamaq olmaz.
Əhdə vəfasız yara,
Ürək bağlamaq olmaz.

Ay çıxıbdı kənarsız,
Gəzmək olmaz fanarsız.
Göz gördü, könül sevdi,
Niyə məni qınarsız?

Mən dağlarda çiçəyəm,
Əl vurma, köynəkçəyəm.
Yar ki məni bəyənir,
Göyçəklərdən göyçəyəm.

Qızılgül dəstəsiyəm,
Qaşların ustasıyam.
Özgə bir dərdim yoxdu,
Camalın xəstəsiyəm.

Bağında şirin nə var?
Yeməli, şirin nə var?
Gəzsən cümlə-cahanı,
Sevgidən şirin nə var?

Başında ağ şalı var,
Yaşılı var, alı var.

Ceyran yerişli yarın,
Ağ buxaqda xalı var.

Ay doğub hilalıdır,
İldən, aydan halıdır.
Ağlım aparan gözəl
Bilmirəm haralıdır?

Meyvəsiz bağda nə var?
Bəhrəsiz tağda nə var?
Məcnun xəyallı könlüm,
Leylisiz dağda nə var?

Bağçalar bağa dönsün,
Bağım yaylağa dönsün.
Bircə kəlmə din, danış,
Ürəyim dağa dönsün.

Əzizinəm, ay azaldı,
Gün keçdi, ay azaldı,
Qocaldım, ömrüm keçdi,
Cavan ömrüm azaldı.

Əzizinəm, bir də mən,
Oxudum, gəldim bir də mən.
Qocaldım, ömrüm getdi,
Cavan olmaram bir də mən.

Şaftalıyam, kalam mən.
Dilim yoxdu, lalam mən.

O qızı mənə vermirlər,
Əlacım yoxdu, alam mən.

Əzizinəm, birəm mən,
Tənhayam, birəm mən.
Fələyə çox yalvardım,
Öldürmə, birəm mən.

O, tayda yatan Məhər,
Köynəyi kətan Məhər.
Kübrəni apardılar,
Bixəbər yatan Məhər.

# XIII. AĞILAR

Damdan düşmüşəm, neynim,
Dərddən şişmişəm, neynim.
Bu fələyin əlindən
Odda bişmişəm, neynim.

Araz başdan cilovlar
Bülbül bağdan gül ovlar.
Əcəldə nə adətdi,
Harda görsə cilovlar?

Qar yağdı bastı məni
Yel əsdi, kəsti məni.
Canıma bir od düşdü
Alovu qarsdı məni.

Əzizim, bu yolları,
Meh döyər bu yolları.
Gedəni nə gözlərsən,
Kəsilib qıçı, qolları.

Fələk fələk eylədi,
Fələk kələk eylədi.
Girdi cavan bağına,
Ələk-vələk eylədi.

# XIV. HAXIŞTALAR

Üstüpünün gülləri, haxışta.
Oxuyar bülbülləri, haxışta.
Gəlinə qurban olsun, haxışta.
Oğlanın bibiləri, haxışta.

Yedim noğul, qaynana, haxışta.
Doğdum oğul, qaynana, haxışta.
Oğlunu əlindən aldım, haxışta.
Çatta-boğul, qaynana, haxışta.

Oğlan adın Bəxtiyar, haxışta.
Çatdım gördüm yoxdu, yar, haxışta.
Divar uca, boy alçaq, haxışta.
Görən hara getdi, yar, haxışta.

Zibil dolu bur-bucaq, haxışta.
Çıxdı çoxlu qab-qacaq, haxışta.
Qaynana, ürəyin sıxma, haxışta.
Gəlin gəlib yuyacaq haxışta.

Oğlanın adı Emin, haxışta.
Ola bilmərsən əmin, haxışta.
Qızımız yaxşı qızdı, haxışta.
Həm öyün, həm də sevin, haxışta.

Yerə əkdim söyüdü, haxışta.
Söyüd xeyli böyüdü, haxışta.

Heç vaxt yadımdan çıxmaz, haxışta.
Böyüklərin öyüdü, haxışta.

Bir noyabr gecəsi, haxışta.
Gəlir tar-qaval səsi, haxışta.
Hərə bir ağızdan desin, haxışta.
Mübarəkdi xına gecəsi, haxışta.

Havarlılar qənd alıb, haxışta.
Çənlibeldə çay salıb, haxışta.
Qızıl, gümüş bir yana, haxışta.
Onlar brilyant alıb, haxışta.

Qızıl üzük taxmışam, haxışta.
Özüm ona baxmışam, haxışta.
Sevmişəm, bəyənmişəm, haxışta.
Yarımı özüm tapmışam, haxışta.

Haxışta mənnən olsun, haxışta.
İpək tumanım olsun, haxışta.
Geyim gedim Gəncəyə, haxışta.
Gəncədə toyum olsun, haxışta.

Ay dolanar batmağa, haxışta.
Yuxum gəlmir yatmağa, haxışta.
Qardaş üzük göndərib, haxışta.
Gəlin əlinə taxmağa, haxışta.

Gəmidə var talaşa, haxışta.
Asta sür, dəyər daşa, haxışta.

Yığılsın qonum-qonşu, haxışta.
Gəlin gəlir qardaşa, haxışta.

Sara bax, necə gedir, haxışta.
Qara bax, necə gedir, haxışta.
Şarfı salıb boynuna, haxışta.
Yara bax, necə gedir, haxışta.

Açdı çuxasın oğlan, haxışta.
Məxmər yaxasın oğlan, haxışta.
Əsli Qarabağlıdır, haxışta.
Yoxdu vəfası oğlan, haxışta.

Yaşıllar, ay yaşıllar, haxışta.
Divardan boylaşıllar, haxışta.
Qonşumuzun qızları, haxışta.
Ər üstə savaşıllar, haxışta.

Oğlan adın Əlidi, haxışta.
Köynəyin düyməlidi, haxışta.
Özün gözəl oğlansan, haxışta.
Bacıların dəlidi, haxışta.

Aşıq-aşıq aşıqdı, haxışta.
Süfrə dolu qaşıqdı, haxışta.
Ay əmi, mən neyləyim, haxışta.
Oğlun mənə aşıqdı, haxışta.

Samavarım sızıldar, haxışta.
Altdan-altdan dızıldar, haxışta.

Məni sevən oğlanın, haxışta.
Qabaq dişi qızıldan, haxışta.

Araba gəlir, bərk gəlir, haxışta.
İçi dolu qənd gəlir, haxışta.
Mən şirin çay içəndə, haxışta.
Qeynanama dərd gəlir, haxışta.

Yaşıl başmaq yaxşıdır, haxışta.
Divardan aşmaq yaxşıdır, haxışta.
Dambul-dumbul boş şeydir, haxışta.
Qoşlub, qaşmaq yaxşıdır, haxışta.

O yandan maşın gəlir, haxışta.
Bu yandan maşın gəlir, haxışta.
Maşınla işim yoxdur, haxışta.
Şoferdən xoşum gəlir, haxışta.

İstol üstə vaz nədir, haxışta.
Vaz nədir, kağız nədir, haxışta.
Əgər məni sevirsən, haxışta.
Yanındakı qız nədir, haxışta.

Kostuyumun dəstinə, haxışta.
Ətir səpim üstünə, haxışta.
Neyləyim arvadın var, haxışta.
Məni elə al üstünə, haxışta.

Stol üstə üzüm var, haxışta.
Üzüm, səndə gözüm var, haxışta.

Əmimin üç oğlu var, haxışta.
Kiçiyində gözüm var, haxışta.

Qeynanam gəlir məsciddən, haxışta.
Tumanı ala çitdən, haxışta.
Qaynanamı seçmərəm, haxışta.
Qapıda gül-çiçəkdən, haxışta.

Nərgiz oturub daş üstə, haxışta.
Tellərin salıb qaş üstə, haxışta.
Rəşad dedi, gəl gedək, haxışta.
Nərgiz dedi baş üstə, haxışta.

Haxışta deyə bilmirəm, haxışta.
Boynumu əyə bilmirəm, haxışta.
Özüm dövlətli qızı, haxışta.
Kasıba gedə bilmirəm, haxışta.

Şampaniski olaydım, haxışta.
Rumkalara dolaydım, haxışta.
Məni içən oğlanın, haxışta.
Boğazında qalaydım, haxışta.

A hindilər, hindilər, haxışta.
Gəlin gedək qız gilə, haxışta.
Yüz hakuşka deyərəm, haxışta.
Sizin kimi yüngülə, haxışta.

Qızıl üzük laxladı, haxışta.
Verdim anam saxladı, haxışta.

Anama qurban olum, haxışta.
Yarı mənə bağladı, haxışta.

İlana bax, ilana, haxışta.
İlan göydə dolana, haxışta.
And içmişəm Qurana, haxışta.
Gərək gedəm xulqana, haxışta.

Maşın gəlir boş gəlir, haxışta.
İçində sərxoş gəlir, haxışta.
Mən şirin çay içəndə, haxışta.
Qaynanama xoş gəlir, haxışta.

Mev gülü, ay mev gülü, haxışta.
Qızılgülü, mev gülü, haxışta.
Keçən illər qonşuyduq, haxışta.
Bu il olduq sevgili, haxışta.

Qızıl üzüyüm firuzə, haxışta.
Gedin deyin xoruza, haxışta.
Bu gecə banlamasın, haxışta.
Yarım gələcək bizə, haxışta.

Qızıl üzüyüm laxlamaz, haxışta.
Versəm, anam saxlamaz, haxışta.
Anamı beyman olsun, haxışta.
Yarım qonaq saxlamaz, haxışta.

Bağa girdim üzümə, haxışta.
Tikan batdı dizimə, haxışta.

Əyildim çıxarmağa, haxışta.
Yar sataşdı gözümə, haxışta.

Çıxdım ağacın xırçəyinə, haxışta.
Baxdım oğlanın göyçəyinə, haxışta.
Dedim ay oğlan, nə qəşəngsən, haxışta.
Xına yaxım ananın birçəyinə, haxışta.

Evimizə yazan gəlib, haxışta.
Pərgarımızı pozan gəlib, haxışta.
Gündüz olan işləri, haxışta
Gecələr yazan gəlib, haxışta.

Yuxarı bağ bizimdi, haxışta.
Tənəkləri üzümdü, haxışta.
Mən növbəmi qurtardım, haxışta.
İndi növbə sizindi, haxışta.

Jiquli-miquli bilmirəm, haxışta.
Maçkiviçə minmirəm, haxışta.
Brilyant üzük gəlməsə, haxışta,
Mən zakısa getmirəm, haxışta.

Aç kırantı su gəlsin, haxışta
Dibində ot göyərsin, haxışta
Əgər məni unutsan, haxışta
Ürəyinə güllə dəysin, haxışta.

Su vurdum qarpızlığa, haxışta,
Yayıldı yarpızlığa, haxışta.

Qeynanan nə söyləsə, haxışta,
Özün vur arsızlığa, haxışta.

Ağ dəvə düzdə qaldı, haxışta
Yükü Təbrizdə qaldı, haxışta
Oğlanı dərd apardı, haxışta
Dərmanı qızda qaldı, haxışta.

Qab-qaçağım rəfdədir, haxışta
Hərə bir tərəfdədi, haxışta
Hər gün gördüyüm yarı, haxışta
Görmürəm bir həftədir, haxışta.

Bu dərə uzun dərə, haxışta,
Getdikcə uzun dərə, haxışta,
Burda bir bağ salmışam, haxışta,
Dost gələ üzüm dərə, haxışta.

Qara toyuq hindədir, haxışta
Yumurtası tindədir, haxışta
Nurcanın şəkilləri, haxışta
Elcanın cibindədir, haxışta.

O taydan maşın gəlir, haxışta
Bu taydan maşın gəlir, haxışta
Heç bilmirəm niyəsə, haxışta
Xərratdan xoşum gəlir, haxışta.

Almanı alma, gəlin, haxışta
Al yerə salma, gəlin, haxışta

Evlərdə çox söz olar, haxışta
Ürəyinə salma, gəlin, haxışta.

O tayın iydələri, haxışta
Bu tayın iydələri, haxışta
Yarımı qoymur gəlsin, haxışta
Moskıva gözəlləri, haxışta.

Aman, aman, amandır, haxışta
Baldızım bir yamandır, haxışta
Baldızını deyirəm e, haxışta
Qeynanam lap yamandı, haxışta.

Ağ sənək ağzı burma, haxışta
Doldurub dalda durma, haxışta
Qardaş, nişanlın gördüm, haxışta
Ağzında dili xurma, haxışta.

Axşamdı ələmim var, haxışta
Qızıldan qələmim var, haxışta
Yaxın gələ bilmərəm, haxışta
Uzaqdan salamım var, haxışta.

Qızıl üzük laxladı, haxışta
Verdim anam saxladı, haxışta
Əziz gün, əziz gecə, haxışta
Yar məni qabaqladı, haxışta.

Evləri dağa gedir, haxışta
Qar yağa-yağa gedir, haxışta

Əlində güllü dəsmal, haxışta
Gül yığa-yığa gedir, haxışta.

Köynəyi tikən ölsün, haxışta
Qəddini bükən ölsün, haxışta
Mən sənə göz dikmişdim, haxışta
Sənə göz dikən ölsün, haxışta.

Məktubu saldım yola, haxışta
Gözlərim dola-ola, haxışta
Dolma gözlərim, dolma, haxışta
O gələn qardaş ola, haxışta.

O tayda yatan oğlan, haxışta
Köynəyi kətan oğlan, haxışta
Nişanlın apardılar, haxışta
Bixəbər yatan oğlan, haxışta.

Evimiz yol üstüdü, haxışta
Ordan çıxan tüstüdü, haxışta
Bir səhər gəl, bir axşam, haxışta
Görən desin dostudu, haxışta.

Əmim oğlu elinə, haxışta
Şal yaraşır belinə, haxışta
Əmisi qızı qurban, haxışta
Qələm tutan əlinə, haxışta.

Dağları gəzdim gəldim, haxışta
Daşını düzdüm gəldim, haxışta

Yarı bivəfa gördüm, haxışta
Əlimi üzdüm gəldim, haxışta.

İstəkanı noxudu, haxışta
Evdə qonaq çoxudu, haxışta
Qonaqların içində, haxışta
Bircə qardaş yoxudu, haxışta.

Al almaq belə olmaz, haxışta
Şal almaq belə olmaz, haxışta
Ey oğlan adamaları, haxışta
Aparmaq belə olmaz, haxışta.

Jiquli- miquli bilmərəm, haxışta
Moskivicə minmərəm, haxışta
Qaz 24 gəlməsə, haxışta
Mən o evə getmərəm, haxışta.

Ləyəni ay ləyəni, haxışta,
Su tök yayım ləyəni, haxışta,
Elə xoşuma gəlir, haxışta,
Oğlanın güləyəni, haxışta.

Qaynanamı bağda ilan vuraydı,
Qaynatama Məkkə qismət olaydı.
Baldızıma Quran qənim olaydı,
Öz yarıma canım qurban olaydı.

Qara atın nalıyam-haxışta,
Üstə ipək xalıyam-haxışta,

Çəkmə cəfamı qardaş-haxışta,
Mən özgələr malıyam-haxışta.

Qardaş atın beş olsun-haxışta,
Əlin tərlan quş olsun-haxışta,
Sən hamıya gələndə-haxışta,
İman yoldaşın olsun- haxışta.

Qara atın qulağı-haxışta,
Gözləri şah bulağı-haxışta,
Eşidin yar evlənir-haxışta,
Qara geysin duvağı-haxışta.

Qardaşın ağ atı var-haxışta,
Cibində barıtı var-haxışta,
Qardaşıma qurban olum-haxışta,
Hər yerdə hörməti var-haxışta.

Boz at mindim, boz olu-haxışta,
Mənzil sürdüm, toz olu-haxışta,
Qız, dəsmalın düşübdü-haxışta,
Mən götürsəm söz olu-haxışta.

Qara atı nallaram-haxışta,
İpək şaldan çullaram-haxışta,
Mən yarımı görməsəm-haxışta,
Axşam-sabah ağlaram-haxışta.

Ay-ır at nala neylər-haxışta,
Ağ buxağ xalı neylər-haxışta,

Yarın ürəkdən sevən-haxışta,
Dövləti-malı neylər-haxışta.

Qara atın kəkili-haxışta,
Yalmanına tökülü-haxışta,
Eldən bir qız sevmişəm-haxışta,
Kimdir onun vəkili-haxışta,

Kür çayının üzündə-haxışta,
At süzdürdüm düzündə-haxışta,
Yardan muraz istədim-haxışta,
Fələk qoydu gözümdə-haxışta.

# XV. UŞAQ FOLKLORU

## LAYLALAR

Evində, eşiyində,
Yat, quzum, beşiyində,
Dan ulduzu, bir də mən,
Durmuşuq keşiyində.

A laylay, yenə laylay,
Can deyim sənə laylay,
Sənə gələn dərd, bəla
Qoy gəlsin mənə, laylay.

Laylay balam, can balam,
Mən sənə qurban balam,
Ağlayıban könlümü,
Gəl eyləmə qan, balam.

Layla dedim yatasan,
Qızılgülə batasan,
Qızılgülün içində,
Şirin yuxu tapasan.

A laylay, quzum, laylay,
Ayım, ulduzum, laylay.
Sən hasilə çatınca
Hər dərdə dözüm, laylay.

Lay-lay bülbülüm lay-lay,
Sarı sünbülüm lay-lay.
Bağçalarda gül çoxdur,
Bir qızılgülüm lay-lay.

Laylay dedim ağlama,
Ürəyimi dağlama.
Böyü, bir qoç igid ol,
Mənə ümid bağlama.

Laylay çaldım həmişə,
Karvan enər enişə.
Yastığında gül bitsin,
Döşəyində bənövşə.

Laylay, dərdin alım, yat,
Ürəyimə salım, yat.
Sən bat şirin yuxuya,
Mənsə oyaq qalım, yat.

Laylay, dedim ürəkdən,
Əlin çıxır bələkdən,
Sinəm ilə saxlaram,
Səni qardan, küləkdən.

Laylay mənim, bal balam,
Tütək götür çal, balam.
Sən hamıdan gözəlsən,
Yanağında xal balam.

## ƏZİZLƏMƏLƏR

Tükəndi ahım,
Yoxdur günahım,
Balam böyüsün,
Odur pənahım.

Tüstüsüz damlar,
Sarı badamlar,
Tənbəl adamlar,
Bu balama qurban.

Çəkdim cəfasın,
Gördüm vəfasın,
Böyüdüm onu,
Sürüm səfasın.

Dağların lalasına,
Gözlərin qarasına,
Analar qurban olsun,
Öz körpə balasına.

Əlində var xınası,
Qulağında tanası,
Bir toyunu görəydim,
Olaydım bəy anası.

## OXŞAMALAR

Balama dil demişəm,
Ağlama, gül demişəm.
Balam dil açan günə,
Quzu qurban demişəm.

Əlində qəçi,
Kürəkdə saçı,
İtdən qaraçı
Mənim balamdı.

Əlində sütü,
Sütü, bülbülü,
Qızların gülü,
Mənim balamdı.

Əlində tikə,
Dayandı yükə.
Bir burnu yekə
Mənim balamdı.

Başımın al yaylığı,
Ortası zər yaylığı.
Hərə bir kərə desin,
Balama can sağlığı.

## NAZLAMA

Süd dibi, qaymaq dibi,
Qurbanın olsun bibi.
Süd yola, qaymaq yola,
Qurbanın olsun xala.
Bir dənəsən bir dənə,
Qurbanın olsun nənə.

Ay Allah, bundan üç dənə ver,
Üç dənə vermə, beş dənə ver,
Həsrətin çəkmişlərə ver,
Alı-gülü solmuşlara ver.

Başına mən dolanım,
Mən dönüm, mən dolanım.
Səni Allah saxlasın,
Sayəndə mən dolanım.

Ay Allah, bəndimdi bu,
Mahalım, kəndimdi bu.
Mən noğulu neynirəm,
Şəkərim, qəndimdi bu

# SANAMALAR, DÜZGÜLƏR

## ÇƏK ƏLİN

Əl-ələ əpənək,
Sən çalginən çəpənək,
Əldən çıxdı kəpənək,
Şah, şux şaha bacı,
Molla dedi, çək əlin.

## SƏN ÇIX

Razı, ha balam, razı,
Tikib donunu dərzi,
Abbası verim xərclə,
Toyu təzədən başla.
Qarğa qur,
Sən çıx,
Sən yerində dur.

## ƏMİM OĞLU

Əmim oğlu,
Uzun bığlı.
Haldırım dedi,
Huldurum dedi,
Göyə bir ağac atdı,

Kərki sapı,
Gül budağı.

## BARMAQLAR

Baş barmaq,
Başala barmaq,
Uzun hacı,
Qıl turacı,
Xırdaca bacı.
Bu vurdu,
Bu tutdu,
Bu bişirdi,
Bu yedi,
Axırıncı barmağa qalmadı.

## BƏLİ, BƏLİ

Bəli, bəli, bətir keçi,
Qoz ağacı, qotur keçi.
Haldırım dedi,
Huldurum dedi,
Hoppan huppan,
Dağdan hoppan,
Yarıl yırtıl,
Su iç qurtul.

## ƏL-ƏL ƏPƏNƏK

Əl-əl əpənək,
Əldən çıxdı kəpənək,
Kəpənəyin yarısı,
Yumurtanın sarısı,
Yumurtalar hindədi,
Əldə durmaz kündədi,
Kündə təndir içində,
Kəndiri ver çərçiyə,
Çərçi satsın qəpiyə,
Çəpik çalan darğadı,
Burda duran qarğadı.

## ÜŞÜDÜM HA, ÜŞÜDÜM

Üşüdüm ha, üşüdüm,
Dağdan alma daşıdım,
Almalarımı aldılar,
Mənə zülüm verdilər,
Mən zülümdən bezərəm,
Dərin quyu qazaram,
Dərin quyu beş keçi,
Hanı bunun erkəci,
Erkək quyu başında,
Hay elədim gəlmədi,
Çiyid verdim yemədi,
Çiyid qazanda qaynar,
Qənbər qucaqda oynar,

Qənbər getdi oduna,
Qarğı batdı buduna,
Qarğı deyil qamışdı,
Beş barmağı gümüşdü,
Gümüşü verdim tata,
Tat mənə darı verdi,
Darını verdim quşa,
Quş mənə qanad verdim.
Qanadlandım uçmağa,
Haqq qapısın açmağa,
Qapıçı qapı toxur,
İçində bülbül toxur.

## A TEŞTİ

A teşti, teşti, teşti,
Vurdum Gilanı keçdi,
Gilan yolu suludu.
Suda balıq doludu.
İki xoruz dalaşdı,
Biri qana bulaşdı,
Qan getdi çaya düşdü,
Çayda göyərçin uçdu,
Göyərçin alabaxta
Yuvaxı, qərbi taxta
Görüm onu kim vursa
Qan qussun laxta-laxta

## BİR, İKİ

Bir, iki,
Bizimki.
Üç, dörd,
Qapını ört.
Beş, altı,
Daşaltı.
Yeddi, səkkiz,
Firəngiz.
Doqquz, on,
Qırmızı don..

## MOTAL-MOTAL

Motal-motal,
Dərsə motal,
Yağ atar, qaymaq tutar,
Ağ quşum, ağarçınım,
Göy quşum,
Göyərçinim,
Qarğa qara,
Durna qara,
Çilmə çilik,
Bircə əmlik,
Qənbər çarıq,
Biz də varıq,
Əmrə qulu,
Yoxdu pulu,

Vur nağara,
Çıx qırağa,

## HOP-HOP HOPPAN

Qızıl tap,
Kimsədə yox,
Məndə çox,
Mənsə bu gün,
Sünbüllər açmış,
Zər zəncəfil,
Dınğır dınğır,
Sənsə çınqır.

## SIRADAN ÇIX

Şap-şapım şappıldadı,
Atlar qaçıb tappıldadı,
Qoyunlarım qapıdadı,
Olma qotur,
Sənsə otur,
Kürəyinə vurum mıx,
Tez ol, sən sıradan çıx.

## BİRƏ-BİRƏ

Birə – birə,
İkiyə – iynə,
Üçə – üzük,
Dördə – döşək,
Altıya – alma,
Yeddiyə – yemiş,
Səkkizə – sərçə,
Doqquza – dolça,
Ona – oraq,
Yanına – qapaq,
Gəlin – gedək,
Həsən – bəyin,
Evin yaraq.

## TURŞULU AŞ İÇMƏRƏM

Turşulu aş içmərəm,
Darvazadan keçmərəm,
Darvaza mənim olsun,
Qırmızı donum olsun,
Geyim gedim Təbrizə,
Təbrizdə toyum olsun,
Qızlar gəlsin toyuma,
Qurban olsun boyuma.

## OXUTDU

Atam məni oxutdu,
Qara saçım toxutdu,
Qara saçımın şeyvəsi,
Qızıldandır düyməsi,
Qızılları itirdim,
Var yoxumu bitirdim.

## İYNƏ, İYNƏ

İynə, iynə
Ucu düymə.
Bal ballıca
Ballı keçi.
Şam ağacı,
Satır keçi.
Qoz ağacı,
Qotur keçi
Happan, huppan,
Yarıl –yırtıl,
Su iç qurtul.

* * *

Qəmbər dayı qəmişdir.
Beşbarmağı gümüşdür.
Gümüşü verdim tata,
Tat mənə darı verdi.
Darını səpdim quşa,

Quş mənə qanad verdi.
Qanadlandım uçmağa,
Haqq qapısını açmağa.
Haqq qapısı kilidli,
Kilid babam evində.
Babam gilan yolunda.
Gilan yolun su basıb,
Dəstə-dəstə gül basıb.
Bu gülləri dərərəm,
Saçlarıma düzərəm.

# XALQ OYUNLARI

## *ORDUBADDA OYNANILAN OYUNLAR*

## YUMDUM QAÇ (GİZLƏN PAÇ) OYUNU

Bu oyunda bir neçə nəfər iştirak edir. Oyunun qaydaları bunlardan ibarətdir: əvvəlcə sayırlar, kimə düşsə, o, əli ilə gözlərini yumur. Və qalanları qaçıb gizlənirlər. Yuman uşaq bir qədər sayandan sonra gözlərini açır və uşaqları axtarmağa başlayır. Uşaqlardan hansını birinci tapsa, o, yumur. Beləliklə, oyun davam edir.

## OCAQ YANDI OYUNU

Ocaq yandı oyunu Ordubad uşaqlarının ən sevdiyi oyundur. Ocaq yandı oyununda bütün uşaqlar dairə şəklində, dizləri üstə otururlar. Bir uşaq əlində dəsmal, onların başında fırlana-fırlana bu sözləri deyir:

Ocaq yandı,
Su qaynadı,
Müəllim gəldi,
Dərs başladı.

Bu sözləri bir neçə dəfə təkrar edir. Axırda dəsmalı birinin arxasına salır. Uşaq bu dəsmalı götürüb həmin dəsmal salan uşağı qovalayır. Tuta bilməsə, oyun davam edir. Əgər

tuta bilsə, həmin tutulan uşağa qurbağa adını verib, uşaqların dairə qurduğu yerin içərisinə salırlar.

## STOP OYUNU

Bu oynun qaydaları belədir. Oyunda 2-dən çox uşaq iştirak etməlidir. Bu oyun top ilə oynanılır. İçlərində yaşca böyük olan uşaq oyunda iştirak edənlərdən birinin adını çəkir və topu göyə tullayır. Adı çəkilən uşaq topu tutub "stop" deməlidir. Əgər uşaq topu göydə tutursa, başqa bir adamın adını çəkib qaçmalıdı. Əgər yerdə tutubsa, "stop" deməlidi və qaçan uşaqlar dayanırlar. Bu uşaq istədiyi adamı topla vurur. Əgər top başqa adama dəyirsə, həmin uşaq bir oyun uduzur. Əgər top gedib başqa adama dəymirsə, onda uşağın özü bir oyun uduzur. Əgər kim beş oyun uduzubsa o, eşiyə çıxır. Beləliklə, oyun davam edir.

## ƏMR ELƏDİ OYUNU

Bu oyunda uşaqlar əl qoyurlar, kim axıra qalırsa, o bütün uşaqları tutur. Kimi tutursa, o da onunla bərabər uşaqları tutur və axıra yalnız bir nəfər qalır. O adam kimi istəsə, ona deyir ki, (əmr edir ki,) sən tut. Həminki uşaq yenə hamını tutur. Hamı bununla bərabər tutur və axıra yalnız bir nəfər qalır. O yenə bir adama əmr edir.

## ORTADA QALDI OYUNU

Bu oyun topla oynanılır. Bu oyunda uşaqlar iki qrupa bölünürlər. Qruplardan birində iki uşaq ortaya düşür. O biri qrupun bir uşağı bir tərəfdə, o biri uşaq o biri tərəfdə dururlar və ortadakı uşaqları topla vururlar. Əgər uşaqlardan biri topu göydə tutsa, o qrupun bir pası olur. O biri qrupun uşaqları elə etməlidir ki, pas verməsinlər. Onları vururlar, pasları gedir, bir də vuranda can gedir və uduzurlar. Və oyun belə davam edir.

## GİZLƏNPAÇ

Uşaqlar iki dəstəyə ayrılırlar. Bir dəstədə onların gözlərini bağlayırlar. O biri dəstədəki gözüaçıq uşaqlar qaçıb gizləndikdən sonra onların gözlərini açırlar. Bu oyunçular gizlənənləri axtarmalı, həm də başçının yanını bəzərdən qaçırmamalıdırlar.

Qaçıb gizlənən uşaqlar onların gözlərinə görünmədən özlərini başçının yanına, mərəyə salsalar, oyunda qalibiyyət qazanır, o biriləri töhmətlənirlər.

## SAY SAYMAQ

Uşaqlar oyuna başçı seçirlər. Başçı uşaqları cərgəyə düzür, müəyyən rəqəm seçir. Əsasən 15, 25, 35, 45, 55, 65, 75, 85, 95 rəqəmlərini götürür. O, uşaqlardan bir-bir bu rəqəmləri tez-tez söyləməyi tələb edir. Çaşana hamı bir yerdə: “mayaq, a mayaq” deyə onu utandırırlar.

## GÖZ BAĞLICA

Bu oyunda da uşaqlar iki dəstəyə ayrılırlar. Başçılar növbə ilə uşaqların gözlərini möhkəm bağlayıb meydana buraxırlar. Bir uşaq daş çaqqılladır və ya səs çıxarıb qaçır. Gözü bağlı uşaq çox əziyyətlə səs çıxaranı tutur, gözübağlılıqdan azad olur. Tutduğu uşağın gözünü bağlayırlar. Belə-belə oyun davam edir.

## MOZU-MOZU

Bu oyunda üç nəfər iştirak edir. Uşaqlarda biri yumru, bir yastı daş olur. Onlar bir-bir yastı daşla yumru daşı vururlar. Yumru daş vurulanda nə qədər gedərsə, o məsafəni addımla ölçürlər. Şərt qoyulan məsafəyə kim qabaqca daşı vurub apararsa, o, oyunda udmuş olur.

## İYNƏ-İYNƏ

İynə-iynə oyunu Ordubadın ən qədim oyunlarından biridir. Bu oyunu istənilən qədər uşaq arasında oynamaq olar. Bu oyunda bütün uşaqlar cərgə ilə oturub, ayaqlarını uzadırlar. Bir uşaq isə kənardan durub bu sözləri deyə-deyə uşaqların ayaqlarını sayır:

İynə-iynə,
Ucu düymə,
Bal-ballıca,

Ballı keçi,
Şam ağacı,
Şatır keçi,
Qoz ağacı,
Qotur keçi,
Habbıl, hubbul,
Su iç, qurtul qaç.
Əmim oğlu,
Uzun bığlı,
Haydır dedi,
Huldur dedi,
Göyə bir ağac atdı.
Qarğıdalı, göy budağı,
Motal-motal,
Tərsə motal,
Ellər atar,
Qaymaq qatar.
Ağ quşum, ağarçığım,
Göy quşum, göyərçinim,
Vur nağara, çıx qırağa.

Bu sözlər bir neçə dəfə təkrar edilir. Ta ki uşaqların ayaqları çıxana qədər. Axırda qalan uşağı isə cəzalandırırlar.

## ƏL-ƏL

Əl-əl oyunu iki nəfər arasında oynanılır. İki nəfər uşaq qarşı-qarşıya durub əllərini bir-birinə vuraraq, bu sözləri deyirlər.

Əl-əl əpənək,
Əldən çıxdı kəpənək,
Kəpənəyin yarısı,
Yumurtanın sarısı.
Əmi hara gedirsən?
Ala dağa gedirəm,
Ala dağda nəyin var?
Bir oğlum var, bir qızım.
Oğlunun adı nədir?
Ənvər.
Qızının adı nədir?
Fatma.
Fatma, Fatma, a... Fatma,
Yerində şıllağ atma,
Fatmanı verdik ərə,
Qarnı yoğun Ənvərə.

## QUŞ UÇDU

Quş uçdu oyunu da, əl-əl oyunu kimidir. Lakin bunda, axırda kim-kimin əlini tez vursa, o, qalib gəlir.

Quş uçdu, soruşdu,
Hanı quş?
Qaranquş.
Haraya?
Ağaca.
Neçə dəfə?
On dəfə.
1;2;3;4;5;6;7;8;9;10

## QAZLAR OYUNU

Qazlar oyunu, Ordubad rayonunun uşaqlarının ən çox sevdiyi oyunlardandır.

Qazlar oyununda istənilən qədər uşaq oynaya bilər.

Qazlar oynunda bir uşaq qurd, bir uşaq ana qaz, qalanları isə bala qaz olurdular. Ana balalarına deyir:

– Qazlar-qazlar,

Balalar deyirlər:

– Nə var, nə var?

Ana deyir:

– Gəlin evə.

Balalar deyirlər:

– Evdə nə var?

Ana deyir:

– Pendir-çörək.

Balalar deyir:

– Yemirik, yemirik.

Ana deyir:

– Damın dalında bir qurd var.

Uşaqlar bunu eşidib tez qaçırlar analarının yanına. Axırda hansı qaz balası qalsa, qurd onu tutub aparır. Beləcə oyun davam edir.

Sonra qazlar qurtarandan sonra oyunçular dəyişir və yenə oyuna davam edirlər.

## BƏNÖVŞƏ OYUNU

Bu oyunda iki komanda olur. Bu komandalar qarşı-qarşıya durur. Komandalar bir-birinə deyirlər.

– Bənövşə?
– Bəndə düşə
– Bizdən sizə kim düşə?
– Adı gözəl, özü gözəl, filankəs

Bir komandadan bir uşaq o biri komandaya doğru qaçır. Əgər qaçan uşaq iki uşağın arasından keçib onların əllərini bir-birindən qoparsa, o, iki uşaqdan birini götürüb gəldiyi komandaya aparır, bir-birindən qopara bilməsə, özü həmin komandada qalır. Sonra belə-belə davam edir.

## RƏNG-RƏNG OYUNU

Bu oyunda uşaqlar yığılır. Həmin uşaqlardan bir nəfər seçmə yolu ilə seçilir. O, gözünü yumur, arxadan uşaqlar deyir:

– Kis-kis
– Myov-myov
– Hansı rəng!

Yuman uşaq ürəyində hər hansı bir rəngin adını tutur. Uşaqlar o rəngi tapmalıdırlar. Əgər o, gözünü açana qədər kimsə onun ürəyində tutduğu rəngi tapmayıbsa, bu dəfə tapa bilməyən uşaq yumur və oyun belə davam edir.

## KİS-KİS

Uşaqlar deyir:
– Mya, mya.
Yuman uşaq deyir:
– Hansı rəng?
Uşaqlar deyir:
– Hansı rəng?
Yuman deyir:
– Qırmızı!

Bu zamanda uşaqların hamısı əlini qırmızı rəngə vurmalıdırlar. Əgər vurmasalar, yumacaqlar. Əgər hamısı qırmızı rəngə əllərini vursalar yenə həmin uşaq yumur.

## RƏNG-RƏNG

Bu oyunda çoxlu uşaqlar olur. Div, ana və uşaqlar olur. Ana uşaqların hər birinin qulağına bir rəng deyir. Div gəlir, o da bir rəng deyir. Əgər uşaqlardan birində həmin rəng varsa, o durur. Uşağın neçə yaşı varsa, o qədər divin əlinə vurur. Uşaq isə qaçır. Əgər uşaq tez ananın yanına gəlib, ona əlini vursa, yerinə oturur, yenə ana ona rəng qoyur. Yox əgər div onu tutsa, evinə aparır. Beləcə oyun davam edir.

## YUMDUM QAÇ OYUNU

Bu oyunda da bir qrup uşaq yığırlar. Bu uşaqlardan biri seçmə yolu ilə seçilir. Seçilən uşaq yumur, o biri uşaqlar isə gizlənir. Sonra yuman uşaq gözlərini açır və başlayır gizlənənləri tapmağa. Əgər yuman uşaq onları tapsa, o gedib yumduğu yerə əlini vurub deməlidir "tapdım". Yox əgər gözünü yuman uşaq bəzi uşaqları tapmayıbsa, onda tapılmayan uşaqlar yuman uşaqdan gizlincə gəlib divara "hamı üçün" deyib vururlar. Sonra axırıncı tapılan uşaq yumur. Sonra belə-belə oyun davam eləyir.

## HEYKƏL OYUNU

Bu oyunda bir nəfər "heykəl" deyən, bir nəfər "azad" deyən seçilir. Bu oyunda bir də "güldürən" seçilir. Uşaqlara "heykəl" deyəndə hamı yerində donmuş şəkildə olur. "Azad" deyəndə isə hamı öz əvvəlki vəziyyətinə qayıdır. Güldürən

isə uşaqlar heykəl olanda onları güldürməlidir. Gülən uşaq oyundan çıxır. Qalanları isə oyuna belə davam edir.

## LAL-DİNMƏZ OYUNU

Uşaqlar oyunu idarə etmək üçün özlərinə başçı seçirlər. Burada danışmamaq lazımdır. Gülüb danışan və səs çıxaran oyunçulardan biri olarsa, o uduzmuş olur. Uşaqları danışdırmaq və güldürmək üçün başçı müxtəlif vasitələrə əl atır. Çubuğunu yerə vurub deyir:

– Bu yer qoruqdur, qoruqdur. Heç kəsin bura gəlməyə ixtiyarı yoxdur.

Heç kəs dinmir. Başçı bir az dayanır. Gülməli, məzəli hərəkətlər edir. Meymun kimi mayallaq aşır, ağız-gözünü büzür. Uşaqlardan biri özünü saxlaya bilməyib gülür. Səs çıxaran uşağı başçı çubuqla vurur. Başqa uşaqlar da başçının sözünü təkrar edir, danışan və ya güləni vururlar. Uşaqlardan biri nə səs çıxarsa, yaxud hansı sözü ağzından qaçırsa, başçı yenə onu vurmağa başlayacaq. Susub bitərəf dayanan olsa, onu da oraya çəkib döyürlər. Başqa bir uşaq danışanda əvvəl azad olub, o birisini döyməyə başlayırlar. Bu qayda ilə oyun davam etdirilir.

## OĞRU-OĞRU OYUNU

Bu oyunda iştirak edənlər öz aralarında birini "xan" seçirlər. Xan uşaqları dəstəyə bölüb birinə oğru o birinə isə yasavul adını verir. Oğrular qaçıb qapı dalında, damda, təndir-

də, tövlədə gizlənərdilər. Onlar gizlin getdikləri kimi, gizlin də gəlib özlərini xana təslim etməli idilər. Yolda onların birisini yasavullardan görən olsaydı, o vaxt tutulmuş hesab olunurdu. Bir azdan tutulmuş, o cümlədən hamısı xanın yanına cəm olardılar. Xan tutulanlara cəza yasovulluq vərəqəsi verirdi. Oğruları tutmuş yasovullar bu dəfə həmin tutulanları əvəz edər və "oğurluğa" gedərdilər. Yasovulların borcu oğruları axtarıb tapmaq idi. O adamlar tutulmasa və görünməsə, oyun yenidən başlana bilməzdi. Bəzən bu oyun iki, üç saat keçərdi.

## DAŞA ÇIXDI OYUNU

Bu oyunda uşaqlar bir yerə toplaşır. Dövrə qururlar. Bir nəfər deyir:

– Daşa çıxdı. Hamı daşa çıxmalıdır. Axırıncı daşa çıxan yerə enməlidir. Yerə enən uşaqların durduğu daşın üstündən başqa daşın üstünə qaçmasını gözləyir. Qaçan uşağa əli dəyərsə və tez daşa çıxarsa, o birisi yerdə qalır və beləcə, oyun davam edir.

## ORTADA QALDI OYUNU

Bu oyunda uşaqlar iki qrupa ayrılır. Oyun top ilə oynanılır. Hər qrupdan biri top vurur. Hər qrupdan biri də ortaya girir və beləcə, uşaqlar top ilə vurulur. Axıra qalan top ilə vurulduqdan sonra onun yaşı soruşulur və neçə yaşı varsa, o qədər vurulur. Məs: Əgər yaşı 13- dürsə bir, iki, üç və s on

üçə qədər top vurulsa olduğu komanda uduzur, o birisi isə udur. Belə oyun davam edir.

## KÜKÜ-KÜKÜ BARAMA

Bu oyunda çoxlu uşaq oynayır. İki uşaq qarşı-qarşıya durub, əl-ələ verərək əllərini yuxarı qaldırırlar. Hərəsi özünə biri gül, biri meyvə, biri maşın və yaxud istənilən adı qoyurlar. Sonra əllərini göyə qaldıraraq "kükü-kükü barama" deyirlər. Dörd dəfə bunu dedikdən sonra, ən sonda gələn uşağı saxlayaraq "alma istəyirsən, yoxsa armud" deyib, həmin uşaq "alma" deyərsə, alma qoyan uşağın dalına, armud deyərsə, armud qoyan uşağın dalına keçir. Bu, oyun qurtarana qədər davam edir. Axırda ortadan bir cızıq çəkərək iplə dartınırlar. Hansı komanda cızıqdan o biri komandanın tərəfinə keçərsə, uduzur və o biri komanda udur.

## AD GÜNÜ

Bu oyunda çoxlu uşaq olur. Bir uşaq ortada durur. O biriləri isə dairə əmələ gətirir. Uşaqlar bu sözləri deyirlər:

Güllərin ad günüdür,
Nənəsi qoğal bişirdi.
Uzunluğu bu boyda,
Qısalığı bu boyda,
Qalx, ayağa qalx,
Ətrafına bax,

Hansı oğlanı istəyirsən,
Tut əlindən qaç.

Bu zaman həmin qızın gözü bağlı olur. O, bir oğlanın əlindən tutub qaçır. Beləcə oyun davam edir.

## PABEDA

Bu oyunda uşaqlar iki qrupa ayrılırlar. Hər qrup bir tərəfdə durur. Aralarında sayırlar:

– Ekidi-bekidi, bilmərəm,
Laləni dindirmərəm,
Lalə yaman forsludur,
Nizaminin dostudur.

Yumruqlarını vura-vura yuxarıdakı kimi sayırlar. Bu oyunda hər qrupun başçısı gəlib yeddi daşı üst-üstə qurmalıdır. Bu zaman da o, bir qrupun başçısının əlində top olur. O birisi gəlib daşları quranda bu da topu vurmalıdır. Əgər deyərsə, o biri qrup daşları qurmalıdır. Beləcə, oyun davam edir.

## DONDURMA

Bu oyunda çoxlu uşaqlar olur. Uşaqlar arasında sayılır. Məs:

Jiquli-miquli bilmərəm,
Maskiviçə minmərəm.

Brilyant üzük gəlməsə,
Mən zakısa getmərəm.

Sonra isə bir nəfər axırda qalır. Bu nəfər uşaqları qovalayır. Bir uşağı tutur, həmin uşaq donur. Bu uşağa o biri uşaqlardan biri gəlib əlini vursa, o da qaça bilər. Sonda isə uşaqların hamısını tutmalıdır.

## STOLA OTURDU

Burada stollar düzülür. Məs: beş stol var. Buna görə də uşaqların sayı altı olur. Çünki mahnı qoyulur, mahnı kəsiləndə uşaqlar stulun üstünə oturmalıdırlar. Bir stul da az olur, bir uşaq oturmur. Oyundan çıxır. Sonra yenə bir stul götürülür və belə oyun davam edir.

## YASTIQ ATDI

Bu oyunda beş-altı nəfər uşaq olur. Oynamaq üçün mahnı qoyulub, yastıq atılmağa başlanır. Bir uşaq yastığı o birisinə atır. Mahnı kəsiləndə yastıq kimdə olsa həmin adam uduzur. Ona cəza verilir və sonra oyundan çıxır. Oyun davam edir.

## BUTULKA ÇEVİRDİ

Oyunda beş-altı uşaq olur. Çevrə halında otururlar. Butulkanı çevirirlər. Butulka kimdə dayansa, ona cəza verilir. Məs: şeir de, mahnı oxu. Oyun beləcə davam edir.

## MEYMUN ALDATDI

Bu oyunda iki uşaq yanda, ortada isə bir uşaq olur. Uşaqlar bir-birilərinə top atırlar. Elə etməlidirlər ki, ortadakı uşaq topu almasın. Əgər alsa, hansı uşaqdan topu alıbsa, həmin uşaq ortaya girir. Buna da "Meymun aldatdı" deyirlər.

## ARAZ, DƏNİZ, KÜR, ÇAY

3 nəfər bu oyunu oynayır. Onlardan ikisi ipi fırladır. Biri isə ipin üstündən tullanır.

İpin üstündən tullanan adam Araz, Dəniz, Kür, Çay deyir. O, hansı adı deyəndə yansa, həmin adda olan adam oyuna girir. Oyun belə davam edir.

## QATIQ-QATIQ

Bu oyunda ana və bala olur. Ana işə gedir. Qızına deyir:

– Qızım, mən işimə gedirəm. Sən qatıqlara yaxşı bax.

Anası işə gedəndən sonra, Qurd baba gəlib qapını döyür qıza deyir:

– Anan deyir ki, ona yaxşı qızıllar almışam, gəlsin, baxsın.

Qız da gedir. Qurd baba qatıqların şirinini götürüb gedir. Qız anasının yanına gəlir. Anası qızına qızıl almadığını deyib, onunla birlikdə evə gəlir. Görür ki, qatıqlardan şirini yoxdur. Qızına deyir ki, demişdim qatıqlara yaxşı bax. Sonra isə qızını döyməyə başlayır.

## BEŞ DAŞ

Bu oyunu iki və ya dörd uşaq oynayır. Hər bir uşaq beş daş götürür, çöp atıb oyuna başlayırlar. Oyuna başlayan daşın birini əlində saxlamalıdır. Həmin daşı göyə tullayıb, əlindəki daşları yerə tökməli, o biri daşı isə göydə tutmalıdır. Əvvəl daşı göyə tullamaqla o biri daşları ovcuna yığmalıdır. Əsas şərt daş götürülərkən nə başqa daşa dəyməli, nə də əlindəki başqa daş yerə düşməlidir.

Daşları bir-bir götürəndən sonra yerə tökməli, şərtə əməl edərək, daşları yerdən iki-iki, sonra üçünü birdən, birini tək, sonra dördünü də birdən götürməlidir.

Bundan sonra daşları bir-bir barmağının arasından keçirməli və barmaq arasından keçirilmiş daşların hamısını bir yerdə götürməlidir.

Sonra daşlar barmaqların hamısının arasından bir-bir keçirilməlidir. Sonra daşları bir-birindən aralı qoyurlar. Əlindəki daşı yuxarı atmaqla, yerdəki daşları sürüşdürüb birdən götürməlidir.

Əlindəki daşdan əlavə bir daş da ovucda saxlanılır. Əlindəki daşı yuxarı atıb, bir daşı da ovucdan yerə salıb, o birisini cəld yerdən götürməlidir. İki-iki və üç-üç daşı yerə salıb, birini götürmək lazımdır. Bundan sonra daşları bir-bir ovuca yığırlar. Axırda yoldaşlardan biri bir daşı it daş adlandırır. Bu daş əl dəyilməmiş qalır. Bu it daşı birdəfəlik barmaqların arasından keçirmək lazımdır. Bunların hamısını səhfsiz edən qalib gəlir.

## BAKI

Oyun zamanı iki qrup olur. Ortada dörd daşdan Bakı qururlar, daşları üst-üstə qoymaqla. Qruplardan biri uzaqdan top ilə daşları vurur. Əgər daşlar dağılsa, dağıdan qrup o biri qrupu top ilə vurmağa başlayır. Bu zaman o biri qrupun uşaqları daşları üst-üstə qoymağa çalışırlar. Daşları quranda və ya qaçanda top həmin adama dəysə, o, oyundan çıxır. Ta ki bütün uşaqları top ilə vurana qədər. Amma uşaqlar daşı üst-üstə tez yığsalar və bu zaman top dəyməsə, onlar udurlar.

## SATAŞMALAR

– Adın nədi?
– Məşədi.
– Qulaqların şeşədi.

* * *

– Adın nədi?
– Cümşüddü.
– Mısmırığın düşübdü.

* * *

– Adın nədi?
– Əhəddi.
– İş başına qəhəddi.

* * *

– Denə yalan!
– Yalan.
– Belinə basım palan.

* * *

– Denə yara!
– Yara.
– Get perpız saçını dara.

* * *

– Denə yasdı!
– Yasdı.
– Bit yaxanı basdı.

* * *

– Denə yaş!
– Yaş.
– Başına dəysin daş.

* * *

– Denə Yaşar!
– Yaşar.
– Danışma, dilin çaşar.

* * *

– Denə yeni!
– Yeni.
– Get təmizlə hini.

* * *

– Denə yeşik!
– Yeşik.
– Şalvarın dalı deşik.

* * *

– Denə yorğa!
– Yorğa.
– Cibinə töküm qovurğa.

* * *

– Denə yurd!
– Yurd.
– Qulağına girsin qurd.

* * *

– Denə yüz!
– Yüz.
– Gölməçədə üz.

# SİCİLLƏMƏ

## TÜLKÜ, TÜLKÜ

Tülkü, tülkü, tünbəki,
Quyruq üstə lünbəki.
Aslan ala ağamız,
Qaplan qara qağamız,
Xoruz bizim mollamız,
Çaqqal bizim çavuşumuz,
Ala qarğa carçımız,
Sağsağan xəbərçimiz,
Toyuq bizim çərçimiz,
İlan bizim qəmçimiz,
Sarı babada gəzərsən,
Bir çomaq vuraram ölərsən,
Tülkü, tülkü, tülkü səni,
Öldürərlər bil ki səni.
Tülkü, tülkü, tünbəki,
Quyruq üstə lünbəki,
Ayı axmaq,
Donuz toxmaq,
Qurd ulavuş,
Çaqqal çavuş,
İlan qamçı,
Tısbağa çanaq,
Biz ona qonaq.

## BAĞLAMA

– Şəhərə bələd olmayan birisi, bir evin həyətinə gəlir. Həyətdə oynayan uşaqdan soruşur ki, a bala, bu kimin evidi. Uşaq cavab verir ki, bu ev mənim atamın evidir, amma mən onun oğlu deyiləm.

***Cavabı: Deməli, uşaq atasının qızı imiş.***

– Böyük bir dənizdi, dənizin ortasında bir ağac, ağacın başında bir xoruz. Xoruz yumurtlasa onun yumurtası hara düşər.

**Cavabı: Xoruz yumurtlamır.**

# YANILTMACLAR

Bir bərbər o biri bərbərə dedi ki, bir bəri bax.

Bu qılquyruq qırqovul, qırxquyruq qırqovul imiş.

Qatığı sarımsaqlasan da yemək olar, sarımsaqlamasan da.

Qırx qazan, qırx küp qulpu, xub, qırx qazan, qırx küp qulpu.

Bu mis necə mis imiş, bu mis koşan misi imiş.

Dəyirmana girdi köpək,
Dəyirmançı qapdı kötək.
Kəpək yeyib, köpdü köpək,
Kötək yeyib, köpdü köpək.

Yetişmiş yemişi yetim yemiş.

Göy cöngə, gömgöy cöngə, düm göy cöngə.

Gül güllükdə, kül küllükdə, kül küllükdə, gül güllükdə.

Şikəstə çalan, şikəstəsizləşmişəm, şikəstə çal.

Çatı gətir, çay içində çal qatıra, çayı çataq.

Ocağı qığılcımlandırma, sən qığılcımlandırsanda, qığılcımlanacaq, qığılcımlandırmasan da qığılcımlanacaq.

Zamanın samanlığına saman gələcək, samansız zamanın samanlıqda canı çıxdı.

Yürüyüb yüyrəyi yürüdə-yürüdə yükümü yerə qoydum.

Dilim-dilim olasan, ay dilim, dedim dilinmə, dedi: dinməz idim, dindirdilər dindim mən.

Atı min, iti qov, iti qov, atı min, atı min, iti qov.

Çəp keçi çəp keçidi çəpəki keçib gedən çəp keçidi çəp keçidi çəpəki keçib, çəpəki keçər.

Dəmirçi dadaş dayı, dədəm deyir ki, dəmiri daşa, daşı dəmirə döyməsin. Dəmiri daşa, daşı dəmirə döysə, dəmir deşilər.

Ay Fətalı, huy Fətalı, çatı gətir, çay içində tay çataq.

Dadaş dayı dəmirmanın daşında daşı dəmirə, dəmiri daşa döyürdü.

Bu mis nə pis mis imiş
Bu mis kəşan misiymiş

Ey aşbaz Abbas, dur mənə beş basma tas aş ver, bu necə beş basma tas aşdır, mənə beş basma tas aş ver.

Ey qırmızı quyruqlu qırqarıl. Gəl bu kola gir, qırmızı quyruqlu qırqarıl.

Gül güllükdə, gül küllükdə, gül güllükdə kül küllükdə.

Yetişmiş yemişi yetim yemiş.

Bu qılquyruq qırqarıl qırxquyruq qırqarıl imiş.

Boz atın boz torbasını boş as başından, islat gətir, yaş as başından.

Bazarda nə ucuz? Mis ucuz, duz ucuz, çüncüt ucuz.

Aşpaz Abbas bozbaş asar o başda, bu başda.

Ay axsaq aşbaz Həsən şah, aşpazlar aş bişirir sən də gəl aş bişir, ay axsaq aşbaz Həsən şah.

## XVI. ORDUBADDA YUXU YOZMALARI

Yuxuda at görmək muradına çatmaq deməkdir.

Yuxuda ilan öldürmək düşmənin yox olması deməkdir.

Yuxuda qara ilan görmək yol deməkdir. Yəni uzaq səfərə gedəcəyinə işarədir.

Hər hansı bir qadın yuxuda xiyar görərsə, onun oğlu olacağına işarədi.

Yuxuda olü bir adamın sənə bir şey verməsi yaxşı xəbərə yozulur. Səndən bir şey alması pis xəbərə yozulur.

Yuxuda su görmək aydınlıqdır.

Yuxuda ağlamaq sevinəcəyinə işarədir.

Yuxuda pərdə görmək yol deməkdir.

Yuxuda özünü ölmüş görmək ömrün uzanmağına işarədir.

Yuxuda paltar görmək arxa-dayaq deməkdir.

Əgər yuxuda ilan görsən, deməli düşmənin çoxalıb.

Əgər yuxuda ilanı öldürsən düşmənin azalır.

Yuxuda at görmək murada çatmaq deməkdir.

Yuxuda ölü səndən bir şey alsa, zərər çəkərsən.

Yuxuda toy görmək sıxıntıdı.

Sevən qız və ya oğlan yuxuda nar görübsə deməli istədiyinə qovuşacaq.

Yuxuda qızıl görmək səsdir.

Yuxuda sənə qənd, noğul versələr, şadlıq olacaq.

Yuxuda ip görmək yoldur.

Qurd aclıqdır.

Qılınc müharibədir.

Xalça yoldur.

Pul səsdir.

Göyərçin sülhdür.

İlan düşməndir.

Qoyun-quzu var-dövlətdir.

Siçan – oğurluq olacaq.

# SÖYLƏYİCİLƏR HAQQINDA MƏLUMATLAR

**MİFLƏR.** Ordubad rayonunun Nürgüt kənd sakini, Kazımov Xəlildən (75 yaşlı) yazıya alınmışdır.

**İNAMLAR, SINAMALAR.** Ordubad şəhər sakini Seyidova Sevdadan yazıya alınmışdır.

**MƏRASİM FOLKLORU. Ordubadda Orucun on beşi. Qurban bayramı. Novruz bayramı. Toy adətləri.** Ordubad şəhər sakini, 1949-cu il təvəllüdlü Məmmədov Kərəmdən, Sədərək kənd sakini Süleymanov Heydərdən və Süleymanov Eldardan yazıya alınmışdır.

**ƏFSANƏ VƏ RƏVAYƏTLƏR.** Ordubad rayonunun Gilançay kənd sakini Məmmədov Sadaydan (71 yaşlı) yazıya alınmışdır.

**Ağ oğlan ibadətgahı. Vəli dağı.** Mətnlər Nəcəf Museyiblinin **“**Qədim Sədərək” kitabından götürülmüşdür. Bakı, 2003.

**MARAQLI ƏHVALATLAR.** Ordubad rayonunun Anabadlı kənd sakini Hacı Yusif Anabadlıdan (77 yaşlı) yazıya alınmışdır.

**ATALAR SÖZLƏRİ. HİKMƏTLİ DEYİMLƏR.** Ordubad rayonunun Gilançay kənd sakini Məmmədov Sadaydan (71 yaşlı) yazıya alınmışdır.

**TAPMACALAR.** Ordubad rayonunun Əylis kənd sakini Xədicə İmanovadan (62 yaşlı) yazıya alınmışdır.

**NAĞILLAR.** Mətnlər Ordubad rayon sakinləri Məmmədova Dilşad, Seyidova Sevda, Quliyeva Səriyyə, Sadiqova Baləbəyim, İbrahimova Tahirə, Sədərək rayonu, Sədərək kənd sakini 1939-cu il təvəllüdlü Müseyibova Səkinə İsmayıl qızından, Ordubad rayonunun Üstüpü kənd sakini Babayeva Ruqiyyədən (66 yaşlı) yazıya alınmışdır.

**LƏTİFƏLƏR.** Mətnlər Vilayət Bağırovun **"**Ordubadın tarixi və görkəmli şəxsiyyətləri" kitabından (Bakı, Nurlan 2005) və Ordubad rayonunun Anabadlı kənd sakini Hacı Yusif Anabadlıdan (77 yaşlı) yazıya alınmışdır.

**DASTANLAR.**

**Aşıq Qurbani.** Ordubad rayonunun Gilançay kənd sakini Məmmədov Sadaydan (71 yaşlı) yazıya alınmışdır.

**"Ziyad-Şövkət"** – toplayanı Cabbar Cəlilov, söyləyəni Çobankərəli Aşıq Cəfər. Mətn «Naxçıvan folkloru-I» kitabından (Naxçıvan, Əcəmi, 2010) götürülmüşdür.

**BAYATILAR.** Mətnlər Ordubad rayonunun Vənənd kənd sakini Seyidova Sevdadan, Ordubad rayonunun Əylis kənd sakini Məmmədova Zeynəb İsa qızından (78 yaşlı), Ordubad rayon sakini Möhsünova Aliyədən (72 yaşlı) yazıya alınmışdır.

**AĞILAR.** Ordubad rayonunun Əylis kənd sakini Məmmədova Məleykə Məşədi Bağır qızından (85 yaşlı) yazıya alınmışdır.

**HAXIŞTALAR.** Mətnlər Şahbuz rayon sakini Aşıq Nəcəfdən, Ordubad rayon sakini Zeynəb xaladan (69 yaşlı), Or-

dubad rayonunun Əylis kənd sakini Quliyeva Ceyhunədən (69 yaşlı) yazıya alınmışdır.

**UŞAQ FOLKLORU. Laylalar. Əzizləmələr. Oxşamalar. Nazlamalar. Sanamalar, düzgülər.** Mətnlər Ordubad rayonunun Vənənd kənd sakini Seyidova Sevdadan, Ordubad rayonunun Əylis kənd sakini Məmmədova Zeynəb İsa qızından (78 yaşlı), Ordubad rayon sakini Möhsünova Aliyədən (72 yaşlı) yazıya alınmışdır.

**Xalq oyunları** Ordubad rayonunun Əylis kənd sakini Məmmədova Zeynəb İsa qızından (78 yaşlı) yazıya alınmışdır.

**ORDUBADDA OYNANILAN OYUNLAR.** Mətnlər Ordubad rayon sakini Məmmədova Dilşaddan yazıya alınmışdır.

**ORDUBADDA YUXU YOZMALARI.** Mətnlər Ordubad rayon sakini Möhsünova Aliyədən (72 yaşlı) yazıya alınmışdır

# MÜNDƏRİCAT

**AFA..........................................................................3**
**I. MİFLƏR...................................................................9**
**II. İNAMLAR, SINAMALAR.....................................15**
**III. MƏRASİM FOLKLORU**
**Ordubadda Orucun on beşi...............................24**
**Qurban bayramı..................................................25**
**Novruz bayramı..................................................26**
Bozay..............................................................27
Böyük çillə, kiçik çillə və bozay......................28
Çərşənbələr......................................................29
Çardaq..............................................................31
Ələm................................................................31
**Toy adətləri**
Ordubadda toy adətləri....................................32
"Duvaqqapma" mərasimi.................................32
Şənbi şirnisi......................................................33
Sədərəkdə toy adəti..........................................33

**IV. ƏFSANƏ VƏ RƏVAYƏTLƏR**
Buxkar piri............................................................36
Yalqız ağac əfsanəsi............................................37
Qırxlar dağı...........................................................39
Oğlan-qız dağı......................................................40
Ağ oğlan ibadətgahı.............................................40
Vəli dağı...............................................................44
Humay qayası........................................................44
Qurd baba.............................................................44
Əjdəkan...............................................................44
İsmət qaya əfsanəsi..............................................45
Mehribanlıq haqqında rəvayət..............................48

Kim nə edər, özünə edər........................................49
Güc birlikdədir, tək əldən səs çıxmaz....................50
Süd məscidi........................................................51
Qızıl körpü........................................................51
Nə tökərsən aşına................................................52
Əshabi-kəf..........................................................53
Maliki İbrahim....................................................54
Bəlkə dağı...........................................................55
Bəlkə dağının yaranması.......................................55
Bəlkə qayıtdım dağı.............................................56
Qara aslan əfsanəsi...............................................58
Zoğal məsələsi.....................................................60
Qızıl gül haqqında əfsanə......................................65
Yalqız ağac.........................................................68
Arvad və cinlər....................................................68
Cin tutmaq haqqında əhvalat.................................68
Qazan əhvalatı.....................................................69
Asnı piri..............................................................69
Bibqətəl piri........................................................71
Gəlin qayası........................................................71
Gülüm-gülüm piri.................................................72
Seyidlər piri........................................................72
Gizli qala............................................................72
Xudu divanə xanəgahı..........................................73
Pir yaqub xanəgahı...............................................74
İlan dağı.............................................................74
İlan ocağı............................................................74
Qara daş ocağı.....................................................75
Qız piri...............................................................75
Pir xamuş xanəgahı..............................................75
Şıxbaba ocağı......................................................76

Tivi qəbiristanlığı.................................................76
Yunis peyğəmbər..................................................76
Nəzir bulağı........................................................77
Aşağı buzqov piri................................................78
Qaçaq quşdan.......................................................78
Nəfəsçıxan...........................................................78
“Ordubadlılar allaha qalıb” ifadəsi........................79
Dostu dağı............................................................80
Sürəyya dərəsi.....................................................81
Nar ağacı.............................................................81
Qızlar bulağı........................................................82
Nə atam var, nə anam, yaranmişam daşdan mən......82
Ana daş...............................................................83
Su pərisi..............................................................83
Ələyəz və ağrı......................................................84
Bala ağrı..............................................................84
İlan dağı, Kəmçi dağı, Ağrı dağı...........................85
Diridağ................................................................85
Koroğlunun nal daşı.............................................86
Maral bulağı........................................................86
Ziyarətgah...........................................................87
Yusif, dur su iç!....................................................87
Xınalı kəklik........................................................88
“Şanapipik” daraqçın............................................89
Alabaxta..............................................................89
Dilbər məscidi.....................................................90
Carçı daşı............................................................90
Seyidlər piri........................................................90
Divanxana...........................................................91
Qırxpillə..............................................................91
Şah Abbas məscidi...............................................91

Ağ ilan və ovçu Əhməd........................................91
Su pərisi..........................................................92
Qırxlar piri.......................................................92
Alma rəvayəti....................................................93
Quleybanı.........................................................93
Qara daş...........................................................94
Bayquş əfsanəsi.................................................94
İlanlı dağ...........................................................96
Əndəmicdə yayılan Kəlləgözün rəvayəti...............97
Noraşendəki Vənk piri.........................................97
Qızılgül və bülbül əfsanəsi..................................98
Qanlı göl............................................................99
Günəşlə ay.........................................................99
Çobanyastığı çiçəyi.............................................99
Üçtürləngə toponimi..........................................100
Nüs-nüs piri.....................................................101
Vənənd məscidi................................................101
Əlincə qalası....................................................102
"Təkeşiyi" məscidi............................................102
Cümə məscidi...................................................103
Carçı daşı.........................................................103
Dilbər məscidi...................................................103
Şəfa piri...........................................................103
Koroğlu qalası...................................................104
Əhməd qayası...................................................104
Qanlı çöl..........................................................104
Qotur daş.........................................................105
Camal qalası.....................................................105

**V. MARAQLI ƏHVALATLAR**

Belə deyirlər ki.................................................106

Qaçaq Nəbi........106
Kimdir cinayətkar........107
Xalaoğlular........107
Varlı və çoban........108
Bu da sənin əlli tümənin........109

**VI. ATALAR SÖZLƏRİ........111**
**VII. HİKMƏTLİ DEYİMLƏR........119**
**VIII. TAPMACALAR........122**
**IX. NAĞILLAR**
Mismar yarası........127
Qurdun naləsi........128
Birlik........130
P□□□
□□□□□........131
Çölməyin nağılı........139
Örkənin nağılı........141
Fırım tutanda gətir........143
Dəyirmançı........146
Bəxtini axtaran oğlan........148
Üç gəlin........153
Oynağan arvad........155
Yaxşılığa yamanlıq........158
Atı da mindi getdi........160
Həsən kişi və ilan........165

**X. LƏTİFƏLƏR........168**

**XI. DASTANLAR**
Aşıq Qurbani........183
Ziyad-Şövkət........208

«Aşıq Qərib»-dən.............................................235

**XII. BAYATILAR.................................................237**
**XIII. AĞILAR.......................................................266**
**XIV. HAXIŞTALAR...............................................267**
**XV. UŞAQ FOLKLORU**
**Laylalar.........................................................280**
**Əzizləmələr....................................................282**
**Oxşamalar......................................................283**
**Nazlama.........................................................284**
**Sanamalar, düzgülər......................................285**
**Xalq oyunları**
***Ordubadda oynanilan oyunlar***
Yumdum qaç (gizlənpaç) oyunu...........294
Ocaq yandı oyunu.................................294
Stop oyunu............................................295
Əmr elədi oyunu...................................295
Ortada qaldı oyunu...............................296
Gizlənpaç..............................................296
Say saymaq...........................................296
Göz bağlıca...........................................297
Mozu-mozu...........................................297
İynə-iynə...............................................297
Əl-əl......................................................298
Quş uçdu...............................................299
Qazlar oyunu........................................300
Bənövşə oyunu.....................................301
Rəng-rəng oyunu..................................302
Kis-kis...................................................302
Rəng-rəng.............................................303
Yumdum qaç oyunu.............................303

Heykəl oyunu........................................303
Lal-dinməz oyunu.................................304
Oğru-oğru oyunu..................................304
Daşa çıxdı oyunu..................................305
Ortada qaldı oyunu................................305
Kükü-kükü barama................................306
Ad günü...............................................306
Pabeda.................................................307
Dondurma............................................307
Stola oturdu.........................................308
Yastıq atdı............................................308
Butulka çevirdi.....................................308
Meymun aldatdı....................................309
Araz, dəniz, Kür, çay............................309
Qatıq-qatıq...........................................309
Beş daş.................................................310
Bakı......................................................311
**Sataşmalar........................................................312**
**Sicilləmə...........................................................314**
**Bağlama............................................................315**
**Yanıltmaclar......................................................316**

**XVI. Ordubadda yuxu yozmaları................................319**

**Söyləyicilər haqqında məlumatlar..............................321**

**Açərbaycan folkloru antologiyası,**
**XXIII kitab (Naxçıvan folkloru), 2-ci cild,**
Bakı, "Nurlan" nəşriyyatı, 2011.

Nəşriyyat direktoru:
**Nadir Məmmədli**

Kompöterdə yığdı:
**Aysel Cəfərova**

Korrektoru:
**Günel Ələkbərli**

Kompöter tərtibçisi və
texniki redaktoru:
**Aygün Balayeva**

Kağız formatı: 60/84 1/16
Mətbəə kağızı: №1
Həcmi: 331 səh.
Tirajı: 300
Qiyməti müqavilə ilə.

Kitab AMEA Folklor İnstitutunun
Redaksiya-Nəşriyyat şöbəsində yığılmış, səhifələnmiş,
"Nurlan" nəşriyyatında hazır diapozitivlərdən
ofset üsulu ilə çap olunmuşdur.